Milli Azərbaycan Tarixi Muzeyi

“QARABAĞIN TARİXİ-MƏDƏNİ İRSİ”

adlı Respublika elmi konfransının materialları

Bakı - 1 noyabr 2022

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

“Qarabağın tarixi – mədəni irsi”

RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

Bakı - 01. 11. 2022

Redaksiya heyəti:

T.e.d. N. Əliyeva (məsul redaktor), t.ü.f.d. B. Kərimov

“Qarabağın tarixi – mədəni irsi” Respublika elmi konfransının materialları. Bakı, 2023, 166 səh.

Cavadova Esmira
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu,
aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru, dosent

Şuşa torpağının yetirməsi

Azərbaycanın musiqi beşiyi, konservatoriyası sayılan Şuşa şəhərində saysız-hesabsız xanəndələrimiz, aktyorlarımız bəstəkarlarımız, şairlərimiz yetişmişdir. Qarabağ torpağının füsunkar gözəlliyi, təbiəti, suyu, havası bu torpaqda yetişən, gözəl səsə malik olan insanların mənəvi qidası idi.

Qarabağ torpaqlarının işğalına qədər Şuşa şəhəri əhalisinin 98%-i azərbaycanlılardan ibarət idi.

Ermənistan BMT-nın icra etmədiyi 4 qətnaməsinin tələblərini, dövlətimizin ərazi bütövlüyünün toxunulmazlığını pozaraq 30 ilə yaxın (1992-2020) bir müddətdə torpaqlarımızı işğal altında saxlayırdı. Təbii ki, belə bir vəziyyət bölgədə gərginliyin davam etməsinə, sülh və istiqlalın kölgə altına alınmasına, sonda Azərbaycan xalqının səbr kasasının dolmasına, Qarabağ probleminin öz həllini tapması üçün müharibənin qaçılmaz, yeganə yol olaraq seçilməsinə gətirib çıxardı. Bu yola Azərbaycan Respublikası iqtisadi və hərbi potensial nöqteyi nəzərdən hazırlıqlı idi[1].

2020-ci il, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdə müxtəlif növ silahlardan, ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutdular. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar oldular. Əks hücum əməliyyatlarımız, işğala, ədalətsizliyə son qoymağı bacardı. Azərbaycan xalqı Qarabağı azad etmək uğrunda Vətən Müharibəsinə başladı.[2] Əsgərlərimiz, zabitlərimiz, generallarımız, hər bir Azərbaycan vətəndaşı, Ordumuz xalqımızı bu ağır bəladan qurtarmaq üçün canından keçməyə, ancaq qələbə qazanmağa can atırdı.

Vətən müharibəsi yalnız Ali Baş Komandan tərəfindən idarə olunurdu. Silah-sursat, paltar, yemək, hücum əməliyyat planı, döyüş taktikası yalnız çox savadlı, möhkəm iradəli, siyasəti dərindən bilən, məğrur Prezidentimizin bir an unudulmayan göstərişləri və tapşırıqları nəticəsində yerli-yerində həyata keçirilirdi. Ali Baş Komandanın dünya dövlət başçılarına, media rəhbərlərinə,

---

[1] Şöhrət Səlimbəyli. Azərbaycan tarixinin zəfər salnaməsi. - Bakı: Avropa, 2020, s.104-109.
[2] Yenə orada. s. 97.

nümayəndələrinə verdiyi çox məzmunlu, məntiqli müsahibələri hər bir azərbaycanlının ürəyindən tikan çıxardırdı. Vətən həsrəti ilə yaşayan Azərbaycan xalqının öz dədə-baba torpaqları, evləri, məscidləri, məktəbləri, muzeyləri, qəbristanlıqları düşmən işğalçıları tərəfindən dağıdılıb yerlə-yeksan olmuşdur[3]. Bu vandalizm xalqımızın düşmənə qarşı hiddətini həddindən artıq artırırdı. Ordumuz dəmir yumruq altında birləşmişdi.

Ərazi bütövlüyümüzün bərpası, düşmən tapdağı altında olan torpaqlarımızın rayonlarımızın, kəndlərimizin günü-gündən erməni işğalçılarından azad edilməsi Azərbaycan ordusunun, Azərbaycan xalqının dəstəyi, birlik nümayiş etdirməsi hesabına başa gəldi.

Ordu-Xalq və Prezident.

Döyüş meydanında ağır məğlubiyyətə uğrayan ermənilər eləcə də işğalçı siyasətə göz yuman, laqeyd münasibət bəsləyən bir çox Beynəlxalq təşkilatlar və dövlətlər Azərbaycanın uğurlu hərbi əməliyyatlarını dayandırmağa, problemi danışıqlar yolu ilə həll etməsinə çağırırdılar. Amma, bıçaq sümüyə dirənmişdi. Ordumuz canından, qanından keçərək, hətta ailəsini düşünmədən Prezidentimizin dəmir yumruğu altında irəliləyirdi. Çox çəkmədi ki, bölgəmizdə yeni reallıq yarandı. BMT qətnamələri yerinə yetirildi. Öz torpaqlarımızdan düşmən qovuldu. Ən böyük tarixi qələbələrdən biri 8 noyabr 2020-ci ildə Şuşanın işğaldan azad edildiyi gün oldu. Müzəffər Ordumuz bu qələbəni qanı, canı hesabına, əlbəyaxa vuruşda, döyüşdə qazandı. Ona görə ki, Şuşa ən uca dağda yerləşirdi. Döyüş tapşırığına əsasən ordumuz o dağa xüsusi yollarla dırmaşa-dırmaşa qalxırdı. Və nəticə olaraq müzəffər, qəhrəman, yenilməz, qalib Azərbaycan Ordusu qələbə qazandı[4]. Ali Baş komandan elə 8 noyabr gecəsi bu möhtəşəm qələbəni xalqımıza çatdırdı. Onun səsində sevinclə yanaşı bir kədər də hiss olunurdu. Çünki, bu qələbə ordumuzun böyük qəhrəmanlıq nümayiş etdirərək, nəyin bahasına olursa olsun qələbə qazanmaq hesabına oldu. Əlbəttə, itkilərimiz də çox oldu. Elə bu itki prezidentimizi kədərləndirirdi. Amma, həlak olan əsgərlərimizin, zabitlərimizin, generallarımızın ruhu sanki Prezidentimizə təskinlik verərək deyirdi:

- Başını uca tut Ali Baş Komandan, bizim qanımız yerdə qalmadı, biz qalibik elə bu qələbə uğrunda, Vətən yolunda vuruşurduq. Bir anlıq onların səsi qulaqlarından kəsilən kimi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev uzun illərdir ki, insanların səs-küyünə, sevincinə həsrət qalan Şuşaya böyük doğmalıqla, gür səslə bu sözləri dedi:

---

[3] Şöhrət Səlimbəyli. Azərbaycan tarixinin zəfər salnaməsi. - Bakı: Avropa, 2020, s.101-102.
[4] Yenə orada, s.110-115.

Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır![5].

Qələbə sevincini eşidən hər azərbaycanlının gözləri yaşla dolmuşdu. İmkanı olsaydı qələbə sevincini səsləndirən Prezidentimizi hər kəs öpüb-qucaqlamaq istəyirdi. Hər kəs küçələrə axışmışdı. Hamının dilindən Prezidentimizə, ordumuza, onun bütün heyətinə, qazilərimizə, şəhidlərimizə alqış sözləri eşidilirdi. Bu bir tayı-bərabəri olmayan, yaşanan sevincli anlar idi.

Qarabağ torpağının, onun tacı olan Şuşanın işğaldan azad edilməsi, o torpaqda göz açan hər bir Şuşa sakininə, indi orada uyuyan hər bir vətəndaşımıza böyük təskinlik, ruh verir.

Musiqi mədəniyyətimizin inkişafı tarixində özünəməxsus yer tutan bəstəkarlardan biri də Əməkdar İncəsənət Xadimi Zülfüqar Bəy Hacıbəyov olmuşdur. Zülfüqar Hacıbəyovun həyat və fəaliyyətinə dair sənədlər onun ömür-gün yoldaşı Böyükxanım Hacıbəyova tərəfindən AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fonduna 1965-ci ildə təhvil verilmişdir. Sənədlər əsasən 1894-1950-ci illəri əhatə edir. Z.Hacıbəyovun şəxsi arxivi, sistemləşdirilərək tərtib edilmiş arxiv fondu 29, saxlama vahidi 1-118 sıra sayında əks olunmuşdur. Sənədlərdə bəstəkarın adı və soyadı Zülfüqar Bəy Hacıbəyov kimi getdiyindən, biz də sənədlərə əsasən müəllifin soyadını olduğu kimi saxlayırıq.

Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyov 1884-cü il aprel ayının 17-də musiqi mədəniyyətimizin beşiyi sayılan Şuşa şəhərində anadan olmuşdur. Atası Əbdülhüseyn kişi dövrünün işıqlı dünyagörüşünə malik bir insanı, yazıb oxumağa qiymət verən bir ailə başçısı olmuşdur. O, xan qızı Xurşidbanu Natəvanın (1832-1897) yanında mirzə, anası Şirin xanım isə həmin ailədə tərbiyəçi işləmişdir. Hələ kiçik yaşlarından bu ailədə böyüyən Zülfüqar və qardaşı Üzeyirin musiqi aləminə bağlılığını Şirin xanımın kiçik qardaşı, milli muğamlarımızın toplanmasında böyük xidmətləri olan Ağalar Əliverdibəyov (1872-1953) duymuşdur. Ailədə qonaq olan el sənətkarlarının ifası hələ kiçik yaşlarından bu uşaqlarda xalq mahnılarına böyük sevgi yaratmışdır. Qeyd etmək lazımdır ki, ilk ibtidai təhsilini Zülfüqar atasından almışdı. Əbdülhüseyn kişinin maddi imkanı olmasa belə uşaqlarına təhsil verməyə çalışırdı. Zülfüqar evin böyük oğlu idi. Atası onu 1894-cü ildə Şuşadakı 6 illik orta təhsil peşə məktəbinə qoyur. 1899-cu ildə məktəbi bitirən Zülfüqar ailəsi maddi cəhətdən çətinlik çəkdiyinə görə

[5] Şöhrət Səlimbəyli. Azərbaycan tarixinin zəfər salnaməsi. - Bakı: Avropa, 2020, s.502-503.

təhsilini davam etdirə bilmir[6]. Amma onun incəsənət aləminə olan sevgisi, istedadı Zülfüqarı möhkəm tellərlə bu sahəyə bağlayır.

Z.Hacıbəyovun şəxsi arxivində qorunan sənədlərlə yaxından tanış olduqda məlum olur ki, bu zəhmətkeş insan başında musiqi sədaları dolaşsa belə o, hər zaman ona təklif olunmuş, onun üçün qeyri-ixtisas sahələr sayılan işlərdə işləməkdən çəkinməmişdir.

Z.Hacıbəyov "1900-1902-ci illərdə "Şuşa Şəhər Duması və Qəza İdarəsi"ndə kargüzar, 1902-1906-cı illərdə Şuşa şəhəri əkinçilik və töycü işləri idarəsinin müvəkkili yanında tərcüməçi işləmişdir (F.29, s.v.:53).

1907-ci ildə Bakıda təşkil edilən ilk dram dərnəyinin təşkilatçılarından biri olmuşdur. Salyanda, Nuxada (indiki Şəkidə), Gəncədə dram dərnəkləri təşkil etmişdir. Ağdaşda fəaliyyət göstərən dram dərnəyi isə xalq artisti Alma xanım Safrazi ilə birgə 1908-ci ildə təşkil edilmişdir (F.29, s:v.:43).

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində (1920-1921-ci illərdə) Z.Hacıbəyov bir müddət Xalq Hərbi Dəniz Komissarlığının nəzdindəki Siyasi İdarənin əməkdaşı olmuş, hərbi mükəlləfiyyətli olaraq müdir köməkçisi vəzifəsində işləmişdir. O, 9 aprel, 1921-ci ildə "Qızıl əsgər" sarayının nəzdində "Türk truppu"nu təşkil etmişdir (F.29, s.v.:50)ş

1923-cü ildə yenicə təşkil edilən "Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyəti"in üzvü olmuşdur (F.29, s.v.:54) 1924-cü ildə bəstəkar Azərbaycan diviziyasının hərbi təbliğat işləri idarəsində təşviqat qatarının rəisi vəzifəsində işləmişdir. Bu qatarın əsas vəzifəsi geniş xalq kütləsi arasında mədəniyyət və incəsənətin nailiyyətlərini işıqlandırmaq olmuşdur (F.29, s.v.: 49).

1923-1925-ci illərdə Z.Hacıbəyov eləcə də Azərbaycan SSR Xalq Torpaqşünaslıq Komissarlığı İdarəsində tərcüməçi, Bakı Vilayət Prokurorluğunda isə 2-ci katib vəzifəsində işləmişdir (F.29, s.v.:49).

31 oktyabr 1926-cı ildən Azərbaycan SSR XKS Maliyyə İşləri İdarəsində idarənin tərcüməçisi vəzifəsində işləmişdir.

1928-ci ildən Azradionun Şərq Musiqi Orkestrinin bədii rəhbəri, 1931-ci ildən isə Azərbaycan Dövlət Konsert Birliyində Şərq Simfonik Orkestrinin bədii rəhbəri vəzifəsində işləmişdir (F.29, s.v.:49)[7].

5 noyabr, 1929-cu ildə Azərbaycan SSR Xalq Komissarlar Soveti Z.Ə.Hacıbəyova Moskvada musiqi təhsili alması üçün ezamiyyə vərəqəsi vermişdir. Çox əfsus ki, bu gediş baş tutmadı. Çünki, Z.Hacıbəyovu əvəz edən

---

[6] Esmira Cavadova. Zülfüqar bəy Hacıbəyovun arxivinin təsviri. – Bakı: Elm və Təhsil, 2012, s.3-5.

[7] Esmira Cavadova. Zülfüqar bəy Hacıbəyovun arxivinin təsviri. s.5-6.

işçi tapılmadı. Gündəlik musiqi işləri ilə məşğul olan kadr tapılmadı (F.29, s.v.:91).

1938-ci ildə Azərbaycan incəsənətini Moskva şəhərində keçiriləcək dekadada nümayiş etdirmək üçün hazırlıq proqramı məhz Z.Hacıbəyov tərəfindən tərtib olunmuşdur (F.29, s.v.:53)[8].

17.05.1940-cı ildə Bakı şəhərində rus dilində makina çapı ilə Z.Hacıbəyovun 17 adda əsərlərinin adları sıra ardıcıllığı ilə yazılmış, Azərbaycan SSR Bəstəkarlar İttifaqının möhürü və müəllifin imzası ilə təsdiqlənmişdir (F.29, s.v.:53).

6 iyun 1940-cı ildə "Musiqi əsərlərinə nəzarətin qoyulması haqqında" qərar qəbul edilmiş, 31 may 1940-cı ildə isə qəbul edilmiş qərarın yerinə yetirilməsi üçün xüsusi komissiya təşkil edilmişdir. Komissiya musiqi əsəri və onun ifasına da nəzarət edirdi. Azradiokomitəyə nəzarət Burşteyn ilə Z.Hacıbəyova tapşırılmışdır (F.29, s.v.:53).

Arxivdə 7 iyul, 1941-ci ildə Z.Ə.Hacıbəyovun Azərbaycan SSR Bəstəkarlar İttifaqının üzvü olması haqqında sənəd vardır (F.29, s.v.:59).

18 aprel 1946-cı ildə Z.Ə.Hacıbəyov 1 may, 1944-cü ildə «За оборону Кавказа» (Qafqazın müdafiəsində iştirakına görə) medalı ilə SSRİ Ali Sovetinin rəyasət Heyəti tərəfindən təltif olunmuşdur (F.29, s.v.: 44).

17 mart, 1944-cü ildə Azərbaycan SSR Ali Sovetinin Prezidiumu Zülfüqar Hacıbəyova "Əməkdar İncəsənət Xadimi" fəxri adının verilməsi ilə əlaqədar onu Prezidiuma dəvət etmiş, (F.29, s.v.:55) 13 aprel, 1946-cı ildə isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin iclas zalında bəstəkar Zülfüqar Hacıbəyova təltifin təqdimat mərasimi keçirilmişdir (F.29, s.v.:49)[9] .

Z.Hacıbəyovun şəxsi arxivində qorunan və qiymətli əsərləri onun əlyazmalarıdır. Bu əlyazmalarda not əlyazmaları xüsusui diqqət çəkir. Bura müəllifin səhnə əsərləri, operaları, operettaları, bir çox marş və nəğmələri, musiqi dərsliyi, müxtəlif mahnı və melodiyaları, natamam partitura və klavirləri, Azərbaycan təsnifat külliyyatı, el nəğmələri və digər əlyazmaları daxil edilmişdir. "Aşıq Qərib" (F.29, s.v.:1,2,25), "Üç aşıq və ya Məlikməmməd", operasının (F.29, s.v.:3,4,8), mövzusu Nizami Gəncəvinin "İsgəndərnamə" əsərindən götürülmüş və Abdulla Şaiqin librettosu əsasında işlənmişdir, lakin şəxsi arxivində tamamlanmamış "Nüşabə" adlı musiqili operası (F.29, s.v.:67), birinci türk baleti olan "Qız qalası" əsərlərinin notları və mətni də (F.29, s.v.:30) vardır.

---

[8] Göstərilən ədəbiyyat, s.5.

[9] Esmira Cavadova. Zülfüqar bəy Hacıbəyovun arxivinin təsviri. – Bakı: Elm və Təhsil, 2012, s.12.

“Aşıq Qərib” operası mövzusu bütün türk dünyasında geniş yayılan aşıq dastanının süjeti üzərində qurulmuş və dövrünə görə sevilib-seçilən, diqqəti cəlb edən musiqili səhnə əsəri olmuşdur. Bu məhəbbət dastanı bu gün də sevilərək, milli operamızın incilərindən sayılır və səhnəmizdən düşmür. “Əlli yaşında cavan” əsərinin not əlyazmaları və ya librettosu müəllifin şəxsi arxivində olmasa da, Ağdam Dövlət Dram Teatrı tərəfindən oynanılan əsərin xüsusi blankda çap olunmuş afişası (F.29, s.v.:107) bu əsərin olmasından xəbər verir. “Evli ikən subay” (F.29, s.v.:9), “On beş yaşında gəlin” (F.29, s.v.:35) operettaların not əsərləri Z.Hacıbəyovun yaradıcılığını izləmək baxımından çox dəyərlidir. Müəllifin şəxsi arxivində “Diri qəzetə” (F.29, s.v.:77), “Biçarə Xavər” (F.29, s.v.:29), “Məşədi Xudunun məişət həyatı” (F.29, s.v.:32) adlı səhnə əsərlərinə yazılmış not əsərləri saxlanılır. “Əsgər nəğməsi” mahnısı, “Qayka”, “Kommunxozun keçisi” pyeslərinə yazdığı musiqiləri, “Azərbaycan xalq mahnıları” məcmuəsi (toplanması və nota salınması qardaşı Ü.Hacıbəyovla birlikdə), “Kənd qızı”, “Çoban qız”, “Miskin quzu”, “Köylü qadın” adlı xor mahnılarının notları, C.Cabbarlının “Almas” kinofilminə oğlu Niyazi ilə birlikdə bəstələdiyi musiqi əsərləri, royal və orkestr üçün yazdığı “Azərbaycanlı qızın rəqsi” əsərləri – notları F.29, s.v.:53-də cəmlənmişdir[9]. Bu saxlama vahidi altında bəstəkar Z.Hacıbəyov tərəfindən professor Fridolinə rus dilində yazılmış ərizəsi də qorunub saxlanılır. Ərizəsində Z.Hacıbəyov bildirir ki, o, 1907-ci ildən Azərbaycan xalq musiqisinin toplanması, onlara musiqi bəstələnməsi və nota salınması üzərində işləyir. Ərizədə daha sonra qeyd edilir ki, o, qardaşı Ü.Hacıbəyovla birlikdə 20 adda Azərbaycan xalq mahnılarına musiqi bəstələmişdir. Bu mahnıların əksəriyyətinin mövzusu kəndli məişətindən götürülmüşdür. Mahnılar Azərbaycan Dövlət Konservatoriyasında öyrənilib yazılmağa verilmişdir.

Z.Hacıbəyovun el nəğmələrini toplayıb onlara musiqi yazmaq, bəstələmək xalqı üçün gördüyü ən qiymətli işlərdən biri kimi sayılmalıdır.

Müəllifin şəxsi arxivində Bakı Radio Studiyası – Şərq Şöbəsi üzrə musiqi şöbəsinin rəhbəri Z.Hacıbəyovun Azradionun müdiriyyətinə rus dilində makina çapı ilə yazılmış ərizəsi də saxlanılmaqdadır. Ərizədə radioda səslənən “Şərq musiqi konsert”lərinin özünəməxsus xüsusiyyətlərindən danışılır.

Eləcə də Z.Hacıbəyovun “Aşıq Qərib” operasının premyerasının Aşqabad Türkmən Dövlət Teatrında fəaliyyət göstərən Azərbaycan Opera və Dram

[9] Esmira Cavadova. Zülfüqar bəy Hacıbəyovun arxivinin təsviri. – Bakı: Elm və Təhsil, 2012, s.6-7. (F.29, s.v.: 107, 9, 35, 77, 3,4,8,1,2,25,67,30,107,9,77,53)

Teatrında böyük müvəffəqiyyətlə oynanılması haqqında sənəd saxlanılır.

Z.Hacıbəyovun arxivində "Yeni yol" qəzetinin 1924-cü il 4 avqust sayında M.A. imzası ilə gedən "Şərq musiqisində yeni ixtiralar" adlı məqaləsi qorunur. Məqalədə Zülfüqar bəy Hacıbəyovun tarı təkmilləşdirərək mükəmməl tar ixtira etməsindən danışılır (F.29, s.v.:116).

"Kommunist" qəzetində 1924-cü il, 274 №li 1 dekabr və həmin ilin 279 №-li, 5 dekabr sayında isə Z.Hacıbəyovun "Musiqi və ədəbiyyat" adlı 2 məqaləsi çap olunmuşdur. Məqalədə əsasən Şərq musiqisi – muğamlarımız, onların müxtəlif alətlərdə səslənməsi, fərqli cəhətləri və üslubu haqqında məlumat verilir.

Zülfüqar Bəy Hacıbəyov çox qısa ömür sürsə də, mənalı bir ömür yaşamışdır. Onun musiqi sahəsində bizə miras qoyub getdiyi irsi musiqi mədəniyyətimizin inkişafını bir pillə irəli apara bilmişsə, deməli, çox qiymətlidir.

Z.Hacıbəyov Azərbaycan SSR Bəstəkarlar İttifaqının üzvü, SSRİ Musiqi Fondunun üzvü, "Qafqazın müdafiəsində iştirakına görə", "Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalları ilə, "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. İncəsənət sahəsində səmərəli fəaliyyətinə görə "Azərbaycan SSR Əməkdar İncəsənət Xadimi" fəxri adına layiq görülmüşdür (F.29, s.v.:44,49,58,59).

Z.Hacıbəyovun şəxsi arxivində onun tamamlanmamış, adsız, naməlum qalmış əsərləri – notları onu deməyə bizə haqq verir ki, o, həyatının son illərində belə yeni-yeni əsərlər yaratmaq amalı ilə yaşayırmış. Lakin, keçirdiyi ağır xəstəliklər özünün tərcümeyi-halında (F.29, s.v.:43) qeyd etdiyi kimi, onun əmək qabiliyyətinin itirməsinə səbəb olurdu[10].

Z.Ə.Hacıbəyovun şəxsi arxivinə daxil olan bütün materiallar haqqında bir yazıda məlumat vermək qeyri mümkündür. Ona görə də "Zülfüqar bəy Hacıbəyovun Arxivinin Təsviri" kitabına müraciət etməniz tövsiyə olunur. Kitabda Əməkdar İncəsənət Xadimi, bəstəkar Z.Hacıbəyovun həyat və yaradıcılığı haqqında daha dolğun məlumat verilmişdir.

Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyov 1950-ci il sentyabrın 30-da uzun sürən xəstəlikdən sonra Bakı şəhərində vəfat etmişdir. Ölümündən sonra Z.Hacıbəyovun ailəsinə Azərbaycan Dövlət Opera və Balet Teatrının 50 illik yubileyinə həsr olunmuş 4 nömrəli yubiley nişanının vəsiqəsi təqdim olunmuşdur.

---

[10] Esmira Cavadova. Zülfüqar bəy Hacıbəyovun arxivinin təsviri. – Bakı: Elm və Təhsil, 2012, s.7-8 (F.29, s.v.: 116).

Əliyeva Nərgiz
Milli Azərbaycan Tarixi Muzeyinin Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi şöbəsinin müdiri, tarix elmləri doktoru

Bir açarın izi ilə

Bir ömür, bir dünyam qalıb o yerdə
Qartal qanadını salıb o yerdə.
Düşmən tapdağında qalıb o yer də
Bu saçlarım ağarmasın, neyləsin?
Aqil Həkim

Milli Azərbaycan Tarixi Muzeyinin Silahlar və Bayraqlar fondunda zəngin, tarixi baxımdan əhəmiyyət daşıyan və müxtəlif dövrlərə məxsus açarlar qorunur. Ümumiyyətlə, insana xidmət edən yüzlərlə məişət əşyaları arasında açar öz statusuna görə xüsusi yer tutur. Kiçik fiqurlu metal parçası olan açarın müxtəlif simvolik mənaları vardır. Bu mənalardan biri qapının açıq və ya bağlı qalması ilə əlaqədardır. Qapının açıq qalması müsbət məna daşıyırsa, bağlı qalması isə, məs: "filankəsin qapısı bağlı qalıb", "bağlı qapılar arasında", "filankəsin üzərinə qapılar bağlıdır" və s. mənfi mənada işlədilir. Elm aləmində də açarla bağlı deyim işlədilmişdir. Açarla bağlı deyimi Xocalıda ilkin tədqiqat işləri aparmış Ələsgər Ələkbərov işlətmişdir. O, Xocalı abidələri kompleksini Azərbaycan abidələri haqqında təsəvvür əldə etmək üçün bir açar adlandırmışdır.

Xocalı öz abidələrinin növləri və xarakterik xüsusiyyətləri və mədəniyyət qalıqlarının zənginliyi etibarı ilə hələ keçən əsrdən dünya alimlərinin diqqətini cəlb etmişdir. Bu abidələrlə alman arxeoloqu E.Resler, rus şərqşünası M.Xanıkov, ingilis F.Bayer, fransız A.Berje tanış olmuş və oradan tapdıqları əşyaları öz ölkələrnə apararaq ayrı-ayrı muzeyləri bəzəməyə çalışmışlar[1]. Əsasən eramızdan əvvəl XVII-XIII əsrləri əhatə edən Xocalı abidələri daş qutu qəbirlər, müxtəlif tipli kurqanlardan, siklop tikililər, kronlexlər və menhirlərdən ibarətdir.

Qədim Qarabağ sakinlərinin qəbirüstü daşları bütün Azərbaycan üçün mühüm olan qəbir tiplərini özündə saxlamışdır.

Xocalıda aşkar olunmuş antik dövrü və ilk orta əsrlər dövrünü əhatə edən daş qutu və küp qəbirlərində ölü qəbrə qoyulduqdan sonra qəbrin ağzı daşla və ya kərpiclə örtülürdü. Belə qəbirlərə ən çox Azərbaycanda təsadüf olunur. Əntiq, qiymətli daş-qaş, muncuq, mixi xətt, mixi yazılar çar Adadniraninin adı ilə sıx bağlıdır. Qədim Xocalı qəbristanlığının 11№-li kurqanından tapılmış əntiq

[1] Göyüşov Rəşid. Qarabağın keçmişinə səyahət. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.12.

muncuğun üstündə Assuriya çarı Adadnirariyə aid mixi yazı Muzeyin Ekspozisiyasında nümayiş edilir. Əntiq muncuqdan əlavə Xocalıdan tapılan saxsı qablar, pasta və şüşədən muncuqlar, qızıldan bəzək əşyaları, silindrik möhür qırxım qayçıları, ucu şiş itilənmiş bıçaqlar və s. metaldan hazırlanmış əşyalar daş yaddaşlar kimi Xocalının Qafqaz Albaniyasıda ən qədim yaşayış məskəni olmasını və yerli əhalinin Yaxın Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələrini təsdiq edir.. Memarlıq abidələrindən türbənin (XIV əsr), dairəvi türbənin (1356-1357-ci illər), ətrafında son tunc və ilk dəmir dövrünə aid Nekropol, Kurqan çölü və s. var idi. Xocalı çox qədim tarixə malik olmaqla yanaşı, gözəl təbiəti və qızıla bərabər torpağı, eləcə də bu torpağa böyük məhəbbətlə bağlı olan zəhmətkeş, vüqarlı, qəhrəman insanları ilə daima fərqlənmişdir.

1) ***Qədim Xocalı qəbristanlığının 11№-li kurqanından tapılmış üstündə Assuriya çarı Adadniyariyə aid mixi yazısı olan əntiq muncuq***
2) ***Xocalıda aşkar olunmuş və üzərində mixi yazıları olan əqiq boyunbağılar. MATM AF.***

Sonuncu iki əsrə yaxın bir dövr, yəni 1828-ci ildən Qarabağın dağlıq hissəsində məskunlaşmağa başlayan, daima onun-bunun torpağına, var-dövlətinə göz dikən və müxtəlif hiyləgərliklərlə onu ələ keçirməyə çalışan erməni adlı bir millətə qonşuluğu bütün azərbaycanlılar kimi ürəyiyumşaq olan xocalılara çox baha başa gəlmişdir. İyirminci əsrin əvvəllərində iki dəfə (1905-ci və 1918-ci illərdə) Xocalı kəndi erməni hücumlarına məruz qalsa da, kəndin demək olar ki, bütünlüklə yandırılmasına baxmayaraq xocalılar onun müdafiəsini və yenidən bərpasını həyata keçirmişlər. Lakin, mənəvi saflıq və ürəyitəmizlik ermənilərin yenidən 1988-92-ci illərdə əl-qol açmasına, özünə bənzər qüvvələrlə birləşərək müharibə alovunun güclənməsinə səbəb oldu. 1992-ci ilin 25-26 fevralında isə misli görünməmiş vəhşiliklər edərək iyirminci əsrin Xocalı faciəsini tarixə yazdılar. Bu faciə ermənilərin vəhşiliyi, Xocalıların isə qərəmanlığı-qanı ilə tarixə yazıldı.

Xocalı faciəsini Azərbaycan xalqına qarşı soyqırım adlandıran Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, xalqımızın qəhrəman, igid övladları torpağımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı

sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyi nümunəsidir, ikinci tərəfdən də Ermənistanin millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır, vəhşiliyin görünməyən bir təzahürüdür. Heydər Əliyev göstərirdi ki, "bütün bunlara görə də Xocalı faciəsinin ildönümünü hər il qeyd edirik"[2].

Muzeyin Vətən müharibəsi fondunda qorunan və Xocalının vəziyyətini simvolizə edən açar, Qarabağ üçün xısın-xısın ağlayan, Qarabağda, əsir düşmüş, qanına qəltan edilmiş, hələlik müvəqqəti sərhədlərimizin o tayında qalmış Xocalı beşiyinin bir parçasını yaşadır.

Bağlanandan sonra hələ ki açıla bilməyən açarın sahibi vətənpərvər, təəssübkeş döyüşçü, müəllim, xilaskar insan, didərgin müəllimlərin arxa-dayağı, bacarıqlı təşkilatçı, 1992-ci il 25-26 fevral Xocalı faciəsinin canlı şahidi Şükürov Murad Əliş oğludur. Ona və Böyük Vətən Mübaribəsi iştirakçısı olmuş atası Şükürov Əliş Tapdıq oğluna məxsus sənədlər Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fondunda mühafizə edilir.

Xocalı faciəsinin canlı şahidi olmuş və əlində silah döyüşmüş Şükürov Murad Xocalının müdafiəsində və əhalinin xilas olunmasında yaxından iştirak etmişdir. O hələ 1990-cı il Aprelin 28-dən Azərbaycan Təhsil Nazirliyinin 11/345 saylı qərarı ilə Xocalı Rayon Təhsil Şöbəsinin müdiridir . "Müsəlləh əsgərəm mən də bu gündən" deyən M.Şükürov Xocalı şəhər İcra hakimiyyəti nəzdində 1993-cü il noyabrın 2-də yaradılmış Xocalının müdafiəsi şurasının 5 nəfər üzvündən biri kimi, şəhərin müdafiəsində həm siyasi rəhbər , həm də döyüşçü kimi fəal iştirak etmişdir. Sonradan 1996-cı il fevralın 25-də Murad Şükürov göstərdiyi şücaətə görə "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

Xocalının müdafiəsində və əhalinin xilas olunmasında göstərdiyi şücaətə görə Murad Şükürov 1996-cı il fevralın 25-də "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

[2] Allahyar Xocalı. Xocalı soyqırımının qurbanları.Bakı, Şərq-Qərb, 19999, s.3.

Xocalı şəhər təhsil şöbəsinin müdiri Murad Şükürov.

AZƏRBAYCAN RESPUBLİKASI
FƏXRİ ADININ VƏSİQƏSİ
№ 0315
Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 4 oktyabr tarixli
1033 nömrəli Sərəncamı ilə

Şükürov
Murad
Əliş oğluna
Azərbaycan Respublikasının
"ƏMƏKDAR MÜƏLLİM"
Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEV

M.Şükürova «Əməkdar müəllim» adının verilməsi haqqında vəsiqə.

Murad müəllim hələ Xocalı Təhsil Şöbəsinin yaradılmasının birinci ildönümü münasibətilə keçirilən tədbirdəki çıxışında deyirdi: "1988-92-ci illər Dağlıq Qarabağda yaşayan biz azərbaycanlılar üçün nə qədər ağır, nə qədər çətin olsa da bir o qədər şərəfli və əziz idi. Demək olar ki, hər gün torpağımız uğrunda qanımız axırdı.Vətənimiz üçün ölmək də, yaşamağımız qədər şirinləşmişdi. Ata-babalarımızın bizim üçün qoruyub saxladıqları cənnət Qarabağı, çox qədim tarixə, mədəniyyətə malik olan, təkcə XX əsrdə üç dəfə erməni quldurları tərəfindən yandırılıb talan edilən Xocalını qoruyub gələcək nəsillərə təhvil vermək üçün canımızı da əsirgəmirdik"[3].

Murad Şükürovun muzeyə təqdim etdiyi şəxsi sənədləri.

[3] Şükürov M.. Əsrə bərabər 10 il. Azərbaycan müəllimi qəzeti. 20-26 aprel 2000-ci il, s. 8.

Xocalı 4 tərəfdən erməni yaşayış məntəqələri ilə əhatə olunduğu üçün, hələ 1987-ci ilin sonlarında, ermənilərin gizli şəkildə DQMV-nin Ermənistana birləşdirilməsinə dair gizli fəaliyyət göstərdikləri zamanlarda, Murad Şükürovun partiya komitə katibi işlədiyi bir vaxtda, onun təşəbbüsü ilə, gizli şəkildə yaradılmış "Xocalının müdafiə komitəsinin" 5 üzvünün iştirakı ilə yerləri müəyyənləşdirilmiş və komandanlığı bu 5 nəfərə tapşırılmış 20 müdafiə postu qurulmuşdu ki, 4 il müddətində gecəli gündüzlü bu postlarda yerli Xocalı sakinləri öz torpağını və ailəsini qeyrətlə qorumuşdur.

Xocalı şəhər təhsil şöbəsinin müdiri Murad Şükürovun şəhərdən çıxanda qapısını bağlayıb özü ilə götürdüyü açarı.

Xocalı açarı onun sahibi ilə birlikdə Xocalıdakı faciələrin şahidi idi. Açar şirinli-acılı 44 ilin xatirələrini yaşadıb özündə... 1978-ci ildə Dağlıq Qarabağın dilbər guşələrindən biri olan, çox qədim tarixə malik, son 120 illik tarixində dəhşətli faciələr yaşamış, 3 dəfə erməni faşistləri tərəfindən yandırılmış (1905; 1918; 1992) Xocalıda 23 yaşlı gənc bir müəllimin tikdiyi evin və qarajın açarları idı bunlar. 1978-ci ildən böyük sevinclə gənc ailəsi və 2 övladı ilə köçüb 1 otağına yığışdığı 4 otaqlı mənzilin tam hazırlanıb, təmir olunması maddi çətinlik ucbatından düz 10 il çəkmişdi. Ailənin tam rahatlıqla yaşamaq istədikləri bir zamanda, erməni quldurlarının 1988-ci ilin fevralında "miyatsum" hərəkatı başladı ki, hər bir vətənpərvər gənc kimi bu açarların sahibi də erməni quldurlarının hərəkatına qarşı mübarizəyə qalxdı. 4 illik mübarizə və müharibənin sonu çox ağır və acı oldu...

Murad müəllim o günləri belə xatırlayır: 4 gün düşmən mühasirəsində... 25 fevral 1992-ci il saat 21-22 radələrində 50-yə yaxın tank, BMP və sair döyüş texnikasının Xocalını mühasirəyə aldığını müşahidə edirdik. Bütün müdafiə postlarından mühasirəyə dair məlumatlar daxil olurdu. Evə gəlib həyat yoldaşımı qonşu qadınlarla birlikdə sığınacağa göndərdikdən sonra, məni çox qəribə bir hiss bürüdü. Bu günün, bu döyüşün son ola biləcəyini düşünsəm də, tezliklə Ağdam istiqamətindən, böyük Azərbaycandan kömək gələcəyinə ümid edirdim. İnanmırdım ki, 6000 nəfərdən çox əhalisi olan, 4 illik mübarizədə xüsusi şücaət göstərmiş Xocalı mühasirəsirədə tək qoyulsun. Ancaq bununla belə ölüm-dirim savaşı olacağını anlayaraq, evimə, otaqlarıma, son 4 ildə rahat yata bilmədiyim

yatağıma həsrətlə baxıb, ehtiyat saxladığım 2 qumbaranı, 3 maqazin avtomat patronunu götürüb, evin giriş qapısını bu açarla və qarajın qapısının qıfılını digər açarla bağlayaraq, posta doğru getdim. Döyüş yoldaşlarıma patrondan qənaətlə istifadə etməyi, döyüşün uzun çəkə biləcəyini söylədim. Lakin o gecə döyüş yerinə 4 saatlıq yeri göyü lərzəyə gətirən, 366 alayın 50-yə yaxın texnikalarından açılan atəşlərlə qarşılaşdıq. O dəhşətli mənzərəni sözlə təsvir etmək mümkün deyil. Bizim o texnikaya qarşı atəş aça biləcək, onu susduracaq heç nəyimiz yoxdu. Ayağa qalxan hər kəsi yerə sərirdi... Döyüşmək mümkünsüz və mənasız idi. O texnikanın qarşısında aciz idik. Arxamızdakı sığınacaqlarda olan uşaqları, qadın və qocaları xilas etmak üçün onların gizləndiyi yerlərə süründük. Sığınacaqlarda dəhşətlə ölüm qorxusu gözləyən qadınların bizi görəndə sevincini təsəvvür etmək mümkün deyil. Mərmi və güllə yağışının altında, sağ qala bilmək ümidi ilə onları da götürüb dağlara çəkilməyə məcbur olduq. 70 sm-ə qədər qar örtüyü və 10-15 dərəcə şaxtası olan dağlarda 4 günlük mühasirəni yarıb çıxanda, (bu isə başqa bir dəhşətli mövzudu) təqribən 300 nəfərlik bir dəstədən cəmi 31 nəfər ayaqları donmuş vəziyyətdə sağ qalmışdıq. Bizim ayaqlarımızın donmuş hissələrini Agdamda, fevralın 29-da, qatar qospitalda kəsdikdən sonra, 1 mart 1992-ci il tarixində yaralılar üçün ayrılmış təyyarə ilə, xərəkdə Bakıya, Topçubaşov adına Elmi Tədqiqat İnstitutuna, müalicəyə göndərdilər. Həkimlərimizin qayğısı və səyi nəticəsində 28 gündən sonra durub yeriyə bildik...

Dağlarda mühasirədə olarkən hərbi geyimimin cibləri əlavə patron və qumbaralarla dolu oldugu üçün, evimizin açarlarını, erməni qanına bulaşmış cib bıçağımı, 1 ədəd qumbaranı, əvvəlki döyüşlərin birində məhv etdiyimiz Livanlı ermənininin üzərindən götürdüyümüz 1 flakon zəhəri və insanı bir anda huşsuz edib yatıran aerozolu, sığınacaqlardan çıxarıb, çiynimizə alıb buz bağlamış çaylardan keçirdiyimiz və dağlara qədər gətirə bildiyimiz qadınların içərisində olan həyat yoldaşıma vermişdim...

Neçə gün idi ki, Kətik dağı deyilən istiqamətdə dağlara qalxıb, mühasirəni yararaq Ağdam istiqamətində çıxmaq istəsək də, güclü hərbi texnikaya və böyük kalibrli silahlara malik erməni quldurlarının pusqusuna düşürdük. Artıq donub ölənlər vardı. Yuxusuzluq güc gəlirdi. Yatanlar isə donub ayılmırdı. Əlacsız və aciz idik. Həyatda o cür acizlikdən dəhşətli heç nə ola bilməzdi. Hamının ayaqları şaxtadan donmuş, mən də daxil olmaqla, hec kəs ayaqlarını hiss etmirdi. Bir qızın baldırının damarları donub, partlayaraq dərisindən çölə çıxmışdı. Dəhşətli mənzərə idi. “Ayağını bağla, sağ çıxarsan, kəsilər ayağın” dedim. Dedi ki, “müəllim təki sağ çıxım, kəssinlər, eybi yox” dedi. (İndi onun ayağı dizdən aşağı kəsilib, Xədicədir adı). 3 gun, 3 gecə idi ki, dağlarada idik. 3-cü gecə silahlılarla

yığışıb, böyük risk olsa da, dayandığımız dərədə ocaq qalamağı, qadın və uşaqları ocağın ətrafına yığmağı, silahlıların isə növbə çəkməsini, tonqalın işığına gələ biləcək olan düşməni məhv etməyi tapşırdım. Cox çətinliklə ocaq qalamaq mümkün oldu.

Xocalıdan çıxan zaman M.Şükürovun üstündə olan bıçaq.

Qarın altından tapdığım quru ağacları həmin bu bıçaqla doğrayıb, kiçik bir ocaq, sonra isə tonqal yandırdıq. Yaxşı ki, duman hər tərəfi bürümüşdü deyə tüstü və alovu düşmənin görməsi mumkun deyildi. Ancaq yenə də ehtiyat üçün mən 3 nəfər silahlı ilə bir az kənarda, 4 tərəfdə dayanaraq qəfləti düşmən hücumuna qarşı hazır vəziyyətdə dayanmışdıq. Həyat yoldaşımın səsinə artıq sönükməkdə olan tonqalın işığına yaxınlaşdım. Bildirdi ki, bizimlə qalmış, qonşumuzun uşağı Qadir cox üşüdüyü üçün, öz əynindəki paltonu onun üstunə örtüb. Uşaq isə tonqala o qədər yaxın girib ki, həm ayağında ayaqqabısı, həm də paltonun yarısı yanıb. Uşaq o qədər yorğun olub ki, donmuş ayağının yandığını belə hiss eləməyib. Paltonun cibində isə bıçaq yanıb, üz qabığı əriyib. Bıcağı isti-isti aça bildim, tutacağı əridiyi üçün əlimi yandırdı. Mənim boynumda o dövrlər üçün çox gözəl hesab olunan, təxminən 2 metr uzunluğunda ağ maxer şarf var idi. Həmin bıçaqla o şərfi doğrayaraq, o uşağın, onun bacısı Səadətin, həyat yoldaşımın və kiçik qardaşımın ayaqlarına bağladıq. Bəlkə də o şərf onların ayağını tamam kəsilməkdən xilas elədi. O bıçaq isə bağlanmadığı üçün atmaq istədim, ancaq yoldaşım hər ehtimala qarşı bıçağı özü ilə götürdü. Həyat yoldaşım o vaxtdan, onu Xocalının və o gecənin xilaskar xatirəsi kimi 30 ildiki saxlayıb. Övladlarımız da, nəvələr də bu xatirələri bilirlər. Yaşımız keçdikcə bu xatirələrin əbədi qalması üçün özümüzdə olan bu və digər əşyaların muzeyə verilməsi üçün həyat yoldaşımı çətinliklə də olsa yola gətirdim...

Xocalı açarı və bıçağı 613 nəfər şəhid, 1275 nəfər əsir, büsbütün məhv edilmiş 7 ailə və ayaqları soyuqdan qanqrena olmuş 200 nəfərin şahidi idi[4].

... Dünyada hər şeyin, o cümlədən dərdin də, əzabın da bir sonu var. O cümlədən məcburən qatıldığımız müharibənin də. Baş komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusunun qəhrəman əsgərləri 44 günlük müharibədə torpaqlarımızı azad etdi. Hazırda dağıdılmış məkanlarda bərpa işləri

[4] Z.Sultanov.Xocalı faciəsi.Bakı, İşıq, 1993, s. 6.

gedir. Çox yaxınlarda qarabağlılardan hər kəs, o cümlədən, xocalılar da öz doğma od-ocağına qayıdacaqdır. Murad müəllimin ailəsi də bağlı qalmış qapısını açarla açaraq öz doğma yuvasında yaşayacaqdır.

Əliyeva Afaq
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu,
aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru, dosent

Siyasi repressiya qurbanlarından biri

XX əsrin 20-ci ilindən – yəni Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra böyük vədlərlə hakimiyyəti ələ keçirən bolşeviklər Azərbaycanın ziyalı, ağıllı, maarifpərvər, mübariz, milli ruhlu insanlarının təqibi və həbsinə başladı. Ümumiyyətlə, 1920-50-ci illər ərzində Azərbaycan xalqı üzərində davam edən bu təqiblər, qanlı repressiyalar mahiyyət etibarı ilə əslində milli-mənəvi dəyərlərin repressiyası demək idi. Çünki, zamanın bu kəsiyində sovet imperiyası neçə-neçə mütəfəkkir ziyalılarımızı "xalq düşməni", "vətən xaini", "millətçi", "pantürkist", "panislamist" hökmü ilə məhv etməklə kifayətlənməmiş, onların ədəbi irsini də bacardığı qədər məhv etmiş, oxunmasını yasaqlamış, ailələrini və qohumlarını sürgünlərə məruz qoymuş, yazılan əsərlərin sovet ideologiyasına uyğunlaşdırılmasına nail olmuşdur. Bir sözlə, bu illərdə kiminin özü, kiminin isə düşüncələri həbs edilmişdir. Bu siyasətin əsas qayəsi bir xalqın təkcə milli kimliyini – ideologiyasını, tarixini, dilini, ədəbiyyatını, mədəniyyətini, dinini, adət-ənənələrini məhv etmək deyil, həmçinin sonrakı nəsillərin yaddaşında qorxu hissi yaratmaq idi. Belə siyasi repressiyaya məruz qalanlardan biri də Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, mətnşünas, folklorşünas, pedaqoq, ictimai xadim, maarifçi, publisist-yazıçı, tənqidçi və tərcüməçi Firidun bəy Əhmədağa oğlu Köçərlidir.

1863-cü ildə Şuşada dünyaya göz açan Firidun bəy Köçərli 1876-cı ildə rus məktəbinə, 1879-cu ildə isə Qoridə Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində təsis edilən Azərbaycan bölməsinə daxil olmuşdur. Seminariyada 6 il (1879-1885) təhsil alan Köçərli sonralar İrəvan Kişi Gimnaziyasında pedaqoji fəaliyyətə (1885-1895) başlamışdır. Həmin işin davamı olaraq 23 il (1895-1918) Qori Seminariyasının Azərbaycan bölməsində ana dili və şəriət fənlərini tədris etmişdir. 1918-ci ildən isə özünün təşəbbüsü ilə həmin seminariyanın Azərbaycan

bölməsi Qazaxa köçürülmüş və o, ömrünün sonuna kimi Qazax Müəllimlər Seminariyasında müdir işləmişdir.

Yaradıcılığa 1885-ci ildən başlayan F.Köçərlinin fəaliyyətinin məhsuldar dövrü XX əsrin əvvəllərinə təsadüf edir. Məhz o illərdə "Литература Азербайджанских татар" (1903), "Mirzə Fətəli Axundov" (1911), "Balalara hədiyyə" (1912), ikicildlik məşhur "Azərbaycan ədəbiyyatı" (1925-1926) kitablarını yazmış və bəzilərinin nəşrinə sağlığında müvəffəq olmuşdur. O, eyni zamanda Azərbaycan folkloru nümunələrini toplamış, ədəbi-tənqidi fəaliyyətinin uğuru kimi Ə.Nəvai, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir, S.Ə.Nəbati, M.F.Axundov, S.Ə.Şirvani, N.Vəzirov, M.Ə.Sabir, S.M.Qənizadə, C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev, A.Səhhət və dövrünün digər mütərəqqi ziyalıları haqqında məqalə və oçerklər yazmışdır. F.Köçərli bədii tərcüməyə hələ İrəvanda müəllimlik etdiyi vaxtlarda başlamışdır. Rus ədəbiyyatından İ.A.Krılov, A.S.Puşkin, A.V.Koltsov, A.P.Çexov, M.Y.Lermontov, A.N.Tolstoy kimi sənətkarların əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Köçərli "Balıqçı ilə qızıl balığın nağılı"nı tərcümə etməklə Azərbaycanda A.S.Puşkinin ilk mütərcimi olmaq şərəfini qazanmışdır" [5]. Bu fikri "…onun Lermontov və Koltsovdan etdiyi tərcümələrə də şamil etmək olar" [6]. Onun qiymətli işlərindən biri rus dilindən tərcümə etdiyi qədim yunan filosofu Sokratın "Təlimati-Sokrat" (1891) kitabıdır. O, rus yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə etdiyi kimi, Azərbaycan ədəbiyyatının dəyərli nümunələrini də rus dilinə çevirmişdir. M.F.Axundzadənin "Aldanmış kəvakib" ("Kavkazski vestnik" məc., № 5, 1901) əsəri belə nümunələrdəndir.

F.Köçərli dövrünün Tiflis, Bakı, Bağçasaray və Peterburqda nəşr olunan "Kəşkül", "Tərcüman", "Şərqi-Rus", "Həyat", "Molla Nəsrəddin", "Tərəqqi", "Məlumat", "Yeni İrşad", "İqbal", "Kaspi", "Kavkaz", "Znaniye", "Novoye obozreniye", "Petroqradskiye vedomosti", "Zakavkazye" və digər mətbuat orqanlarında publisistik yazılarını "Firidun bəy Köçərli", "Allah bəndəsi", "F.K.", "F.Koçarlinski", "F.Köçərli", "F.Q-i", "Köçərli F.", "Qori: F.Köçərli", "K.İ.Ç"[7], kimi açıq və gizli imzalarla dərc etdirmişdir. F.Köçərlinin ədəbiyyata dair məqalələrinin böyük bir hissəsini tekstoloji araşdırmalar təşkil edir. "Alim həm "Azərbaycan ədəbiyyatı" adlı monoqrafiyasında, həm də bir çox məqalələrində əsərlərin təhlilləri ilə yanaşı, özlərinə də geniş yer verib, mətnşünaslığın aktual

[5] Qurbanov Ş. Puşkin və Azərbaycan poeziyası. Bakı, 1956, s. 93.
[6] Nəbiyev B. Firidun bəy Köçərli. Bakı, 1984, s. 129.
[7] Məmmədli Q., Əliyeva A. İmzalar (Milli Mətbuat – 140). Bakı, 2015, s. 220.

problemlərinə toxunmuş, sırf tekstoloji fəaliyyətlə məşğul olmuşdur. Başqa sözlə, F.Köçərlinin elmi fəaliyyətinin təməlində tekstoloji metod dayanır” [8].

F.Köçərlinin gərgin zəhmətinin nəticəsi olan “Azərbaycan ədəbiyyatı tarixi materialları” Azərbaycan ədəbiyyatı tarixini yazmaq sahəsində qiymətli bir təşəbbüsdür. Bu sahədə “Ayrı-ayrı əsrlərdə müxtəlif təzkirəçilər tərəfindən yazılmış təzkirələri, M.F.Axundovun ədəbiyyat tarixinə dair bir neçə məqaləsini və Mirzə Məmməd Axundovun “Nizami” adlı kitabını çıxmaq şərti ilə demək olar ki, Azərbaycan ədəbiyyatı tarixinə aid heç bir əsər yazılmamışdır” [9]. Akademik K.Talıbzadənin təbirincə desək: “Köçərli təzkirəçiliyin çərçivəsini dağıtdı, ədəbiyyat tarixinin tədqiqinə yeni bir istiqamət verdi” [10]. O, bu əsərində 129 şair və ədiblərimizin böyük əksəriyyətinin tərcümeyi-halı, ədəbi irsi haqqında dəyərli məlumatlar vermişdir. “Kitab elmi-nəzəri təhlillərlə bərabər bədii nümunələrlə də zəngindir. Onun səhifələrində yer alan şeirlər yüksək sənət örnəkləridir. Bu keyfiyyətinə görə “Azərbaycan ədəbiyyatı” müasir ədəbiyyat-müntəxəbat dərsliklərini xatırladır; müəllif əvvəlcə şairin tərcümeyi-halından danışır, yaradıcılığının əsas istiqamətlərini aydınlaşdırır, faktlara söykənməklə fikirlərini əsaslandırır… Bu nümunələr F.Köçərlinin əsl sənət xiridarı, yüksək poetik duyum, incə zövq sahibi olmasından xəbər verir” [11]. F.Köçərlinin sağlığında nəşrinə nail olmadığı bu kitab onun ölümündən sonra həyat yoldaşı Badisəba xanımın təşəbbüsü ilə 1925-1926-cı illərdə hər cildi iki hissədən ibarət olmaqla 2 cilddə Bakıda nəşr edilmişdir.

Milli-mənəvi irsimizin cəfakeşi olan F.Köçərlinin bu xidmətləri zamanında R.Əfəndiyev, C.Məmmədquluzadə, N.Nərimanov, A.Səhhət, S.Hüseyn kimi dövrünün mütərəqqi ziyalıları tərəfindən layiqli qiymətini almışdır. Bu zəngin irs daim öz ətrafına M.C.Paşayev, Ə.Mirəhmədov, K.Talıbzadə, B.Nəbiyev, İ.Bəktaşi, Ş.Salmanov, R.Qənbərqızı, M.Adilov, Z.Əsgərli kimi alim nəsli toplamış, tədqiqatlarda onun xidmətləri qədirşünaslıqla dəyərləndirilmişdir. Təəssüf ki, milli-mədəni irsimizin tədqiqi, təbliği və xalqın maariflənməsi sahəsində F.Köçərlinin müstəsna xidmətlərini layiqincə əhatə edən şəxsi arxivi bu günümüzə naqis gəlib çatmışdır. Təbii ki, bunun F.Köçərlinin həbsi və qətli kimi ciddi səbəbləri olmuşdur.

---

[8] Salmanov A. Firidun bəy Köçərlinin mətnşünaslıq fəaliyyəti // Firidun bəy Köçərli: şifahi və yazılı ədəbiyyat. Bakı, 2013, s. 155-156.
[9] Vəliyev Ş. Zəka səltənətinin carçısı // Firidun bəy Köçərli. Əsərləri. Bakı, 2013, s. 9.
[10] Talıbzadə K. XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1917-ci illər). Bakı, 1966, s. 257.
[11] Əsgərli Z. Firidun bəy Köçərli //Firidun bəy Köçərli: biblioqrafiya. Bakı, 2014, s. 27-28.

Müsavat partiyasının Qazax bölməsinə rəhbərlik edən, AXC-nin təhsil siyasətini həyata keçirmək uğrunda yorulmaq bilmədən fəaliyyət göstərən F.Köçərli Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bir çox xalqsevər müasirlərinin biçimli taleyini yaşayan, əksinqilabçı və millətçi kimi "xalq düşməni" adı altında 1920-ci il mayın 10-da (Gəncə üsyanından 15 gün əvvəl) Qazax İnqilab Komitəsi tərəfindən həbs edilib Gəncə Fövqəladə Komissiyasının sərəncamına göndərilmişdir. F.Köçərlinin Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanılan istintaq materiallarına (25 səhifədən ibarət olan PS-12206 saylı qovluq) əsaslanan Cəlal Qasımov yazır: "4 iyun 1920-ci il. Mən, 20-ci diviziyanın 7-ci xüsusi şöbəsinin hərbi müstəntiqi bu gün Firidun bəy Köçərlinskinin əksinqilabi fəaliyyətdə ittihamı haqqında işi və onun barəsində Qazax İnqilab Komitəsi tərəfindən verilən xasiyyətnaməni nəzərdən keçirərək müəyyən etdim ki, müttəhim Köçərlinski vəzifəsindən və böyük səlahiyyətlərindən istifadə edərək zəhmətkeş xalqa qarşı zor tətbiq etmiş, Qazax rayonunda "Müsavat" partiyasının sədri olaraq milli ehtirasları alovlandırmış ki, bunun nəticəsində qonşu xalqlar arasında toqquşmalar baş vermişdir. Onun verdiyi izahatlar heç bir inam doğurmur, çünki rəyinin öyrənilməsini təklif etdiyi şəxslər Qazax İnqilab Komitəsi kimi nüfuz və etibara malik ola bilməzlər. Həmin səbəbə görə müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi ilə əlaqədar vəsatətini rədd etmək olar və onun özünün azadlıqda qalmasının gələcəkdə Qazax qəzasında əksinqilabi hərəkat yaradacağı və fəhlə-kəndlilərin günahsız qanının axıdılmasına bais ola biləcəyini nəzərə alaraq qərara alınır: müttəhim Köçərlinski güllələnsin.

Hərbi müstəntiq: (adı və soyadı göstərilməyib). Təsdiq edirəm: 7 №-li Xüsusi bölmənin rəisi: Liberman. Təsdiq edirəm: Fövqəladə komissar H.Sultanov" [12].

Bu qərar "müttəhim Köçərlinskinin" güllələnməsi ilə bağlı qərar idi. Amma bu qərarın davamlı, icrası "vacib" olan mərhələli tətbiq üsulları var idi. Bu ölüm deyildi – ölümün davamı idi. Köçərli kimiləri xalqın yaddaşından həmişəlik silmək üçün, onların ölməzliyinə qəddarcasına edilən daha bir qəsd – arxivlərinin məhv edilməsi və həm də sağların şüuruna yeridilməsi vacib olan "qorxu dərsi" idi. Özlərini, ailələrini, hətta nəsillərini belə bu "dərsin" vahiməsindən qorumaq üçün "xalq düşməni" ilə doğmalıq əlaqələrinin sübutuna yararlı ola biləcək hər şey düşünülmüş şəkildə məhv edilməli idi. F.Köçərli arxivinin bizə gəlib çatmaması – məhv edilməsi, onunla bağlı izlərin müasirləri tərəfindən belə silin-

[12] Qasımov C. Firidun bəy Köçərlinin müəmmalı ölümü, yaxud gümandan həqiqətə // Qasımov C. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi. Bakı, 2011, s. 267-268.

məsi bu qəsdin və bu "dərsin" təəssüf doğuran ağrılı-acılı nəticəsi idi. Rəcəb Əfəndiyevin oğlu Əziz Əfəndizadə xatirələrində yazırdı: "Firidun bəyin atama yazdığı məktublar saysız-hesabsız idi. Repressiya illərində də onları qoruyub saxlamışdı.

1950-ci ilin bir yay ayında atamın alçaq bir kürsüdə əyləşib yanında mis xəkəndaz qoyduğunu gördüm. Yanındakı qovluqlardan hansı kağızları isə götürüb oxuyur və bir-bir xəkəndaza qoyub kibritlə yandırırdı. Rəngi qıpqırmızı qızarmışdı. Həyəcanı məni narahat etdiyi üçün soruşdum:

– Ata, bu yandırdıqların nədir?

– Müəllimim Firidun bəy Köçərlinin mənə yazdığı məktublarıdır, istəmirəm ki, məndən sonra sizə bir xətər dəysin, – dedi. …Bir söz demədim. Firidun bəyin "xalq düşməni" kimi güllələndiyini bilirdim" [13].

Fərhad Ağazadənin qeydə aldığı Firidun bəyə məxsus arxiv materiallarının siyahısında[14] C.Məmmədquluzadənin 1887-ci ildən 1913-cü ilə kimi F.Köçərliyə 22 məktub göndərdiyi göstərilmişdir. 1920-ci ildə "xalq düşməni" kimi güllələnən Köçərlinin arxivinin məhv edildiyi artıq məlumdur. F.Köçərlinin də bu məktubları cavabsız qoyması ağlasığmazdır. Bəs, Köçərlinin məktublarının C.Məmmədquluzadə arxivində olmamasının səbəbi nə idi? Səbəb C.Məmmədquluzadənin də arxivinin eyni aqibət yaşamasıdır. H.Məmmədquluzadə Mirzə Cəlil haqqında xatirələrində yazır: "Sonra öz otağına keçdi, əlyazmalarının qaralaması saxlanan dolabı açdı, kağızları nəzərdən keçirməyə və bir-bir yerə tullamağa başladı. Mən onun nə edəcəyini duyub təşvişə düşdüm və yaxınlaşıb soruşdum ki, neyləmək istəyirsən? O, cavab verdi ki, sobanı qalamaq istəyirəm. ...Mən ürək ağrısı ilə onun öz əli ilə yazdığı kağızları, əlyazmalarını böyük bağlamalarla sobaya doldurmasına və kibrit çəkməyinə tamaşa edirdim.

Sonra yavaş-yavaş sobaya qaralamaların yerdə qalanlarını atmağa başladı. Mən hiss edirdim ki, bu çox böyük itkidir, ancaq müqavimət göstərə bilmirdim. O, son dərəcə gərgin idi" [15]. Əslində, bu bağlamaların sobada yandırılması 1931-ci il dekabrının şaxtasını dəf etməkdən daha çox qarşıdan gələn illərin doğurduğu vahimənin dəfinə xidmət edirdi və yandırılan "kağız bağlamalarını"n, "müxtəlif qaralamaların" içərisində C.Məmmədquluzadəyə və müasirlərinə məxsus hansı sənəd, əsər və məktubların yandığı bu gün də bəlli olmayan bir məsələ kimi qalmaqdadır.

---

[13] Qiyasbəyli M. Rəcəb Əfəndiyev (pedaqoji, metodiki, bədii əsərləri). Bakı, 2001, s. 35-36.
[14] AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, F.Köçərlinin şəxsi arxivi, fond – 19, s.v. 100.
[15] Həmidə xanım Cavanşir. Xatirələrim (ruscadan çevirən və nəşrə hazırlayan: Mehriban Vəzir). Bakı, 2011, s. 346-347.

C.Məmmədquluzadə, R.Əfəndiyev, istərsə də digər müasirlərinin "məndən sonra sizə bir xətər dəyməsin" xofu ilə məhv edilən arxiv materialları eyni psixoloji gərginliyin nəticəsi idi.

Akademik B.Nəbiyev görkəmli ədəbiyyatşünas Ə.Şərifin "F.Köçərli və onun arxivi" ("Ədəbiyyat və incəsənət" qəz., 1972-ci il, 3 iyun) adlı məqalə-xatiratına əsaslanaraq yazır: "...F.Köçərlinin arvadı Badisəba xanım istəyibmiş ki, Əziz Şərif onların evindəki arxivi nəzərdən keçirsin. Həmidə xanım Əziz Şərifi Badisəba xanıma təqdim etmiş, o da öz növbəsində F.Köçərlinin arxivindən ibarət bir sandıq materialı onlara göstərmiş və demişdir: "Heç şübhə etmirəm ki, bu sandıqdakı yazılar xalqımıza lazım olar. Firidun bəyin ömrü boyu axtarıb tapdığı əlyazmaları, kitab, dəftər buradadır. Bu sandığı bu günə kimi saxlamışam, heç kəsə bundan bir vərəq də verməmişəm…". Sonra onlar birlikdə sandığın içindəki materialları gözdən keçirmişlər. Ə.Şərifin nəzərini ilkin cəlb edən C.Məmmədquluzadənin, M.Ə.Sabirin, A.Səhhətin, Q.Şərifovun, Ö.Faiqin, S.Mümtazın və başqalarının səliqə ilə dəstələnib iplə bağlanmış yüzlərlə məktubu olur. Bunlardan başqa sandıqda müxtəlif əlyazmaları, şeirlər, tərcümə əsərləri, Azərbaycan folkloru nümunələri, 1400 atalar sözü, 350 bayatı, xüsusən M.F.Axundovun M.P.Vaqif haqqında Adolf Berje üçün rus dilində yazdığı məqalənin avtoqrafı, M.Ə.Sabirin şeirləri və digər qiymətli əsərlər, sənədlər, materiallar varmış" [16]. Məlum olduğu kimi, Ə.Şərifin F.Köçərlinin şəxsi arxivinin dövlət tərəfindən alınması səyi nəticəsiz qalmışdır. Arxivin sonrakı taleyi ilə bağlı Badisəba xanım Köçərlinin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Mircəfər Bağırova rus dilində ünvanlanmış ərizəsində[17] o, daşınması çətin olan bəzi ev əşyalarını və materialları Bakı şəhərində yaşayan qardaşı Məmməd Vəkilovun evində müvəqqəti olaraq qoyduğunu yazır. Həmçinin 1937-ci ilin noyabr ayının 10-da Məmməd Vəkilovun oğlu Mustafa Vəkilovun Xalq Daxili İşlər Komissarlığı (rusca: NKVD) tərəfindən həbs edildiyini və onun şəxsi materiallarının müsadirəsi zamanı Firidun bəy Köçərliyə məxsus arxivin də aparıldığını bildirir və ədəbiyyat tarixinə dair həmin qiymətli arxiv materiallarının ona qaytarılmasını xahiş edir. Yazılma tarixi qeyd olunmayan ərizənin mətnindəki 10 noyabr, 1937-ci il məlumatından arxivin artıq xalq deyimində olan "gedər-gəlməz" istiqamətinə yol aldığı məlum olur.

Arxivin sonrakı taleyi Şəmistan Nəzirlinin "Qoridən gələn qatar" sənədli povestində son izahını tapır. Əsərin "525-ci qəzet"in 2010-cu il 15 və 16 sentyabr

---

[16] Nəbiyev B. Firidun bəy Köçərli. Bakı, 1984, s. 162.
[17] AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, F.Köçərlinin şəxsi arxivi, fond – 19, s.v. 90.

tarixli saylarında dərc olunan "Özü Gəncə üsyanının, arxivi isə 37-nin qurbanı oldu" hissəsindən məlum olur ki, Məhəmmədəmin Şəkinskinin vaxtilə rəisi olduğu Respublika Arxiv İdarəsində və Daxili İşlər Nazirliyinin Arxivində çox inad və təəssübkeşliklə apardığı axtarışlar müsbət nəticə verməmiş – "Belə görünür ki, çox lazımlı yazıları "lazımsız kağızlar" kimi yandırıblar"[18] qənaətilə tamamlanmışdır.

F.Ağazadənin yazdığı "Firidun bəy Köçərlinin bioqrafiyası" adlı qiymətli məqalədə F.Köçərlinin uşaqlıq illəri, ailəsi və fəaliyyəti haqqında maraqlı faktlar əsasında müfəssəl tərcümeyi-halı verilmişdir. Bu "Bioqrafiya"nın bir nüsxəsi M.Füzuli adına Əlyazmaları İnstitutunda (fond – 19, s.v. 37), digər bir nüsxəsi isə N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Arxivində (inv.: 566) saxlanılır. F.Ağazadə 1930-cu ildə – F.Köçərli arxivinin hələ Badisəba xanımda olduğu bir vaxtda Firidun bəyin bioqrafiyasını yazmaq istəyi ilə həmin arxiv materiallarına müraciət etmişdir. O, bu istəyi ilə təkcə "Firidun bəy Köçərlinin bioqrafiyası"nı yox, həm də onun sonralar məhv ediləcək arxivini siyahıya almışdır. M.Adilovun təbirincə desək: "Biz bu gün Firidun bəyin şəxsiyyəti və ilkin arxivi haqqında daha geniş təsəvvür əldə etdiyimiz üçün Fərhad Ağazadəyə minnətdar olmalıyıq. Belə ki, dövrünün tanınmış ziyalısı və alimi olan bu şəxs arxivin ilkin variantını araşdırarkən ağlagəlməz bir uzaqgörənlik nümayiş etdirmiş və Firidun bəyin bütün arxiv materiallarının siyahısını çıxarmışdır"[19].

F.Köçərlinin milləti, xalqı üçün etdiklərinin izini itirmək, tarixin yaddaşından silmək məqsədilə düşünülmüş şəkildə irsinin böyük bir qisminin zamanında məhv edilməsinə baxmayaraq, bu gün də onun əsərləri nəşr edilir, haqqında çoxsaylı məqalə və tədqiqat əsərləri yazılmaqla yaddaşlarda yaşayır. Bu da səbəbsiz deyil. Çünki F.Köçərli şərəfli, ləyaqətli ziyalı ömrü yaşadı və bu ömrün ziyası ona xalqının tarixi yaddaşında əbədi yaşamaq haqqını qazandırdı.

---

[18] Nəzirli Ş. Özü Gəncə üsyanının, arxivi isə 37-nin qurbanı oldu ("Qoridən gələn qatar" sənədli povestindən parça) // "525-ci qəzet", 2010, 16 sentyabr, s. 7.
[19] Adilov M. Ön söz əvəzi // Firidun bəy Köçərlinin şəxsi arxivi. Bakı, 2006, s. 6.

Əliyeva Həbibə
Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya elmi fond şöbəsinin elmi işçisi, t.ü.f.d., dosent

Şuşa epiqrafik abidələrinə yeni bir baxış

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "Şuşa İli-2022"-ə həsr olunmuş xüsusi müsabiqəsinin qalibi olan "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi "Şuşanın tarixi-mədəni irsinin tədqiqi və təbliği" layihəsi çərçivəsində elmi-tədqiqat işlərində iştrak etmək üçün (27 sentyabr 2022-ci il, № 198/22 məktuba əsasən) mən 03-04 oktyabr 2022-ci il tarixlərində Şuşa şəhərinə epiqrafik abidələrin öyrənilməsi məqsədilə elmi ezamiyyətə getdim. Səfərin məqsədi Şuşa şəhərində tarixi binaların üzərindəki ərəb-fars-türkdilli kitabələrin estampını çıxarmaq, onları kataloqlaşdırmaq və oxunmasını təmin etməkdir.

Qeyd etmək lazımdır ki, 8 may 1992-ci il tarixində Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra şəhərin 19 məhəlləsində XVIII-XIX əsrlərə aid ölkə və yerli əhəmiyyətli memarlıq və memorial abidələrin bir qismi ya məhv edilmiş və ya da yarım uçmuş vəziyyətdədirlər. 28 ildən sonra 08.11.2020-ci il tarixində işğaldan azad olunan Şuşa şəhərinə səfər zamanı bunun canlı şahidi olduq. Şuşa şəhərinin tarixi memarlıq və memorial abidələrini epiqarfik cəhətdən araşdırarkən, ilk öncə tarixşünaslığını nəzərdən keçirərkən, Azərbaycan epiqrafik abidələrinin ilk tədqiqatçılarından biri, mərhum epiqarfçı alim Ə.Ə.Ələsğərzadə xatırlanır. Azərbaycan SSR Elmlər Akademiyası tərəfindən A. Bakıxanov adına Tarix İnistitutunun elmi işçisi Ə.Ə.Ələsğərzadə və Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi Ə.Axundov 1945-ci il may ayının 27-dən iyun ayının 14-nə kimi Şuşa, Ağdam və Bərdə şəhərlərindəki tarixi memarlıq abidələri və məzar daşları üzərindəki epiqarfik kitabələri toplamaq və tədqiqatların aparılması üçün ezam olunmuşlar. Şuşa şəhərinin tarixi memarlıq və memorial abidələri haqqında Ə.Ə.Ələsğərzadə verdiyi çox dəyərli məlumatlarda qeyd edir ki, " Şuşa şəhərində bir çox tarixi abidələr: məscidlər, mədrəsələr, karvansaralar, hamamlar, bulaqlar, ədəbi məclislər keçirilən binalar və s. vardır. Bu binalar işərisində Natavanın, İbrahim xanın qızı Gövhər ağanın, Cəfərqulu xanın, Nəvvabın, Qasımbəy Zakirin, Fatı xanım Kəminənin, Şahzadə Bəhmən

Mirzənin və sair bu kimi məşhur evləri də vardır”[1] onuda qeyd edir ki, Şuşadakı binaların bir qismi məşhur Qarabağlı memar Kərbəlayi Səfi xan tərəfindən tikilmişdir.

Ə.Ələsğərzadə Şuşa qəbirstanlığındakı məşhur şəxslərin qəbirləri üzərində epiqarfik cəhətdən zəngin materialların olmasını qeyd edir. Ekspedisiyada əldə olunan ən maraqlı məlumatlarından birini də Şuşada və ümumiyyətlə, Qarabağda yaşamış məşhur simaların bəzilərinin Şuşa, digərlərinin isə Ağdam və Bərdə qəbirstanlıqlarında dəfn olunmasını hesabatında yazır. Tədqiqatçı yazır ki, “Bunlardan Molla Pənah Vaqif və Mir Möhsün Nəvvabın qəbrləri Şuşada, “Ğafur düzü”ündə (bu yer “Cıdır düzü “adlanan sahəyə daxildir), vəzir Mirzə Camalın və Qacar sülaləsinə mənsub şahzadələrdən General-mayor Rzaqulu Mirzənin oğlanları: Rüknəddin Mirzə və İbrahim Mirzənin qəbirləri isə Şuşanın “Mirzə Həsən” qəbirstanlığındadır”[2].

Şuşada aparılan ilk epiqrafik tədqiqatın müəllifi Əjdər Ələsğərzadə Şuşa şəhərində yetişmiş şairə Natəvan və Fatı xanım Kəminə, şair Mirzə Rəhim Fəna, alim Mir Möhsün Nəvvab, memar Kərbəlayi Səfi xan, nəqqaş Cəfərəli, xanəndə Hacı Hüsü, Qasım və Mirzə Muxtar, tar çalan Sadıq bəy və Sadıqcanın isimlərini hesabatda qeyd ederek, yeni məlumatlar əldə etmiş və Şuşada təsis edilmiş “Məclis-i Fəramuşan” və “Məclis-i Üns”, müsiqişünaslar və xanəndələr məclisi, memarlar, nəqqaşlar, xəttatlar məclisi kimi elmi-ədəbi məclislər barəsində xeyli dəyərli məlumatlar toplaması haqqında məqalədə yazmışdır[3].

Alimin Şuşada topladığı epiqarfik materialllar içərisində İbrahim xanın qızı Gövhər Ağanın öz vəsaiti hesabına tikdirdiyi “Məsciddi-Gövhəriyyə” daxilindəki kitabələrin xüsusi bir əhəmiyyət kəsb etməsidir. Belə ki, məscidin daxilində yerləşdirilmiş sağ və sol tərəfindəki daş lövhədən ibarət olan kitabələrdə Gövhər Ağa tərəfindən tikdirilən məscid və mədrəsələrə vəqf olunan əmlakın (əmlaka daxil olan yerlərin, bağların və dükanların) olduğu sahələr və onların sərhədləri müfəssəl surətdə qeyd olunmuşdur. Lakin Ə.Ələsğərzadənin epiqrafik cəhətdən araşdırdığı tədqiqtlar içərisində biz Qarabağ və səfər etdiyi Şuşanın tarixi abidələri haqqında heç bir əsər ilə rastlaşmadıq. 16 ildən sonra, 1961-ci ildə epiqarfçı alimimiz, ustadım Məşədixanım Nemətov (sonradan “Nemət” soy adını götürmüşdür) Şuşanın “Məsciddi-Gövhəriyyə” və el arasında “Yuxarı Gövhər ağa” adlanan məscidi epiqrafik təhlilini verərək, müəllifi olduğu

[1] Ələsğərzadə Ə. Ə. Şuşa-Ağdam-Bərdə səfəri.// Azərbaycan SSR Elmlər Akademiyasının 1945-ci il ekspedisiyaları, Bakı: Azərb.SSR EA nəşriyyatı, 1947, s. 161.
[2] Ələsğərzadə Ə. Ə. Şuşa-Ağdam-Bərdə səfəri, 1946, s.161-162.
[3] Yenə orada. s. 162

məqalədə "Cümə məscidi" kimi qeyd edərək, Azərbaycan dilində nəşr etdirmişdir[4]. Lakin, 2011-ci ildə epiqrafçı alim M.S. Nemət 2011-ci ildə "Azərbaycanın epiqrafik abidələri toplusu" adlı V cildində 1961-ci ildə əsərinin rus dilində nəşr etməklə Yuxarı Gövhər ağa məscidinin epiqrafik kitabələrinin təhlilini təkrarlamış, lakin karvansaranın dörd ədəd kitabəsini yeni şərh etmişdir[5]. M.S. Nemət bu və digər əsərlərində Şuşanın çoxsaylı dini-tarixi tarixi memarlıq abidələri ilə yanaşı, həmçinin də məzar daşları üzərindəki kitabələrdən bəhs etməmişdir.

Bu məqsədlə "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi "Şuşanın tarixi-mədəni irsinin tədqiqi və təbliği" layihəsi çərçivəsində epiqrafik abidələrin öyrənilməsi və sistematik araşdırılması niyyəti ilə Milli Azərbaycan Tarixi Muzeyinin tarixində ilk dəfə Şuşaya ezam olundum.

Mərhum epiqarfçı alim Ə.Ə.Ələsğərzadənin 1945-ci il Şuşa hesabatı 01-04 oktyabr 2022-ci il tarixində yola çıxdığımız bu müqəddəs və çətin işdə aparacağımız şəhərdəki epiqrafik abidələrin tədqiqatın bələdçisi oldu. Əfsuslar olsun ki, Ə. Ələsğərzadənin hesabatında bəhs etdiyi qəbirstanlıqlara məlum hadisələrə görə işğaldan azad olunan ərazilərdən Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) icazəsi olmadığından biz qəbirstanlıqlara girə biləmədik. Qeyd etmək lazımdır ki, 8 may 1992-ci il tarixində Şuşa və ətraf kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra şəhərin 19 məhəlləsində XVIII-XIX əsrlərə aid ölkə və yerli əhəmiyyətli memarlıq və memorial abidələrin bir qismi ya məhv edilmiş ya da yarım uçmuş vəziyyətə gətirilmişdir. Lakin, 28 ildən sonra Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə 08.11.2020-ci ildə igid hərbiçilərimizin hərb tarixində görsənməyən qəhrəmanlığı nəticəsində erməni işğaldan azad olunan Şuşa şəhərinə[6] səfər zamanı bütün bunların canlı şahidi olduq.

Səfər müddətində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin yerli əhəmyyətli memarlıq abidələri sırasında olan Şuşa şəhərinin inventarı 346 saylı tarixi abidə , iki mərtəbəli XVIII əsrə aid karvasara (Şəkil 1) binasının tağlı qapısının üst hissəsinə yerləşdirilmiş daş lövhələr üzərində həkk olunan dörd ədəd kitabənin (Şəkil 2) estampları çıxarıldı, ölçüləri götürülərək, bədii və epiqrafik təsvirləri tərəfimizdən qeydiyyata alındı (Şəkil 3) .

---

[4] Nemətova M.S. Şuşa şəhərlərindəki «cümə məscidi»nin kitabələri., 1961, sə. 47-59.
[5] Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. 2011, s.198-201
[6] https://azertag.az/xeber/.....

Şəkil 1 -2-3

Şuşa şəhərində karvansara kitabələri

Hələ Ümummilli Lider H.Əliyev bu şəhərin başdan-başa bir abidələr şəhəri olması haqqında tövsiyə edərək söyləmişdir: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır". Şuşanı abidələr şəhəri edən isə onun yaradıcısı Qarabağ xanı Pənahəli xan Cavanşir idi. Belə ki, 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra keçmiş Qarabağ bəylərbəyliyinin ərazisində yaranan iki müstəqil xanlıq – Gəncə və Qarabağ xanlıqları idi[7]. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. 1748-ci ildə müstəqil Qarabağ xanlığının əsasını qoymuş Qarabağ xanı Pənahəli xan Cavanşir 1750-1757-ci illərdə yeni inşa etdirdiyi hündür, sıldırım dağ üstündə Şuşa qalasını Qarabağ xanlığının paytaxtı etmişdir[8]. Bu qalanın inşasından sonra öncə bir müddət şəhər Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır. Şuşa şəhərinin çiçəklənmə dövrü bundan sonra başlamış və XIX əsrə qədər inkişaf edərək şəhər 17 məhəllədən ibarət olmuşdur. Tarixi mənbələrə görə, hər məhəllənin məscid və mədrəsəsi, hamamları, çeşmələri, möhtəşəm mülkləri və karvansaraları və s. tikliləri ilə digər şəhərlərə örnək olmuşdur. Lakin zaman-zaman bir neçə dəfə qonşu ermənilər tərəfindən hücum və qarətə uğrayan Şuşa 1992-ci ildə vandalların məhvinə məruz qalmışdır. Bu səbəbdən də günümüzə dağıdılmış vəziyyətdə olan Şuşa gəlib çıxmışdır.

Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidin qarşısında, XVIII əsrdə inşa olunan iki mərtəbəli karvansaranın tağlı qapısının üzərində xüsusi hörülmüş tağlı hissəyə yerləşdirilmiş daş lövhədə I kitabənin kənarı sadə yonulmuş dördgüşəli haşiyədə (ölçüsü: 78x63 sm) gözəl süls xəttlə ərəb dilində "Mərhəmətli, Rəhimli Allahın adı ilə" kəlamı ilə başlayır və "Məşhədi Mir Səyyafın oğlu çox hörmətli Məşhədi Hüseyn aşağıda qeyd olunan dükanları vaqifin (vəqf edən şəxs) özünün

[7] Mirzə Adıgözəl bəy. Qarabağnamə..... 1989, s. 6-102.
[8] Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi.... 1989, s.104-148

təmir etdirdiyi ƏQSA məscidi adlanan məscidə şərii olaraq vəqf etdi. Əvvala böyük meydanın qərb tətəfindəki bir dəst karvansara bütünlüklə və orada, ona birləşmiş və əlavə olan içəridəki hücrələrlə birlikdə aşağı və yuxarı mərtəbələrdəki əlli bir dükan" fars dilində vəqifnamə həkk olunmuşdur[9]. Karvansaranın tağlı qapısının üzərində digər II daş lövhə I kitabənin sağ tərəfinə (ölçüsü: 75x65 sm) yerləşdirilmişdir. Daşın üzərində gözəl süls xəttlə fars dilində yazılan kitabə mətninə əsasən I kitabənin davamıdır. Karvansaranın tağlı qapısının üzərində digər daş kitabələrdən həcminin böyüklüyü ilə seçilən III kitabədir. I kitabənin alt hissəsində iri həcimli dördkünc lövhənin (ölçüsü:153x70 sm) üzərində gözəl süls xəttlə fars dilində həkk olunan kitabə mətninə əsasən II kitabənin davamıdır.

Tarixi karvansara binasının tağlı qapısının üzərində sonuncu IV daş kitabə (ölçüsü: sm) I və III iri həcimli daş lövhənin sol tərəfində dördkünc daşın üzərində yerləşdirilmişdir. Gözəl süls xəttlə fars dilində III kitabənin davamı və ərəb dilində isə Qurani Kərimin əl-Bəqərə surəsindən 177–ci ayə (II/177) və hicri təqvimi ilə tarix (1306= m.1888/89-cu il) yazılmışdır[10].

Qeyd etmək lazımdır ki, səfər zamanı Şuşa şəhərindəki mülk və malikanələr üzərində ərəb qrafikasının nəsx, nəstəliq və süls xətt nümunələri ilə yazılan ərəb-farsdilli kitabələr ilə rastlaşdıq. Əfsuslar olsun ki, XVIII əsrdə inşa olunan yerli memarlıq xüsusiyyətləri ilə seçilən evlərin əksəriyyəti yarı uçuq vəziyyətdədir. Hələ məşhur rus batal rəssamı V.Vereşşagin (1842-1904) Şuşa şəhərindəki malikanələri görəndən sonra öz təssürütını belə ifadə etmişdir: "Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir"[11]. Lakin , əfsuslar olsun ki, bir zamanlar rəssamın təsvir etdiyi Şuşanın yüksək səviyyəli sakinlərinin tikdirdiyi evlər erməni işğalı zanmanı top-tüfəng ilə dağıdılmış və bəzi kitabələr silinmişdir.

Bildiymiz kimi, Şuşa şəhəri məhəllələri ilə məşhurdur. Belə məhəllərdən bir də Çuxur məhəlləsidir. Məhəllə şəhərin ən aşağı hissəsində yerləşdiyinə görə, belə adlandırılmışdır. Azərbaycanın məşhur xanəndəsi Bülbülün bir mərtəbəli, iki otaq və eyvandan ibarət olan ev-muzeyi bu məhəllədə yerləşir. Hazırda Şuşada yeni bərpadan sonra tək fəaliyyətdə olan muzey "Bülbülün Ev-

[9] Неймат М.С. .....2011, s. 198-199
[10] Yenə orada.....,2011: s. 199-201
[11] Basile Vereschaguine. Voyage dans les provinces du Caucase.... 1869, c.309.

Muzeyi”dir. Şuşanın tarixi, maddi-mədəniyyət və memarlıq abidələri kimi Bülbülün evi də erməni vandallarının müdaxiləsinə məruz qalmışdır. Əsil adı Murtuza Məşədi Rza oğlu Məmmədov olan Bülbül 22 iyun 1897-ci ildə Şuşa yaxınlığında, Xanbağı adlanan yerdə anadan olmuş və 26 sentyabr 1961-ci ildə Bakı şəhərində vəfat etmişdir. Dahi müğəninin məzarı hazırda Birinci Fəxri Xiyabanda yerlişir.

Azərbaycan məşhur opera müğənnisi, professor, SSRİ xalq artisti Bülbül bu evdə anadan olmuş və böyümüş, ilk dəfə musiqi aləminə burada qədəm qoymuşdur. Məşhur xanəndənin ev–muzeyi erməni vandalizminə məruz qalaraq, ekspozisiyada olan bütün materiallar talan edilmişdir. Erməni işğalı dövründə ev ciddi ziyan çəksədə, Şuşa azad edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasə Bülbülün ev-muzeyində əsaslı təmir-bərpa işləri aparılır və 2021-ci il yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı başa çatan muzeyi cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bülbülün ev-muzeyinin açılışında iştirak etmişlər[12].

Xatırladaq ki, Şuşa şəhərinin ermənilər tərəfindən işğal olunması nəticəsində çoxsaylı muzeylər kimi Bülbülündə ev- muzeyində də 6 mindən artıq eksponat məhv edilmiş və daşınması mümkün olanlar Ermənistana aparılmışdır. Ən ürəkləri ağrıdan hadisə isə erməni vəhşiləri tərəfindən Bülbülün güllələnmiş büstü idi ki, 28 ildən artıq Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində onunla yanaşı xan qızı Natəvanın və dahi Üzeyir Hacıbəyovun büstləri də yerləşdirilmişdir. Müzəffər ordumuz tərəfindən Şuşa azad olunduqdan sonra, şəhərin quruculuq işləri zamanı hər üç gülələnmiş məşhur şuşalının büstləri Vətənə dönərək, ruhları şad oldu.

Maraqlı bir epizodu qeyd etmək yerinə düşərdi ki, Bülbülün ev-muzeyinin təmir-bərpası zamanı eyvana çıxan divarlarına yerləşdirilmiş üç ədəd daş lövhələr suvaq altında qalmışdır. Üzəri suvanmış daş lövhələrdə ikisində ərəb qrafikası ilə ərəb və fars dilində həkk oluna kitabələr, altı ləçəkli gül (ölçüsü: 20x30 sm.), günəş simvolunu əks etdirən təsviri aşkarlanmışdır.

Ev-muzeyinin giriş qapısının sağ tərəfinə yerləşdirilmiş birinci kiçik həcimli daş lövhədə (ölçüsü: 30x 25 sm) sahibinin ismi Kərbəlayi Yusif və inşa tarixi (H.q. 1209=m. 1787/88-ci il) həkk olunmuşdur (Şəkil 5).

Qeyd etmək lazımdır ki, binanın bərpası zamanı üzə çıxan bu kitabələrin 2020-ci ildə “Azərbərpa Elmi-Tədqiqat Layihə İnistitutu” tərəfindən bizə

[12] https://president.az › articles › view

göndərilən fotoların kitabə ilə yaxından təmas olmadığımız üçün yazıların bəzi hissələri oxunması mümkün olmamışdır[13].

Səfər zamanı Bülbülün ev–muzeyinə ziyarət zamanı bu kitabələrin estampları çıxarıldı, ölçüləri götürülərək yenidən tədqiqata cəlb olundu (Şəkil 4). Bu işdə bizə yaxından kömək etdiyi üçün muzeyin əməkdaşı Təranə xanıma və Şuşada bərpa işlərində çalışan Astaradan Murad bəyə dərindən təşəkkür edirik.

İkinci kitabə giriş qapısının sol tərəfindəki daş lövhə (ölçüsü: 26x24 sm) üzərində kənarələri nəbati naxışlanmış, ərəb dilində, nəsx xəttlə dörd sətirlik mətndə Qurani Kərimin əl-Qələm surəsinin 51-52 ayələri (Bədnəzər duası) həkk olunmuşdur (şəkil 6).

şəkil 4-5-6

Əhəmiyyətli tarixi abidələr arasında həmin məhəllədəki Şirin bəy nəslinə məxsus iki mərtəbəli memarlıq xüsusiyyətləri ilə seçilən mülkdür. Mülkün birinci mərtəbəsində iki tağlı giriş qapıları dalğavari naxışlar ilə daşın səthindən dərin formada yonulmuşdur. Şirin bəy nəslindən qalan bu mülk də erməni işğalından sonra dağıdılmış və yarı uçuq vəziyyətdədir (Şəkil 7). Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirlinini bu mülk üzərində bir tablosu yoxdur. Lakin ölkə əhəmiyyətli memarlıq abidəsi sıralarına daxil olan bu mülkün dövlət tərəfindən qorunması zəruridir. Mülkün ikinci tağlı giriş qapısının üzərində daş lövhə (ölçüsü: 41x50 sm.) yerləşdirilmişdir. Həmin dördkünc daşın üzərində səkkizgüşəli haşiyədə dörd sətirlik nəstəliq xəttlə bir ədəd kitabə fars və ərəb dilində. Kəlmeyi-şəhadətin birinci hissəsi və binanın inşa tarixi (1208 =m. 1793/94-cü i) həkk olunmuşdur (foto 8).

[13] Əliyeva Həbibə .Şuşa epiqrafik abidələrinə vandal ermənilərin müdaxiləsi.... 2022: 274-284

Şəkil 7-8

Şirin bəy nəslinə məxsus binanın sağ tərəfində öz memarlıq üslubu və milli koloriti ilə seçilən XVIII əsrə aid üç mərtəbəli və inventarı 341 saylı "Hacı Qululların malikanəsi" adlı möhtəşəm bina Şuşa şəhərinin baş memarı Kərbəlayi Səfi xan Qarabağının əl işlərindən birdir (Şəkil 9)

Ölkə əhəmiyyətli memarlıq abidəsi erməni işğalı zamanı top atəşinə tuş gələndən sonra sadəcə divarları, iki giriş qapısı və ikinci mərtəbədə iri sütunlu, tağlı pəncərləri olan açıq verandası qalmışdır(foto 10). Malikanənin sol tərəfindəki dalğavari naxışlanmış tağlı giriş qapısının portalına yerləşdirilmiş dörd künc formalı daş lövhə üzərində iki ədəd kitabə həkk olunmuşdur (Şəkil11). I kitabənin (ölçüsü: 99x49 sm.) kənarələri çoxləçəkli gül təsiri və iki sətirlik yazı səkkizgüşəli haşiyədə gözəl süls elementli nəsx xəttlə fars dinində malikanə Məşəhədi Əlinin oğlu Hacı Məhəmməd Qulu Qarabağlıya məxsus olması yazılmışdır.





Foto 9-10-11

I kitabənin davamı olan II kitabədə (68x36 sm.) binanın inşa tarixi iri nəsx xəttlə ərəb dilində həkk olunmuşdur. Həm yazı üslubu ilə yanaşı, həm də bədii tərtibatı digər daş lövhələrdən seçilir. Belə ki, iki sətirlik gözəl nəsx xəttlə yazılan kitabənin kənarələri baş tərəflərində tülpan güllü səkkizgüşəli haşiyənin ətrafı hörmə naxışlarla, dörd küncündə isə lotos gül (şanagüllə) təsvirilə işlənilmişdir

və tarixi (1270=m.1853/54-cü il) yazılmışdır. Şuşanın digər Çöl Qala məhəlləsində Xan qızı Xurşidbanu Natəvanın evi və Natəvanın bulağına (inventar № 5043), yaxın məsafədə tarixi əhəmiyyətli Əsəd bəy Cavanşirin mülküdür. Şuşa şəhərinin icra hakimiyyəti binasının sol tərəfində yerləşən inventarı 343 saylı Əsəd bəy Cavanşirin iki mərtəbəli saray kompleksinin birinci mərtəbəsi ağ əhəng daşından, ikinci mərtəbəsi isə bişmiş qırmızı kərpicdən hörülmüşdür.

Əsəd bəy Cavanşirin inşa etdirdiyi binanın tağlı qapısı üzərində nəstəliq xəttlə iki ədəd kitabədə sahibinin ismi ilə inşa tarixi (1269/1852/53-cü il) həkk olunmuşdur.

Şəkil 12-13-14

Əsəd bəyin evinin sağ tərəfində iki mərtəbəli mülü şuşalılar "Uğurlu bəy"in evi (Şəkil 15) adlandırsalar da, lakin tağlı qapısı üzərində nəstəliq xəttlə fars dilində bir ədəd kitabə tərəfimizdən işlənildi və Uğur lu bəyin ismi ilə rastlaşmadıq. Epiqrafik araşdırmadan sonra bəlli oldu ki, mülk mərhum İbrahim bəy Cavanşirin adına (h.q.1277=m. 1860/61) inşa olunub (Şəkil 16).



Şəkil 15-16

Şuşa 28 il erməni əsirliyində qalsa da, müşahidələrimizə əsaslanaraq qeyd edək ki, nədənsə mülklər üzrərində kitabələr qalmaqdadır. Ermənilər bu kitabəli memarlıq abidələrini Şuşaya gələn qonaqlarına "fars" mədəniyyəti kimi tanıtdırırdılar. Lakin qeyd etdikləri "fars" mədəniyyətini də yarı uçuq vəziyyətə salan ermənilər düşünmürdülər ki, Şuşa Azərbaycanın mədəniyyət ocağıdır!! Qarabağın zümrüd qaşlı üzüyüdür!!! Qarabağ isə Azərbaycandır!!!

Şuşa şəhərində birinci səfərimiz məhsuldar keçsə də, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi ilə yanaşı, məzarlıqlardakı məzar daşları üzərində də işləməyə icazə verilmədi. Birinci səbəb adı gedən məscidlərdə Heydər Əliyev Fondu tərəfindən təmir-bərpa işləri aparılırdı. İkinci səsəb isə qəbirstanlıqların əksəriyyəti erməni işğalı zamanı dağıdılmış və qalanları isə təhlükəli olduğdu üçün ANAMA-nın icazəsi olmadan araşdırmaq mümkün olmadı.

Ümüd edirik ki, tezliklə səfərimizin ikinci mərhələsində Şuşa şəhərinin memarlıq və memorail abidələri tərəfimizdən epiqrafik cəhətdən tam formada tədqiq olunub nəşr oluncaq. Qeyd edək ki, Şuşa şəhərinə ezamiyyət günləri ərəfəsində müxtəlif mətnlərdən ibarət ərəb-fars-türkdilli kitabələrin estampları çıxarıldı, ölçüləri götürülərək, bədii və epiqrafik təsvirləri tərəfimizdən qeydiyyata alındı. Qeydiyyata alınan bütün kitabələrin fotoları çəkildi . Bu kitabələrin oxunması və əvvəlki oxunan epiqrafik yazılar ilə müqayisəsi Şuşanın tarixi və mədəniyyətinin öyrənilməsinə yeni izahlar gətirəcəyinə ümid edirik. Xatırladaq ki, layihə çərçivəsində Şuşa şəhərinə yeni epiqrafik tədqiqat səfərləri nəzərdə tutulur və bu araşdırmalara böyük ehtiyac duyulur.

Əliyeva Leyla
Sumqayıt Dövlət Universitetinin müəllimi

Qarabağın dağıdılmış abidələri

XX əsrin 80-ci illərinin sonları 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edərək torpaqlarımızın 20%-ni işğal etmiş və həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Bildiyimiz kimi tarix boyu Azərbaycana qarşı təcavüzlər olmuşdur. Gözəl təbiətinə, təbii sərvətlərinə, coğrafi şəraitinə görə Azərbaycan hər zaman başqa dövlətlərin diqqət mərkəzində olmuşdur. Erməni təcavüzü təkcə soydaşlarımıza qarşı olmamışdır, onlar bizim tarixi abidələrimizi, milli mənəvi dəyərlərimizi, müqəddəs ocaqlarımızı məhv etmək üçün çalışmışlar. Məlum olduğu kimi Azərbaycanın döyünən ürəyi Qarabağdır. Qarabağ ilk insanın yarandığı

məskənlərdən biri olmuş, qədim keçmişi vardır. Bu ərazi təkcə Azərbaycanın deyil, həmçinin Qafqazın iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oyanmışdır. Tükənməz sərvətlərinə görə daima başqa dövlətlərin diqqət mərkəzində olmuşdur. Qarabağ mənfur düşmənlərimizin daima hücümlarına məruz qalmış bir çox tarixi abidələrimiz dağıdılmışdır. Bildiyimiz kimi tarixi abidələr bütün xalqların keçmişinə işıq saçan, onun yaddaşını həmişə təmiz saxlayan canlı arxivlərdir. Tarixi və dini abidələr, məbədlər, müqəddəs ocaqlar təkcə xalqın tarixini deyil, həmçinin onların mənəvi yaddaşını hifz edən müqəddəs məkanlardır. Məhz bu baxımdan ermənilərin tarixi-mədəni abidələrimizi, o cümlədən məbədlərimizi məhv etmələri başa düşüləndir. Çünki onlar bizim bu yolla minilliklər ərzində yaşadığımız torpaqlardan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək istəyirlər. Ermənilərin tarixi-dini abidələrimizə vandal hücumları müxtəlif istiqamətlərdə aparılmışdır. Ermənilər tarixi abidələrimizi, milli mənsubiyyətimiz olan məbədləri uçurdaraq milli mənsubiyyətimizi yox etməyə çalışmışlar. İşğal altında olan torpaqlarımızdakı milli və dini abidələrimiz dağıdılır və təhqir olunurdu. Dağlıq Qarabağ və işğal altındakı ətraf rayonlarda Azərbaycanın tarixi mədəni irsinə qarşı təcavüzün geniş vüsət alması müşayət olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı", "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na əsasən işğal olunmuş ərazilərdə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çoxdur. Əzəli torpaqımız olan Qarabağda dağıdılmış və siyahiya alınmamış minlərlə abidələrimiz vardır. Erməni təcavüzünə məruz qalmış istər İslam, istərsə də Alban irsinə dair tarixi dini abidələrdən İrəvan "Şah Abbas" məscidi, "Buğakar" ziyarətgahı, "Ağadədə" ziyarətgahı tamamilə uçurulmuşdur. İrəvan "Göy məscidi" və "Cəfərabad" türbəsi isə özgələşdirilib dəyişdirilmişdir. Statistikaya görə düşmənin ələ keçirdiyi ərazilərdə indiyədək 12 muzey, 6 rəsm qaleriyası və tarixi əhəmiyyətli 9 saray qarət edilib və yandırılıb. 192 ziyarətgah, 144 məbəd, 67 məscid erməni təcavüzünün qurbanı olmuşdur[1]. Hal-hazırda Ermənistan Respublikasının ərazisində azərbaycanlılara məxsus yüzlərlə tarixi-memarlıq abidələri, karvansara, məscid, qəbirüstü abidələr, qəbirstanlıq və s vardır. Cəbrayıl rayonunda müxtəlif türbələr, Dağtumas kəndində XIII-XVI əsrlərə aid türbə,

[1] http://mct.gov.az/medias/media/other/296/kadastr.pdf

Şıxlar kəndində yerləşən Şıxbaba türbəsi XIV əsr, Xubyarlı kəndində XVI əsrə aid səkkizguşəli türbə və onlarla başqa tarixi-dini memarlıq nümunələri vardır. Cəbrayıl rayonu ərazisində yerləşən

Xudafərin körpüsü haqqında məlumat VIII- IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi və Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üzərində tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu-IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir[2].

23 avqust 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində rayonun yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuşdur. Məbədlər və tarixi abidələr dağıdılaraq, həm də təhqir olunmuşdur. Cəbrayıl rayonu ərazisində olan qəbirstanlıqlar uçurulmuşdur. Əsası 1827-ci ildə qoyulmuş Füzulinin Qarabulaq adlanan yaşayış məskəninin əsasında 1930-cu ildə rayon təşkil olunmuş və Qaryagin adlandırılmışdır. Dahi şairimiz Məhəmməd Füzulinin 1959-cu ildə 400 illik yubileyi münasibətilə rayonun adı dəyişdirilərək, Füzuli rayonu adlandırılmışdır. Füzuli rayonu tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngindir. Bu abidələr sırasına rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babı Yaqub (XIII əsr) türbəsini, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsini, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəni, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsini aid etmək olar. Karvansara 1681-ci ildə Füzuli rayonundakı Qarğabazar kəndinin mərkəzində, çox da hündür olmayan bir təpənin döşündə inşa olunmuşdur. Karvansara tikilisinin eni 23,7 metr, uzunluğu isə 34,7 metrdir. Qarğabazar kəndində tikildiyi üçün o, Qarğabazar karvansarası adı ilə tanınır. Bu tarixi abidəyə bəzən Şah Abbas karvansarası da deyirlər. Onun memarı məlum deyil. Memarlıq üslubuna görə Qarğabazar karvansarası Alban dövrü memarlıq ənənələrinin oxşarıdır. Girişin sağ və sol tərəflərində gözətçi otaqları qarşısında iki böyük sal daş vardır. Görünür gözətçilər həmin daşların üstündə dayanıb, karvansaraya daxil olan karvanların yüklərinə baxırmışlar. Karvansara ölkənin daşınmaz tarixi abidələrindən hesab edilir[3].

Qarğabazar kəndinin işğalından sonra ermənilər bu tarixi-memarlıq abidəsini mal tövləsinə çevirmişlər. Füzuli düşmənlərdən azad edildikdən sonra tədqiqatlar aparılmışdır və müəyyən olunmuşdur ki, ermənilər vandal

---

[2] İsmayılov F,"Tarix və mədəniyyət abidələri; qorunması, istifadəsi və bərpası barədə təlimatlar", "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2013. səh 41-43

[3] N.Məmmədov "İşğal altındakı tarixi-dini abidələrimiz", Bakı, 2015 səh.27,28

təcavüzlərindən əl çəkməyərək bütün yaşayış məskənlərin dağıtmış, evləri viran qoymuşlar. Tarixi dini abidələrimizi, məbədlərimizi uçurmuşlar. Azərbaycanlılara məxsus olan qəbir daşlarını çıxarıb Ermənistana aparmışlar. Qəbir abidələrimizi təhqir edib, ölülərin sümüklərindən belə çirkin əməllərini əsirgəməmişlər.

Laçın rayonu Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşir. 1992-ci il mayın 18-də erməni qəsbkarları tərəfindən işğal olunandan sonra rayon əhalisi məcburi köçkün kimi respublikamızın 64 şəhər və rayonunda məskunlaşmışdır. Rayon ərazisindəki Ağoğlan çayı sahilində IX əsrdə inşa edilmiş və uzun müddət fəaliyyət göstərmiş Ağoğlan monastır kompleksi yerləşir. Möhkəm bazalt daşdan tikilmiş bu möhtəşəm monastır məharətli konstruktiv həllinə görə alban xristian memarlığı abidələri içərisində xüsusi yer tutur. Monastır binasının daxili həcmi üç hissədən ibarətdir. Daşlardan hörülmüş açıq dam örtüyünü saxlayan hündür daş sütunlar silindrik formalı tağbəndlərlə tamamlanır. Məbədin daxili sahəsini işıqlandırmaq üçün divarlarda ensiz və uzunsov pəncərələr vardır[4].

V-VI əsrlərə aid alban monastırı olan "Ağoğlan" məbədi Laçın rayonu ərazisində, Ağoğlan çayının sahilində yerləşir. Tarixi abidə əvvəllər qəsr olmuş, lakin müxtəlif dövrlərdə dağıntılara məruz qalmışdır. IX əsrdə kilsə üslubunda yenidən inşa edilərək monastır formasına salınmışdır. Köhnə divarlar üzərində yeniləri tikilsə də, abidə ilk bünövrəsini olduğu kimi saxlamış və alban dövrü memarlığının möhtəşəm nümunələrindən birinə çevrilmişdir. Əvvəllər məbədin qəsr kimi tanınması rəvayətlərdə də öz əksini tapmışdır. Tikilən qəsr vaxtilə "Qaranquş qəsri" adı ilə də bilinmişdir. Məbəd kifayət qədər böyük ölçülərə malikdir. Plan baxımından üç nefli olan düzbucalı bazilikadan ibarətdir. İbadət zalının bütün nefləri silindrik formalı tağlarla örtülmüşdür. 1992-ci ildə erməni qəsbkarları ərazini işğal etdikdən sonra "Ağoğlan" məbədini özününküləşdirməyə başlamışlar. Onlar məbədi təmir etmək adı altında abidənin divarları qriqoryan məzhəbinə məxsusluğunu göstərən 26 yazı lövhəsini abidənin divarlarının müxtəlif yerlərinə bərkitmişlər. Saxtakarlıqlarında daha da irəli gedən ermənilər kompleksin ümumi giriş qapısının önündə İrəvandan gətirilmiş xaçdaşlar basdırmış, binanın fasadını söküb kirəmid və dəmirlə əvəzləmişlər. 2007-ci ildə İrəvan şəhərində Ermənistan hökumətinin tapşırığı ilə erməni yepiskopları daxili qərarla abidəyə erməni qriqoryan kilsəsi statusu verməklə işğal olunmuş

[4] N.Məmmədov Güllələnən abidələr: Şuşa. "Cəmiyyət və din" qəzeti. Bakı, 04 saylı, 28 may-03 iyun 2009-cu il tarixli nömrəsi

ərazilərdə Azərbaycan mədəniyyətinə və tarixinə qarşı soyqırımı siyasəti yürütdürdüklərini bir daha əyani şəkildə göstərdilər. Erməni təcavüzkarları bizim tariximizi yox etmək istəmişlər. Bəzi məbədlərimizi özününküləşdirərək, bizim milli mənsubiyyətimizi yox etməyə çalışmışlar. Bütün Qərb dövlətləri buna göz yumaraq, xalqımıza tariximizə olan bu haqsızlığa biganə qalmışlar.

Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələrini darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu işğal altında olan Vətən torpağını Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini işğaldan azad etmişdir. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da imzalanan üç tərəfli bəyanata əsasən isə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir.

Azərbaycanda, ilk dəfə olaraq, “ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyası tətbiq olunur. “Ağıllı kənd” layihəsi ilkin olaraq Zəngilan rayonunun Üçüncü Ağalı kəndində artıq uğurla icra olunur. Qeyd etmək lazımdır ki, “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyası özündə Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafını ehtiva edir.

Əsədova Aytən
Sumqayıt Dövlət Universitetinin müəllimi

İşğal dövründə Kəlbəcərdə məhv edilən tariximiz

Kəlbəcər Azərbaycanın ən gözəl təbiəti, zəngin sərvətləri olan diyarıdır. Kəlbəcər ölkəmizin ən yüksək dağ rayonudur. Ərazi sıx meşələri ilə zəngindir. Sanki tanrı bütün gözəllikləri Kəlbəcərə bəxş edib. Kəlbəcər eyni zamanda Azərbaycanın ən böyük rayonlarından biridir. Kəlbəcər o cümlədən qızıl, civə, qiymətli tikinti materialları ilə zəngindir. Kəlbəcər tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri ilə zəngindir. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Kəlbəcərin tarixi abidələrinin əksəriyyəti məhv edilmişdir. Bu abidələrə Keşikçi qalasını, Comərt qalasını, Qalaboynu qalasını, Lök qalasını, Həsən Camal kilsəsini, Uluxan qalasını, Alban kilsələrini, körpüləri (Tağlıdaş körpüsünü), ziyarətgahları, Tarix-Diyarşünaslıq muzeyini, mədəniyyət evlərini (Aşıq Şəmşir adına və sair) göstərə bilərik.

Kəlbəcər toponiminin mənası türk mənşəli olub "Keveliçev" kimi işlənib "Çay üstündə qala" deməkdir[1]. Qədim insan məskəni olan Kəlbəcər ibtidai insanın təşəkkül tapması üçün əlverişli təbii coğrafi şəraitə malikdir. Kəlbəcər qayaüstü rəsmləri, Alban abidələri, qəbirüstü qoç fiqurları ilə məşhurdur. Zar düşərgəsi, Xoşbulaq kurqanları ərazinin tarixi keçmişinə işıq salır[2].

Kəlbəcərin ən böyük abidələr kompleksi olan abidələrdən biri Xudavəng abidəsidir. Orta əsrə aid Vəng kəndində, Tərtər çayının sol sahilində yerləşir. IV-XIV əsrlərə aid olan bu abidə bir neçə bazilikadan və yardımçı tikililərdən ibarətdir. Ən qədim tikili Alban bazilika daşına aiddir. Əfsanəyə görə burada Qafqazda ilk xristian missioneri olmuş apostol Faddey dəfn edilmişdir[3].

Bu səbəbdən də Kəlbəcərdə yerləşən Xudavəng məbədi Zaqafqaziyada ən qədim və ən məşhur xristian ziyarətgahı sayılır. Burada XIII-XIV əsrlərdə əlavə tikinti işləri aparılmışdır. Kompleksə 9 tikili aiddir. Kompleks "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin" siyahısına aid edilib. İşğal dövründə bu qədim abidə erməni kilsəsi kimi təqdim edilib. .

1980-ci ildə əsası qoyulan Kəlbəcər Tarix-Diyarşünaslıq muzeyində 30 minə yaxın eksponat sərgilənirdi. Hətta muzeyin həyətində işğaldan əvvəl 14 qəbirüstü at və qoç heykəlləri nümayiş etdirilirdi. Bu ərazidə Bəzir daşıda

---

[1] Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Şərq- Qərb. Bakı 2007.s.304.
[2] Azərbaycan arxeologiyası.6 cilddə .6-cı cild.Şərq-Qərb. Bakı 2008.s.632.
[3] Cəbiyev Q.Azərbaycan Arxeologiyasının Əsasları.Elm və təhsil.Bakı 2018.s.289

qorunurdu. Sovet dövründə (işğaldan əvvəl) Kəlbəcər ən məşhur arxeoloji muzey idi. Bura dünyanın bir çox ölkələrindən alimlər gəlirdilər. Səbəb isə Kəlbəcər muzeyinin bədii və tarixi səciyyə daşıyan eksponatlarla zəngin olması idi. İşğal zamanı muzeyin eksponatlarının çox az hissəsini çıxarmaq mümkün olmuşdur. Yalnız işğaldan sonra bir otaqdan ibarət Bakı şəhərində muzey fəaliyyətə başlamışdır. 30 minə yaxın eksponatı olan muzeydən geriyə yalnız 6300 eksponatı olan kiçik bir muzey qalmışdı. Çox təəssüflər olsun ki, vaxtı ilə həm tarix-diyarşünaslıq muzeyi, həm geologiya, arxeologiya, incəsənət və səs muzeyi olan Kəlbəcər muzeyi erməni vandalizminin qurbanı olmuşdu. Təkcə muzeyin çöl divarlarında 2037 rəng çaları olan daşlardan istifadə edilmişdir.

Qədim diyarımız Kəlbəcər 1993-cü ildə 2 apreldə erməni silahlı qüvvələri tərəfindən işğal edildi. İşğal nəticəsində yerlə-yeksən edilən Kəlbəcərdə yüzlərlə dinc sakin öldürülmüş, əsir götürülmüş, itgin düşmüşdülər. 128 kənd dağıdıldı, 53 mindən çox azərbaycanlı öz dədə baba yurdlarından didərgin düşdü. İşğal zamanı qədim körpülər, nekropollar, məbədlər məhv edildi. Tarix və mədəniyyət abidələrinə 14 milyard 382 milyondan çox ziyan dəyib[4]. Ermənilər 30 ilə yaxın işğal dövründə Kəlbəcərdə olan abidələri məhv etməklə yanaşı, bəzi abidələri isə ermənileşdiriblər. Ən çox ermənileşdirilən abidələr isə Alban məbədləridir. Kəlbəcərdə məşhur Gəncəsər, Xanberd, Hermunk qalaları, memarlıq abidələri erməni vəhşiliyinə məruz qalmışdı. Alban məbədlərinində qədim yazılar silinərək, sökülərək erməni xaçları yerləşdirilmişdir. Alban məbədlərinin ermənileşdirilməsinə XIX əsrdən (1828-ci il Türkmənçay sülhündən sonra 1837-ci ildə) başlanılmışdır. Alban məbədlərini saxtalaşdırdıqları halda müsəlman abidələri isə təhqir edilir, təmamilə dağıtmışdılar. Alban memarlıq üslübunda olan Gəncəsər (Qandsazar) məbədində olan yazı lövhələri sökülərək yerinə erməni dilində yazı lövhələri yerləşdirilmişdi. Bu məbəd 1511-ci ildən 1836-cı ilədək, yəni, Rusiya Provaslav Kilsəsi Sinodunun rəsmi qərarə ilə Alban kilsəsi ləğv edilənədək diofizit alban xristianlarının iqamətgahı olmuşdur[5]. Məbəddə olan qədim yazı nümunələri əsasında məlum olur ki, məbəd Vaxtanqın vəsiyyəti ilə 1216-cı ildə tikilməyə başlamışdı. Bu məbəddə Arsax hökmdarı Həsən Cəlal dəfn edilmişdir. 1261-ci ildə Qəzvində monqollar tərəfindən qətlə yetirilmişdir. Məbəddə olan bütün yazılar bu abidənin məhz yerli əhaliyə aid olduğunu təsdiq edir (sonradan köçürülən və hər şeyi öz adlarına çıxan ermənilərə yox).

---

[4] İsmayılov F.Azərbaycanın işğal olunmuş ərazilərdəki tarix və mədəniyyət abidələrinə vurulan zərər.Bakı 2016.s91.

[5] Məmmədov N. İşğal altındakı tarixi- dini abidələrimia.Nurlan .Bakı 2015.s.39.

Erməni vəhşiliyi nəticəsində Kəlbəcərdə Alban məbədləri, orta əsr qəbirstanlıqları, Seyid ocaqları, XVIII-XIX əsrlərə aid məscidlər, Ziyarətgahlar, daş at, qoç fiqurları (XIX əsrə aid ərəb yazısı ilə), Ballıqaya nekropolluğu (son tunc-ilk dəmir dövrü), Urud abidələri məhv edilmişdir. İşğal nəticəsində Kəlbəcərdə olan abidələrə 14382960000 AZN ziyan dəymişdi[6]. Ermənilərin etdikləri bu vəhşilik beynəlxalq konvensiyalara ziddir, hətta ermənilər abidələri yalnız münaqişə zamanı deyil, 30 ilə yaxın işğal dövründə də məhv etmişdilər. Ermənilərin etdikləri 1954-cü il Haaqa konvensiyasının, 1992-ci il Avropa konvensiyasının, UNESKO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Ermənilər nəinki Kəlbəcərdə Qarabağda olan bütün muzey və abidələri məhv etmişdilər. İşğaldan əvvəl Qarabağda 8 dünya, 166 ölkə, 588 yerli əhəmiyyətli abidə qeydiyyata alınmışdır. Dağlıq Qarabağ və ətraf ərazilərdə minlərlə abidə qeydiyyatdan kənarda qalmışdır. Nəzərə almaq lazımdır ki, işğal dövründə abidələrimiz erməni vəhşiliyinin qurbanı olmuş, 100-ə yaxın abidə erməni kilsəsi kimi sənədləşdirilib. Mədəniyyət paytaxtı olan Şuşa ətraf ərazilərdə 500-dən çox abidə erməni abidəsi kimi qeydiyyata alınıb. İşğaldan əvvəl Qarabağda 22 muzey fəaliyyət göstərmişdir, 4 rəsm qalereyası, 300 eksponatı olan xalça muzeyi talan edilmişdir. Dünyada ikinci hesab edilən "Ağdam Çörək" muzeyinə düşən 2 mərmi muzeyi tamamilə dağılmışdır. Ağdam Çörək muzeyində işğaldan əvvəl sərgilənən ən qədim eksponat isə e.ə. VII minilliyə aid olan daşlaşmış buğda dənələri idi[7]. Təkcə Şuşada 8 tarixi mədəniyyət evi məhv edilmişdir[8]. 1969-cu ildə yaradılan Şuşa Tarix Muzeyinin ən çox eksponatı olan bölməsi Yuxarı Gövhərağa məscidində yerləşirdi. 2500-dən çox eksponatı olan muzeydə XVIII əsrdən Şuşanın tarixini izləmək üçün bütün materiallar var idi[9].

Onu da qeyd etmək lazımdır ki, təkcə Kəlbəcər rayonunda həm sağlamlıq, həm dağ kurortu üçün bütün imkanlar var, eyni zamanda tarixin bütün mərhələlərini əks etdirən abidələri ilə zəngindir. Bura dünyanın bir çox ölkələrindən şəfa tapmaq üçün turistləri cəlb etmək olar. Necə ki, Naftalan neftinin şöhrəti kimi[10]. Kəlbəcərdə və ətraf rayonlarda da şəfalı mineral

---

[6] İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərdəki tarix və mədəniyyət abidələrinə vurulan zərər.Bakı 2016.s.60

[7] Ermənistanın Azərbaycanlılara məxsus mədəni və tarixi irsi mənimsəməsi Hesabat. Beynəlxalq munasibətlər təhlil mərkəzi. Bakı, 2021.s 40.

[8] Qacar Ç. Köhnə Şuşa.Şərq- qərb.Bakı 2019 .s. 6-7.

[9] Tofikli V. Ağdam Çörək Muzeyi.dünəni, bu günü və sabahı.Bakı Adiloğlu.2011-İSBN9789952251302.

[10] Əsgərov Ə.T., Bilalov B.Ə., Ç.G.Gülalıyev. Ekoloji turizm. Bakı, 2011, s.14.

yataqlarından yararlanmaqla çox təəssüf ermənilər bu imkanlardan da qanunsuz istifadə edib.

30 minillik tarixi olan Kəlbəcər dünyada qaya rəsmləri (6000 il yaşı olan) ilə məşhur olan qədim türk əlifbasının aşkar olunduğu abidələrlə zəngin, atəşpərəstliyin, xristianlığın, islamın yayıldığı dövrləri əhatə edən tarixi arxeoloji memarlıq abidələri ilə zəngindir. Tarixin bütün inkişaf mərhələlərini izlədiyimiz bu qədim diyar işğal dövründə erməni vandalizminin qurbanı olmuşdur. Kəlbəcərin boşaldılması üçün bədnam ermənilərə verilən on günlük müddət ərzində onlar öz çirkin əməllərindən əl çəkməmiş, sıx meşələri yandırılmış, kəsilən ağac materialları Ermənistana daşınmışdır.

Nəhayət, 30 ilə yaxın erməni işğalında olan qədim dədə-baba yurdumuz 25 noyabr 2020-ci ildə işğaldan azad edilmişdir. İşğaldan sonra aparılan quruculuq işləri nəticəsində Kəlbəcər öz sakinlərinə qucaq açmaqdadır, Cənubi Qafqazın ən məşhur alban məbədlərindən olan Xudavənd monastrı öz sakinlərinə qovuşub. Aparılan quruculuq işləri nəticəsində inanırıq ki, Kəlbəcər işğaldan əvvəlki vəziyyətindən daha da gözəl olub çiçəklənəcək.

Fərhadov Əli
Milli Azərbaycan Tarixi Muzeyinin Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi şöbəsinin aparıcı elmi işçisi,tarix üzrə fəlsəfə doktoru, dosent

Seyid Nigarinin yaradıcılığında dini, təsəvvüfi, maarifçi görüşlərinə dair (farsca Divanı əsasında)

XIX əsrdə bir çox ruhani və sufi mütəfəkkir Azərbaycanda dini elmlərin, sufizmin, maarifçiliyin inkişafında böyük rol oynamışdır. Onlar eyni zamanda Rusiyanın Azərbaycanı işğal siyasətinə qarşı mübarizə aparmışdır. Rusiya hökumətinin müsəlman ruhanilərinə olan təzyiqləri nəticəsində bir çox görkəmli ruhani, sufi və şeyxlər Azərbaycanı tərk etməyə məcbur olmuşdu. Bunlara nümunə olaraq XIX əsrin ən görkəmli Azərbaycan mütəfəkkirlərindən biri olan Seyid Mir Həmzə Nigarini (1805-1885) göstərə bilərik.

Seyid Mir Həmzə Nigari əslən qarabağlı olub[1], ilk mədrəsə təhsilindən sonra elmini artırmaq məqsədilə Yaxın Şərq səyahətinə çıxmışdır. Sivasa gedərək doqquz il Şeyx İsmayıl Şirvaninin müridi olmuşdur. Həccə gedib qayıtdıqdan sonra mürşidinin təlimatı ilə Qarabağa, öz kəndinə dönən mütəfəkkir burada irşad və tədris fəaliyyəti ilə məşğul olmuş, Azərbaycanı işğal edən ruslara qarşı cihada hazırlaşmışdır. Şeyx Şamilin rəhbərlik etdiyi müridizm hərəkatının təşkilatçılarından biri olan[2] Seyid Nigarinin Azərbaycanda üsyan planının üstü açıldıqdan sonra o, Sibirə sürgün edilməmək üçün[3] məcburi olaraq vətənini tərk etmiş, 1853-cü ildə Krım savaşında Rusiya ilə müharibə içində olan Osmanlı ordusuna qatılaraq rus ordusuna qarşı vuruşmuşdur[4]. O, İsmayıl Şirvaninin vəfatından sonra Amasiyada təfsir, hədis dərsləri vermiş, nəqşibəndi mürşidi kimi təsəvvüfi irşad fəaliyyəti ilə məşğul olmuşdur[5].

"Ey Mir Nigari, vətənimdən bir xəbər yetişmədi,
De ki səba Qarabağ gülzarına səfər etsin".

- deyən Nigarinin yaradıcılığında Qarabağ həsrəti əsas yerlərdən birini tutur[6].

Əslən qarabağlı olan türkiyəli tədqiqatçı F.Akabalının 1929-cu ildə yazdığı "Hümayi-eşq" (eşq xoşbəxtliyi-Ə.F.) adlı mənaqibnaməyə görə Nigari təxəllüsü şairə ilk təhsil illərində yardımçı olan Nigar xanıma olan hörmətindən qaynaqlanmışdır[7]. Şairin "Nigarnamə" adlı dini-təsəvvüfi əsəri də var.

Seyid Nigari türkcə, ərəbcə, farsca şeirlər yazacaq qədər böyük bir şair olmuş, türkcə, farsca Divanlarında və s. əsərlərində təsəvvüfi düşüncələrini ortaya qoymuşdur. Bu məqalədə sufi şairin əsasən farsca Divanından olmaqla digər əsərlərindən də dini, təsəvvüfi, maarifçi görüşlərinə dair nümunələr verməyə çalışacağıq.

---

[1] Rıhtım M. Qarabağın bülbülü Həmzə Nigari // İrfan, № 2, 2005, s.98; Ormanlı H. Mir Həmzə həzrətlərinin kəramətləri. "Təzadlar" qəz., 24 may, 2011.
[2] Ormanlı H. Mir Həmzə həzrətlərinin kəramətləri. "Təzadlar" qəz., 24 may, 2011.
[3] Rıhtım M. Azərbaycanın bilinməyən tarixi: Amasiyada yatan könül ərləri. "Zaman" qəz., 19 noyabr, 2011.
[4] Bayram P.M. Qarabağlı Seyid Mir Həmzə Nigarinin həyatı, yaradıcılığı və türkcə divanının poetik strukturu: Filol. elm. nam. ...dis. avtoref. Bakı, 2008, 26 s., s.17.
[5] Bayram P.M. Qarabağlı Seyid Mir Həmzə Nigarinin həyatı, yaradıcılığı və türkcə divanının poetik strukturu: Filol. elm. nam. ...dis. avtoref. Bakı, 2008, 26 s., s.8; Rıhtım M. Azərbaycanın bilinməyən tarixi: Amasiyada yatan könül ərləri. "Zaman" qəz., 19 noyabr, 2011.
[6] Məmmədli N. Mir Həmzə Seyid Nigarinin Fars Divanı // II Beynəlxalq Həmzə Nigari Simpoziumu (20-22.10.2014). Bakı, 2017, s.17.
[7] Nigari. Divan / Haz: A.Bilgin. Ankara: T. C. Kültür ve Turizm Bakanlığı kütüphaneler ve Yayımlar genel müdürlüğü, 2011, 639 s., s.7.

Nigarinin farsca Divanı İstanbulda hicri 1329-cu (miladi 1911) ildə nəşr edilmişdir[8]. Süleymaniyyə kitabxanasında (Ali Nihat Tarlan, №188)[9] və Bayazit İl Xalq Kitabxanasında (Amasya, kitab №1887) əlyazmaları qorunur[10]. Farsca Divanı istər məna və məzmun, istərsə də struktur və forma baxımından türkcə Divanına çox bənzəyir. Türkcə Divanda Füzuli ruhu, üslubu aydın hiss edilir, farsca Divanda isə Hafiz Şirazinin təsiri daha qabarıq şəkildə müşahidə edilməkdədir[11]. Farsca əsərin bir hissəsi Nigarinin yaxın qohumu Mustafa Fəxrəddin Akabalı tərəfindən osmanlı türkcəsinə tərcümə və şərh edilmişdir[12]. Məqalədə də farsca Divanın bu tərcümə və şərhindən istifadə edilmişdir.

İlk öncə qeyd edək ki, Seyid Nigari bir ilahi eşq şairidir, mütəfəkkiridir. Nigariyə görə ilahi eşqlə yana bilmək təsəvvüfün əsas hədəfidir. Eşq insanın Allaha qovuşması üçün yeganə vasitədir[13]. O, Nizami Gəncəvi, M.Füzuli yaradıcılığından üzü bəri Leyli və Məcnun obrazlarında gördüyümüz ilahi eşqlə dolu aşiq-məşuq rəmzlərini öz yaradıcılığında da tətbiq edir:

"Ey ögüd verən zat, buradan uzaqlaş, çünki Seyid Nigari bu zamanda sərxoşdur, məcnundur. Leylanın gözinə həvəskar və arzukeşdir"[14].

Nəqşibəndi şeyxi olan Seyid Nigari özünün ilahi eşqlə dolu olub dünyaya bağlanmadığını belə göstərirdi:

"Bizim sinəmizdə nigarın nəqşi və sövti vardır. əğyarın xəyalından heç bir şey yoqdur, çünki Bəhaəddin Nəqşibəndinin dairəsində əğyar məfquddur (yox kimidir)"[15].

Seyid Nigari riyakar din xadimlərini, xalqın zəkatında, sədəqəsində gözü olan ruhaniləri, təsəvvüf əleyhdarlarını və yalançı sufiləri "hüquq və əhdə riayət etməyən, həqiqət elmindən xəbərsiz zahidi-xər"[16] (eşşək zahid-Ə.F.) adlandırır, onların din anlayışını "sərab"a – ilğıma bənzədir, onların ilahi şəraba – ilahi eşqə möhtac olduğunu belə ifadə edirdi:

---

[8] Məmmədli N. Mir Həmzə Seyid Nigarinin Fars Divanı // II Beynəlxalq Həmzə Nigari Simpoziumu (20-22.10.2014). Bakı, 2017, s.11.
[9] Bilgin A.A. Nigari // TDV Ansiklopedisi. C.XXXIII. İstanbul, 2007, s.85-87.
[10] Məmmədli N. Mir Həmzə Seyid Nigarinin Fars Divanı // II Beynəlxalq Həmzə Nigari Simpoziumu (20-22.10.2014). Bakı, 2017, s.11.
[11] Məmmədli N. Mir Həmzə Seyid Nigarinin Fars Divanı // II Beynəlxalq Həmzə Nigari Simpoziumu (20-22.10.2014). Bakı, 2017, s.11.
[12] Bilgin A.A. Nigari // TDV Ansiklopedisi. C.XXXIII. İstanbul, 2007, s.85-87.
[13] Çınar F. Mürşidi aşk olan bir veli: Seyyid Mir Hamza Nigari // Somuncu Baba, 2009, yanvar, s.42-43.
[14] Akabalı M.S.M.F. Seyyid Hamza Nigari hazretlerinin farsca divanının terceme ve şerhi, 1929. M.Rıhtımın şəxsi əlyazma kolleksiyasından, s.301.
[15] Yenə orada. s.276-277.
[16] Yenə orada. s.124, 253-254, 258, 271.

“Ey saqi, zahid kibi bana sərabı göstərüb də iç demə. Ey əhli-təşnə (arzu əhli-Ə.F.), bana şərab, şərab ver”[17].

Seyid Nigarinin yaradıcılığında dindən danışan saxtakar ruhanilər, riyakar dərvişlər belə tənqid edilirdi:

“Vaiz ki həqiqəti bilmiyor və tanımıyor, nə əcəb şeydir, Niçin həqqi bilməz və tanımaz. Nədən dolayı aşiqlərdən degildir, əcəba!”[18].

“Safi olmayan sufinin riyaxanasının yanından uzaqlaşalım. Oradan qaçaraq keçəlim. Təvəqqüf etməyəlim. Zira ki şərab içənlərin o səmtə uğradıqları və yanından keçdikləri yoqdur”[19].

Seyid Nigarinin şeirlərində islam vəhdəti bütün canlılığı ilə hiss olunur. O, islamın ilk xəlifələrinə - Əbu Bəkir, Ömər, Osman, Əli kimi səhabələrə əsərlərində bərabər yer verir, dini düşüncədə onlara əsaslandığını bildirir, onlar arasında fərq qoymurdu:

“O heyrətverici pərdə ki könül tələb səhrasına düşdü. Qorqusuz, əndişəsiz bu səhrada yüzüyorum. Çünki istihzar etdigim, kəndilərinə dayandığım dört kimsəm vardır[20].

“Biz vəhdətiyiz məzhəbimiz rahi-Xudadır”[21], “Talibə guşeyi-vəhdət kimi məktəb olmaz”[22] deyən şair məzhəb ixtilaflarının tərkini tövsiyə edir, “Sən bizə məzhəblərdən bəhs etmə, biz vəhdət yolunun yolçusuyuq, eşq aləmində tək bir məzhəb vardır, iki məzhəblilik bizə yaraşmaz” mənasında belə deyirdi:

“Qılma tə`dadi-məzahib bizə kim vəhdətiyiz
Aləmi-eşqdə ey xacə dü məzhəb olmaz”[23].

Şairə görə ilahi eşqdə məzhəb ola bilməz. Bütün sevgilər Allaha aid olduğu kimi bütün təriqətlər, məzhəblər də Allaha gedən müxtəlif yollardır.

Onun həqiqi müsəlman anlayışını bu ifadəsi daha gözəl təsvir edir: ”Əzəl yazıçısı (Allah-Ə.F.) aşiqlərin başı üzrə “mətləb, məqsəd, məram nigarın didarıdır (Allahın özüdür-Ə.F.), cənnət degildir” deyə yazmışdır”[24].

---

[17] Akabalı M.S.M.F. Seyyid Hamza Nigari hazretlerinin farsca divanının terceme ve şerhi, 1929. M.Rıhtımın şəxsi əlyazma kolleksiyasından, s.160.
[18] Yenə orada., s.271.
[19] Yenə orada. s.222.
[20] Yenə orada. s.187.
[21] Nigari. Divan, s.183.
[22] Nigari. Divan, s.193; Bayram P. Seyid Nigaridə İbnül-Ərəbi təsiri və vəhdəti-vücud, s.249.
[23] Yenə orada. s.193; Yenə orada. s.250.
[24] Akabalı M.S.M.F., a.g.ə., s.285.

Bu böyük şəxsiyyətin yaradıcılığında əhli-beyt sevgisi əsas yerlərdən birini tutur və o, əhli-beyt sevgisindən uzaq olan şəxslərin ilahi dərgahdan da qovulacağını göstərirdi.

"Nəzərində ali-əba (əhli-beyt) olmayan kimsələrin dərgahi-kərəmkardan (ilahi dərgahdan) bəid (uzaq) oldığına şübhə yoqdur" deyən mütəfəkkir Quranın "Şura" surəsinin 23-cü ayəsində keçən və hz. peyğəmbərin hədisi ilə hz.Əli, Fatimə və oğullarına işarə etdiyi bildirilən "De: "bən sizə təbliği-ehkam və doğru yolı göstərmək için keçən əməklərim qarşılığında sizdən heç bir şey istəmiyor və bəkləmiyorum. Yalnız bana yaqın əqrəbama, xasıma, soyuma sevgi istiyorum" ayəsinə işarə edirdi[25].

"Cənnət əhli nə bilür halini Mərvanilərin
Sən Müaviyələri şeytani-cəhənnəmdən sor"[26].

deyərək Müaviyə, Yezid kimi əhli-beyt düşmənlərinə və ədalətsizliyə qarşı mübarizə aparan mütəfəkkir məhz nadan din xadimlərinin və təsəvvüf düşmənlərinin qərəzi səbəbilə Türkiyədə də bir çox əziyyətlərə düçar olmuş, ömrü sürgünlərdə keçmiş və bu şəkildə də vəfat etmişdi[27].

Ölkəsi işğal altında olan, özü vətənindən didərgin düşən Nigari hər şeyə rəğmən Allaha sidq-ürəklə belə təvəkkül edirdi:

"Ey Mir Nigari, başına nə gəliyorsa həp yardan gəliyor. Madam ki işin böylə oldığını anlayorsın, taledən nə şikayət edüb turuyorsun"[28].

Ustadı İsmayıl Şirvaninin dediyi kimi "ilahi eşq ilə məhvi-vücud"[29] olan Nigarinin təsiri Sovet təqiblərinə baxmayaraq Azərbaycanda yox olub getməmiş, şeirləri zikr məclislərinin yaraşığı olmuşdur[30]. Deyə bilərik ki, Seyid Nigari Azərbaycanın görkəmli sufi mütəfəkkiri olmaqla yanaşı həm maarifçilik və həm də azadlıq uğrunda mübariz mücahid olmuş, Rusiya işğalına, zülm və haqsızlığa qarşı həm silahla, həm də sözlə mücadilə etmişdir. Bu kimi ziyalıların həyat və yaradıcılıqlarının tədqiqi və təbliği böyük əhəmiyyətə malikdir. Bu cür mütəfəkkirlərin, xüsusilə mühacirətdə fəaliyyət göstərməyə məcbur olmuş ziyalıların əsərlərinin müasir Azərbaycan dilinə çevrilməsi, onların yaradıcılığının tədqiq və təbliğ edilməsi Azərbaycanda dini maarifçiliyin təbliğində, dini, təsəvvüfi araşdırmaların inkişafında böyük rol oynayar.

---

[25] Akabalı M.S.M.F., a.g.ə., s. 269-270.
[26] Nigari. Divan, s.169.
[27] Yenə orada. s.9-10.
[28] Akabalı M.S.M.F., s.279.
[29] Nigari. Divan, s.12.
[30] Rıhtım M. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Şəfa əl-əsrar (Sufiliyin sirləri) adlı əsəri. Bakı: Elm, 2010, 408 s., s.57.

Xəlilova Fəridə
AMEA Milli Azərbaycan Tarixi Muzeyi
Etnoqrafiya elmi fond şöbəsinin kiçik elmi işçisi

Qarabağa məxsus güləbətin tikmə sənəti nümunələri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Tikmə sənəti Azərbaycanda qədim sənət sahələrindən biridir. Digər sənət növlərində olduğu kimi, tikmə sənətinin də təşəkkül tapıb, inkişaf etməsi üçün təbii-coğrafi şəraitin və xammal bolluğunun böyük əhəmiyyəti olmuşdur. Azərbaycanda tikmə sənətinin müxtəlif növlərinin inkişafı üçün zəruri olan təbii ehtiyyatların zənginliyi və yerli əhalinin, xüsusilə qadınların bu sənətə xüsusi marağı əsrarəngiz tikmə məmulatının yaranması üçün şərait yaratmışdır.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanın Bakı, Şamaxı, Şuşa, Gəncə, Şəki kimi inkişaf etmiş şəhərlərində tikmə sənətinin ənənəvi sahələri olan "güləbətin", "pilək", "muncuq", "təkəlduz", "zərənduz", "quşgözü", "hamar", "doldurma" və s. tikmə növləri geniş tətbiq edilməkdə idi[1].

Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda bir çox tikmə sənəti nümunələri qorunub saxlanmaqdadır. Tikmə növlərindən həm evlərin daxili interyerinin, həm də geyimlərin bəzədilməsində istifadə edilirdi. Etnoqrafiya fondunda milli və əsrarəngiz tikmə növləri ilə bəzədilmiş yorğanüzü, balışüzü, müxtəlif kisələr (tənbəki, gərdək, pul və s.), kosmetika və ətriyyat aksessuarları, kiçik məişət əşyaları üçün nəzərdə tutulmuş torbalar qorunub saxlanılır.

Tikmə sənətinin növlərindən biri olan güləbətin tikmə növü Azərbaycanda, o cümlədən digər türk xalqlarında geniş yayılmışdır. Güləbətin tikmə üsulu üçün əsas xammal hesab olunan qızıl, gümüş və mis tellər (simlər) "həddə" adlanan alət vasitəsilə çəkilirdi. Bunun üçün metal əridilərək rəcəyə tökülür və rəcənin böyükdən-kiçiyə doğru deşiklərindən növbə ilə keçirilir, nəticədə metal tellər əmələ gəlirdi[2]. Göründüyü kimi, əsas xammalı metal olan güləbətin tikmə növünün Azərbaycanda inkişaf etməsi üçün burada metalişləmənin geniş yayılması zəmin yaratmışdır. Güləbətin tikmə sənəti mürəkkəb olmaqla bərabər,

---

[1] Abdulova G. Azərbaycan tikmələri /Azərbaycan xalçaları, c.4, № 11. 2011 s. 99.
[2] Abdulova G. Azərbaycan zərgərlik sənətinə dair / Milli Azərbaycan Tarixi Muzeyi, 2008. s.383-384

çox böyük vəsait hesabına başa gəlirdi. Buna görə də, həmin peşə ilə əsasən varlı ailələrin qızları, gəlinləri məşğul olurdular[3].

Güləbətin parçaların istehsalına xeyli gec, erkən orta əsrlərin sonu və inkişaf etmiş feodalizm dövrünün əvvəllərində başlandığı güman edilir. Feodallaşma prosesi gücləndikcə cəmiyyətin yuxarı təbəqələrinin yüksək geyim dəbləri və təntənəli məişət şəraiti güləbətin ilə toxunulmuş al-əlvan naxışlı, yüksək bədii keyfiyyətə malik parçalar tələb edirdilər[4]. Güləbətin tikmə sənətinin Azərbaycanda cəmləşdiyi əsas mərkəzlərdən biri məhz Şuşa şəhəri olmuşdur. Lakin MATM Etnoqrafiya fondunda Azərbaycanın Qarabağ zonası ilə bərabər Bakı, Şamaxı, Naxçıvan bölgələrinə məxsus güləbətin tikmə nümunələri mühafizə olunur.

Güləbətin sözünün mənası "üzərində zərdən gülləri olan" deməkdir[5]. Lakin güləbətin tikmə üsulu ilə yalnız gül naxışları deyil, həndəsi, həmçinin qədimi inanclara söykənən simvolları əks etdirən naxışları da tikirdilər. Digər türk xalqlarında isə bu tikmə üsulu "altınişi", "zərdüzi", "telkırma", "akkayma" və s. kimi adlandırılır. Güləbətin işləmələr texnikasına görə iki cürdür: 1) səthi hamar, 2) səthi qabarıq, yaxud relyefli[6].

Muzeyin Etnoqrafiya fondunda mühafizə edilən geyim nümunələrinin əsasən bəzək elementlərində güləbətin saplara rast gəlinir. Zəngin kolleksiyada sözügedən tikmə üsulundan az istifadə edilsə də, Qarabağa məxsus olan EF inv. 2053 və EF inv. 3571 nömrəli küləcə (baharı) və çəpkən güləbətin tikmə növü haqqında ən gözəl təəssüratı yaradır.

Şuşaya aid baharı qırmızı məxmərdəndir. Qeyd edək ki, "yerlik" parça materialı kimi başlıca olaraq, sıx toxunuşlu, yekrəng parçalardan, ən çox isə qırmızı, qəhvəyi, bənövşəyi, mavi və ya yaşıl rəngli məxmər işlədilirdi[7]. Bu da estetik baxımdan məmulata zəriflik bəxş edirdi. Geyimə xüsusi gözəllik verən onun zəngin bəzəklə

[3] Əliyeva G. Azərbaycanın bədii parça və tikmələri. XIX-XX əsrlər. Bakı, 1990. s.103
[4] Mustafayev A. Azərbaycanın maddi mədəniyyəti (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, 2009.s.66
[5] güləbətin, Azərbaycan dilinin etimologiya lüğəti. Obastan - onlayn lüğətlər və ensiklopediyalar)
[6] Əliyeva G. Azərbaycanın bədii parça və tikmələri. XIX-XX əsrlər. Bakı, 1990. s 101.
[7] Mustafayev A. Azərbaycanın maddi mədəniyyəti (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, 2009.s.91

tərtiblənməsidir. Bu məqsədlə güləbətin, məlilə və pilək tikmə üsullarından istifadə olunmuşdur.

İncə zövqə, misilsiz sənət qabiliyyətinə məxsus sənətkar yaradıcılığının bəhrəsi olan tikmələr nəticəsində geyim heyrətamiz gözəlliyə qovuşmuşdur.

MATM EF 2053

MATM EF 3571

Azərbaycanın milli ornamenti olan butadan geniş istifadə olunması geyimin milli koloritini daha da zənginləşdirmişdir. Adətən üst geyimlərinin ön hissəsinə bəzək vurulurdusa, təqdim olunan baharının kürək hissəsinə də güləbətin sapla gül təsviri salınmışdır. Geyimin dəyərini artıran cəhətlərdən biri də onun əllə tikilməsidir[8].

Muzeyin zəngin kolleksiyasında Azərbaycanın istər Rusiya, istər Osmanlı işğalları, istərsə də Azərbaycan dövlətçiliyini Səfəvilərdən sonra bir qədər möhkəmləndirməyə cəhd edən Nadir şahın hakimiyyət dövrünə aid xeyli maddi-mədəni irs nümunələri qorunur[9]. Bu eksponatlar sırasında xüsusi gözəlliyi ilə seçilən əfşar çəpkənidir (EF inv. № 3571). Çəpkən fondda mühafizə olunan digər çəpkən modellərindən uzun olması ilə fərqlənir. Atma qollara malik olan geyimin yanlardakı çapığı eynilə Qarabağ çəpkənlərinə xasdır[10]. Çəpkənin üzəri qara məxmərdəndir. Güləbətin saplarla nəbati naxışlarla bəzədilmişdir. Çəpkənin üzərində təsvir olunmuş güllər «avşar gülü» adlanır[11].

Etnoqrafiya fondunda muhafizə olunan inv. 4390 nömrəli divar bəzəyi də güləbətin tikmə sənətinin unikal nümunələrindəndir. Belə bəzəklərə "divara burma" da deyilirdi. "Divara burma"nı Şuşada 19-cu əsrdə şərbablar tikirdilər. Yerliyi qırmızı məxmər olan məişət əşyasının üzəri bütünlüklə güləbətin tikmə ilə bəzədilmişdir.

Qadın və kişi aksessuarlarının estetik görünüşünün nəzərəçarpan olması üçün güləbətin, təkəlduz, muncuq tikmə üsulu ilə bəzədilirdi. Etnoqrafiya fondunda çoxlu sayda belə nümunələr qorunub saxlanılır. EF inv. 3320, 3321 nömrəli çantalar bu qəbildəndir. Dördkünc və oval formalı olan, ağzı çarpaz formada qapanan çantaların ağzı güləbətin sapla hazırlanmış qotazlı ip vasitəsilə bağlanır. Quruluşuna görə fondda mühafizə olunan digər yerli və Avropa tipli

---

[8] Abdulova G., Vəliyev F. Qarabağ geyimleri kataloq. Bakı, 2016. seh.43.
[9] Azərbaycan tarixi 100 eksponatda. Bakı, 2020. seh 140
[10] Abdulova G., Vəliyev F. Qarabağ geyimleri kataloq. Bakı, 2016. s. 41.
[11] Yenə orada, s. 42.

çantalardan fərqlənən bu eksponatlar Şuşaya məxsusdur. Bu çantaların da güləbətin naxışları da digər güləbətin işləməli məmulata xarakterik olan tünd (qara) rəngli məxmər üzərində işlənmişdir.

Muzeyin Etnoqrafiya fondunun zəngin tənbəki kisəsi kolleksiyası da mövcuddur. Kolleksiyada 100 ədəddən çox bir-birindən fərqli tənbəki kisələri mühafizə olunur. Tənbəki kisələri tütün və tənbəkinin saxlanması üçün istifadə olunurdu. Keçmişdə qurudulmuş tənbəkini kiçik kisələrə yığaraq kəmərdən və ya qurşaqdan asardılar. Məhz buna görə tənbəkinin estetik görünüşünə xüsusi əhəmiyyət verilirdi[12]. Etnoqrafiya fondunun tənbəki kisəsi kolleksiyasında tirmə, qanovuz, məxmər parçalardan istifadə edilmişdir. Kisələrin üzəri güləbətin, muncuq tikmə üsulları ilə, ipək saplarla bəzədilir, lakin alt hissəsi əsasən güləbətin tikmə ilə tikilirdi. Altlığa güləbətin tikmə üsulu ilə naxış salınması sadəcə, estetik görünüşə deyil, eyni zamanda məmulatın bərkliyinin təmin edilməsinə də hesablanmışdır[13]. Şuşalı sakinə məxsus EF inv. 3305 nömrəli tənbəki kisəsi də bu qəbildəndir. Kisənin altlığına güləbətin tikmə üsulu ilə "iççi" və "buta" təsvirləri tikilmişdir. "İççi" naxışı Azərbaycan xalçalarında sıx rast gəlinən naxışlardandır.

MATM EF 3305

Azərbaycanın məşhur ictimai xadimi, sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın Etnoqrafiya fondunda mühafizə olunan əşyaları sırasında da tənbəki kisəsi vadır. Kisə təkəlduz tikmə üsulu ilə hazırlansa da, güləbətin saplardan istifadə edilmişdir. X. Natəvanın fondda mühafizə olunan digər əşyaları sırasında da güləbətin tikmə üsulundan istifadə edilmişdir. Məsələn, EF inv. 3325 nömrəli quranqabının üzərinə güləbətin və ipək saplarla gül naxışları salınmışdır. X. Natəvana məxsus məxmər nimtənə də güləbətin tikmə sənəti nümunələrindəndir. Etnoqrafiya fondunun dəyərli inventarlarından olan nimtənə biçim və tikiş üsuluna görə fonddakı onlarla nimtənə nümunələrindən fərqlənir. Qolun üstünə çiyindən qolçağa qədər qırmızı məxmər parçadan 1 sm enində dekorativ funksiya daşıyan element əlavə olunmuş, onun üstündən güləbətin sapla bəzək elementi toxunmuşdur[14].

MATM EF 3325

[12] Keçmiş məişətə səyahət. Ətriyyat, kosmetika, aksessuarlar, kitab-albom. Bakı, 2018.s.12.
[13] Keçmiş məişətə səyahət. Ətriyyat, kosmetika, aksessuarlar, kitab-albom. Bakı, 2018. s.12.

Güləbətin tikmə növü kiçik aksesuarlarda çox geniş istifadə edilmişdir. Bunun birinci səbəbi bu aksesuarların estetik görünüşünün daha nəzərəçarpan etmək idisə, digər səbəbi yuxarıda qeyd etdiyimiz kimi məmulatı möhkəm quruluşda hazırlamaq zərurəti idi. Məişət işləri arasında tikmə və toxumaya böyük zaman, zəhmət sərf edən qadınlar kiçik üskükdən tutmuş, daraq, sürmədan, möhür, saat, üzərlik, qayçı, iynə-sap, dəsmal qovluqları tikib, xüsusi istedad və zövqlə bəzəyirdilər.

Etnoqrafiya fondunda bir-birindən fərqli güləbətin tikməli naxışlarla bəzədilmiş daraqqabı kolleksiyası vardır. Daraqlar həm qadın, həm kişi aksessuarlarının ayrılmaz tərkib hissəsidir. Darağın saxlanması üçün istifadə olunan daraqqabıların üzərindəki naxışlar əksər hallarda saç və ya daraqla bağlı dini görüşləri özündə əks etdirir[15]. EF inv. 2316 nömrəli daraqqabı, qırmızı məxmərdən tikilmişdir. Astarı qırmızı atlasdan olan daraqqabının üzərinə güləbətin sapla gül naxışları salınmış, kənarlarına həndəsi elementli haşiyə tikilmişdir. Qarabağlı xanımın əl işi olan daraqqabı XX əsrin əvvəllərinə aiddir.

MATM EF 2316

Beləliklə, Azərbaycanın müxtəlif bölgələrini təmsil edən zəngin güləbətin tikmə kolleksiyası içərisində Qarabağa, xüsusilə Şuşaya məxsus nümunələr fondun, o cümlədən Muzeyin kolleksiyasında özünəməxsus yer tutur. Tarixi ən qədim dövrlərə gedib çıxan tikmə sənətinin bütün növlərinin, o cümlədən güləbətin tikmə sənətinin öyrənilməsi Azərbaycanda digər sənətkarlıq sahələrinin və məşğuliyyət növlərinin: metalişləmə, dəri emalı, ovçuluq (tikiş alətləri ilk öncə heyvan sümüklərindən hazırlanmışdır) tarixini araşdırmaq baxımından böyük əhəmiyyətə malikdir.

Bundan əlavə Qarabağa məxsus maddi mədəniyyət nümunələrinin tədqiqata cəlb edilməsi onların tarixinin saxtalaşdırılmasının qarşısını almağa yardım edir.

[14] Xurşidbanu Natəvan - 180. Bakı, 2012.seh. 6-7.
[15] Keçmiş məişətə səyahət. Ətriyyat, kosmetika, aksessuarlar, kitab-albom. Bakı, 2018. S.10.

Məmmədov Aydın
Bakı Dövlət Universitetinin Mənbəşünaslıq,
tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d.

XIX əsrdə Şimali Azərbaycanda baş verən siyasi proseslərin Şuşanın demoqrafik vəziyyətinə təsiri XXI əsr Azərbaycan tarixşünaslığında

XIX əsrin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda cərəyan edən hadisələr Qarabağ bölgəsinin və Şuşanın sonraki ictimai-siyasi taleyinə, o cümlədən demoqrafik vəziyyətinin yeni düzəminə ciddi təsir göstərdi. Çar hakimiyyət orqanlarının himayəçilik siyasətindən çox məharətlə istifadə edən ermənilər azərbaycanlı əhalini öz dədə-baba yurdlarından sıxışdırmağa başladılar. Tarixi dədə-baba torpaqları olan Qarabağda – Şuşada qorxaq təbiətli ermənilərə bu qədər güvənc, cəsarət verən nə idi ki, onlar burada yalnız öz xislətlərinə xas vəhşilikləri törətmişlər?

Azərbaycan tarixşünaslığında bu sualın cavabı əsasən XIX əsrin I yarısından başlayaraq çarizmin köçürmə siyasəti ilə əlaqədar ermənilərin yurdumuza axını ilə əlaqələndirilir.

Belə ki, sözügedən problemin tarixşünaslığı ilə bağlı bir çox tədqiqat əsərlərində, elmi məqalələrdən ibarət toplularda alimlərimiz XIX əsrdə Cənubi Qafqazda cərəyan edən siyasi proseslərdən, o cümlədən Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilərin köçürüldükləri Azərbaycan torpaqlarında, Şuşa qəzasında məhz çox qısa zaman kəsiyində say çoxluğuna nail olduqdan sonra özlərini bu yerlərin əsil sahibləri kimi aparmağa, oranın əhalisinə qarşı düşmənçilik əməlləri yeritməyə başlamalarını konkret demoqrafik faktlarla nəzərə çarpdırırlar. Məsələn, M.İsmayılov 2014-cü ildə Sankt-Peterburqda nəşr olunan "Qarabağ: tarix münaqişə kontekstində" elmi məqalələr toplusunda "Qarabağ XIX – XX əsrin əvvəllərində" adlı məqaləsində ermənilərin 1918-ci ildə Şuşa qəzasında törətdikləri soyqırımlardan, AXC hökumətinin bu hadisələrin qarşısını almaq üçün həyata keçirdikləri tədbirlərdən bəhs etməzdən öncə XIX əsrin əvvəllərində köçürülmə siyasəti nəticəsində ermənilərin Qarabağ bölgəsində və Şuşada sayının kəskin surətdə artmasını xüsusi olaraq vurğulayır. Müəllif 1832-ci il kameral təsvirinə istinadən yazır ki, Qarabağ xanlığında yaşayan 20546 ailənin 13965-i azərbaycanlı, 6491-i erməni ailəsi idi. 1823-cü ildən 1827-ci ilədək Qarabağ bölgəsində azərbaycanlılar əhalinin 91% ni, ermənilərsə 8,4% ni təşkil edirdilər. Məhz çarizmin köçürmə siyasəti nəticəsində XIX əsrin 30 – cu

illərində azərbaycanlıların sayı 64,8% azaldığı halda, ermənilərinsə sayı 34,8% artdı [1].

Vətən tarixşünaslığında erməni-daşnak birləşmələrinin XX əsrin əvvəllərində xalqımıza qarşı yeritdikləri soyqırımlarını tarixşünaslıq kontekstində ilk dəfə tədqiq edən A.İsgəndərov yazır: "Erməni-daşnak qüvvələrinin müsəlman əhalisinə qarşı soyqırım siyasəti özünü daha çox Qarabağ bölgəsində açıq şəkildə büruzə vermişdir. Çar hakimiyyət orqanlarının himayəçilik siyasətindən çox məharətlə istifadə edən ermənilər azərbaycanlı əhalini öz dədə-baba yurdlarından sıxışdırmağa başladılar" [2]. Belə ki, XIX əsrin birinci yarısında baş vermiş Rusiya-İran (1804-1813, 1826-1828) və Rusiya-Türkiyə (1806-1812, 1828-1829) müharibələrində əldə etdiyi qələbələrdən sonra Rusiya Cənubi Qafqazda öz sosial-siyasi dayaqlarını regionun demoqrafik vəziyyətini öz xeyrinə dəyişmək yoluyla da gücləndirmək barədə düşünür və bu işdə erməni amilindən yetərincə faydalanmağa çalışırdı: "Rusların Azərbaycanda geniş işğalçılıq siyasəti əsasən ermənilərin sayəsində mümkün olmuşdur. Daha doğrusu, ruslar Qafqaza gəldikləri vaxt yalnız ermənilərə bel bağlamış, onların qüvvəsindən hərtərəfli istifadə etmişlər"[3].

Y.Hüseynov "Şuşa salnaməsi" adlı kitabında 1823-cü ildən sonra ermənilərin Qarabağa köçürülməsinin siyasi məna kəsb etdiyini, onların ruslar üçün forpost rolunu oynadığını yazır. O, elə bu fikrinin ardınca: "İrandan və Türkiyədən gələn ermənilər Azərbaycan torpaqlarında məskunlaşmaqla bərabər, burada özləri üçün dövlət yaratmaq istəyirdilər" – deyə, yazır [4].

K.Şükürov "Rusiya ilə Azərbaycan Qarabağ xanlığı arasında imzalanmış 1805-ci il Kürəkçay müqaviləsinin sistemli analizi" adlı məqaləsində Rusiyanın əslində Kürəkçay müqaviləsinin şərtlərinə görə Qarabağ xanlığında irsi hakimiyyəti təmin etməsi öhdəliyini öz üzərinə götürməsinə rəğmən, 1822-ci ildə Qarabağ xanlığını ləğv etməsilə, bu müqavilənin də qüvvədən düşdüyünü xüsusi olaraq vurğulayır: "Tarixi təcrübə göstərir ki, Rusiya İmperiyası həmişə Cənubi Qafqaz hakimlərilə bağladıqları müqavilələri, o cümlədən Kürəkçay

---

[1] Исмаилов М. Карабах в XIX – начале XX века // Карабах: история в контексте конфликта. СПб, Изд-во «Вестник», 2014, 404 с. səh.233-234.
[2] İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920). Bakı, Adiloğlu, 2006, 396 s. səh.335.
[3] Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər. Bakı, Gənclik, 1993, 144 s. s.88.
[4] Hüseynov Y. Şuşa salnaməsi. Bakı, Şuşa, 2015, 152 s. səh.79-92

müqaviləsinin şərtlərini pozmuşdur”[5]. Məhz bu mənada qeyd etmək olar ki, ermənilərin yeni məskunlaşdıqları ərazilərdə çox tez bir zamanda özlərini güvənli hesab etmələrində Rusiyanın XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarını ələ keçirərkən hərbi və diplomatik metodlardan ermənilərin xeyrinə yararlanması amili heç də az rol oynamamışdır. Çünki, Azərbaycanda dövlətçilik və siyasi idarəetmə ənənələrinin ləğvinə hesablanmış bu tədbirlər, ermənilərin özgə torpaqları hesabına “Böyük Ermənistan” qurmaq istəyini daha da artırırdı.

Sözügedən problemlə bağlı digər əsərdə oxuyuruq: “Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikcə, bu torpaqlarda möhkəmlənmək üçün həm də əhalinin ermənləşdirilməsi siyasətini də həyata keçirirdi”[6].

Sözügedən dövrdə soydaşlarımızın yaşadıqları yerləri tərk etmələri ilə bağlı Y.Hüseynov: “1806-1812-ci illər ərzində Qarabağ xanlığının ərazisindən qaçan və qacarlar ordusu tərəfindən Araz çayından cənuba aparılan əhalinin sayı çoxdur. Yuxarıda göstərilən dövr ərazində, yəni 6 ildə Azərbaycanın Qarabağ bölgəsindən 2628 ailə qaçmışdır. Həmin ailələrin say tərkibi 13140 nəfər olmuşdur. Qacarlar məmləkətinə məcburi surətdə aparılan ailələrin sayı 2217, onların say tərkibi isə, 11085 nəfər olmuşdur. Qarabağ xanlığının ərazisini 4845 ailə və 24225 nəfər təşkil etmişdir” – deyə, yazır[7]. Müəllif “Şuşa şəhərinin tarixi” adlı kitabında əhalinin məruz qaldığı məcburi miqrasiya proseslərinin onların sayına göstərdiyi təsiri xüsusi olaraq vurğulamışdır[8].

Bu məsələ ilə bağlı Y.Hüseynov yazır: “Erməni ünsürlərinin Qacar məmləkətindən Qarabağa və başqa ərazilərimizə köçürülməsi işinə erməni ünsürü X.E.Lazarev rəhbərlik edirdi”[9] Müəllif fikrinə davam edərək, Qarabağda yaranan yeni demoqrafik vəziyyətlə bağlı yazır: “1823-cü ildə Qarabağda yaşayan əhalinin böyük hissəsini Azərbaycan türkləri təşkil edirdi. 1823-cü ildə Azərbaycanın Qarabağ əyalətində 20095 ailənin yaşadığı qeyd olunur. Həmin ilin kameral təsvirində göstərilir ki, Qarabağda yaşayan 20095 ailənin 15729-u (78,3 faizi) azərbaycanlı, 4366 ailə isə müxtəlif xalqlara (21,7 faiz) məxsus olmuşdur. ...Paskeviç göstəriş vermişdir ki, qacarlar məmləkətindən gətirilən erməni ünsürləri üçün yeni kəndlər salınsın. Bu iş həyata keçirilərkən azərbaycanlıların

---

[5] Шукюров К. Кюрекчайский договор 1805 года между Россией и азербайджанским Карабахским ханством: системный анализ. // Карабах: история в контексте конфликта. СПб, Изд-во «Вестник», 2014, 404 с. səh.221-226

[6] Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, Təhsil, 2005, s..31.

[7] Hüseynov Y. Azərbaycanın Qarabağ bölgəsinin tarixi. Bakı, Afpoliqraf, 2019, 207 s.80.

[8] Hüseynov Y. Şuşa salnaməsi. Bakı, Şuşa, 2015, s. 41.

[9] Hüseynov Y. Azərbaycanın Qarabağ bölgəsinin tarixi. s. 81.

sıx yaşadıqları kəndlər nəzərə alınsın”[10]. Müəllif belə bir qənaətə gələrək: “XVIII əsrin sonuna və XIX əsrin əvvəllərinə aid olan qaynaqlarda və mənbələrdə göstərilir ki, bu dövrlərdə Qarabağ xanlığında və onun mərkəzi şəhəri olan Şuşa qalasında əhalinin 90-95 faizini Azərbaycan türkləri təşkil edirdi. ... Bu köçürmələrin nəticəsi olaraq XIX əsrin 80 ili ərzində Cənubi Qafqazda erməni ünsürlərinin sayı 4,5 dəfə artmışdı” – deyə, yazır[11].

Y.Mahmudovun C.Mustafayevlə birgə ərsəyə gətirdikləri “Şuşa – Pənahabad” adlı kitabında tarixən xristian əhalinin, o cümlədən ermənilərin azlıq təşkil etməsindən bəhs edərək: “1823-cü ildə Şuşada yaşayan 1532 ailənin 1000-dən çoxu azərbaycanlılardan, təxminən, 500-ü isə ermənilərdən (yəni, ermənileşmiş albanlardan) ibarət idi. Şuşa şəhərində əhalinin etnik tərkibinin bu nisbəti, hətta çar hökumətinin ermənileri kütləvi surətdə İrandan və Osmanlı imperiyasından Qarabağa köçürdüyü dövrdə – XIX əsrin 30-cu illərində də dəyişməmişdir. Həmin dövrdə şəhərdə qeydə alınmış 1698 ailənin 936-sını azərbaycanlılar təşkil edirdi” – deyə müəlliflər yazırlar[12]. Buradan müəlliflər belə bir nəticəyə gəlirlər ki, XIX əsrin əvvəllərinə qədər Qarabağın, o cümlədən Şuşanın əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil ediblər.

Eyni fikirlərlə Y.Hüseynovun 2019-cu ildə işıq üzü görən “Azərbaycanın Qarabağ bölgəsinin tarixi” adlı kitabında da rastlaşırıq: “1828-ci ilin fevral ayının 10-da Qacar sarayı ilə Rusiya İmperiyası arasında bağlanan Türkmənçay sülh müqaviləsindən sonra erməni ünsürlərinin Qarabağ bölgəsinə və digər ərazilərimizə gətirilib məskunlaşdırılması geniş miqyas aldı[13].

Tarixçi A.İsgəndərov bu məqama diqqət yetirərək yazır: “XIX əsrin birinci yarısında Şimali Azərbaycanın müxtəlif bölgələrində başlanmış qaçqınçılıq və köçkünlük çar Rusiyasının müstəmləkəçilik siyasətinin, milli ədavətin, aramsız müharibələrin bilvasitə nəticəsi idi. Azərbaycanlı əhalinin məcburiyyət üzündən Şimali Azərbaycanı tərk etməsi xristianlaşdırma siyasətinin gerçəkləşməsinə daha geniş imkanlar açırdı”[14].

Digər tərəfdən kənardan ermənilərin şirniklendirilərək Şimali Azərbaycanın müxtəlif bölgələrinə, o cümlədən Qarabağa gətirilməsi, təbii ki, buradakı soydaşlarımızın təkcə maddi güzəranına deyil, mənəvi dincliyinə də ciddi zərər vururdu. Məsələn, polkovnik Lazarev İranda yaşayan erməni əhalisinə

[10] Hüseynov Y. Azərbaycanın Qarabağ bölgəsinin tarixi. s. 81.
[11] Hüseynov Y. Şuşa şəhərinin tarixi Bakı, Şuşa, 2013, s. 42.
[12] Mahmudov Y., Mustafayev C. Şuşa – Pənahabad. Bakı, Təhsil, 2012, s. 63.
[13] Hüseynov Y. Azərbaycanın Qarabağ bölgəsinin tarixi. s. 81.
[14] İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920). Bakı, Adiloğlu, 2006, 396 s. səh.335

müraciətində deyirdi: "Özünüzə seçəcəyiniz yerlərdə – İrəvanda, Naxçıvanda və Qarabağda dövlət hesabına əkilib becəriləcək bol məhsullu torpaq alacaqsınız. Siz 6 il müddətinə hər cür vergilərdən azad olunursunuz"[15]. Vəziyyətin belə bir hal alması bəzən soydaşlarımızın öz yurdlarını tərk etmələri ilə də nəticələnirdi: "...1805-1813-cü illərdə təkcə Qarabağı məcburi tərk etmiş azərbaycanlı ailələrin sayı 4845-dən çox idi"[16].

Təbii ki, Şuşa qəzasında erməni əhalinin sayının durmadan artması onların Azərbaycan kəndlərini əhatəyə alan kompakt yaşayış məskənlərinin sayını artırmalarına münbit şərait yaradırdı. Şübhə yoxdur ki, süni surətdə belə bir demoqrafik fonun yaradılması regionda vəziyyəti gərginləşdirir, yaxın gələcəyə hesablanmış milli zəmində baş verə biləcək qarşıdurmalara, o cümlədən ermənilərin Şuşa qəzasında istər 1905-1907-ci, istərsə də 1918 - ci illərdə törətdikləri qanlı olaylara münbit şərait yaradırdı.

Təəssüf doğuran hal odur ki, Qarabağ bölgəsində və Şuşa qəzasında azərbaycanlı əhalinin sayının XIX əsrin əvvəllərindən başlayaraq kəskin surətdə azalması, ermənilərinkininsə əksinə artması prosesi həmin əsrin sonlarına, o cümlədən XX əsrin əvvəllərindək davam etmişdir. M.İsmayılov bu acınacaqlı demoqrafik vəziyyəti: "Artıq 1886-cı ildə dəmək olar ki, indiki Dağlıq Qarabağın bütün ərazisini əhatə edən Şuşa qəzasında köçürülmə siyasəti nəticəsində ermənilər əhalinin 58,2%-ni, azərbaycanlılar isə 41,5% təşkil edirdilər"[17].

H.Verdiyeva çarizmin köçürmə siyasətinə həsr etdiyi monoqrafiyasında yazır ki, XIX əsrin birinci yarısında ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürüldüyü 20 il ərzində onların burada xüsusən də, Qarabağ bölgəsində sayı 2 dəfə artdı. Türkmənçay sülh müqaviləsindən sonra ermənilərin Qarabağ bölgəsinə axını sonrakı illərdə də davam etdi[18].

Y.Mahmudov və C.Mustafayev Türkmənçay müqaviləsinin imzalanmasından sonra Azərbaycanda yaranmış siyasi sabitliyin XIX əsrin 70-ci illərindən başlayaraq şəhərdə əhali artımına müsbət təsirindən bəhs edərək, onun xeyli sürətləndiyini vurğulayaraq: "XIX əsrin əvvəli ilə müqayisədə Şuşada əhalinin sayı 2,5 dəfə artaraq əsrin sonunda 25.881 nəfər təşkil etmişdi. XX əsrin

---

[15] İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, Elm və təhsil, 2012, s. 26

[16] Yenə orada, s. 27.

[17] Исмаилов М. Карабах в XIX – начале XX века // Карабах: история в контексте конфликта. СПб, Изд-во «Вестник», 2014, с. 234.

[18] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX вв.). Баку, Алтай, 1999, 300 с. 228-229.

əvvəllərində isə bu artım daha sürətlə getmiş və 1917-ci ildə şəhər əhalisinin sayı 43.869 nəfərə çatmışdı" – deyə yazırlar[19].

Lakin, Y.Mahmudov və C.Mustafayev yuxarıda adı çəkilən kitabda qeyd edirlər ki, Şuşada müşahidə edilən əhali artımının heç də Şuşanın köklü sakinləri olan azərbaycanlıların hesabına baş vermədiyini təəssüf hissi ilə bildirirlər: "Rus çarizminin həyata keçirdiyi köçürmə siyasəti burada indiyə qədər mövcud olmuş etnik balansın pozulmasına, ermənilərin sayca artmasına gətirib çıxartdı. Nəticədə XIX əsrin sonu – XX əsrin əvvəllərində köçkün ermənilərin hesabına şəhərdə əhalinin mexaniki artımı təbii artımı bir neçə dəfə üstələmişdi. Belə ki, burada 1870-ci ildən 1917-ci ilə qədər baş vermiş 23.924 nəfər əhali artımının 9.400 nəfəri təbii artımın payına düşdüyü halda, 14.524 nəfəri köçkün ermənilərin payına düşmüşdü.

Beləliklə, XIX əsr – XX əsrin əvvəllərində Şimali Azərbaycanda yaranan demoqrafik vəziyyəti təhlil edərək belə bir qənaətə gəlmək olar ki, çar hökumətinin himayədarlığı ilə Şuşada ermənilər say çoxluğuna nail olaraq şəhərin köklü sakinləri olan azərbaycanlıları sıxışdırmağa, o cümlədən məcburi surətdə yurdunu tərk edənlərin torpaqlarını zəbt etməyə başladılar. Gələcəkdə isə, onlar yurdumuzun torpaqları hesabına yeni Ermənistan dövləti yaradaraq Şuşa şəhəri də daxil olmaqla Qarabağı Azərbaycandan ayırıb ona birləşdirmək istəyirdilər. Tarixin müxtəlif mərhələlərində əzəli torpaqlarımıza qarşı əsassız ərazi iddiaları ilə çıxış edən ermənilərin Şuşada istər 1905-1907-ci illərdə, istərsə də 1918-1920-ci illərdə minlərlə soydaşımızı amansızcasına qətlə yetirmələri, bir çox yaşayış evlərini qarət və tamamilə yerlə-yeksan edərək dinc əhalini qaçqın və didərgin vəziyyətinə salmaları ilə müşayiət olunan qanlı qətliamları bunu bir daha sübut etdi. XX əsrin əsrin 90-cı illərində ermənilərin Şuşa da daxil olmaqla əzəli Qarabağ torpaqlarımızı işğal etmələri onların bu mənfur siyasətdən əl çəkmədiklərini bir daha sübut etdi. Lakin, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında şanlı ordumuzun və xalqımızın tarixi qələbəsi göstərdi ki, Qarabağ Azərbaycandır!

[19] Mahmudov Y., Mustafayev C. Şuşa – Pənahabad. Bakı, Təhsil, 2012, 152 s. 67.

Məmmədova Aygün
Milli Azərbaycan Tarixi Muzeyinin
Numizmatika fondunun müdiri, t.ü.f.d.

XI əsrin numizmatik faktı: Ağdərə dəfinəsi

Azərbaycan Respublikası ərazisində aşkarlanmış müxtəlif dövrlərə aid numizmatik faktlar dövrün yerli pul təsərrüfatı ilə yanaşı xarici ticarət əlaqələrini açıqlamağa yardım edir.

Belə faktlardan biri də hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Xüsusi Fondunda qorunan Ağdərə rayonunun Vəngli kəndində aşkarlanmış XI əsrə aid qızıl sikkə dəfinəsidir (11 ədəd qızıl solidlər; NF 24812 - 24822). Bu sikkə dəfinəsi 1953-cü ildə qeyd edilən ərazidəki Dərpəsnər məkanındakı kolxozda tapılmış və sonradan muzeyə təhvil verilmişdir.

Məqalədə son numizmatik məlumatlara istinadən dövrün pul təsərrüfatı bir daha nəzərdən keçirilmiş, Azərbaycanın digər məkanlarında da aşkarlanmış belə sikkələr barədə məlumat verilərək yeni qənaətlər əldə edilmişdir. Müasir dövrümüzdə də istər təsadüfi halda, istərsə də arxeoloji qazıntılarda aşkarlanan numizmatik tapıntıların təyinatında məqalə aktuallıq kəsb edir.

Şərti olaraq - "Ağdərə sikkə dəfinəsi" adlandırdığımız bu numizmatik faktın təyinatını hələ ötən əsrdə t.e.d., professor Yevgeni Paxomov (1880 - 1965) etmiş[1] və aşağıdakı 11 ədəd içəriyə batıq formalı qızıl solidlər müəyyən olunmuşdur:

№	Fonddakı inventar nömrəsi	Hökmdar	Çəkisi (q)
1.	24812	XIII Konstantin (1059–1067)	4,32
2.	24813	XIII Konstantin (1059–1067)	4,36
3.	24814	XIII Konstantin (1059–1067)	4,36
4.	24815	XIII Konstantin (1059–1067)	4,16
5.	24816	IV Roman (1068–1070), Yevdokiya, Konstantin, Mixail	4,33
6.	24817	V Roman (1068–1070), Yevdokiya, Konstantin, Mixail	4,19
7.	24818	IV Roman (1068–1070), Yevdokiya, Konstantin, Mixail	4,33
8.	24819	IV Roman (1068–1070), Yevdokiya,	3,03

[1] Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VII, Баку, 1957, с. 17

		Konstantin, Mixail	
9.	24820	IV Roman (1068–1070), Yevdokiya, Konstantin, Mixail	2,93
10.	24821	IV Roman (1068–1070), Yevdokiya, Konstantin, Mixail	2,9
11.	24822	IV Roman (1068–1070), Yevdokiya, Konstantin, Mixail	2,74

Numizmatik tədqiqatlara əsasən, Bizans qızıl sikkələri – solidlərin ilk zərbi I Konstantinin (306–337) əmri ilə icra edilmişdir. Əsrlərlə iqtisadiyyat həyatında beynəlxalq valyuta qismində istifadə edilən belə sikkələr imperiya dövründə həm də nomizma (nomisma), Qərb ölkələrində isə bezant (byzantius) adlanırdı[2].

II Nikifor Fokanın (963–969) hakimiyyəti dövrünədək nomizmanın çəkisi, əyarı və keyfiyyəti sabit idi. Bu hökmdarın əmri ilə zərb edilmiş tetarteron və qistamenonlar II Vasilinin (976–1025) hökmdarlığı dövründə bəzi dəyişikliklərə məruz qaldı.

IV Mixail (1034–1041) dövründə nomizmanın çəkisi və keyfiyyətində fərqlər yarandı. 1071-ci ildə Mansikert (Malazgird) döyüşündən sonra I Aleksey Komnin (1081–1118) dövrünün qızıl sikkələrində əyar 75 %-dək azaldıldı.

Məhz IV Mixail dövründə Bizans qızıl sikkələri xırda dəyişiklərə məruz qaldı və belə hal daha sonrakı dövrlərdə qonşu ölkələrdə zərb edilən sikkələrə də sirayət etdi.

1092-ci ildə həyata keçirilən sikkə islahatı nəticəsində dövriyyəyə yeni qızıl sikkələr - hiperperonlar daxil edildi. Belə solidlər içəriyə batıq formalı idi və "skefat" adlanırdı[3]. Daha sonralar isə qızıl çatışmazlığı səbəbindən belə sikkələr elektra, gümüş, və nəhayət misdən zərb edilirdi. Yüksək əyarlığı səbəbindən belə qızıl sikkələr dəyişiklik edilmədən Bizans imperiyasının sonunadək (1453) zərb edilirdi[4].

VII əsrə qədər Bizans sikkələrinə latın, I İrakli dövründən isə yunan yazıları həkk edilmişdir. Sonrakı mərhələlərdə, əsasən VIII əsrdən belə sikkələrə yunan

[2] Фенглер Х. Словарь нумизмата. М.: Радио и связь, 1982, с. 39.
[3] Uykal Z., Akdeniz K. Kocaeli Müzesi koleksiyonu Bizans dönemi sikkelerinden örnekler // Uluslararası Qazi Süleyman Paşa ve Kocaeli tarihi Sempozyumu III. – Kocaeli: Kocaeli Büyükşehir Belediyesi, 2017. s. 323
[4] Gökalp Z. Yalvaç müzesi Bizans sikkeleri. Ankara: Kültür Varlıkları ve Müzeler Genel Müdürlüğü Yayınları, 2009, s. 150.

və latın hərflərinin qarışığı olan yazılar, I Aleksey Komninin hakimiyyəti dövründən (1081-1118) isə sırf yunanca yazılar zərb edilmişdir[5].

XI əsrin I yarısında Orta və Yaxın Şərqin pul təsərrüfatında şəhərlərin intensiv inkişafı və d. səbəblərə görə pula yaranan tələbatla əlaqədar olaraq gümüş sikkələrin funksiyasını qızıl sikkələr yerinə yetirirdi.

Ağdərə sikkə dəfinəsində də olan, qabarıq formalı, yüksək əyarlı Bizans qızıl solidləri (orta çəkisi 4,4 q) Şərq bazarlarında populyar idi və yazılı mənbələrdə "dinari purpuri" (par par parıldayan dinar) adlanırdı.

Xarici zərbxanalarda istehsal edilən (əsasən Konstantinopol) belə qızıl sikkələr Azərbaycanın ticarət əlaqələrində həlledici mövqeyə malik idi[6].

Bu dövrdə qızılın rolunun aktivləşməsi və gümüş sikkə qıtlığı ilə əlaqədar olaraq ticarət yollarının istiqaməti dəyişmişdi.

Əvvəllər belə ticarət yolu şimaldan cənuba istiqamətlənirdisə, məhz bu dövrdə qərbdən şərqə yönəlmişdi (qızılla zəngin olan Bizans imperiyasına və digər Qərb ölkələrinə).

Xrolonoloji baxımdan Ağdərə sikkə dəfinəsindəki Bizans hökmdarlarının hakimiyyəti dövrü Azərbaycanın yerli hökmdarları – şirvanşah Salar bin Yəzid (1049–1063) və onun oğlu Fəriburz (1063–1096) ilə eyni dövrə təsadüf edir. Bu höklmdarların Azərbaycanda aşkarlanan billon dirhəmləri hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunur. XI - XII əsrlərin yerli pul təsərrüfatında istirak edən belə sikkələrə əsasən bu hökmdarların titulları – "məlik" və "şirvanşah" idi.

Ağdərə dəfinəsindəki ilk 4 qızıl sikkə XIII Konstantin Duka dövrünə aiddir. Bu hökmdar 23 noyabr 1059-cu ildə rəsmi olaraq imperator elan edilmişdir. Bu imperatorun həyat yoldaşı, imperatorun qızı Yevdokiya (Makrembolitissa) ilə olan nigahından məhz qeyd edilən ildə oğlu Konstantin Duka dünyaya gəlmişdi.

XIII Konstantin Duka dünyasını dəyişdikdən sonra 1067-ci ildə Yevdokiya hakimiyyətə gəldi. Onun hakimiyyətini təsdiq edən numizmatik faktlar mövcud olsa da, bəzi tarixçilər onun yalnız faktiki hakimiyyətini qəbul edirlər. Yevdokiya həyat yoldaşının ölümündən sonra şöhrətli hərbçi IV Roman Diogenlə ailə qurdu. Onların nigahından iki oğlu - Nikifor və Lev dünyaya gəlmişdi[7].

---

[5]Надписи византийских монет // http://club-kladoiskatel.ru/publ/vizantijskie_monety_slovar/ 1-1-0-79

[6] Сейфеддини М. А. Средневековые монетные клады Азербайджана (1968–1983). – Баку: Элм, 1994, s. 10.

[7] Византология. Сост.: Апостолов М. Учебное пособие. Нижний Новгород, 2000, с. 353.

Ağdərə dəfinəsindəki Bizans qızıl sikkələrində IV Romanın, Yevdokiyanın və oğulları – Kontantin Duka ilə VII Mixailin (Parapinak; bəzi məlumatlara əsasən VII Mixail əqli geriliyə malik idi, ona görə də hakimiyyəti əsasən anası idarə edirdi) rəsmləri vardır.

1071-ci ildə Malazgird döyüşündə Bizans ordusu məğlubiyyətə uğradı və IV Roman hakimiyyətdən məhrum edildi. Məhz bu il Yevdokiya və VII Mixailin rəsmi hakimiyyəti Senat tərəfindən elan edilmişdi. Lakin bu hakimiyyət yalnız bir il qüvvədə qala bildi.

1078-ci ildə VII Mixailin hakimiyyətinə tamamilə son qoyuldu. Bəzi mənbələrə görə 1078-1081-ci illərdə Bizansı onun ögey qardaşı III Nikifor Votaniat idarə etmişdir. 1081-ci ildən isə Aleksey I Komnin taxta sahib olmuş və elə bu ərəfədə Yevdokiya dünyasını dəyişmişdi[8].

Beləliklə, Ağdərə dəfinəsindəki XI əsrə aid qızıl sikkələr Bizansda hakimiyyətin Dukalar nəslindən olan - X Konstantin, Yevdokiya, IV Roman və Yevdokiyanın oğullarının idarə etdiyini təsdiq edir.

İstər Xəzəryanı ərazilərdə, istərsə də digər məkanlarda aşkarlanan IX Konstantin Monomax (1042–1056), X Konstantin Duka (1059–1067), IV Roman Diogen (1068–1071), VII Mixail Duka (1071–1078), I Aleksey Komnen (1081–1118), II İoan Komnin (1118–1143) dövrünün qızıl sikkələri Şirvan şəhərləri ilə ticarətdə iştirak etmişlər. Belə tapıntılardan əlavə Azərbaycanda həm də Bizansın mis felsləri aşkarlanmışdır[9].

Bu numizmatik faktlar həm də Cənubi Qafqazın pul dövriyyəsinin əsas komponentini təşkil etmiş və hətta MDB-nin digər şəhərlərində (Sarkel, Qnyozdovo, Kiyev, Novqorod və d.) də aşkarlanmışdır[10].

Azərbaycanda Bizans sikkələrindən ibarət bir sıra iri dəfinələr digər rayonlarda (Salyan, Lerik, Gəncə, Laçın, Naxçıvan və d.) da tapılıb.

Müasir numizmatik tədqiqatlarda Bizans sikkələri "Christian East" ("Xristian Qərbi") bölməsində tədqiq edilir və bir sıra yeni tiplər müəyyən edilmişdir.

Beləliklə, Ağdərə dəfinəsindəki qızıl Bizans solidləri XI əsrin II yarısında Azərbaycanın digər ölkələrlə olan iri ticarət əməliyyatlarında Ərəb Xilafəti, Sacilər, Salarilər, Səlcuqluların və d. sülalələrin qızıl sikkələri ilə birgə istifadə

---

[8] Дашков С.Б. Императоры Византии // https: azbyka.ru/otechnik/Istorija_Tserkvi/imperatory-vizantii/2-81

[9] Раджабли А. Монеты Азербайджана. Баку: Халгбанк, 2012, с.

[10] Шевцов А. Коллекции византийских монет Гнездова и Киева в контексте контактов Руси и Византии в IX – XI вв. // Гнездовский археологический комплекс. Труды ГИМ, Вып. 210, 2018, с. 482-509.

edilmişdir. Bu dəfinədəki qızıl sikkələrə əsasən XI əsrdən etibarən qızıl Bizans sikkələrinin çəkisində azalma, imperator təsvirlərində isə səliqəsizlik müşahidə edilmişdir.

Bizans sikkələrindəki xaç simvolu, hakimiyyət rəmzləri, İsa Məsihin təsviri, yazılar XI əsr tarixi, dini inancı və sənətkarlığını təcəssüm etdirən maraqlı tədqiqat obyektləridir.

Mustafayev Laçın
Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya elmi fond şöbəsinin böyük elmi işçisi, t.ü.f.d.

Qarabağın maddi irsinin öyrənilməsində Xocalı-Gədəbəy mədəniyyətinin yeri

Milli Azərbaycan Tarixi Muzeyi maddi mədəniyyətimizi ən qədim dövrdən müasir günümüzədək dolğun, məntiqli, rabitəli və dinamik formada Azərbaycan və dünya ictimaiyyətinə təqdim etməklə paralel onun sistemli şəkildə tədqiqini də həyata keçirir. Zəngin maddi mədəniyyət tarixi inkişaf prosesinin bu məkanda qeyri-sabit inkişafından xəbər verir. Bu prosesi müşahidə etmək üçün maddi irsi lokal və qlobal konteksdə izləmək lazımdır.

Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda Azərbaycanın bütün bölgələrindən toplanmış müxtəlif dövrləri əks etdirən zəngin kolleksiya qorunub saxlanılır. Hər bir bölgənin lokal və səciyyəvi xüsusiyyətləri, insan cəmiyyətinin və təsərrüfat həyatının inkişaf dinamikası regionun maddi mədəniyyətində özünü açıq şəkildə biruzə verir. Azərbaycanın son tunc – erkən dəmir dövrünə aid maddi mədəniyyəti ölkənin ayrı-ayrı bölgələrində həm lokal, həm də qlobal xarakterlidir. Yəni bu mədəniyyətə aid tapıntılar həm yerli istehsal, həm də mədəni və ticarət münasibətləri ilə əlaqədar olaraq Azərbaycan ərazisinə gətirilən artefaktlardan ibarətdir.

Özünəməxsus xüsusiyyətləri ilə diqqət çəkən bölgələrdən biri son tunc – erkən dəmir dövrünə aid maddi mədəniyyət nümunələri və arxeoloji abidələri ilə zəngin olan Qarabağdır. Son tunc – erkən dəmir dövrlərinə aid Kiçik Qafqazın dağ və dağətəyi rayonlarında, Kür-Araz çayları arasında müşahidə edilən arxeoloji mədəniyyət Xocalı-Gədəbəy mədəniyyəti adlandırılır. Azərbaycan tarixinin, maddi və mənəvi mədəniyyətinin, xüsusilə Qarabağın maddi irsinin

öyrənilməsində Xocalı – Gədəbəy mədəniyyətinin müstəsna əhəmiyyəti vardır. Xocalı – Gədəbəy mədəniyyəti öz dövrünə görə yüksək inkişaf etmiş maddi və mənəvi mədəniyyətin xarakterik xüsusiyyətlərini özündə cəmləşdirir. Bu abidələrdən aşkar edilən maddi mədəniyyət nümunələri son tunc-erkən dəmir dövründə burada məskunlaşan əhalinin məşğuliyyət və təsərrüfat həyatının, o cümlədən ticarət və iqtisadi münasibətlərinin kifayət qədər təkmil olduğunu söyləməyə əsas verir. Azərbaycanda Xocalı – Gədəbəy mədəniyyəti abidələri torpaq, daş qutu, kurqan qəbirləri, yaşayış yerləri və istehsal emalatxanalarının qalıqlarından ibarətdir. Lakin bir faktı əlavə etmək lazımdır ki, Xocalı – Gədəbəy mədəniyyətinə aid tapıntıların böyük qismi qəbir abidələrindən aşkar edilmişdir[1]. Ümumiyyətlə son tunc – erkən dəmir dövrünə aid, xüsusilə erkən dəmir dövrünə aid yaşayış yerləri az hallarda müşahidə edilmiş və zəif tədqiq olunmuşdur.

Qeyd edildiyi kimi Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda bəşər cəmiyyətinin ayrı-ayrı dövrlərinə aid xeyli sayda artefakt saxlanılır ki, bu sıraya Xocalı – Gədəbəy mədəniyyətinə aid müxtəlif abidələrdən toplanılan materiallar da daxildir. Tapıntılar əsasən müxtəlif sənətkarlıq nümunələrindən ibarətdir. Xocalı-Gədəbəy mədəniyyətinə aid arxeoloji nümunələr tuncdan qılınc, təbərzin, toppuz, ox ucluqları, yaba, xəncər, nizə ucluğu, qazan, cilov, bilərzik, üzük, sümükdən hazırlanmış bəzək əşyaları, gildən (saxsı qablar) və daşdan hazırlanmış müxtəlif məmulat və s. ibarətdir. Bu mədəniyyətə aid nümunələr məhsuldar qüvvələrin, ictimai və sosial münasibətlərin, istehsal imkanlarının inkişaf əlamətlərini göstərməklə yanaşı özünəməxsusluğu ilə də digər dövrlərin maddi artefaktlarından seçilir. Fərqləndirici xüsusiyyətlər inkişaf dinamikası, sənətkarlığın metalişləmə (tədricən dəmirin insanların təsərrüfatına daxil olması) və keramika nümunələrində daha çox nəzərə çarpır. Bütün bunlarla yanaşı uzun əsrlərdən formalaşan sənətkarlıq ənənələri də unudulmur. Metal məmulatının, əmək və məişət əşyalarının istehsalında təbii ki, inkişafla bərabər özündən əvvəlki dövrün əlamət və xüsusiyyətləri də aparıcı yer tuturdu. Lakin bəzək-zinət əşyalarının, xüsusilə silah və zirehlərin hazırlanmasında, quruluşunda yeni elementlər müşahidə edilməkdədir. Misal üçün Xocalı – Gədəbəy mədəniyyəti üçün xarakterik olan qısa ölçülü, hər iki tərəfi iti, tutacağının sonluğu çətir formalı (konusvari) tunc xəncər nümunələri bu dövrün silah modelini xarakterizə edir (AF 28140, s/q 81, AF 1940, AF 1290 və s.). Cənubi Qafqazda geniş yayılmış bu

[1]Qasımov P. Xocalı – Gədəbəy mədəniyyətinin dəfn ənənəsində replika-əşyalar (Tovuz bölgəsindən olan son tunc dövrü tapıntıları üzrə). Azərbaycan Arxeologiyası. Volume 20 № 2, 2017, s. 22.

tip xəncərlər Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olub, Azərbaycanın Xanlar, Gədəbəy, Şəmkir, Mingəçevir, Qarabağ, həmçinin Gürcüstanın və Ermənistanın bir sıra abidələrindən aşkar edilir[2]. Bu tip xəncərlər dəmir dövrünün erkən mərhələsində də geniş yayılmışdır. Naxçıvan ərazisində aparılan tədqiqatlar zamanı bu dövrə aid analoji nümunələr aşkar edilmişdir[3]. 2013-cü ildə isə Tovuz rayonunda izlənilən Topdağdağan kurqan nekropolunun 10 saylı kurqanın sallama qəbirindən Xocalı – Gədəbəy mədəniyyəti üçün xarakterik olan anoloji nümunə aşkar edilmişdir[4] . Buradan aşkar olunan tunc xəncər yaxşı vəziyyətdə əldə edilmiş və öz dövrünün analoji nümunələrindən kəskin fərqləndirici əlamətlərə malik deyildir. Eyni zamanda bu tapıntının replika əşya olması da aparılan tədqiqatlar zamanı müəyyən edilmişdir. Göründüyü kimi Azərbaycanın Xocalı – Gədəbəy mədəniyyətinə aid bəzi tapıntıları, hansı ki, bu mədəniyyət üçün simvolik xarakter daşıyır, bir neçə əsr ərzində eyni formada istehsal edilmişdir. Bu xüsusiyyəti digər silah nümunələri üçün də xarakterik saymaq olar[5]. Bir qədər geniş prizmadan yanaşsaq, Cənubi Qafqazla bərabər Xocalı-Gədəbəy tipli xəncərlərin İran ərazisindən aşkar edildiyini də izləyə bilərik[6]. Bu dövrün silah nümunələri yalnız göstərilən tunc xəncərlə məhdudlaşmır. Dəmirdən ikiuclu döyüş yabası, ox və nizə ucluqları, döyüş baltası, at əsləhələri və s. kimi tapıntıları əlavə etmək mümkündür. Bu dövrün metaldan olan döyüş silah nümunələrinin anoloqu bütün Cənubi Qafqazda olduğu kimi İran ərazisində də aşkar edilmişdir[7]. Xocalı – Gədəbəy maddi mədəniyyət nümunələrinin geniş coğrafi arealda aşkar edilməsi isə vahid, eyni zamanda qohumluq xüsusiyyətlərinə malik etnik əlamətlərdən xəbər verməkdədir. MATM-ın arxeoloji kolleksiyasında Xocalı – Gədəbəy mədəniyyətinin silah nümunələrinə

---

[2] Babayev İlyas, Kay Kaniyut, Mustafayev L., Martin Qruber. 2016-cı ildə Şəmkir-Qaracəmirli Beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən MATM-ın Arxeologiya fonduna təhvil verilən arxeoloji tapıntılar. Milli Azərbaycan Tarixi Muzeyi-2017. Bakı, 2017, Səh.85; Гусейнова М. Из истории Южного Кавказа Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв до н.э.) Баку, «Bizim kitab», 2011, стр. 28-29; Кесаманлы Г.П. О новоявленных памятниках Хачбулага (Азербайджанская ССР) // ИАН АзССР 1972/1, с. 74-75.

[3] Baxşəliyev Vəli. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı, Elm, 2002, s. 40-42.

[4] Quliyev F.E., Qasımov P.P., Hüseynov F.R., Brileva O., Səlimbəyov Ş.A., Ələkbərov V.Ə. Topdağdağan nekropolu. Tovuz rayonu Azərbaycanda arxeoloji tədqiqatlar– 2013-2014, Bakı: - "Xəzər Universiteti" nəşriyyatı, 2015, s. 389-390

[5] Qasımov P. Xocalı – Gədəbəy mədəniyyətinin dəfn ənənəsində replika-əşyalar (Tovuz bölgəsindən olan son tunc dövrü tapıntıları üzrə). Azərbaycan Arxeologiyası. Volume 20 № 2, 2017, səh. 23-25, 34; Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур (эпоха энеолита и бронзы), Баку: Изд-во АН Азерб. ССР, 1959, s. 75.

[6] Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. Москва, Наука, 1977, с. 63-72

[7] Yenə orada, s. 33-84.

aid ən nadir və gözəl tapıntılar qorunur (AF 13, AF 862, AF 773, AF 856, AF 692, AF 983 (a) və s.). Bu tapıntıların analogiyası regionun maddi mədəniyyətinin (Xocalı və Gədəbəy tapıntıları ilə paralel bu xronoloji çərçivəyə daxil olan, Gəncə, Mingəçevir, Daşkəsən, Şəmkir, Qazax, Ağstafa, Abşeron, Naxçıvan və digər rayonların ərazisindəki müxtəlif abidələrdən aşkar edilən nümunələr) nə dərəcədə zəngin və qədim tarixə malik olduğunu təsbit etməyə imkan verir, həmçinin dövrü təyinat üçün xarakterik olan tapıntılar kimi dəyərləndirilir[8]. Şübhə yoxdur ki, bölgədəki inkişaf prizması və nəzərə çarpan müxtəlifliyin əsas təkanverici qüvvəsi ilk öncə yerli tayfalarla bağlıdır. Eyni zamanda zəngin təbiətin olması təsərrüfat və məişət avadanlıqlarının, müxtəlif metal nümunələrinin geniş istehsalına təkan vermişdir[9]. Miqrasiya edən köçərilər və mədəni təsirlərin də maddi irsin zənginləşməsində rolu danılmazdır. Digər metaldan olan bəzək predmetlərinin içərisində də Xocalı – Gədəbəy mədəniyyəti üçün xarakterik olan yüksək zövqlə işlənmiş sənətkarlıq elementlərini görmək mümkündür (AF 1276, AF 2644, AF 264 (b), AF 28141, s/q 82), AF 28142, s/q 83, AF 984, inv. 564/3119 və s.). Qeyd etdiyimiz kimi bu rəngarənglik Azərbaycanla paralel digər qonşu ölkələrin arxeoloji tapıntılarında da izlənilir. Son tunc-erkən dəmir dövründə Azərbaycanın ticarət və mədəni münasibətlərinin inkişaf etməsini xarakterizə edən amil regionun başlıca tranzit yolları üzərində yerləşməsidir. Müxtəlif istiqamətlərlə reallaşan mədəni münasibətlər qədim Azərbaycan əhalisinin həyat tərzinə, dini-fəlsəfi dünyagörüşünə, sənətkarlığın ayrı-ayrı sahələrinə və s. təsir edərək maddi irsimizdə özünəməxsus izlər qoymuşdur. Son tunc – erkən dəmir dövründə mədəni – iqtisadi münasibətlərin yüksək inkişaf etməsinin mühüm səbəblərindən biri də, Azərbaycanda əhalinin sosial və təsərrüfat əhəmiyyətli sahələrində sözün həqiqi mənasında dinamikliyin olması ilə əlaqədardır. Bu isə öz növbəsində ictimai, siyasi, mədəni, məişət və təsərrüfat məşğuliyyətində inkişafı qaçılmaz edir. Xarici əlaqə və təsirlərin də bu yüksək inkişaf prizması ilə bağlılığı danılmazdır. Xocalı – Gədəbəy mədəniyyəti üçün xarakterik olmayan xəncər tiplərinin bu dövrün abidələrindən aşkar edilməsi Ön Asiya ilə olan əlaqələrin bariz nümunəsidir. Belə tapıntıların sırasına kifayət qədər keramika nümunəsini də daxil etmək olar[10].

---

[8] Baxşəliyev Vəli. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı, Elm, 2002, şəkil 28, 29, s. 53; Nəcəfov Ş., Ağalarzadə A., Əsədov V. Qazıqulu abidələri. Bakı: 2017, s. 49

[9] Yenə orada, s. 80-81.

[10] Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа (по археологическим материалам Азербайджана). Баку, 1984, с.. 23-34

Xocalı – Gədəbəy mədəniyyətinin sənətkarlıq nümunələri sırasında tədqiqat nöqteyi nəzərindən daha çox araşdırılan sahə keramika nümunələridir.

Qarabağın maddi irsinin zənginliyi Xocalı – Gədəbəy mədəniyyətinin keramikasında daha qabarıq nəzərə çarpır. Azərbaycanın son tunc-erkən dəmir dövründə İran, Gürcüstan, Mərkəzi Asiya, Uzaq Şərq (Çin, Hindistan) Ön Asiya, Avropanın Şimali Qaradəniz, Mərkəzi Aralıq dənizi bölgəsinin əhalisi ilə qurduğu münasibətlər nəticəsində keramika istehsalında adı sadalanan bölgələr üçün səciyyəvi olan, o cümlədən geniş coğrafi arealda yayılmış əlamət və təsvirlərə təsadüf edilir[11]. Son tunc – erkən dəmir dövründə Azərbaycandan tapılan keramika nümunələrinin Gürcüstan, Ermənistan, Dağıstan və İran ərazisindən əldə edilən, o cümlədən Ön və Mərkəzi Asiyanın bir sıra abidələrindən tapılan anoloji materiallarla oxşarlıq təşkil etməsi bu əlaqələrin və təsirin göstəricisidir[12].

Xocalı – Gədəbəy keramikasının bir sıra ornamentləri İran, Gürcüstan, Ermənistan, Mərkəzi Asiya, Uzaq Şərq, Cənubi Sibir və Dağlıq Altay ərazisindəki abidələrdən aşkar edilən saxsı nümunələrinin üzərindəki təsvirlərlə eyni cizgiləri bölüşərək, Asiyanın geniş arealında müxtəlif mədəniyyətlərin təmasda olması faktını bir daha gerçəkləşdirmiş olur[13].

Cənubi Qafqazın Uzaq Şərq və Mərkəzi Asiya xalqları ilə əlaqələr saxladığını, Avropa ölkələrinin bir sıra tədqiqatçıları, həmçinin Rusiya, Azərbaycan, Gürcüstan və digər ölkələrin mütəxəssisləri aydınlıq gətirmişlər[14].

---

[11] Mustafayev L. Qaracəmirli abidəsindən tapılmış qayıqvari saxsı qab (Arxeologiya fondunun materialı əsasından). "Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, qorunması və bərpası" adlı III respublika elmi konfransının materialları. Bakı, 2019, s. 186-187

[12] Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. Москва, «Наука», 1977, с. 85-113.

[13]Гусейнова М. Из истории Южного Кавказа Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв до н.э.) Баку, «Bizim kitab», 2011, стр. 94, 126, 137-140, 144; Mustafayev L. Qaracəmirli abidəsindən tapılmış qayıqvari saxsı qab (Arxeologiya fondunun materialı əsasından). "Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, qorunması və bərpası" adlı III respublika elmi konfransının materialları. Bakı, 2019, s. 187

[14] Абаев В.И. К вопросу о прародине и древнейших миграциях индоиранских народов. Древний Восток и античный мир. Москва, 1972; Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (XIV-IX вв. до н.э.). Изд-во «Элм», Баку 1989 г. 127 с. XXX табл.; Дьяконов И.М. Народы древней Передней Азии. Переднеазиатский этнографический сборник, I, 1958, стр. 5-72; Погребова М.Н. К вопросу о связях Восточного Закавказье и Ирана в конце II – начале I тыс. до н.э. История Иранского государства и культуры. Москва, «Наука», 1971, стр. 190-197; Ghirshman R. Foilles de Sialk pres de Kashan.T. 2. P., 1939; Muscarella O.W. Hasanlu in the Ninth Century B.C. and its Relations with other Cultural Centres of Near East (Chronologies in Old World Archaeology. Archaelogical Seminar at Colombia University, 1969 – 1970). – AJA. Vol. 75, №3, 1971; Vandenberghe L. Le necrepole de Khurvin. Istanbul, 1964;

Bu dövrün keramikası yüksək bişmə keyfiyyəti, səthinin cilalanması, inkrustasiyalı, cızma, çərtmə və basma üsullu nəbati və həndəsi naxışların işlənməsi ilə seçilir[15]. Hətta bu dövrün keramikasında süyrəli naxışlara da rast gəlinir. Adətən bu tərz naxışlar bir qədər enli zolaqlardan ibarət olurdu. Dəmir dövrünün ortalarına yaxın isə (e.ə. VII-V əsrlər) müxtəlif istiqamətlərə çəkilən şüyrəli naxışları saxsı qablar üzərində aydın müşahidə etmək mümkündür. Bu dövrün keramikası bədii tərtibat, forma, istifadə təyinatı, eyni zamanda məzmun baxımından bir neçə yerə ayrılır. Buradakı saxsı qablar təyinatı üzrə məişət və təsərrüfat keramikasına ayrıldığı kimi, quruluşuna görə də – kiçik, orta və iri ölçülü, tək və cüt qulplu, enli ağızlı, şar və yarımşar gövdəli olmaqla müxtəlif formalarda istehsal edilirdi (AF 28124, s/q 42, AF 28125, s/q 43, AF 28126, s/q 45, AF 28127, s/q 46, AF 28131, s/q 64, AF 28130, s/q 63, AF 28132, s/q 69)[16]. Bədii tərtibat baxımından sözügedən dövrün saxsı qabları məzmununa görə zoomorf, ritual və sadə tiplərə ayrılır (AF 1043, AF 1027, AF 1177, AF 1483, AF 1294 və s.). Qablar üzərindəki təsvirlərə görə də məzmun müxtəlifliyinə malikdirlər. Bəzi tədqiqatçılar Xocalı – Gədəbəy keramikasını məzmununu zoomorf ornamentli, astral təsvirli, nəbati ornamentli, su (çay, yağış) təsvirli və həndəsi ornamentli saxsı qablar kimi qruplaşdırırlar[17]. Arxeologiya fondunda qorunan eyni adlı dövrün saxsı nümunələrinə diqqət etsək saxsı qablar üzərində olan müxtəlif naxış və təsvirləri aydın görə bilərik (AF 189, AF 939, AF 981, AF 0272, AF 2666 və s.). Bütün bu təsvir və naxışlar o dövrün inancları, təbiətlə bağlı seyrçi müşahidələr və astronomik düşüncələrlə əlaqədardır. Daşkəsən, Mingəçevir, Şəmkir, Xocalı, Gədəbəyin son tunc – erkən dəmir dövrünün arxeoloji tapıntıları demək olar ki, bir-birini təkrarlayan əlamətlərə malikdirlər.

---

[15] Müseyibli N., Axundova G. Xocalı-Gədəbəy mədəniyyəti keramikasının ornamentlərinin etnoarxeoloji tədqiqi (Zəyəmçay və Tovuzçay nekropollarının materialları əsasında). Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2013, №2, səh. 11-15

[16] Babayev İlyas, Kay Kaniyut, Mustafayev L., Martin Qruber. 2016-cı ildə Şəmkir-Qaracəmirli Beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən MATM-ın Arxeologiya fonduna təhvil verilən arxeoloji tapıntılar. Milli Azərbaycan Tarixi Muzeyi-2017. Bakı, 2017, Səh.82-85

Babayev İ.A., Kaniuth K., Gruber M., Mustafayev L.X., Heydərova Ü.R., Babayev F.İ. Beynəlxalq Azərbaycan – Almaniya Şəmkir – Qaracəmirli arxeoloji ekspedisiyasının çöl-tədqiqat işləri haqqında (Şəmkir rayonu 2016-cı il) // Azərbaycanda arxeoloji tədqiqatlar 2015-2016. Bakı, 2017, səh. 484-486

[17] Müseyibli N., Axundova G. Xocalı-Gədəbəy mədəniyyəti keramikasının ornamentlərinin etnoarxeoloji tədqiqi (Zəyəmçay və Tovuzçay nekropollarının materialları əsasında). Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2013, №2, səh. 11-13

Bu abidələrdən aşkar edilən tapıntıların quruluşu və üzərindəki naxışlar bu fikri deməyə əsas verir[18].

Saxsı qabların bədii görünüşü, müxtəlif formalarda rast gəlinməsi burada həm lokal, həm də kənar elementlərin rol oynadığını söyləməyə əsas verir. Xarici görünüş və təyinatına görə Cənubi Qafqazdan əldə edilən bir çox nadir qablar İranın arxeoloji abidələrindən də aşkar edilmişdir. Bu tip qablara ritual (çəkmə formalı), kernos, çaynikvari, zoomorf, birləşdirilmiş, silindirik və s. nümunələri misal çəkmək olar[19]. Nadir rast gəlinən materiallar xarici ticarət münasibətlərinin formalaşmasını, eyni zamanda digər mədəniyyətlərin tədricən yerli saxsı istehsalına təsir edərək fərqli elementlərin meydana gəlməsinə səbəb olur[20]. Təsadüfi deyildir ki, məhz bu dövrdən etibarən Şimali Azərbaycan ərazisində sinifli cəmiyyətə keçid baş verir. Artıq pərakəndə formada baş tutan ticarət və mədəni əlaqələr, siyasi münasibətlər vahid prizmadan nizamlı olaraq həyata keçirilməyə başlanır. Bu isə öz növbəsində bölgəyə olan kənar maraqları artırır. Qonşu xalqlarla qurulan mədəni və ticarət münasibətləri Qarabağın yüksələn xətt üzrə inkişaf etməkdə olan maddi irsinə zənginlik və yeni məzmun bəxş edir. Qısa zaman ərzində orta və erkən tunc dövrünün arxeoloji abidələrində rast gəlinməyən yeni tapıntılar Qarabağın son tunc-erkən dəmir dövrünə aid maddi irsində müşahidə edilir. Daha maraqlı fakt isə kəskin arqumentlərlə fərqlənməyən arxeoloji nümunələr Qarabağa yaxın olan Gürcüstan, Ermənistan və İran ərazisindən aşkar edilməklə bərabər adı çəkilən bölgələrə məxsus abidələrdə sıx surətdə rast gəlinməkdədir.

Ümumi prizmadan baxdıqda Xocalı – Gədəbəy mədəniyyəti lokal olaraq Qarabağla məhdudlaşmır. Bu mədəniyyətin əhatə dairəsi kifayət qədər geniş çevrəyə malikdir. Bu faktın elmi təhlili bir sıra qaranlıq məqamlara işıq sala bilər. Eyni tarixi-arxeoloji dövrə aid, o cümlədən indiki dövlətlərin sərhədləri nəzərə alınmasa, göz önündə canlandırılan xəritədə vahid bir bölgənin ayrılmaz konturları çərçivəsində iki başlıca amili vurğulamaq olar. Birinci amil; Xocalı – Gədəbəy mədəniyyətinin yayıldığı bu regionda vahid mədəniyyətə və həmin dövr

---

[18] Kəsəmənli H.P., Cəfərov H.F. 1971-ci ildə Xacbulaqda tədqiq edilmiş son tunc dövrü qəbirləri // ИАН АзССР 1974/3, стр. 73-83; Babayev İ., Kaniyut K. və başqaları Bakı, 2017, Səh.81-91

[19] Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. Москва, «Наука», 1977, стр. 85-105; Mustafayev L. Qaracəmirli abidəsindən tapılmış qayıqvari saxsı qab (Arxeologiya fondunun materialı əsasından). “Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, qorunması və bərpası” adlı III respublika elmi konfransının materialları. Bakı, 2019, s. 187

[20] Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа (по археологическим материалам Азербайджана). Баку, 1984,

üçün sinifli cəmiyyətə malik etnik toplumun formalaşmasıdır. İkinci amil; həmin dövrdə yüksək inkişaf etmiş və özünün sosial və siyasi həyatında sinifli cəmiyyətin rüşeymlərini daşıyan, miqrasiya edərək bu əraziləri özlərinə məskunlaşma məntəqəsi seçmiş oturaq mədəniyyətə keçən tayfaların tarix səhnəsinə çıxmasıdır. Xocalı – Gədəbəy mədəniyyətinin yaradıcıları bu arqument ilə sıx bağlı ola bilərdi.

Bu dövrün maddi tapıntılarını bir qədər uzaq regionların artefaktları ilə anoloji müqayisəsini aparsaq, oxşar əlamətləri fərqli mədəniyyətlərdə də müşahidə edə bilərik. Mərkəzi Asiya və Uzaq Şərqin maddi mədəniyyət nümunələrinin bədii tərtibatı və işlənmə texnologiyası hər iki tərəfdə xarakterik cəhətlərin harmoniyasından xəbər verməkdədir.

Xocalı – Gədəbəy mədəniyyətinə aid arxeoloji abidələri təsnif edərkən bir məqamı da diqqətdə saxlamaq lazımdır. Son tunc – erkən dəmir dövrünə aid bütün tapıntıları bilavasitə bu mədəniyyətə aid etmək olmaz. Burada saxsı qablardan ibarət nadir tapıntılar vardır ki, məhz bu tip maddi mədəniyyət nümunələri xarici təsirlərlə birbaşa bağlıdır. Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda mühafizə edilən aidiyyatı dövrə aid oval formalı qabları misal göstərmək olar (AF 28134, s/q 71, AF 1299)[21]. Bu nadir qablar son tunc – erkən dəmir dövrünə aid kurqan və sadə torpaq qəbirlərdən aşkar edilmişdir. Arxeologiya fondunda mühafizə olunan bu qabların oxşarına Ermənistanın arxeoloji abidələrində də rast gəlinir[22]. Azərbaycanda isə bu tip qablar Naxçıvan və Şəmkir qazıntılarından məlumdur[23]. Tapıntının mənşəyi haqqında konkret fikir söyləmək bir qədər mübahisəlidir. Bu qabların ritual ayinlərin icrası üçün istifadə edilməsi fikri də elmi ədəbiyyatda rast gəlinir[24]. Az təsadüf edilməsi və nümunənin yaxşı vəziyyətdə qalması xarici ticarət və mədəni əlaqələrin təzahürü

---

[21] Mustafayev L. Qaracəmirli abidəsindən tapılmış qayıqvari saxsı qab (Arxeologiya fondunun materialı əsasından). "Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, qorunması və bərpası" adlı III respublika elmi konfransının materialları. Bakı, 2019, səh. 186-193; Babayev İlyas, Kay Kaniyut, Mustafayev L., Martin Qruber. 2016-cı ildə Şəmkir-Qaracəmirli Beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən MATM-ın Arxeologiya fonduna təhvil verilən arxeoloji tapıntılar. Milli Azərbaycan Tarixi Muzeyi-2017. Bakı, 2017, s. 84-85.

[22] Деведжян С.Г. Лори – Берд. 1 Результаты раскопок 1969-1973 гг. Изд. АН Армянской ССР, Ереван 1981, с. 39-40.

[23]Гусейнова М.А., Алиев И.Н. Среднебронзовые курганы с Гараджамирли Шамкирского района Азербайджана. Azərbaycan arxeologiyası və etnoqrafiyası. Баку, Элм, 2006, №1, с. 43, 47, 54

[24]Гусейнова М.А. Предметы культа и символы власти в памятниках материальной культуры Азербайджана эпохи поздней бронзы и раннего железа. Археология Азербайджана, Изд-во, Университета Хазар, 2000 г. №№ 3-4, с. 14-22

kimi özünü göstərir[25]. Belə qənaətə gəlmək olar ki, bu qablar çox güman yerli istehsal deyildir.

Musayeva Ləman
Milli Azərbaycan Tarixi Muzeyinin
Azərbaycan tarixinin elmi tədqiqi və
təqdimi şöbəsinin elmi işçisi

Muharibə Şuşa məktəblilərinin xatirələrində

"Xalqımıza qarşı əsrlər boyu müntəzəm surətdə ağır cınayətlər törədilmiş, məkrli niyyətlər gerçəkləşdirilmişdir. Öz ağırlığına, miqyasına və nəticələrinə görə bunlar həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qiymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdır. Bunu təmin etmək bizim hamımızın ümumi vəzifəsidir"[1] deyən Ümummilli lider Heydər Əliyevin bu tövsiyəsini əsas tutaraq Milli Azərbaycan Tarixi Muzeyi digər dövrlərin xronologiyası kimi, ölkəmizin müstəqilliyini bərpa etməsindən indiyənə kimi qarşılaşdığı bədnam qonşu təcavüzünü öz elmi-populyar nəşr, sərgi və ekspozisiyasında daim əks etdirib. Növbəti belə tədbirlərdən biri də, II Qarabağ müharibəsi bitən kimi həyata keçirtdiyi bir çox (şəhid və qazilərin şəxsi əşayalarının toplama işi, valideyn və əzizlərlə görüşlər, sərgi, anım günlərinin) fəaliyyət ilə yanaşı 44 günlük Müharibə dövründə erməni terrorizminə məruz qalan bölgələrin muzey, təhsil şöbələri və məktəblilər ilə əlaqə quraraq uşaqların müharibə xatirələrinin toplanması oldu.

Uşaq müharibə xatirələrinin elmi-tədqiqat və mədəniyyət müəssisəsi tərəfindən toplanması və nəşrə hazırlanması işi Azərbaycanda ilk dəfə həyata keçirildi. Bu məsələnin aktuallığı isə ondan ibarətdir ki, "... indi tarix keçmişə öz müasirlərinin yaddaşı və ona olan təəssüratları ilə baxır. Burada dəyərli olan odur

[25]Гусейнова М. Из истории Южного Кавказа Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв до н.э.) Баку, «Bizim kitab», 2011, с. 139-140
[1] Uşaqlar müharibənin günahsız qurbanlarıdır. Bakı, " NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014, s. 5.

ki, əldə edilən material müəyyən bir tarixə insanların münasibəti, onların düşüncələri, hissləri, təcrübələri haqqında məlumat əldə etməyə imkan verir”[2].

Ümumiyyətlə, şifahi tarix müasir ictimai elmlərdə yeni bir istiqamətdir. “Şifahi tarix” (Oral tarix) 20-ci əsrin ikinci yarısından intensiv inkişaf etməyə başlamış və termin kimi 19-cu əsrin ortalarında fransız yazıçı və publisisti Barbe d'Oreville tərəfindən təqdim edilmişdir. Lakin bu yol “ABŞ-da Şifahi Tarix Araşdırma Mərkəzini quran amerikalı Allan Nevinsin işindən sonra geniş yayılmışdır. İndiyədək məhz ABŞ-da şifahi tarix daha çox yayılıb[3]. Keçən bir neçə onilliklər ərzində bu sahə üzrə müxtəlif elmi jurnallar təsis edilmişdir: ABŞ-da "Qualitative Sociology" ("Qualitative Sociology", 1978) və "International Journal of Oral History" ("International Journal of Oral History", 1980), İspaniyada "Historia y fuenteoral” (“Tarix və Şifahi Mənbələr”, 1988) və ya Almaniyada “BIOS” adlı bioqrafik tədqiqat və şifahi tarix jurnalı (“BIOS”, 1988) nəşr edilmişdir[4].

Günümüzədək Vətən Müharibəsi tarixinə dair araşdırmalar ənənəvi tarixşünaslığa uyğun tədqiq edilib və rəsmi mənbələr (raportlar, göndərişlər, xülasələr) əsasında yazılmışdır. MATM-nin Azərbaycanda ilk dəfə olaraq start verdiyi bu layihə ilə biz yerli və qlobal tarixin bir hissəsi olan məktəblinin duyğu(həm müsbət, həm də mənfi), gündəlik həyat, dünyagörüşü, motivasiya və dəyərləri ilə keçmişi dərk edə bilmək üçün böyük əhəmiyyət kəsb edən tarixi yaddaşı formalaşdıra bilərik. Bununla da insanlar və onların xatirələri sənədə, tarixə çevrilir. Əldə edilən material ilə müəyyən hadisələr haqqında məlum olan rəsmi xəbərin insanlar tərəfindən baxışı, münasibəti, düşüncə, hiss və təcrübələrinin məlumatını öyrənmək olar. Bu da Vətən müharibəsi tarixindəki boşluğu doldurmaq imkanı verir. Xatirələr mövcud sənədli mənbələri tamamlayır və ikincisi, daha da əhəmiyyətlisi rəsmi versiyanı yoxlayır, müqayisə və təhlil edir.

---

[2] Стрекалова Е.Н. Военное детство 1941-1945 гг. по данным устных источников //Народы Юга России в Отечественных войнах: Материалы международной научной конференции. Ростов н/Д, 2012./ с. 138.

[3] Бутько, В.Н. «Устная история» в контексте изучения личности / В.Н. Бутько // Роль личности в истории: реальность и проблемы изучения: науч. сб. (по материалам 1-й Международной научно-практической Интернет-конференции) / редкол. В. Н. Сидорцов (отв. ред.) [и др.]. – Минск : БГУ, 2011. – С. 162–166

[4] Хубулова С А., Хубулова Э. В. « Детские воспоминания о великой отечественной войне в пространстве современной устной истории» / Известия СОИГСИ 14/ Владикавказ: ИПЦ СОИГСИ ВНЦ РАН и РСО-А (53) 2014, с. 35.

Bu işin məqsədi canlı yaddaşı qorumaq, o dövrün xüsusiyyətlərini canlandırmaq, dünyaya uşaqların gözü ilə baxmaqdır. Bu, kiçik bir insanın gündəlik dünyasına baxmaq və beləliklə də, "səssiz əksəriyyətin səsini eşitmək"[5] probleminin elmi tədqiqatların periferiyasında olan tərəflərini öyrənməyə imkanı verir. Məqalənin məqsədi isə Vətən müharibəsi tarixinə dair mənbə kimi "müharibə uşaqları"nın xatirələrinin xüsusiyyətlərini təhlil etməkdir.

Hərbi uşaqlığın və onların xatirəsinin tədqiqi şəxsi mənşəli mənbələrin cəlb edilməsini tələb edir. Bu isə tarixi prosesin adi iştirakçıları, sözdə "səssiz" çoxluğu təşkil edənlərin, adətən yazılı mənbələri geridə qoymayan insanlar üçün elm tərəfindən dinlənilmək imkanı yaradır. Lakin bu prosedurun özünün əhəmiyyətini elmi işçinin adi insanlara izah etmə və nəticəyə müvəffəq olması gedişatı bir neçə mərhələdən keçdi: İlk olaraq rayon tarix-diyarşünaslıq muzeyləri ilə başladıq ki, muzey əməkdaşları rayon məktəblilərinin xatirələrini toplasınlar. Tarixin yeni istiqamətinin iş prosesi ilə həm tanış olsunlar, həm də bu cür innovativ metodlardan gələcəkdə öz təcrübələrində istifadə etsinlər. İşin ardıcıllığını onlayn seminar və görüşlər ilə nəzarət altında saxlayırdıq. Lakin, meydana çıxan inzibati problemlər bu xatirələrin toplanmasını gecikdirirdi. Toplamada istədiyimiz say və nəticəni əldə etmədiyimizdən II mərhələyə start verdik. Rayon və şəhər təhsil şöbələrinin rəhbərlərinə Muzey direktoru, Akademik Nailə Vəlixanlının ünvanladığı məktubu yolladıq. Bundan sonra toplamada bir qədər canlanma meydana gəldi və bir neçə rayon təhsil şöbələrindən məktubumuza cavab verildi. Ancaq təəssüflə qeyd etmək istərdim ki, bəzi rayon təhsil şöbələri heç email ünvanlarını gözdən keçirmir, bəlkə də , sadəcə məlum müəssisələrdən gələn məktubları oxuyurdular. Belə nəticəyə gəlməyimizə səbəb onda idi ki, bir müddətdən sonra məktubların cavablanmadığını səbəbini öyrənmək üçün Təhsil şöbələri ilə birbaşa əlaqə qurduqda, heç o məktubu görmədikləri məlum olmuşdur. Beləliklə, növbəti mərhələ artıq rayon təhsil şöbə müdirlərinin və əvəzedicilərinin şəxsi mobil nömrələrinin axtarışı və onların hər biri ilə fərdi söhbətlərin aparılması oldu. Məhz bundan sonra bu işin daha da sürətlənməsi prosesi baş verdi. Indiyədək II Qarabağ müharibəsində erməni terroruna məruz qalan 30 rayonun Tarix-diyarşünaslıq muzeyləri və Təhsil şöbələri, eləcə də, ayrı-ayrı fərdi şəxslərdən göndərilən məktubların email və əlyazma esselərin sayı 1000-ə çatıb . Bu

[5] С. А. Хубулова, Э. В. Хубулова « Детские воспоминания о великой отечественной войне в пространстве современной устной истории» / История и этнология. Известия СОИГСИ 14/ Владикавказ: ИПЦ СОИГСИ ВНЦ РАН и РСО-А (53) 2014, с. 35.

məktublar diqqətlə oxunub və sistemləşdirildikdən sonra, orijinallığını saxlamaqla kitab şəklində çap edilməsinə qərar verildi.

Muzey informatorlarının yaş həddi 6-17 arasıdır. Alınan cavablar məzmun təhlili üsulu ilə işlənir. Nəticələrin təfsiri aşağıdakıların təhlilini əhatə edir:

- ailənin yerləşdiyi vəziyyət (cəbhə xətti, dərin arxa cəbhə);
- müharibə zamanı emosional təcrübələrin əsas fonu;
- dəyər istiqamətləri, maraqları, ünsiyyət mühiti, müharibə dövründə fərdin sosial fəaliyyəti.

Respondentlər hərbi tarix tədqiqatlarında heç vaxt dərc olunmayan fakt və sübutları gətirir. Xatirələrin materialları daha müstəqil mənbə kimi bir sıra problemlərin həllində istifadə oluna bilər. Eyni zamanda, tədqiqatçılar digər məlumat növlərini tamamlamaq, mətnin özünü canlandırmaq üçün daha çox bu cür xatirələrdən istifadə edə bilərlər. Məsələn, Şuşa rayon 6 nömrəli tam orta məktəbin IX sinif şagirdi, şəhid mayor Ağayev Cəlalın qızı Ağayeva Nazəninin "Müharibədən xatirələrim" mövzusunda bu cür yazıb: "27 sentyabr 2020-ci il. Hər şey o gündən başladı. Yuxudan top atəşinə oyandıq. Yenə atəşkəs pozulmuşdu. Həmişəkindən fərqli olaraq içimi qəribə bir qorxu hissi bürümüşdü. Doğrusu, hər səhər belə yuxudan oyanmağa artıq öyrəşmişdim. Amma bu dəfə hər şey fərqli idi. Mənim atam tank komandiri idi. Sentyabrın 26-da bizimlə sağollaşıb cəbhəyə yollanmışdı. Mən səhər saatlarında bu səsi eşitdikdə artıq anladım ki, müharibə başlayıb və atam üçün çox narahat oldum. O gündən sonra hər gecə yuxularımda atamı görürdüm. Yuxuda görürdüm ki, o mənə baxıb gülümsəyir, müharibənin bitdiyini deyir amma yenədə əllərimi buraxıb işi olduğunu söyləyir və gedir. Hər məktəbə gedəndə anam mənə cibxərcliyi verirdi. Mən də bunu xərcləməyib daxılıma yığırdım. Sonra isə bu pula su alıb cəbhəyə göndərirdim. Bunu edəndə ürəyim heç olmasa da bir az rahatlayırdı. 28 sentyabr, axşam saatlarında atamla son dəfə əlaqə saxladıq.Son dəfə səsini eşitdik. Heç kim təxmin edə bilməzdi ki, bu son olardı. 29 sentyabr 2020-ci il. Günorta saatlarında çox güclü atışma səsləri eşitdik. Göy üzündə dronlar uçurdu. Havadan barıt qoxusu gəlirdi. Anam və mən çox narahat olduq. İçimizdə çox fərqli bir hiss var idi. Atama nəsə oldu deyə düşündük. Axşam saatlarında qapı döyüldü. Atamın bir neçə dostu bizə gəlmişdi. Atamın tank partladığı zaman şəhid olduğu xəbərini verdilər. Xəbəri eşitdiyim an zaman mənim üçün durdu sanki. Hislərimi təsəvvür etmək çox çətin idi. O gündən sonra həyat mənim üçün çox mənasız oldu..."[6]. Bu

[6] Respondent -Şuşa rayon 6 nömrəli tam orta məktəbin IX sinif şagirdi, şəhid mayor Ağayev Cəlalın qızı Ağayeva Nazəninin xatirələrindən

xatirədə Nazənin atasının şəhid olacağı günü öncədən hiss etdiyini bildirməklə yanaşı, atəşkəsin dəfələrlə pozulduğunu və hətta buna artıq öyrəşdiyini ifadə etməklə rəsmi Ermənistanın təkzib etdiyi faktları yeniyetməlik məsumiyyəti və səmimiyyəti ilə əksini sübut edir. Eyni zamanda anasından aldığı gündəlik cibxərcliyini yığıb cəbhədəki əsgərlərə su göndərməsi ilə digər məktəblilər kimi öz təəssübkeşliyini "Bunu edəndə ürəyim heç olmasa da bir az rahatlayırdı" fikirləri ilə nümayiş etdirmiş oldu. "O gündən sonra həyat mənim üçün çox mənasız oldu..." fikri ilə isə minlərlə atasız qalmış uşaqların uşaqlığının, sevincinin əlindən alındığını əks etdirən səssiz naləni hiss etmiş oluruq.

Şuşa şəhər 1 nömrəli tam orta məktəbin 7d sinif şagirdi Musayeva Əsmanın yazdıqlarından: "27 sentyabr səhər televizorda belə bir xəbər eşitdik : Düşmən bölgərimizə və mülki əhaliyə mərmi yağdırır. Bu xəbərdən sonra biz çox narahat olduq. Tez rayonla əlaqə saxladıq. Anam dayımla danışanda dayım belə dedi: - Narahat olmayın biz yaxşıyıq. Ağlımdan belə bir fikir keçdi: Axı necə narahat olmayaq bu xəbərdən sonra? ...Döyüş getdikcə şiddətlənirdi, ona görədə, ana-bacılarımızı və uşaqları ordan (Ön cəbhədən) çıxartdılar. Amma, ata-babalar, gənc oğlanlar orda qaldı. Çünki onlar nə bahasına olursa olsun "ölsək burda öləcəyik, qalsaq burda qalacayıq" deyirdilər və bu əsgərlərimizə ruh yüksəkliyi verirdi." Bu sətirlərdə şagird qeyri-ixtiyari olaraq ön cəbhəyə yaxın olan bölgə əhalisinin mərdliyini, qorxmazlığını göstərməklə yanaşı, həm də xalqın orduya və qələbəyə olan inamını əks etdirirdi[7].

Bakı şəhəri Yasamal rayonu ərazisində yerləşən Əsəd Əhmədov adına 1 nömrəli Şuşa məktəbin 5q sinfinin şagirdi Zeynəb Süleymanlı isə öz xatirələrində müharibədən öncə baş vermiş Tovuz döyüşlərinə toxunur "Vətən müharibəsi başlamazdan əvvəl biz ailəmizlə Tovuza getmişdik. (Silahların gürultusunu eşitdik)Biz biraz təşvişə düşdük, amma bunun təlim olduğunu düşündük. Ancaq yanıldıq. Bir az sonra xəbər yayıldı ki müharibədir!!!. Həmin vaxtı milli qəhrəmanımız Polad Həşimov müharibə zonasında idi və o döyüşlərdə şəhid oldu. Biz qorxmurduq, qürurlanırdıq. O zaman 10(yaşım) olduğum üçün biraz qorxmuşdum..." Bu sətirlərdən aydın olur ki, uşaqların tarixi yaddaşı hərbi keçmişi, hadisələri və öz-özünü subyektiv şəkildə şərh edir[8].

Xatirələr Xalqın milli birliyini, qələbəyə inamını, yaxınına və yada əhəmiyyət vermədən eyni hislərin, qorxu və sevinc, kədər və qürurun dərindən

---

[7] Respondent -Şuşa şəhər 1 nömrəli tam orta məktəbin 7d sinif şagirdi Musayeva Əsmanın xatirələrindən.

[8] Respondent - Bakı şəhəri Yasamal rayonu Əsəd Əhmədov 1 nömrəli Şuşa məktəbin 5q sinfinin şagirdi Zeynəb Süleymanlının xatirələrindən

yaşandığını göstərdi. Bunu Şuşa şəhər 3 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Rüstəmova Fidan Vüqar qızının yazdıqlarından da aydın görmək olar: "Bizim ailə məlum hadisələrlə əlaqədar Şuşadan Bakıya köçmə məcburiyyətində qalmışdır. Bacılarım da, mən də Bakıda doğulmuşuq. Lakin həmişə ailəmizdə gedən söhbətlərin ana mövzusu Qarabağ olmuşdur. Valideynlərim hər zaman bizə şuşalı olduğumuzu, Bakıda müvəqqəti yaşadığımızı təbliğ edirdilər. Mən illər boyu Şuşanın azad olacağını və orada məktəbdə oxuyacağımı xəyalımda canlandırmışam. Vətən müharibəsinin ən qızğın vaxtları idi. Atam axşam Ağdama gedecəyini bildirdi. Anamla atam qəhrəman əsgərlərimizə dəstək olmaq üçün tədarük görürdülər. Bacılarımla mən də qərara gəldik ki, az da olsa, öz yardımımızı göstərək. Mən təklif etdim ki, üçümüzün birlikdə topladığımız pulla əsgərlərimiz üçün su alıb göndərək. Valideynlərimiz bu təklifi çox bəyəndilər və sevindilər. Şuşa azad olunan gün ailəmizlə birlikdə Şəhidlər Xiyabanına getdik. Mən belə izdiham görməmişdim. Özümü qəribə hiss edirdim. Elə bil böyümüşdüm. İnsanlar böyük fərəhlə şüarlar səsləndirir, hamı bir birini təbrik edirdi. Bu anda qarşımızadan bir ayağı olmayan 3 əsgər keçdi. Hamı onları alqışlamağa başladı . Mən başa düşdüm ki,Vətən uğrunda canını, qanını vermək nə deməkdir. Qoy bir daha müharibə olmasın!"[9].

Göründüyü kimi, məktəblilər öz xatirələri ilə sanki tarixi yaradır. Öz dünyagörüşünə, siyasi-mədəni münasibətinə, tərcümeyi-halının və ictimai rolunun xüsusiyyətlərinə, psixoloji əhval-ruhiyyəsinə uyğun olaraq keçmişini modelləşdirir.

Şuşa rayon Malıbəyli kənd 1 nömrəli tam orta məktəbin XI a sinif şagirdi İbrahimli Əlisahib Rəşad oğlunun yazdıqlarından: "Ölüm, insanın hər an qarşılaşa biləcəyi, ancaq tez-tez unutduğu bir gerçəklikdir, mən ölümün bu qədər yaxın, ani ola biləcəyini məhz müharibə dövründə anladım. 27 Sentyabr, həmin gün bacımın Şuşa rayon üzrə ən yüksək, 664 balla "ADA" Universitetinin hüquq fakültəsinə qəbul olmasını bütün yaxın qohumlarımızla, üzərimizdə əməyi olan insanlarla birlikdə babamgildə qeyd edirdik, hamı çox sevincli görünürdü, bütün ailə birlikdəydik. Həmin gün internet kəsilmişdi. Birdən televizorda verilən xəbərlə sevincim yox oldu və xəbərə diqqətlə qulaq asmağa başladım, aparıcı deyirdi ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistanın ərazilərimizə olan hücümunun qarşısını almış və əks-hücüm əməliyyatına başlamışdı, ordumuz irəliləmiş və bir neçə yaşayış məntəqəsini azad etmişdi. Bu xəbərə atam da qulaq

[9] Respondent - Şuşa şəhər 3 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Rüstəmova Fidan Vüqar qızının xatirələrindən

asırdı, atam ehtiyyatda olan zabit olduğundan müharibənin nə olduğunu, bizi nələrin gözlədiyini hamımızdan daha yaxşı anlayırdı, atama sual verməyə çəkindim, çünki artıq qismən səfərbərlik elan olunmuşdu və onun da müharibəyə çağırılacağı hissi ürəyimə dammışdı... . 6 Oktyabr, atamın telefonuna zəng gəldi, müharibə başlayandan tikan üstündəydim, çünki əvvəl-axır atamı çağıracaqlarını bilirdirdim, gələn zəng hərbi komisarlıqdan idi, atama "siz müharibəyə göndəriləcəksiniz, sənədlərinizi gətirib təqdim edin" deyildi, həmin an özümü itirdim, gözüm qaraldı, ancaq heç kimə bildirməmək üçün divanda oturub başımı əllərimin arasına aldım, həmin an gözümdən düşən yaşları saxlaya bilmədim. Atam, anam, bacım mənə baxırdılar, bacımın mənim ağlamağıma dayana bilməyib ağladığını, anamın isə doluxsunduğunu gördüm, özümü toparlamağa çalışırdım, ancaq alınmırdı. 7 Oktyabr, səhər tezdən komissarlığın qarşısına getdik, atam, anam, bacım, əmilərim və dayım da gəlmişdi. Atamı necə qucaqladımsa ürək döyüntülərini hiss etməyə başladım, mənə baxıb "narahat olma, hər şey yaxşı olacaq" dedi, ancaq qəhərini hiss etməmək mümkün deyildi, komisarlığın maşını atamla bərabər 3 nəfəri də aparmaq üçün gəlmişdi, atam maşına minənə qədər özümü saxladım, ancaq maşına minib uzaqlaşanda dayana bilmədim, ürəyimdəki qəhər tez çıxsın deyə dayanmadan ağlamağa başladım. Müharibənin qızğın vaxtında elə olurdu ki, atama zəng çatmırdı, belə hallarda ağlıma pis fikir gətirməmək üçün əlimdən gələni edirdim, ancaq nə olursa olsun səsini eşitmədən yatmırdım, atamın qoxusu mənim üçün ən əziz şey olduğundan onun yastığından ayrılmırdım, hər gün şəklinin qarşısında oturub ona dualar oxuyurdum. Atamın qəza xəbəri gəldi, həmin gün səhər bacım qabırğasının dəhşətli şəkildə ağrıdığını və içində pis bir hiss olduğunu demişdi, bir neçə saat sonra atamdan onları döyüş bölgəsinə aparmalı olan maşında qəzaya düşdüyünü, möhkəm əzildiyini və yeriməkdə çətinlik çəkdiyini öyrəndim, dəhşətli ağrıları olmasına baxmayaraq atam daha ağır vəziyyətdə olan müharibə iştirakçılarının olduğunu deyərək hərbi hospitala yerləşdirilməkdən imtina etmişdi, bunu eşidəndə ona olan rəğbətim və hörmətim daha da artdı. Atam üçün çox darıxmışdım, artıq şəkillər, yasdığı bəs etmirdi, atamı görmək istəyirdim, qəzada ağır yaralandığı üçün çox narahat idim. Anam zəng vurub mənim çox darıxdığımı mümkündürsə yanına gətirmək istədiyini dedi, atam bunun mümkün olduğunu deyəndə qanadlanıb uçacaqdım. Həmin gün səhəri necə etdim bilmədim, tez durdum, hazırlaşdım, dayım, bacım, anam və babamla birlikdə atamı görməyə getdik. Atamı görəndə göz yaşlarımı tuta bilmədim, çünki çox arıqlamış və gücdən düşmüşdü, ancaq bunu ona bildirməmək üçün qucaqlaşanda özümü sıxdım. Orda olduğumuz müddətdə ağır artilleriyanın səsi aydın eşidilirdi, atam

dedi ki, bu bizim ordumuzun səsidir, narhat olmayın. Ordan gələnə qədər bir an belə atamın yanından ayrılmadım, atam qolundan saatını açıb mənə verib " məndən sənə yadigar qalsın" dedi, o saatı hələ də ayrıca bir yerdə saxlayıram. 7 Noyabr, bütün gün atama zəng çatmırdı, gecə saat 2-də atamın telefonuna zəng çatdı, atam telefonunu açıdı, silah səsləri hər tərəfi bürümüşdü, mən təlaş içində idim. Atam dedi ki, indi yüksəkliyə qalxmışıq, ona görə şəbəkə tutur. Mən təşvişlə atamdan harada olduğunu soruşanda dedi "darıxma sabah sən gözəl bir xəbər eşidəcəksən". 8 Noyabr, doğma yurdum, Şuşa işğaldan azad edildiyi, televizorda prezident, Silahlı Qüvvəllərin ali baş komandanı İlham Əliyev tərəfindən elan olunduqda mən anamın üzünə baxırdım, o donub qalmışdı, olanlar ona bir yuxu kimi gəlirdi, anamı qucaqladıqda gözlərindən düşən yanaqlarından süzülüb çiynimdə hiss etdiyim yaşlar onun 30 illik həsrətə verdiyi reaksiya idi. Mən anamı ilk dəfə bu qədər qarışıq duyğular içində görürdüm, həmin gün bütün Azərbaycan xalqı bayram edirdi, küçələrdə mahnı çalıb oynayan insanları, onların hərbiçilərimizə olan dəstəyini görmək həm də bizim həmrəyliyimizdən xəbər verirdi. 9 Noyabr, müharibə bitmə xəbərini eşidəndə gecə saat 2 idi, yuxudan necə durdum, necə anamın yanına qaçdım bilmirəm, tək yadıma qalan hadisə atama zəng vurub bu xəbəri onunla bölüşməyimiz idi, mən də həmin vaxt atamın yanında olub onu qucaqlamaq üçün hər şeyimi verərdim. Prezident və SQ Ali Baş Komandanı İlham Əliyevin fərmanı ilə müharibə iştirakçıları medallarla təltif edilirdi, mən də bir-bir siyahılarda atamın adını axtarmağa başladım və atama "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Xocavənin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", müdafiə nazirinin "Şücaətə görə" medallarına layiq görüldüyünü öyrəndim. Bu məni çox sevindirdi və bütün layiq görüldüyü medalları zəng edərək atama çatdırdım, o da mənə artıq polkovnik-leytenant rütbəsinə yüksəldiyini bildirdi[10].

Beləliklə, qeyd etmək olar ki, xatirələrin materialları daha müstəqil mənbə kimi bir sıra problemlərin həllində istifadə olunmağa başlayır. Bu, eyni zamanda cəmiyyətin obrazlarının, dəyərlərinin yenidən qurulması üçün şifahi tarixin potensial informativ imkanlarını ortaya qoyacaqdır.

[10] Respondent -Şuşa rayon Malıbəyli kənd 1 nömrəli tam orta məktəbin XI a sinif şagirdi İbrahimli Əlisahib Rəşad oğlunun xatirələrindən

Mövsümov Şəfa
Milli Azərbaycan Tarixi Muzeyinin
Vətən müharibəsi fondunun müdiri

Şuşa uğrunda şəhid olan döyüşçülər
(MATM-nin Vətən müharibəsi fondunun materialları əsasında)

Şuşanın azad edilməsi uğrunda Azərbaycan döyüşçüləri misilsiz qəhrəmanlıq nümunələri göstərərək şəhid və qazi oldular. Həmin şəhid və qazilərə aid elmi tədqiqatlar bu gün də öz elmi əhəmiyyətini göstərir. Milli Azərbaycan Tarixi Muzeyində yeni yaradılmış Vətən müharibəsi fondunda (VMF) 44 günlük müharibədə Şuşa uğrunda şəhid olanların da materiallarına rast gəlinir. Həmin materialların böyük hissəsi 2021-ci ildə Milli Azərbaycan Tarixi Muzeyində baş tutan "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgidə nümayiş etdirilmişdir. Bundan başqa, qeyd olunan materiallar VMF-də müvafiq nömrələrlə inventarlaşdırılıb və mühafizə edilir. Şuşa uğrunda döyüşlərdə iştirak edənlərin şəxsi materialları əsasında yazılan bu məqalədə ilk dəfə olaraq muzeyin fondunda mühafizə olunan eksponatlara istinad edilib.

Yenicə yaranmış VMF-də mühafizə olunan materiallar arasında Şuşa döyüşlərində iştirak edənlərdən 24 nəfərin materialı yerləşir. Onların arasında müxtəlif hərbi rütbələrə malik hərbçilərimiz vardır. Qeyd olunan materialların elmi tədqiqini bir məqalədə ətraflı vermək çətin olduğundan ümumi olaraq toxunulmuşdur. Məqalədə ilk dəfə bu mövzu araşdırıldığından qoyulmuş problemin tədqiqi istiqamətində gələcəkdə də ayrıca araşdırılmalar aparılmalıdır. Məqalənin yazılmasında məqsəd Şuşa uğrunda şəhid olmuş hərbçilərimizə məxsus materialların tədqiqi və təbliğini həyata keçirməkdir. Eyni zamanda, Şuşa ili çərçivəsində bu şəhər uğrunda döyüşmüş və şəhid olmuş həmvətənlərimizin döyüş yoluna ümumi nəzər yetirmək, Şuşa ilinə töhfə verməkdir. Məqalənin praktiki əhəmiyyəti Vətən muharibəsində iştirak edənlərə məxsus materialların muzey eksponatları kimi elmi tədqiqiqata cəlb edilməsi, orta və ali təhsil müəssisələrində müvafiq mövzu üzrə dərs və seminarların keçirilməsində istifadə edilməsidir. Bundan başqa, adı çəkilən məqalə Vətən müharibəsinin tədqiqatçıları üçün də ilkin elmi mənbə rolunu oynayacaq.

Şuşa uğrunda döyüşlərdə şəhid olanlardan və MATM-də materialları qorunanlardan biri Ağamirov Şıxmir Qabil oğluna məxsus eksponatlardır. Onun kamuflyaj rəngdə olan hərbi səhra geyimi – kiteli, hərbi səhra baş geyimi və

fotoşəkili inventarlaşdırılaraq mühafizə edilir[1]. Şıxmir Ağamirov 1990-cı il aprelin 5-də Qusar rayonunun Gican kəndində anadan olub və noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Digər materiallar isə Allahverdiyev Babək Bəxtiyar oğluna məxsusdur . Ölçüsü 21 x 15 sm olan mərasim geyimində fotoşəkili qorunur[2]. 1979-cu il mayın 30-da Naxçıvan şəhərində anadan olan Babək noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının kapitanı şəhid Babayev Şamil Baloğlan oğluna aid bir ədəd ölçüsü 21 x 15 sm fotoşəkil və bir cüt leytenant poqonu fondda qorunur[3]. Şamil Babayev 1988-ci il yanvarın 26-da Culfa rayonunun Camaldın kəndində anadan olub, noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub.

Dadaşov Orxan Vaqif oğlunun isə ölçüsü 15 x 10 sm fotoşəkili və ölçüsü 19 sm olan bilərziyi fond materialları arasında saxlanılır[4].1996-cı il fevralın 25-də Ağdam rayonunun Mirəşelli kəndində anadan olan Orxan noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Anası əslən azərbaycanlı,atası misirli olan şəhid Xalid Hassan Mahmud oğluna məxsus materiallardan ölçüləri 18 x 12,5 sm olan 6 ədəd fotoşəkili, yun materialdan qulaqsız hərbi papaq və buşlat kəməri fondda mühafizə olunur[5]. O, 1995-ci il yanvarın 26-da Sumqayıt şəhərində anadan olub və noyabrın 4-də Kəlbəcər-Şuşa yolu istiqamətində şəhid olmuşdur.

Fond materialları arasında Xəlilov Hüseyn Rasim oğlunun çiynində yaralı apararkən fotosu və əlində silah olan şəkli vardır[6]. 27 mart 2002-ci ildə Sabunçu rayonunun Nardaran qəsəbəsində anadan olmuş Hüseyn 7 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı yaralanmışdır. Gəncədə və Bakıda yerləşən xəstəxanada koma vəziyyətində saxlanmışdır. 25 aprel 2021-ci ildə müalicə aldığı xəstəxanada şəhid olmuşdur.

Qənbərov Bilal Xanlar oğlu 1993-cü il sentyabrın 29-da Bakı şəhərində anadan olub və noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olub.Ona aid portmanat, fotoşəkillər,mülki kəmər, gün eynəyi, 702 saylı hərbi hissənin komandanlığı tərəfindən verilən təşəkkürnamə, xidməti xasiyyətnamə ilə yanaşı onun haqqında "Nöqtə" qəzetində (№ 1 (175) yanvar 2021.səh.2) və "Telli

[1] MATM VMF İnv. 1442-144.Ağamirov Şıxmir
[2] MATM VMF İnv. 1294. Allahverdiyev Babək
[3] MATM VMF İnv. 1048-1049. Babayev Şamil
[4] MATM VMF İnv. 1025-1026. Dadaşov Orxan
[5] MATM VMF İnv. 994-1001. Xalid Hassan
[6] MATM VMF İnv. 1405-1406. Xəlilov Hüseyn

Sənəm" jurnalında məqalə, manqa siyahısı və kiçik kitabça fondda mühafizə edilir[7].

Baş çavuş, Vətən Müharibəsi iştirakçısı şəhid Qəsəbov İsmayıl Nəbi oğlunun fotoşəkili,isimliyi, zeytun rəngdə parad üçün şineli, parad üçün plaşı, kiteli, şalvarı, köynəyi, qalstuku və buşlat kəməri VMF-də saxlanılır[8]. İsmayıl Qəsəbov 1991-ci il iyulun 6-da Qazax rayonunun Çaylı kəndində anadan olub və noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Quliyev Aqil Mətləb oğlu 8 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Ona aid materiallar- kitel, şalvar, köynək,kəmər və zoğalı rəngdə beret ilə birlikdə onun 28. 08. 2019-cu ildə aldığı ən yaxşı kəşfiyyatçı qumbaraatan yarışında I yeri tutduğuna görə təltif olunduğu Fəxri Fərman da vardır. Bundan başqa təbrik, fotoşəkillər, təltifnamə, şüşə lövhə üzərində şəhidin şəkli əks olunmuş suvenir, uzunboğaz hərbi çəkmə, taxtadan olan maketin üzərində şəhidin təsviri olan "Şuşa fatehi" yazılmış maket (hündürlüyü 61sm)[9]. Aqil Quliyev 3 dekabr 2000-ci ildə Bərdədə anadan olmuşdur. VMF-də Məmmədov Amid Müqabil oğlunun kiteli və fotoşəkili mühafizə edilir[10]. Amid Məmmədov 1987-ci il aprelin 2-də Qazax rayonunun Xanlıqlar kəndində anadan olub. Şuşa uğrunda şəhid olub və buna görə də 29 dekabr 2020-ci ildə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib (ölümündən sonra).

Məmmədov Əhməd Nazim oğluna aid şəxsi materialları da muzeyə hədiyyə edilib. Burada 4 ədəd fəxri fərman, 19 dekabr 2014-cü ildə aldığı snayper ixtisası üzrə sertifikat (N 1590) , 13 sentyabr 2001-ci ildə Qızıl Xaç və Qızıl Aypara Hərəkatında fəal iştirakına görə aldığı tərifnamə, Şuşa şəhərinin fonunda fotoşəkli, kiteli, şalvarı, köynəyi, şərf və üzərində ay-ulduz şevronu olan papaq, "Azərbaycan bayrağı" əks olunmuş 1 ədəd şevron vardır.Əhməd Məmmədovun sənədləri onun döyüş yolunu izləməyə imkan verir."Snayperin vəzifə borcu" olan kitabça, sürücülük vəsiqəsi (AE 327954, 2017-2027-ci il) onun bacarıqlı hərbçi olmağını göstərir.Şəxsi materiallar arasında "Anchor" markalı qol saatı, yaşıl rəngdə cib güzgüsü, qara rəngdə saç darağı, hərbi səhra şalvarı üçün kəmər də yer alır[11]. 25 avqust 1994-cü ildə Qazax rayonu Fərəhli kəndində doğulan Əhməd noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub.

---

[7] MATM VMF İnv. 1868-1877. Bilal Qənbərov
[8] MATM VMF İnv. 2137-2145. Qəsəbov İsmayıl
[9] MATM VMF İnv. 1905-1917. Quliyev Aqil
[10] MATM VMF İnv. 1857-1858. Məmmədov Amid
[11] MATM VMF İnv. 2096-2111. Məmmədov Əhməd

Muzeyə materialları daxil olanlardan biri də Məmmədov Tural Taryel oğludur. Onun fotoşəkili və müəllif Qədim Aslanın yazdığı məqalə ("Belə oğullarla fəxr edir Vətən". "Respublika" qəzeti) şəhidimiz haqqındadır[12]. Tural Məmmədov 1999-cu il noyabrın 5-də Daşkəsən şəhərində anadan olub. Noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Məmmədov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olan Nağıyev Anar Sahib oğlunun materialları da VMF-də mühafizə edilir. Onun bayraq fonunda və XTQ geyimində ayaqüstdə fotosu, zoğalı rəngdə beret, buşlat üçün kəməri muzeyə təhvil verilmişdir[13]. Anar Nağıyev 1989-cu il oktyabrın 30-da Gəncə şəhərində anadan olub və "Şuşanın azad olunmasına görə" medalı (ölümündən sonra) ilə təltif edilənlər arasındadır.

Elşən Orucov 1991-ci il avqustun 6-da Qazax rayonunun Xanlıqlar kəndində anadan olub və noyabrın 5-də Şuşa döyüşləri zamanı şəhidliyə yüksəlib. Onun materialları zeytun rəngdə yun qulaqlı papaq və namaz dəsti (canəmaz, möhür, təsbeh), Azərbaycan ordusuna məxsus qol nişanı, bir cüt barmaqsız əlcək və fotoşəkili fondda mühafizə edilir[14].

VMF-də qorunan, Şuşada şəhid olanlardan biri də Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat komandiri, kapitan Mikayıllı Samir Sabir oğluna məxsus materiallardır (Akt 186, DK № 13044). Samir Mikayıllı Ankara Kara Harp Okulu və İstanbul Tuzla Piyada Okulunda hərbi təhsil almışdır.Onun hərbi parad geyimi- kiteli, şalvarı, ağ rəngdə uzunqol köynəyi və qara rəngdə qalstuku ilə yanaşı hərbi səhra geyimləri –kitel, şalvar, zeytun rəngli əlcəklər muzeyə təhvil verilmişdir. Mərasim geyimində fotoşəkli də burada yer alır. Türkiyə Cümhuriyyəti Kara Kuvvetler Komutanlığı Kara Harp Okulundan aldığı bakalavr diplomunun rəngli surəti (türk dilində) və Türkiyə Piyada Okul Komutanlığından aldığı (Tuzla, İstanbul) magistr diplomu da mühafizə edilir. Türkiyənin Bakıdakı Səfirliyi tərəfindən verilən təşəkkürnamə də buradadır. Bundan başqa kəşfiyyat (xüsusi təyinatlı) bölük komandiri kursuna aid sertifikat, 4 ədəd fəxri fərman, 5 ədəd fotoşəkil də fondda saxlanılır[14]. Samir Mikayıllı 1993-cü il yanvarın 1-də Ağcabədi rayonunun Salmanbəyli kəndində anadan olub. O, noyabrın 9-də Şuşa

[12] MATM VMF İnv. 1291-1292. Məmmədov Tural
[13] MATM VMF İnv. 2009-2013. Nağıyev Anar
[14] MATM VMF İnv. 1999-2003.Orucov Elşən
[14] MATM VMF İnv. 1643-1664. Mikayıllı Samir

döyüşləri zamanı şəhid olub və 29 dekabr 2020-ci ildə "Şuşanın azad olunmasına görə" medalı (ölümündən sonra) ilə təltif edilib.

Əsgərli İntiqam Bayram oğlu 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.VMF-də qorunan materialları arasında onu hərbi səhra geyimi-kitel, şalvar və kəmər də vardır. Kitelin sol cibinin üzərində müxtəlif kurslara aid 1 ədəd şevron tikilib. Ölçüləri 21 x 15 sm olan 7 ədəd fotoşəkli, 5 ədəd sertifikatı, 4 ədəd fəxri fərmanı və şəhadətnaməsi onun döyüş yolunu öyrənmək üçün dəyərli sənədlərdir. Bundan başqa 5 ədəd medal vəsiqəsinin surəti də onun təltiflərini göstərir[16]**.** Şəhid İntiqam Əsgərli 16 avqust 1990-cı ildə Masallı rayonunun Viləş kəndində anadan olmuşdur və Şuşanın azad olunmasına uğrunda şəhid olmuşdur.

Əzizli Tacəddin Şahəddin oğluna aid muzeydə mühafizə edilən materiallardan Ukraynada aldığı ali təhsilin diplomun surəti (Diplom B16 №139519), sertifikatı və hərbi biletinin surəti sərgidə nümayiş etdirilmişdi. Fondda bu sənədlərlə yanaşı onun hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə aldığı fəxri fərman, şəxsiyyət vəsiqəsinin surəti, kəməri gümüş metaldan olan qol saatı, isimlik, 7 ədəd fotoşəkil, "Mənim hərbi xidmət günlərim" adlı kitabça, 2-ci Tank əleyhinə raket kompleksləri batareyasının komandiri və hərbi hissə komandiri tərəfindən verilmiş xidməti xasiyyətnamə yer alıb[17]**.** Tacəddin Əzizli 1994-cü il avqustun 7-də Salyan rayonunun Sarvan kəndində anadan olub və noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhidliyə yüksəlib.

Qəribov Pəhli Xaləddin oğluna məxsus materiallar MATM-də təşkil olunan "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgidə yer almışdır. VMF-də mühafizə olunan Pəhliyə məxsus isimlik, 10 AZN məbləğində 1 ədəd əskinaz, xidməti xasiyyətnamə, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən verilən şəhadətnaməsi, III dərəcəli diplom (yunan-roma güləşi üzrə) onun bacarıqlı hərbçi olduğunu göstərir[18]**.** Pəhli Qəribov 17 sentyabr 1993-cü ildə Kürdəmirdə dünyaya göz açmış və 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə zamanı şəhid olmuşdur. "Şuşanın azad olunmasına görə" medalı (ölümündən sonra) ilə təltif edilmişdir.

Xüsusi Təyinatlı Qüvvələrin giziri Niftəliyev Mehrab Söhrab oğlunun gündəlik hərbi səhra geyimi-kiteli (sağ cibinin üzərində "0452" və isimliyi var) baş geyimi, hərbi çəkmə, hərbi şalvar, 6 ədəd fotoşəkil, 5 ədəd fotoşəkil

[16] MATM VMF İnv. 1242-1265.Əsgərli İntiqam
[17] MATM VMF İnv. 461-475. Əzizli Tacəddin
[18] MATM VMF İnv. 1503-1504/ 1683-1685.Qəribov Pəhli

formatında vəsiqənin fotosu və fəxri fərmanları (8 ədəd) Vətən Müharibəsi fondunda saxlanılır[19]. Mehrab Niftəliyev 1985-ci il mayın 13-də Quba rayonunun Qam-qam kəndində doğulub. O, noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. "Şuşanın azad olunmasına görə" medalına ölümündən sonra layiq görülmüşdür.

Baş leytenant, Vətən müharibəsinin (2020) şəhidi Nurzadə Rövşən Əli oğluna aid materiallardan onun döyüş yolunu izləmək olur. Buraya kitel, şalvar, papaq, isimlik, uzunboğaz çəkmə, şəxsiyyət vəsiqəsi və təsbeh daxildir. Bundan başqa 2 ədəd fotoşəkil, çərçivəsi sınmış və bir şüşəsi tamam qırılmış günəqarşı eynək də vardır. R.Nurzadəyə aid materiallar arasında "525-ci qəzet"də onun haqqında yazılan məqalə (04.02.2021-ci il sayı.Səh.15) yer almışdır[20]. Rövşən Nurzadə 1975-ci il martın 24-də Sumqayıt şəhərində anadan olub , noyabrın 6-də Şuşa döyüşləri zamanı şəhid olub.

Rəhimov Yalçın Elçin oğluna aid materiallar da Milli Azərbaycan Tarixi Muzeyində qorunur. Burada yaşıl rəngdə beret, 2 ədəd isimlik, 16 ədəd diplom, 19-22 may 2020-ci il tarixində keçirilən "Atletika və gimnastika üzrə uzunluğa tullanma yarışında 1-ci yerə layıq görüldüyünə görə" verilmiş Fəxri Fərman, 2 ədəd fotoşəkil saxlanılır[21]. Yalçın Rəhimov 2000-ci il iyulun 25-də Ağsu rayonunun Çaparlı kəndində anadan olub və noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Sadıqlı Məhəmmədhəsən Meydan oğlunun şəxsi materialları muzeydə müvafiq fondda saxlanılır. Kitel, şalvar, uzunqol köynək, şərf və baş leytenant poqonu vardır. Qara rəngli süni dəridən tapança üçün qobur, "Döyüşçülərin davranış qaydaları, Beynəlxalq Qızıl Xaç Komitəsinin verdiyi sertifikat, 11 ədəd fotoşəkil və 4 ədəd medal vəsiqəsinin fotoşəkli, 6 ədəd sertifikat, 13 ədəd fəxri fərman, İran İslam Respublikasında aldığı "idman hakimi" diplomu (farsca) , ölüm haqqında şəhadətnamə, 4 ədəd rəngli qələm vardır[22]. Məmmədhəsən Sadıqlı 1992-ci il fevralın 21-də Şərur rayonunun Dəmirçi kəndində anadan olub və Şuşa uğrunda şəhid olmuşdur.

Kərimov Asif Məmməd oğlu "Şuşanın azad olunmasına görə" medalı (ölümündən sonra) ilə təltif edilənlərdəndir. O, noyabrın 3-də Şuşa döyüşləri zamanı şəhid olub. Onun materialları fondda daimi mühafizədə qorunmaqla yanaşı sərgidə nümayiş etdirilmişdir. Yun sviter, yun papaq , 1 cüt əlcək, süni dəridən qara rəngdə barmaqsız əlcək, süni dəridən kəmər, kitabça ("Hərbi işarələr

[19] MATM VMF İnv. 225-244. Niftəliyev Mehrab
[20] MATM VMF İnv. 1298-1309. Nurzadə Rövşən
[21] MATM VMF İnv. 1169-1189. Rəhimov Yalçın
[22] MATM VMF İnv. 495-546.Məmmədhəsən Sadıqlı

və nümunəvi tətbiq sxemləri", Bakı,2003) və 2 ədəd fotoşəkil muzeyin müvafiq fondunda qorunur[23]. Asif Kərimov 1989-cu il martın 25-də Cəlilabad rayonunun Ləzran kəndində doğulub və Şuşa uğrunda şəhid olmuşdur.

Müdafiə Nazirliyinin tibb xidmətinin hərbi həkimi, polkovnik-leytenant Abdullayev Rasim Yaqub oğluna aid materiallar sərgidə nümayiş etdirilmiş eksponatlar arasında olmuşdur. Onun səhra geyimi – kitelin sinəsinin sol hissəsində isimlikdə "Abdullayev (AII)Rh +" qeyd olunub. Qolunda Azərbaycan bayrağı təsvirli şevronu var. Bundan başqa baş geyimi, həkim xalatı (sol sinəsində cibin üstündə "Rasim Abdullayev " və "polkovnik-leytenant" hərbi rütbəsi yapışdırılıb) Vətən Müharibəsi Fondunda mühafizə olunur. Polkovnik-leytenant Rasim Abdullayevə aid parad geyimi ilə yanaşı yazdığı şeirlər 11 ədədi fotoşəkil formatında fondda saxlanılmışdır[24].

Vətən Müharibəsi fondunda daimi mühafizədə edilən Şuşa uğrunda şəhid olan döyüşçülər Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 2020-ci il və 24 iyun 2021-ci il tarixlərindəki müvafiq sərəncamları ilə "Şuşanın azad olunmasına" görə medalı ilə təltif ediliblər. Həmin medalların əksəriyyətinin fotosurətləri fondda daimi mühafizədə saxlanılır. Şuşa uğrunda döyüşlərdə şəhid olan hərbçilərimizlə bağlı fond hədiyyə edilmiş son dövrün tədqiqatlarında da rast gəlinir. "Ağsu şəhidləri. Zəfər Qəhrəmanları" kitabında şəhid Nurzadə Rövşən Əli oğlu (səh.18-24) və şəhid Rəhimov Yalçın Elçin oğlunun (səh.66-72) döyüş yolu haqqında geniş verilmişdir[25]. Qeyd etmək lazımdı ki, bu cür kitabların yazılması zamanı Vətən müharibəsi fondunun materialları dəyərli mənbə rolunu oynayır

Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondunda mühafizə edilən Şuşa uğrunda şəhid olan döyüşçülərə məxsus geyimlərin və sənədlərin elmi baxımdan tədqiqinə həsr olunan məqalədə onların ilkin ümumi təsviri verilib və xüsusiyyətləri göstərilib. Bundan başqa həmin şəhidlərin doğum və şəhid olma tarixlərinə toxunulub. "Şuşanın azad olunmasına görə" medalı ilə (ölümündən sonra) təltif edilmə tarixləri verilib. Qeyd edilən məqalə bu mövzuda yazılan ilk elmi tədqiqat olduğundan bütün şəhidlərin döyüş yolunu işıqlandırma və təhlil etmək mümkün deyildir. Burada ümumi olaraq hər birinə məxsus materialları barədə məlumat verilmiş və onların ayrıca tədqiqatlara ehtiyac olması nəzərdə tutulmuşdur. 2021-ci ildə MATM-də təşkil edilmiş "Anadır arzulara hər zaman

[23] MATM VMF İnv. 866-873. Kərimov Asif
[24] MATM VMF İnv. 63-87. Abdullayev Rasim
[25] Xəlilli F., Bayramova Ş., Quliyev V., "Ağsu şəhidləri. Zəfər qəhrəmanları". Bakı. Elm və Təhsil, 2022, 212 s.

Qarabağ” adlı sərgidə bu eksponarların bir hissəsi nümayiş etdirlimişdir. Məqalə gələcəkdə bu yolda aparılacaq araşdırmalar və yazılacaq kitab və kataloqlar üçün baza rolunu oynaya bilər.

Nəzərova Nərmin
Milli Azərbaycan Tarixi Muzeyi Sənədli mənbələr elmi fond şöbəsinin baş laborantı

Türkiyə Cümhuriyyətinin ilk qadın hüquqşünası şuşalı Sürəyya Ağaoğludur

Həyatı boyu qadın haqları uğrunda mübarizə aparan və nəticədə ilklərin qadını olan bir azərbaycanlıdır Sürəyya Ağaoğlu. Belə ki, Türkiyənin ilk qadın hüquqşünası olan Sürəyya Əhməd qızı Ağaoğlu 1903-cü ilin 29 iyulunda Qarabağın incisi olan Şuşa şəhərində dünyaya gəlmişdir. Atası Azərbaycanın milli ziyalılarından, eyni zamanda görkəmli siyasətçilərindən biri olan Əhməd Ağaoğlu, Sürəyya xanımın dünyagörüşünün formalaşmasında rolu olan mühüm şəxsiyyətlərdən idi.

1910-cu ilə kimi Şuşada yaşayan Ağaoğlu ailəsi həmin ildə Türkiyəyə mühacirət edən zaman Əhməd bəy öz ailəsini, həmçinin qızı Sürəyya xanım, digər övladları olan, hansı ki, daha sonra millət vəkili olmuş qızı Tezer Taşqıran, mühəndis olan oğlu Əbdürrəhman Ağaoğlu, hüquqşünas Səməd Ağaoğlu, tibb doktoru Gültəkin Ağaoğlu və həyat yoldaşı Sitarə xanımı da özü ilə birlikdə buraya gətirir. Beləliklə, Sürəyya xanımın uşaqlıq və gənclik dönəmi Qurtuluş savaşı və Türkiyə Cümhuriyyətinin qurulduğu dönəmə təsadüf etdi. Bu və bu kimi cərəyan edən hadisələr, eyni zamanda Ə.Ağaoğlunun ətrafı, bir çox Türk aydınları və Mustafa Kamal Paşanın da olduğu bir cəmiyyət içərisində böyüdü Sürəyya Ağaoğlu. O, “Bir Ömür Böyle Geçdi" kitabında *"Uşaqlığımın ən uzaq çağlarından bəri evimizdəki yığıncaqlar sayəsində dövrün siyasi və ideoloji cərəyanlarının içində idik. Zamanın tanınmış şəxsiyyətləri, qələm sahibləri evimizə yığışırdı"* deyə bəhs etmişdir[1].

Bütün bunlar-Sürəyya xanımı əhatə edən mühit onu vaxtından əvvəl və yetərincə kamil yetkinləşdirmişdi. Belə ki, yeniyetməlik zamanlarından etibarən özünün cəsarətli qərarları və addımları ilə daim seçilirdi. Ağaoğlunu bu şəkildə

[1] https://edebiyyatqazeti.az/news/muzakire/6126-ataturk-inqilabinin-simvolu-sureyya-agaoglu

cəsarətli qılan isə təbii ki, savadı, dünyagörüşü və zamanın tələblərindən daha öndə olan müasir düşüncə və yanaşmaları idi. Sürəyya xanım məktəb illərində ona dərs deyən müəlliminin- Emin əfəndinin qadınları "mülkü-müta" (əşya) deyə adlandırması onu dərindən sarsıdardı. Həmcinslərinin müdafiəsini saxlamaq, insan, eləcə də qadın hüquqlarının daim qorunması hissləri onda məhz bu dövrdən etibarən aşılanmağa başlamışdı. Heç təsadüfü deyildir ki, bu səbəblərdən yola çıxaraq daha uşaq yaşlarından gələcəkdəki peşəsinə qərar vermişdi. Sürəyya xanımın sevdiyi sənət artıq bəlli idi. O, vəkil (hüquqşünas) olmaq istəyirdi. Nəzərə alsaq ki, onun bu istəyi dövrün tələblərini, siyasi və ictimai abu-havasını göz önünə gətirən zaman labüd idi. Çünki, 1920-ci illər dönəmi və Türkiyədə bir nəfər belə olsun bu zamana kimi qadın hüquqşünas yoxdur. Bundan əlavə, Sürəyya xanımın bu arzusu ailəsi tərəfindən də birmənalı qarşılanmamış, qadına uyğun bir peşə seçməyi ona məsləhət görmüşdülər. Lakin o, bu streotipləri qıracaqdı. Zaman ötsə də, S.Ağaoğlu, bütün təkidlərə, imkansızlıqlara baxmayaq bu sevgisindən və arzusundan vaz keçmədi.

Sürəyya xanım orta təhsilini İstanbul qız liseyində (Bezm-i Alem Valide Sultanisi) almışdır. Təhsil illərində fikirlərindən ötrü sinifdə yoldaşları tərəfindən narazılıqla qarşılanırdı. O, isə öz hədəfini çoxdan bəlirləmiş, bu yolda əmin addımlarla addımlayırdı. Belə ki, İstanbulun işğalı dövründə oxuduğu liseyin üzərində olan Türk bayrağı endirilmiş, yerinə İngilis bayrağı sancılmışdı. O zaman lisey şagirdi olan Sürəyya gecə yarısı öz yoldaşları ilə birgə bu bayrağı yenidən Türk bayrağı ilə əvəz etməyə müvəffəq olmuş, "Sizin ölkənizi biri işğal etsə, siz eyni hərəkəti etməzdinizmi" ifadəsini söyləmişdir.

1919-1920-ci illərdə təhsil aldığı "Bezm-i Alem Valide Sultanisi"-ni əla nəticələrlə bitirir gənc S.Ağaoğlu. Liseyi bitirən zaman gənc qızın hələ də tək düşüncəsi hüquq fakültəsini oxumaq idi. Bu zaman Əhməd bəy Ağaoğlu Maltada sürgündə idi. Sürəyya xanım atasına bu fikri ilə bağlı məktub yazır. Əhməd bəy qızına yazdığı məktubda onun yaxşı olar ki, tarix yaxud da ədəbiyyat sahəsində özünü sınamasını məsləhət bilsə də, qızının hüquq oxuması fikrinə də qətiyyətlə qarşı çıxmamış, bunun üçün onun ərəb və fars dilini mükəmməl bilməsinin vacib olduğunu qeyd etmişdir. Beləliklə, Sürəyya xanım İstanbul Darülfünun Hüquq Mədrəsəsinə (indiki İstanbul Universitetinin Hüquq fakültəsinə) oxumaq üçün müraciət edir. Lakin, ilk dəfə onun bu müraciəti qəbul edilmir. Dönəmin qadınlarının hələ çarşabda gəzdiyi bir vaxtda başı açıq universitetin rektoruna müraciət üçün gedən zaman, Əhməd Səlahəddin bəyə fakültəyə girmək istədiyini söylədiyində otaqda əyləşənlər bu fikrə münasibətdə gülmüşlər. Çünki, 1921-ci il də olsa Türkiyədə qadınların hüquq fakültəsində oxuması yasaq idi.

S.Ağaoğlunun əsas məqsədi isə hüquq fakültəsinin qapısını qadınlar üçün açdırmaq və hüquq təhsili almaq idi. O, dönəm Türkiyə universitetlərində səhər növbəsində yalnız oğlanlar, günorta növbəsində isə yalnız qızlar təhsil alırdı. Qızların və oğlanların eyni növbədə belə təhsil ala bilmədikləri bir zamanda Sürəyya xanım hüquq fakültəsi qapılarının qızların üzünə açılmasına nail olur. Səlahəddin bəy Sürəyya xanımın bu cəsarətinə heyran qaldğını dilə gətirmiş, dönəmin qanunlarını göz önünə gətirərək, iki şərt daxilində ona kömək edə biləcəyini bildirir. Birincisi dərslər qaydası üzrə oğlanlarla eyni sinifdə olmayacaqdı. İkinci olaraq isə hüquq təhsili almaq istəyən daha 3 nəfər Sürəyya xanımla birgə müraciət etməli idi. Sürəyya xanım dekanın bu şərtləri ilə yerindəcə razılaşır. Həmin zamanlarda Ə.Səlahəddin S.Ağaoğlu və digər qadınların hüquq təhsili alması üçün əlindən gələni etmişdir. Sonralar isə, sadəcə 4 nəfər tələbə üçün müəllim və professorların yarım gününü almağın mənasız olduğunu anlayaraq qız və oğlan tələbələri eyni siniflərdə təhsil almağa başlayırlar. Yenə də, Sürəyya Ağaoğlu vəsiləsi ilə oğlanlar və qızlar ilk dəfə universitetdə eyni sinifdə təhsil almağa başlayar.

Beləliklə, Sürəyya xanımın ilkin müraciəti müsbət nəticələnməsə də, öz istəyindən dönmür. S.Ağaoğlu "Bir Ömür Böyle Geçti" kitabında İstanbul Darülfünun'u Hukuk Mektebi'nə (İstanbul Üniversiteti Hüquq Fakültəsi) qəbul olunmalarını bu şəkildə xatırlayır: *1921-ci ilin payızında 3 dostumla Darülfünunun pilləkənlərini qalxırdıq. Dostlarım bu arzuma görə gülürdü. Mənim də, istəyimə müvəffəq olub-olmayacağım məchul idi. Nəhayət dekanın otağına daxil olub, özümü təqdim edərək, hüquq təhsili almaq isdədiyimi və bu universitetə yazılmaq istədiyimi bildirdim. Səlahəddin bəy üzümə heyrətlə baxırdı. Otaqda əyləşən professor Vəli bəy də təəccüblənmişdi. Hər kəs mənim zarafat edib-etmədiyimi anlamağa çalışırdı. Nəhayətində ciddi olduğum anlaşıldıqdan sonra fakültə dekanı 3 nəfər daha tap, fakültəni açaq deyə bildirdi. Bundan sonra dərhal otaqdan çıxaraq başqa fakültələrə yazılan dostlarımı bura gəlmələri üçün razı salmağa başladım. İlk əvvəl Bedia xanımı razı saldım, hansı ki, başqa fakültəyə yazılmışdı. Sonra isə daha iki rəfiqəmizi-Məlahət ilə Saiməni də razı salaraq dördümüz hüquq fakültəsinə sənədlərimizi verdik*[2]. Beləliklə, Sürəyya xanım təhsil aldığı illərdə sadəcə hüquqşünas kimi yetişmədi, həm də ölkəsinin hüquq sahəsində ən güclü mütəxəssislərindən biri oldu.

1923-1924-cü illər tədris ilində əla qiymətlərlə məzun olan S.Ağaoğlu ailəsi ilə birlikdə Ankaraya gedərək, 26 oktyabr 1924-cü ildən etibarən "Adliye

[2] https://sacdd.org.tr/sureyya-agaoglu/hayati/

Vekaleti Umur-u Cezaiye Müdirliyində təcrübə keçməyə başlayır. Təcrübə keçdiyi dönəmdən etibarən 1927-ci ilin 9 sentyabrına kimi həm də Ankara Asliye Məhkəməsi Baş katibinin müavini vəzifəsini icra etmişdir. 5 dekabr 1927-ci ildə Ankara Barosunda işə başlamış, 1928-ci ildə vəkillik biletini alaraq, "Türkiyənin ilk qadın vəkili" adını qazanmışdır. 1929-cu ildə burdan ayrılaraq 31 mart 1929-16 fevral 1931-ci illər aralığında müxbir kimi fəaliyyət göstərdikdən sonra yenidən Ankara Barosuna qayıtmışdır.

Sürəyya xanım 1932-ci ildə yenidən ailəsi ilə birlikdə İstanbula qayıdır. 1936-cı ildə Ankara Barosundan təyinatını İstanbul Barosuna aldırır. Fransız və ingiliscə yaxşı bilən S.Ağaoğlu vəzifəsini icra etdiyi illər ərzində bir çox beynəlxalq konfranslarda Türkiyəni təmsil etmişdir. O, 1945-ci ildə Londondakı Edwards-Erwards firmasında Türk Hüquq müşaviri kimi işləməyə başlayır. Artıq o, ilin 6 ayını Türkiyədə, 6 ayı da Londonda çalışırdı. 1950-ci ildə Londondakı işlərini bitirərək, tam şəkildə İstanbula qayıdır.

S.Ağaoğlu Beynəlxalq Barolar Birliyi ilə mütəmadi danışıqlar apararaq İstanbul Barosununda bu birliyə daxil olmasına vəsilə olur. 1960-cı ilə qədər bu qurumun idarə heyətinin yeganə qadın üzvü kimi fəaliyyət göstərir. Həmçinin o, 1952-ci ildə "Qadın Hüquqşünaslar Birliyinin" üzvlüyünə, 1960-cı ildə isə "Qadın Hüquqşünaslar Birliyinin" Birləşmiş Millətlər Cenevrə Təşkilatının təmsilçiliyinə seçilmiş, "Beynəlxalq Vəkillər birliyinin" üzvü kimi də fəaliyyət göstərmişdir.

Sürəyya xanım Türkiyənin siyasi həyatında mühüm rol oynamış, Yeni Türkiyə Partiyasının təsisçilərindən biri olaraq, partiyanın İstanbul şöbəsinə rəhbərliyi özü etmiş, eyni zamanda 1960-cı ilə qədər Türkiyə Böyük Millət Məclisində Manisa millət vəkili vəzifəsini də icra etmişdir. Həmçinin ictimai həyatda da daim fəal olan Sürəyya Ağaoğlu "Türk Hüquqşünas Qadınlar Dərnəyinin"(1968), "Universitetli Qadınlar Dərnəyinin", "Azad Fikirləri Yayma Dərnəyinin", "Türk-Amerikan Tələbələri Dərnəyinin" və 1948-ci ildə yaratdığı "Uşaq Dostları Dərnəyinin" təsisçisidir[3]. Sonuncu qurumu yaratmaq fikri Sürəyya xanım 1949-cu ildə Amerikada səfərdə olan zaman ərsəyə gəlir. Belə ki, burada kiməsiz olan uşaqların, onlar üçün təsis edilmiş xüsusi yerlərdə yaşadığını, təhsil aldığını görür. Türkiyəyə qayıtdıqdan sonra bu layihəni ilk dəfə "Taksim parkındakı" kimsəsiz uşaqlar üçün həyata keçirir. Bu cür dərnəklər sonradan böyümüş və hələ də fəaliyyət göstərən "Uşaq Dostları Dərnəyi"

[3] Türkiye Cumhuriyetinin ve Ankara Barosunun İlk Kadın Avukatı Süreyya Ağaoğlu-Hukuk Gündemi/Atatürk özel sayısı 2013

yaranmışdır. Hansı ki, dərnək onun vəfatından sonra “Sürəyya Ağaoğlu Çocuk Dostları Dərnəyi” adını alır.

Sürəyya Ağaoğlu 1974-cü ildə peşəsindəki 40 ilini tamamlayan 40 vəkil içərisindən seçilmiş, Türkiyə Cümhuriyyəti quruluşunun 50-ci ildönümündə də prezident Fəxri Korutürk tərəfindən təltif edilmişdir.

Sürəyya xanım xatirələrində doğma vətəni haqqında qeyd edir ki, Azərbycanda 1982-ci ildə olan zaman burada dolaşarkən ürəyimdən nələr keçdiyini izah edə bilmirəm. Sanki küçələri, parkları tanıyırdım. Anamdan və atamdan o qədər çox dinləmişdim ki... Keçmiş milyonçulardan Tağıyevin evi muzey olub. Bu evi və Tağıyevi atamdan çox eşitmişdim. Doğulub boya-başa çatdığı yurd haqqında isə qeyd edirdi ki, “qədimdən qədim yurdumuzu görmək bizə nəsib olamayacaqmı? Yəni bu arzu gözümüzdəmi qalacaq? Yəni biz də ölüm yatağında sonuncu dəfə "Qarabağ" deyib dünyadan köçəcəyikmi? Belə ədalətsizlikmi olar?”

Beləliklə, bütün dünya üzərində qadınların mücadiləsinə baxmayaraq hüquq sahəsində yer almaları üçün uzun bir vaxt lazım olmuşdur. Bu proses ABŞ-da 1869-cu ildə, Nyu Yorkda 1937-ci ildə, Fransada 1931-ci ildə bərqərar olmuş və dövlətdə qadın hüquqşünaslar da təmsil olunmağa başlamışlar. Türkiyə də isə 1921-ci ildə Sürəyya xanım və 3 dostunun təşəbbüsü ilə atılan ilk addım, hüquqşünas qadınlar üçün bir işıq, ümid yolu oldu. O, öz peşəsini arasıkəsilmədən 58 il davam etdirdi. Qadın haqları və qadının muasir dünyadakı yaşam tərzinin öndə gələn dəstəkçilərindən biri oldu. Onun “Londrada Gördüklerim” və “Bir Hayat Böyle Geçti” adlı kitabları və hüquq sahəsindəki saysız məqalələri indidə Sürəyya Ağaoğlu davamçılarının yetişməsi üçün böyük rol oynayır.

Beləliklə, Ana Vətənimizin yetişdirdiyi adlı-sanlı, ziyalı övladlardan biri olan Sürəyya Ağaoğlu, əbədi olaraq Türkiyənin ilk qadın vəkili və qadın hüquqlarının öndə gələn müdafiəçisi adını alır. Sürəyya xanımın qatıldığı son toplantı isə 87 yaşında- 29 dekabr 1989-ci ildə İstanbulda keçirilən “Kadın hakları və Çağdaşlaşma” idi. O, buradan ayrılan zaman yıxılaraq beyninə qan sızır. Amerika xəstəxanasında əməliyyat edilməsinə rəğmən Sürəyya xanım həyata gözlərini yumur. O, etdiyi bütün cəsur hərəkətləri və davranışları ilə adını tarixə qadın haqları qoruyucusu olan bir hüquqşünas kimi həkk etməyi bacarmışdı.

Rəhimova Esmira
Milli Azərbaycan Tarixi Muzeyinin
Sənədli mənbələrin elmi fond şöbəsinin müdiri.

XIX-XX əsrin əvvəllərində Şuşa şəhərində məktəblər

Xalqımızın tarixi və mədəniyyət məbədi olan Şuşa şəhəri özü boyda tarixi abidədir. Azərbaycanın orta əsrlər şəhərsalma sənətinin qiymətli incisi olan Şuşa, Azərbaycan təhsilinin, musiqisinin, xüsusilə muğamımızın beşiyi, "Şərqin konservatoriyası"dır. Ümummilli lider Heydər Əliyev 1996-cı il mayın 6-da Prezident sarayında Şuşa və Laçın rayonlarının ictimaiyyəti ilə görüşdə Şuşanın, Azərbaycan üçün müstəsna əhəmiyyəti olduğunu bildirərək demişdi: **"...***Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir"*[1].

Şuşa şəhərində yarandığı ilk gündən başlayarq maarif işi inkişaf etmişdir. Qarabağ xanlığının ərazisində məktəblər məscidlərin bir guşəsində, şəxsi evlərdə yerləşir və onları yaradan müəllimlərin adı ilə adlandırılırdı. Belə məktəblərdən bir Şuşada Molla Pənah Vaqif məktəbi idi. Molla Pənah Vaqif məktəbi və onun XVIII əsr Azərbaycan poeziyasının zirvəsi sayılan yaradıcılığının şöhrəti təkcə Cənubi Qafqazda deyil, bütün Şərq aləmində tanınırdı. O, məktəbin həm müəllimi və həm də rəisi - məktəbdar idi[2].

Şuşadakı İbrahim xan məscidinin nəzdində əsası 1801-ci ildə qoyulan məktəb XIX əsrin II yarısındada fəaliyyətini davam etdirmişdir. Mədrəsələrdə Azərbaycanın görkəmli mütəfəkkiri Mirzə Şəfi Vazeh də bu məktəblərdə dərs demişdir[3].

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Altıncıkitab: mart, 1996 – iyun, 1996 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 1998, s. 239.
[2] Məmmədov, N. Azərbaycanın Şuşa qəzası (1900-1917-ci illər). Bakı, 2005, s. 78.
[3] Məmmədov, N. Azərbaycanın Şuşa qəzası (1900-1917-ci illər). Bakı, 2005, s. 102-103.

XIX əsr əsrin 30-cu illərdən başlayaraq Azərbaycanda yeni tipli məktəblər meydana gəlməsi Şuşa şəhərində maarif işinin inkişafında yeni bir mərhələnin əsasını qoyulmuşdur. Yeni dünyəvi məktəblərin təşkilində Şuşa nəinki Azərbaycanda, eləcə də, Cənubi Qafqazda, demək olar ki, ən ilkin yeri tuturdu. 1829-cu ildə Şuşada qəza məktəbinin yaradılması haqqında qərardan dərhal sonra, 1830-cu ildə fəaliyyətə başlayır. Formasından asılı olaraq dövlət məktəblərində şəriət, rus dili, hesab, tarix, coğrafiya və başqa fənlər tədris olunurdu[4].

İlk ildə Şuşa qəza məktəbinin birinci sinfinə 19 şagird qəbul olunub. Lakin ildən-ilə şagirdlərin sayı artaraq 1833-cü ildə 27, 1834-cü ildə 44 nəfərə çatması ikinci sinifin də açılmasına gətirib çıxartmışdı[5].

Burada təhsil almış şagirdlər də onlara dərs deyən müəllimləri kimi sonradan məşhur şəxslər kimi tanınıblar. Məktəbin yetirmələri olan Əbdüləli bəy Muxtarov, Həsən bəy Bağırbəyov, İsmayıl bəy Şəfibəyov, Muxtar bəy Muradov, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Qara bəy Əliverdilər, Cabbar bəy Vəlibəyov, Rüstəm bəy Axundov, Xan Şuşinski fəaliyyətləri ilə dövrnün ən parlaq şəxsiyyətləri kimi yadda qalıblar.

XIX əsrin 70-ci illərində Azərbaycanda qəza məktəblərinin şəhər məktəbinə çevrilməsi haqqında qərara uyğun olataq Şuşa qəza məktəbi 1874-cü ildə şəhər məktəbinə çevrildi. Bu yeni məktəbin daha yüksək forması idi. Ona görə də pedaqoji heyətin əksəriyyəti Tiflis Aleksandrinski Müəllimlər İnstitutunun məzunlarından ibarət idi. Onlar xalq içərisində hörmət və nüfuz sahibi kimi tanınırdılar. Şuşa şəhər məktəbinin ana dili müəllimləri Mirzə Həsən Əmirov və Aslan bəy Əmirov məhz belələrindən idilər. Şuşa şəhər məktəbini bitirənlərdən bir çoxları (Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov və başqaları) sonralar Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olublar[6].

---

[4] Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. I hissə. Bakı: 2001, s. 67.
[5] Məmmədov, N. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı, 2017, s. 82.
[6] Məmmədov, N. Azərbaycanın Şuşa qəzası (1900-1917-ci illər). Bakı, 2005, s. 203.



Maarifçi və müəllim Səfərəli bəy Vəlibəyov. **Firudin bəy Köçərli**
1898-ci il. SMF inv. 271/6.

1880-ci ildə Şuşa şəhər məktəbinin nəzdində xüsusi musiqi sinifləri açılmışdır. Bu siniflərin Şuşada professional musiqi hazırlığı olan musiqiçilər nəslinin yetişməsində rolu və əhəmiyyətli danılmazdır.

Azərbaycanda maarifçi bir nəslin yetişməsində XIX əsrdə Şuşada yaranan Şuşa realnı məktəbinin xüsusi rolu vardır. Məlum olduğu kimi, XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər yaranmağa başlamışdı. Belə məktəblərin inkişafı və maariflənmə səyləri baxımından Qarabağ bölgəsi, nəinki Azərbaycanda, o cümlədən Cənubi Qafqazda da öncüllük edirdi. Böyük ruh yüksəkliyi ilə başlanan bu ənənə XIX əsrin sonlarında daha da güclənməyə doğru gedirdi. 1881-ci ildə Azərbaycanın Şuşa şəhərində yaranan 6 sinifli yeni tipli məktəb də belə təhsil ocaqları sırasına daxil idi[7].

Azərbaycanın digər qəzalarından fərqli olaraq Şuşanın yerli müsəlman əhalısi təhsilin inkişafına ciddi cəhd göstərirdi. Göstərilən səylər 1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifli real məktəbin əsasının qoyulmasına gətirib çıxardı. Şuşa realnı məktəbi ilk dəfə hazırlıq və üç əsas sinifdən ibarət təşkil edilən bu məktəbə ilk dəfə 159 şagird qəbul edildi. 1886-cı ildə məktəbə 7.500 manat vəsait xərclənmişdi[8].

Şuşa real məktəbi həqiqətən də dövrünün nümunəvi maarif ocağı sayılırdı. Buna görə də, Qafqaz maarif nazirinin nümayəndəsi 1890-cı ildə şahzadə Ziaəddövlə Ənişirəvan mirzə Qacarı və antropoloq Şantrı buraya gətirmişdir. Onlar burada tədrislə maraqlandıqda, aydın olmuşdur ki, məktəbdə üzrlü və

[7] Əhmədov, H. Seçilmiş əsərləri. VII cild. Bakı: Təhsil, 2006, s. 145.
[8] Məmmədov, N. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı, 2017, s. 143.

üzrsüz dərs buraxanların faizi 7,64%-dir. Bu göstərici xalqın elmə-maarifə həvəsinin əvvəlki illərə nisbətən artdığını göstərirdi. Xalq xurafat əngəllərinə əhəmiyyət vermədən, başqa xalqların dillərini də öyrənir, həmin dildə danışmağa və oxumağa cəhd göstərirdi. 1890-cı ildə Tiflis məktəblərində alman dili məcburi dil kimi öyrədilirdisə, Şuşa məktəbində bu, könüllülük prinsipi ilə aparılırdı. Yeni açılan bu məktəblərdə ədəbiyyatın tədrisinə xüsusi diqqət yetirilirdi. Şuşa realnı məktəbinin müfəttişini əvəz edən Şimanovskinin Qafqaz maarif nazirinin sərəncamlar bülletinində çap etdirdiyi "Bizim orta məktəblərdə, ədəbiyyat şagirdlərin əxlaq tərbiyəsində, söhbətlərin aparılmasında əsas silahdır" məqaləsi bir daha bunu təsdiq edir. Ümumiyyətlə, o zaman belə məktəblərdə ədəbiyyata xüsusi diqqət yetirilirdi.

Şuşada real məktəbi və yerləşdiyi küçənin bir hissəsi. Ölçüsü 8x13 sm. SMF inv. 836 Şuşa real məktəbi SMF 842 -0001

Realnı məktəbində o dövrün tanınmış maarifçi şəxslərindən Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Malikhaqnəzərov, Haşım bəy Vəzirov dərs deyirdi. Mirzə Salah bəy Zöhrabbəyov Fransada və Rusiyada təhsil almış görkəmli ziyalılardan idi. İbtidai təhsilini Şuşada molla yanında alan Mirzə Salah bəy sonra Fransaya yollanmış, burada 12 il təhsil aldıqdan sonra Rusiyaya gələrək, Sankt-Peterburq şəhərində təhsilini davam etdirmişdi. O, inqilabdan əvvəl Şuşaya qayıtmış, öz vəsaiti ilə burada məktəb tikdirmiş və həmin məktəbdə rus dili dərsi deməyə başlamışdır. Bu tədris fənni üçün Mirzə Salah bəy Zöhrabbəyov “Azərbaycanlılar üçün rus dilinin tədrisi” dərslik vəsaitini yazmışdır. Bir müddət Şuşa Real məktəbində müəllim işləmişdir. O, Firidun bəy Köçərli ilə birlikdə “Təlimati-lisani-türki” dərsliyini tərtib etmişdir.

Bəhram Axundov Şuşa realnı məktəbinin şagirdləri ilə birlikdə. Şuşa 1889-cu il. SMF inv. 125/2.

Görkəmli maarifçi, Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin ibtidai məktəb müəllimlərindən olmuş Səfərəli bəy Vəlibəyov 1883-cü ildə Şuşada üç aylıq ana dilində olan məktəb açdı. Daha sonra, əsrin 90-cı illərində M.M.Nəvvab daha bir təhsil ocağının - Azərbaycan dili, ədəbiyyat, fars dili, dünyəvi fənlərin tədris edildiyi məktəbin təməlini qoydu. M.M.Nəvvabın tərtib etdiyi dərsliklərin əyani vəsait olaraq məktəbdə tədris edilməsi, onun əvəzsiz xidmətlərinin hüdudsuzluğunu sərgiləyir.

1. M. Nəvvab. Kəşfül-həqiqət. Kitab Şuşada nəşr edilmişdir. Yumşaq cilddədir. Üzünü bəzəyən gül və quş təsvirlərini müəllif sonra litoqrafiya üsulu ilə rəngləmişdir. 60 səhifə. Rəsmləri müəllif özü çəkmişdir. h. 1316 SMF inv. 518/2.

2. M. Nəvvab. Təzkireyi-Nəvvab. Kitab Şuşada nəşr edilmişdir. Yumuşaq cilddədir. Üzündəki litoqrafik təsvir və rəsm müəllifinindir. 128 səhifəlik kitaba əlavə olaraq 22 səhifə qoşulmuşdur. Son vərəqlər və üz qabığının arxa tayı yoxdur. h. 1314 (m. 1897) SMF inv. 518/3

Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının məzunu Camal bəy Fətəlibəyov 1893-cü ildə Şuşada oğlanlar üçün rus-Azərbaycan məktəbi açmışdı. 1893-cü ildə 25, 1895-ci ildə 60, 1896-cı ildə 80 şagirdin təhsil aldığı məktəbdə ildə hər şagirddən 6-12 manat təhsil haqqı alınırdı. Kasıb ailələrdən olan 12 şagird təhsil

haqqından azad edilmişdi. 1896-cı ildə Ağcabədi kənd məktəbinə müdir göndərilən məktəbin müdiri Camal bəy Fətəlibəyovu müəllim Səməd bəy Ağayev əvəz edir. Bəhs edilən məktəblər rus-Azərbaycan bölmələri idi. Şuşadakı Nikolayevski iki sinifli rus-tatar məktəbinin təməli isə 1896-cı il oktyabrın 6-da qoyulmuşdu. Bütün xərcləri şəhər əhalisi tərəfindən qarşılandığı məktəb Şuşa ziyalılarının təşəbbüsü ilə ərsə gəlmişdi. Baş məscidin həyətində şəhər qazisinin, dörd nəfər din xadiminin və 1500-dən çox sakinin imzası əsasında səhiyyə və pedoqoji tələblərə cavab verən yeni bir tədris binasının inşası nəzərdə tutulmuşdu. Məktəb binası hazır olana qədər isə Şahzadə Fətəli Mirzə Qacar və xan qızı Natəvan şəxsi mülklərini təmənnasız olaraq məktəbə istifadəyə vermişdilər.

Müəllimlər Rəsul bəy Tahirov, Səfərov, Sadıqov və başqaları Şuşada açıq havada. 1910-cu illər. SMF inv. 535/8.

Təbiət qoynunda istirahət edən Şuşa ziyalıları. Soldan 1-ci müəllim Rəsul bəy Tahirov oturur. 1910-cu illər. SMF inv. 535/15.

Haşım bəy Vəzirov Şuşa Nikolayevski rus-Azərbaycan məktəbinin müdiri, Mehdiqulu xan Vəfa fəxri müdir, Rasim bəy Tahirov və Mizə Baxış Yusifzadə müəllimlər, Molla Mehri Sarıcalı şəriət müəllimi olaraq çalışırdılar. Təhsil ocağında Azərbaycan və rus dilləri, hesab (rus dilində) tədris edilirdi. "Ana dili" fənninin yeni üsulla icra edildiyi məktəbdə birinci il 210 uşaq təhsil almışdı. 10 manat təhsil haqqı ödəyən hər bir şagirdin 20 faizi ödənişdən azad idi. Təhsil müəssisəsinin maddi bazasının möhkəmləndirilməsində bir çox şəhər xeyriyyəçisinin yaxın dəstəyi olmuşdur. Məktəbin fəxri nəzarətçisi Cavad bəy Vəzirov, Həsənəli bəy Sarıcalınski olmuşdur. 1896-cı ildə çar II Nikolayın tac qoyma mərasimi münasibətilə məktəb onun şərəfinə "Şuşa Nikolayevski rus-tatar məktəbi" adlandırılmışdır. Ardından Şuşa Xeyriyyə Cəmiyyətinin xahişi ilə məktəbin müəllimlərinə dövlət qulluqçusu hüququ və imtiyazı verilmişdi. Şuşanın Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşları, Yusif Vəzir Çəmənzəminli, Mirzə Xosrov Axundov kimi məşhur ziyalıları ilk təhsillərini məhz həmin məktəbdə almışdılar.

XX yüzilliyin əvvəllərində Şuşada məktəblərin sayı xeyli artmışdır. Bəhs

etdiyimiz dövrdə, Şuşanın 8 ibtidai məktəbində 131 şagird təhsil alırdı (7, s. 56).

Şuşada müəllim Xudadat bəy Əzizbəyovun təşəbbüsü ilə 1915-ci ildə məktəb açıldı. "Rəşad" adlı gizli yeniyetmələr cəmiyyətinin nəzdindəki bu təhsil ocağında ilk şagird sayı 40 nəfərdən ibarət idi. 1918-ci ilə qədər fəaliyyətini davam etdirmiş məktəbdə təhsil alan kimsəsiz və yoxsul şagirdlər pulsuz dərs vəsaiti, geyimlə təchiz olunur, onlara hər gün pulsuz yemək verilirdi. Qarabağın Mirzə Cəlal Yusifzadə, Bəşir Səfərov kimi nüfuzlu müəllimlərinin dərs dediyi məktəbdə tədrisin keyfiyyəti yüksəlmiş, şagirdlərin sayı çoxalmışdı.

Görkəmli şuşalı pedaqoq, maarifçi Səfərəli bəy Şıxhəsən bəy oğlu Vəlibəyovun təhsil sahəsindəki xidmətlərinin araşdırılması müasir dövr üçün olduca aktualdır. Görkəmli pedaqoq Səfər bəyin babası Qarabağın qədim nəslindən olan Hacı Vəli bəy Kəbirli olmuşdur. Hacı Vəli bəy XVIII əsrin sonunda, XIX əsrin əvvəlində yaşamış, İbrahimxəlil xana xidmət etmişdir. Adını daşıyan Hacıvəlilər obasını idarə etmişdir. Hacı Vəli bəyin törəmələri Vəlibəyov soyadını aldılar[9].

Səfərəli bəy Vəlibəyov XIX əsr Azərbaycan pedaqoqika tarixinin görkəmli simalarından biridir. Səfərəli bəy Vəlibəyov 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdur. 1875-1879-cu illərdə Şuşa şəhər məktəbində təhsil almışdır. 1879-cu ildə A.O.Çernyayevski tələbə toplamaq məqsədi ilə Şuşaya gələrkən gənc Səfərəli bəylə söhbət aparmış, zirək və bacarıqlı olduğunu görüb onu Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdində yenicə açılmış Azərbaycan bölməsinə aparmış, onu bu tədris müəssisəsinin 2-ci sinfinə qəbul etmişdir[10].

O, Qori Seminariyasının bitirən ilk üç Azərbaycanlıdan biri olmuş, ömrünün 18 ilini pedaqoji işə sərf etmişdir. Bu müddət ərzində o, elm, maarif, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində, habelə ictimai-siyasi işlərdə fəal çalışıb Vətənə və xalqa namusla xidmət göstərən onlarla istedadlı gənc yetişdirmişdir C.Məmmədquluzadə, N.Nərimanov, S.S.Axundov və bir çox başqaları ilk təhsilini Vəlibəyovdan almış, bu tələbkar və qayğıkeş müəllimi həmişə böyük məhəbbət hissi ilə yad etmişdi[11].

S.Vəlibəyov hər yerdə müəllim kimi çalışırdı. 1883-cü ilin yay tətili zamanı Şuşada istirahət edən Səfərəli bəy burada bir məktəb açaraq heç bir məvacib almadan, uşaqlara pulsuz savad öyrədirdi. Onun məktəbində müxtəlif

---

[9] Çingizoğlu Ə. Hacı Vəli bəyin törəməsi (Vəlibəyovlar), "Soy" dərgisi, 12 (32), 2009, s.10.

[10] Seyidov, F.Ə. Qori Müəllimlər Seminariyası və onun məzunları. Bakı: Maarif nəşriyatı, 1988, s. 34.

[11] Məmmədov, X. XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycan maarifçi realist ədəbiyyatı. Bakı: APİ-nin nəşriyyatı, 1978, s. 67.

təbəqələrdən 25 şagird təhsil alırdı. O, tədrisı səs üsulu ilə aparırdı və yerli məktəbdarlara da səs üsulunun üstünlüyünü izah edirdi. O, eyni zamanda seminariya daxilində gedən məfkurə mübarizəsində daim fəal iştirak etmişdir[12].

S.Vəlibəyov 1896-cı ildə Bakıya köçmüş, burada iki il müəllimlik etmişdir. Daha sonra isə Bakı gömrükxanasında tərcüməçi vəzifəsində çalışmışdır.

Azərbaycan məktəb və pedaqoji fikir tarixində səs üsulu ilə yazılıb nəşr edilmiş dərslik və tədris vəsaitlərinin tətbiqinin böyük elmi-pedaqoji əhəmiyyəti var.

Səfərəli bəy Bəhram Mirzə Qacar Qovanlının qızı Xurşud xanım ilə ailə qurmuşdur. Qızları Nigar xanım və Sürəyya xanım dünyaya gəlmişdir. Muzeyin fondunda hər ikisinin, Səfərəli bəy və Xurşud xanının milli ornamentlə bəzədilmiş evdə çəkilmiş fotoşəkilləri öz orijinallığı ilə tarixi-etnoqrafik mənbə xarakteri daşıyır. Onların geyimi o dövr geyim mədəniyyəti haqqında əyani təsəvür yaradır[13].

Səfərəli Vəlibəyov həyat yoldaşı Xurşid xanımla. 1898-ci il.

Qacarlar nəslindən olan Xurşid xanım Vəlibəyova. 1898-ci il.

S.Vəlibəyov 1895-ci il yanvarın 1-də yüksək səviyyəli pedaqoji xidmətinə görə III dərəcəli Müqəddəs Anna ordeni ilə təltif olunmuşdu.

Zaqafqaziya Seminariyasının məzunu S.Vəlibəyov "Vətən dili" dərsliyinin birinci hissəsini ilk dəfə 1882-ci ildə, Aleksey Osipoviç Çernyayevski həmmüəllifliyi ilə ərsəyə gətirdiyi ikinci hissəsini isə 1888-ci ildə Tiflisdə nəşr etdirib. Bu kitabların tərtibində birinci peşəkar pedaqoqu Səfərəli bəy Vəlibəyovə görkəmli Azərbaycan maarifçiləri – Şuşada parta və təbaşirin istifadə edildiyi ilk məktəb açan Həsənliağa xan Qaradaği (Qaradağski),

[12] Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu (SMF), inv. 125.
[13] Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu (SMF), inv. 171.

ədəbiyyatşünaslığımızın banisi, pedaqogika sahəsində müstəsna xidmətləri olan Firidun bəy Köçərli, həmçinin Rəşid bəy Əfəndiyevin fəal kömək göstərirdi[14].

1902-ci il avqustun 31-də ömrünün coşqun çağında ürək xəstəliyindən vəfat edir... S.Vəlibəyov öldükdən sonra onun iki qızını bacısı oğlu Süleyman Sani Axundov öz himayəsinə götürdü. S.S.Axundovun bu qızların təhsilə yiyələnməsində böyük rolu olmuşdur.

Süleyman Sani Axundov Nigar və Sürəyyə Vəlibəyovlar bacıları və bacısı oğlu Əli Məmmədovla. 1905-1906-ci illər.

Sürəyya Səfərəli bəy qızı Vəlibəyova 3 fevral 1897-ci ildə Bakı şəhərində anadan olub. Beş yaşında 1902-ci ildə atası Səfərəli bəy Vəlibəyov vəfat etdiyi üçün bibisi oğlu Süleyman Sani Axundovun köməyi sayəsində dövlət hesabına pansionda saxlanılmışdır. 1913-cü ildə Bakı Müqəddəs Nina Qadın Gimnaziyasını qızıl medalla bitirdiyi üçün 1910-cu ildə Bakıda açılmış üçüncü rus-tatar qızlar məktəbinə müəllim təyin edilmişdir. 1919-cu ilə qədər bu məktəbdə dərs deyib.

Bakı rus-türk qız məktəbinin müəllimələri. Soldan sağa: Ş.Əfəndiyeva, S.Vəzirova, N.Vəlibəyova (Aslanova), M.Aslanova, Sürəyya Vəzirova 1914-1915-ci illər. SMF inv. 271/40.

[14] Məmmədov, N. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı, 2017, s. 376.

Muzeyin sənədli mənbələr fondunda saxlanılan 391№-li şəhadətnamə Bakı Müqəddəs Nina Qadın Məktəbinin ümumi kursunu keçən, riyaziyyatı xüsusi olaraq öyrənmək üçün VIII əlavə sinfinə daxil olub fərqlənmə ilə bitirən Sürəyyə (başqa adı Aynadır – E.R.) Vəlibəyovaya verilmişdir. Burada qiymətlər siyahısı da var. Müdiriyyət və Pedaqoji Şuranın üzvləri imzalamışdı. 6 iyun 1913-cü ildə verilmiş sənəd 2 vərəqdən ibarətdir. 2-ci vərəqin arxasına vurulan ştampdakı yazıdan N. Vəlibəyovaya 1913-ci il sentyabrın 27-də Tiflisdə ev mürəbbiyəsi şəhadətnaməsinin verildiyi məlum olur. Ön səhifəsində Romanovlar xanədanının 300 illiyi (1613-1913) münasibətilə Rusiya imperiyasının gerbi fonunda sülalənin banisi Mixayıl Fyodroviçin və onun son nümayəndəsi Nikolay Aleksandroviçin şəkilləri təsvir edilmişdir. Sənədin axırıncı səhifəsində isə "Ev mürəbbiyələri və müəllimələrinin hüquq və vəzifələri" adlı təlimat dərc edilmişdir[15].

Muzeydə mühafizə edilən Sürəyya xanımın 23 iyun 1913-cü il tarixli 22874 №-li şəhadətnaməsi qiymətli mənbə kimi çox dəyərlidir. Şəhadətnaməyə görə, Bakı Müqəddəs Nina Qadın Məktəbini bitirən islam dininə mənsub olan Rusiya İmperiyasının təbəəsi Sürəyyə xanım Vəlibəyovaya müsəlmanlara evində riyaziyyatdan dərs deməyə hüququ verən ev mürəbbiyəsi adı verilmişdir. Burada onun müvafiq sənədi almış xristian etiqadlı şəxslərlə eyni hüquqlara malik olmadığı xüsusilə qeyd edilir.





Şəhadətnamə №391. Bakı Müqəddəs Nina Qadın Məktəbinin ümumi kursunu keçən, riyaziyyatı xüsusi olaraq öyrənmək üçün VIII əlavə sinfinə daxil olub fərqlənmə ilə bitirən Sürəyyə(başqa adı Aynadır) Vəlibəyovaya verilmişdir.

Şəhadətnamə №22874. Bakı Müqəddəs Nina Qadın Məktəbini bitirən Sürəyyə xanım Vəlibəyovaya riyaziyyatdan dərs deməyə icazə verən şəhadətnamə.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra 1929-cu ildə o, Əli Bayramov adına Qadınlar Klubuna üzv olmuş burada ictimai əsasla işləmiş, eyni zamanda stenoqrafçı kursunda oxumuşdur. 1931-1933-cü illərdə Bakı Kino idarəsində işlər müdiri işləmişdir. Bu dövrdə o, eyni zamanda bədii tərcümə ilə

[15] Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu (SMF), inv. 271/35.

məşğul olmuşdur. İlk olaraq A.Bartonun əsərlərindən tərcümələr etmişdir. 1938-ci idə Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi vəzifəsində qəbul ediləndən sonra, taleyini tərcümə işinə bağlamışdır. O, müasir Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olan bədii əsərlərin əksəriyyətinin, klassik poeziyadan və zəngin şifahi xalq ədəbiyyatından nümunələri yüksək səviyyədə hərfi tərcümə etmişdir. 1939-cu ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilmişdir.



Şəhadətnamə №344. Bakı Müqəddəs Nina Qadın Məktəbinin ümumi kursunu keçən, riyaziyyatı xüsusi olaraq öyrənmək üçün VIII əlavə sinfinə daxil olub fərqlənmə ilə bitirən Nigar Səfərəli qızı Vəlibəyovaya verilmişdir.(8)

Şəhadətnamə №15685. Bakı Müqəddəs Nina Qadın Məktəbini bitirən islam dininə mənsub olan Rusiya İmperiyasının təbəəsi Nigar xanım Vəlibəyovaya müsəlmanların evində riyaziyyatdan dərs deməyə hüququ verən ev mürəbbiyəsi adı verilmişdir.

Bakı Müqəddəs Nina Qadın Gimnaziyasını qızıl medalla bitirdiyi üçün 1910-cu ildə Bakıda açılmış üçüncü rus-tatar qızlar məktəbinə müəllim təyin edilmişdir. Nigar Səfərəli bəy qızı Vəlibəyovanın 1912-ci ilin iyul ayında verilmiş və Muzeyin Sənədli mənbələr fondunda mühafizə edilən şəhadətnamə və attestatında Bakı Müqəddəs Nina Qadın Gimnaziyasının 7-ci sinifini əla qiymətlə bitirməsi aydın görünür. 5 iyun 1912-ci ildə verilmiş 344 №-li şəhadətnamə isə Bakı Müqəddəs Nina Qadın Məktəbinin ümumi kursunu keçən, riyaziyyatı xüsusi olaraq öyrənmək üçün VIII əlavə sinfinə daxil olub fərqlənmə ilə bitirən Nigar Səfərəli qızı Vəlibəyovaya verilmişdir. Qiymətlər siyahısı var. Müdiriyyət və Pedaqoji Şuranın üzvləri imzalamışdı. 2-ci vərəqin arxasına vurulan ştampdakı yazıdan N.Vəlibəyovaya 1912-ci il avqustun 2-də Tiflisdə ev mürəbbiyəsi şəhadətnaməsinin verildiyi məlum olur[16].

24 iyun 1912-ci ildə verilmiş 15685 №-li digər bir şəhadətnamədə Bakı Müqəddəs Nina Qadın Məktəbini bitirən islam dininə mənsub olan Rusiya İmperiyasının təbəəsi Nigar xanım Vəlibəyovaya müsəlmanların evində riyaziyyatdan dərs deməyə hüquq verən ev mürəbbiyəsi adı verilmişdir. Burada

[16] Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu (SMF), inv. 271/23.

onun müvafiq sənədi almış xristian etiqadlı şəxslərlə eyni hüquqlara malik olmadığı xüsusilə qeyd edilir[17].

Bəhs etdiyimiz dövrdə qeyrətli, el qədri bilən, xalqına, millətinə, torpağına bağlı olan imkanlı və istedadlı şuşalılar əhalisinin savadlanması üçün öz hesablarına məktəblər açmışdılar. Buna misal olaraq xarrat Qulunun açdığı musiqi məktəbini, Mir Möhsün Nəvvabın qiraətxanasını göstərə bilərik. Bundan əlavə Şuşada Hacı Hüsünün və Mir Möhsün Nəvvabın rəhbərliyi altında musiqişünaslar məclisi, Kərbəlayi Səfixanın xəttatlar, Hacı Hüsünün xanəndələr, Məşədi Əkbər Muxtarovun nüsxəbəndlər, Kərbəlayi Səfıxanın və Nəvvabın nəqqaşlar və memarlar məclisləri fəaliyyət göstərirdi. Həmin ədəbi məclislər öz ətrafında 120 şair və sənətkarı toplamış, Şuşanın mədəni inkişafında böyük işlər görmüşdülər. Qüdrətli sənətkarlar, bəstəkarlar, şairlər nəslinin yetişməsində Şuşa məktəbləri böyük rol oynayırdı. 1000-dən çox şagirdi, 75 müəllimi öz ətrafında birləşdirən Şuşanın təhsil ocaqları Azərbaycanı bütün dünyada tanıdan musiqiçilər, xəttatlar, şairlər yetişdirmişdir[18].

Beləliklə, təhsilimizin inkişafına əvəzsiz töhfələr vermiş əzəmətini, tarixi görkəmini, qədimliyini qoruyan Şuşa Realnı Məktəb çox təəssüf ki, 1992-ci ilə qədər ayaqda durmağı bacardı. Belə ki,1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları orada bir çox tarixi, dini yerlərimizi məhv etdi, o cümlədən Şuşa Realnı Məktəbi yandıraraq xarabazara çevirdilər. Budur, artıq İlahi Ədalət zəfər çaldı. 30 ilə yaxın işğal olunmuş torpaqlarımızın həsrətinə son qoyuldu. 44 günlük Vətən müharibəsində qazandığımız qələbə erməni işğalçılarının böyük xülyalarını puç etdi. Onların qurduqları və neçə illərdir ki, həyata keçirməyə çalışdıqları planlar tarixin zibilliyinə atıldı. Və təhsil ocaqlarımızı məhv edərək, xarabazarlığa çevirən işğalçı ermənilər isə bu dəfə "sinif"də qalmadılar, bütövlükdə "məktəb"dən qovuldular.

Doğma Şuşamıza təhsilimiz qayıdır. Artıq bizləri qarşıda azad olunmuş torpaqlarımızda böyük quruculuq işləri, gözəl bir həyat gözləyir. Şuşaya səfəri zamanı dövlət başçısı İlham Əliyevin erməni vandalizminin qurbanı olmuş, dövrünün nümunəvi maarif ocağı sayılan Şuşa Realnı Məktəbinin dağıdılmış binası ilə tanış olmuşdur[19]. Məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyevin və Yusif Vəzir Çəmənzəminlinin təhsil aldığı bu məktəb 1992-ci

[17] Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu (SMF), inv.271/24.
[18] Məmmədov, N. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı, 2017, s. 68.
[19] İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, Şuşa şəhərində səfərdə olub. 15 yanvar 2021. https://president.az/articles/50184

ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları Realnı Məktəbini yandıraraq xarabazara çeviriblər.

Lakin qısa müddət ərzində Cənab Prezidentin səyi nəticəsində tezliklə müasir təhsil tariximizdə yenidən Şuşa səhifəsi açılacaqdır.

Qafarlı Qənirə
Milli Azərbaycan Tarixi Muzeyinin baş mütəxəssisi

Heydər Əliyev Fondunun mədəniyyətimizin təbliğində və Qarabağın restavrasiyasında gördüyü mühüm işlər

Xalqımızın dünya mədəniyyətinin yaranmasında çox böyük rolu olmuşdur. İstər zəngin ədəbiyyatımız, istər tarixi abidələrimiz, istərsə də incəsənətimiz və musiqi mədəniyyətimiz qürur və fəxarət yerimiz olmuşdur. Müsəlman Şərqində ilk teatr, ilk opera, ilk balet, ilk Elmlər Akademiyası Azərbaycanın adı ilə bağlıdır. Azərbaycan xalqı dünyaya Nizami Gəncəvi, Əcəmi Naxçıvani, Nəsirəddin Tusi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Mirzə Fətəli Axundzadə, Hüseyn Cavid, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Yusif Məmmədəliyev kimi dühalar bəxş etmişdir. Bu cür mədəniyyət nümunələrinin qorunması və təbliği isə yüksək inkişaf strategiyasının seçilməsi və uğurla həyata keçirilməsini tələb edir ki, belə strateji xəttin müəllifi həm də Heydər Əliyev fondudur. Digər sahələrdə olduğu kimi milli-mədəni və mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, onların təbliğ olunmasında Heydər Əliyev Fondunun gördüyü işlər dövlətimiz, xalqımız üçün böyük töhfədir.

2004-cü il may ayının 10-da fəaliyyətə başlayan Heydər Əliyev Fondu yaradılarkən Ümummilli lider Heydər Əliyevin zəngin irsini öyrənməyi, təbliğ etməyi, Onun Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmağı, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməyi, Azərbaycanın mədəniyyətinin və tarixinin dünyada daha geniş tanıdılması ilə bağlı aparılan işlərə kömək göstərməyi qarşısına məqsəd qoyub. Fond bununla yanaşı, xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etməyi, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etməyi, uşaq müəssisələrinin infrastrukturlarını inkişaf

etdirməyi, ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləməyi, sağlam həyat tərzini təbliğ etməyi, Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etməyi, uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etməyi, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməyi öz fəaliyyətində prioritet məsələlər kimi görür. Bir sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir.

Ümummilli lider Heydər Əliyevin zəngin irsini təbliğ edən, onun miras qoyduğu ənənələri davam etdirən Fondun əsas fəaliyyət istiqamətlərindən biri də elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələrin hazırlanaraq həyata keçirilməsidir.

Milli dəyərlərin, mənəvi irsin təbliği fondun fəaliyyət fəlsəfəsinin aparıcı qayəsini təşkil edir. Son dövrlər xüsusən II Qarabağ müharibəsində şəhid olmuş şəxslərin, qazilərin ailə üzvlərinin, eləcə də sağlamlıq imkanları məhdud olan əlillərin diqqət mərkəzində saxlanılması, fond tərəfindən xüsusi qayğının göstərilməsi fondun mənəvi sahədə fəaliyyətinin kiçik nümunəsidir. Azərbaycanın tarixi abidələrinin, maddi mədəniyyət nümunələrinin qorunması, təmir-bərpa işlərinin icrası, xalqın çoxəsrlik ənənələrinin nümunəsi olan musiqi növlərinin, ədəbiyyat nümunələrinin, müxtəlif incəsənət, yaradıcılıq növlərinin qorunması, təbliği, mötəbər tədbirlərin səhnəsində nümayişi bu istiqamətdə uğurlu faəliyyətin bariz göstəricilərindəndir.

Biz hamımız bu və ya digər mədəniyyətə mənsubuq. Mədəniyyət – bizim əxz edib gələcək nəsillərə ötürdüyümüz insani bilik, inam və davranış tərzlərinin məcmusudur. Mədəniyyət – gündəlik ünsiyyətdən qlobal iqtisadiyyatın fəaliyyətinə qədər insan münasibətlərinin müxtəlif sahələrini tənzimləyən əsas sosial amildir. Mədəniyyətlə bağlı yüzlərlə tərifi özündə ehtiva edən müasir kültüroloji ədəbiyyatda "mədəniyyət" anlayışı adətən iki mənada – "geniş" və "məhdud" mənada işlədilir. Geniş mənada cəmiyyətdə qəbul edilən və təsdiqini tapan bütün həyat formalarını – adətlər, normalar, institutlar, o cümlədən dövlət və iqtisadiyyatı daxil etməklə hər şeyi ifadə edir. Məhdud mənada mədəniyyətin hüdudları mənəvi yaradıcılıq sahələrinin hüdudları ilə, incəsənət, mənəviyyat, intellektual fəaliyyətlə üst-üstə düşür[1].

Xalqın və ya millətin sosial-siyasi vahid kimi formalaşmasında, dünya xalqları sırasına çıxmasında mühüm rol oynayan amillərdən biri də

[1] Şükürov A. Kulturologiya (Dərslik). Bakı: Aqiloğlu, 2003, 274 s.

mədəniyyətdir. Mədəniyyət insanın öz həyat fəaliyyəti prosesində əldə etdiyi, nail olduğu predmetlər və dəyərlər toplusudur ki, bütün bu ünsürlər də nəsildən-nəslə ötürülərək inkişaf etdirilir. Əgər bir xalqın inkişaf etmiş mədəniyyəti olarsa, o zaman bu sosium dünyanın yeni çağırışlarına uyğun hərəkət etməyə və tərəqqi yolundan sapınmamağa nail ola bilər[2]. Bu baxımdan Ümummilli liderimiz Heydər Əliyevin mədəniyyətlə bağlı fikirləri diqqəti cəlb edir: "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir. Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir".

Mədəniyyətin bir hissəsi olan mədəni irs elə bir sərvətdir ki, onun mühafizəsi, qorunması və təbliği öz vətəndaşları, beynəlxalq birlik qarşısında müvafiq öhdəliklər götürmüş dövlətin vəzifəsidir. Məlumdur ki, hər bir xalq dünya mədəniyyətini öz töhfələri ilə zənginləşdirir və bütün bunlar bəşəriyyətin mədəni irsinə çevrilir, milli sərvət ümumbəşəri əhəmiyyət kəsb edir. Mədəni irs keçmişdən aldığımız, indiki təcrübəmizdən və gələcək nəsillərə çatdırdığımız mirasdır. İngilis dili mədəni irs olan abidələri səciyyələndirmək üçün "heritage" sözünə üstünlük verir. Sözün iqtisadi və hüquqi tərifləri italyanların "beni culturali" (hərfi mənada "mədəni sərvətlər") adlandırdıqları "mədəni mülkiyyət" anlayışına aiddir[3].

Hər bir xalqın mədəni irsi onun sərvətidir. Tarixi abidələr, ustad memarların tikdiyi binalar, məşhur rəssamların çəkdiyi tablolar, yazıçı və şairlərin yazdığı bədii əsərlər, görkəmli bəstəkarların yaratdığı musiqi əsərləri, xalq sənətkarlığının nümunələri xalqın mədəni irsi sayılır. Mədəni irsə malik olmaq hər bir xalqın toxunulmaz hüququdur. Ümumdünya mədəni irsin və təbii sərvətlərin qorunması haqqında "YUNESKO-nun 16 noyabr 1972-ci il tarixli Konvensiyasında (Azərbaycan bu sənədə 1993-cü il dekabr ayının 6-da qoşulmuşdur) "mədəni irs" anlayışının dəqiq tərifi verilmişdir: "Abidələr - tarixi baxımdan əhəmiyyətli, universal dəyərə malik memarlıq nümunələri; ansambllar - tarixi baxımdan əhəmiyyətli universal dəyərə malik əlahiddə və ya bir-biri ilə əlaqəli tikililər qrupu"[4]. 1972-ci il Ümumdünya Mədəni və Təbii İrsin Mühafizəsi haqqında Konvensiya ilə YUNESKO Yer kürəsində müəyyən yerlərin "müstəsna

[2] Heydər Əliyev Fondu mədəniyyətimizin təbliğində və zənginləşdirilməsində mühüm işlər görür https://mehribanaliyeva.preslib.az/media-a3bac79ba9.html

[3] Sandra P. World Heritage Sites, Types And Laws. // Encyclopedia of Archaeology, 2008

[4] Thurley S. Into the future. Our stategy for 2005-2010. In: Conservation Bulletin [English Heritage], 2005 (49).

universal dəyərə" malik olduğunu və bəşəriyyətin ümumi irsinə aid olduğunu müəyyən etmişdir.

Fondun həyata keçirdiyi layihələrdən biri 2005-ci ildən tətbiq edilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsidir. Layihə çərçivəsində respublikada məktəb tikintisi silsilə hal almış, ucqar dağ kəndlərinə qədər ölkənin hər yerində müasir standartlara tam cavab verən təhsil ocaqları tikilib istifadəyə verilmişdir. Bu layihənin fond tərəfindən tətbiqi Azərbaycanda milli təhsil modelinin formalaşmasına təkan vermişdir.

Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi layihələrdən biri də "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramıdır. Fond rəhbərliyi bu proqram çərçivəsində ölkə ərazisində çox sayda uşaq evi və internat məktəbinə səfər edib. Proqram çərçivəsində uşaq evləri və internat məktəbləri ilə bağlı ortaya çıxmış problemlərin həlli istiqamətində 4 kateqoriya müəyyən olunmuşdur: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq[5].

Heydər Əliyev Fondu əlilliyi olan şəxsləri də diqqətdən kənarda qoymamışdır. 2005-ci ildə BMT-nin İnkişaf Proqramı ilə müştərək şəkildə görmə qabiliyyətini itirmiş və ya görmə imkanları zəif olan uşaqların təhsilə cəlb olunması ilə bağlı işlər həyata keçirmişdir.

Azərbaycanın mədəniyyət tarixinə töhfə olan hadisələrdən biri də Heydər Əliyev fondunun diqqət və qayğısı ilə aşıq sənətinin təbliği və dünya mədəniyyət irsi siyahısında yer almasının təmin edilməsi olmuşdur. Fond xalqımızın mədəniyyətini, milli mənəvi dəyərlərini özündə əks etdirən Novruz bayramına da yüksək qiymət vermişdir. Bu bayramın dövlət səviyyəsində qeyd edilməsi, YUNESKO-nun Qeyri-maddi mədəni irsinə daxil olunması fondun bu sahədə də əvəzsiz faəliyyətinin nəticəsidir.

Heydər Əliyev Fondunun əsasını qoyduğu layihələrdən biri də Azərbaycan Regional Muzeyinin yaradılmasıdır. Mərkəzin qarşısına qoyulmuş fəaliyət prinsipləri ölkəmizin müxtəlif regionlarının tarixi, mədəniyyəti, sosial-iqtisadi durumu barədə gələn qonaqları məlumatlandırmaqdır. Fond tarixi abidələrin qorunması və təbliği istiqamətində də yorulmaz fəaliyyətdədir.

Azərbaycanın tar ifaçılığı sənəti də UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına salındı. Və nəhayət, ötən il Azərbaycanın ənənəvi at idman növü çovkan oyunu UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edildi. 2014-cü ildə isə kəlağayı baş örtüyünün xalqımızın milli-mədəni irsi kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması milli mədəniyyətimizin beynəlxalq

[5] Kamalqızı R. Səs.- 2010.- 13 avqust.- № 146.- S. 6.

aləmdə tanıdılması istiqamətində gördüyü işlərin nəticəsidir. Azərbaycanda hələ bu siyahıya salınacaq xeyli mədəni nümunələr, abidələr var və yəqin ki, yaxın gələcəkdə həmin siyahı milli-mənəvi dəyərlərimizin böyük qismini də özündə əks etdirəcək.

Azərbaycanın tarixi-mədəni, dini irsinin çox böyük bir hissəsi Qarabağın payına düşür. İşğaldan azad edilən Qarabağda və ətraf rayonlarda minlərlə maddi-mədəni, dini irs nümunəmiz var ki, onların da çox böyük bir hissəsi işğal dövründə erməni vandalizminə məruz qalıb, müqəddəs and yerlərimiz, inanc ünvanlarımız düşmən tərəfindən murdarlanıb.

Qarabağ mədəniyyətində dini ocaqlarımız, məscidlərimiz xüsusi çəkiyə, yerə malikdir. Ermənilər dini abidələrimizi viran qoysalar da, onların milli və dini identikliklərini silə bilməyiblər, həmin örnəklər bizim mənəvi dəyərlər sistemimizin ayrılmaz parçası olaraq tanınırlar.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şanlı ordumuzun müstəsna igidliyi nəticəsində artıq torpaqlarımız işğaldan azad edilib və 30 ilə yaxın düşmən tapdağında qalan, dağıdılan, məhv edilən, təhqir olunan, murdarlanan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesinə başlanıb. Belə ki, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın rəhbərliyi ilə fond tərəfindən Qarabağdakı dini abidələrimizin, məscidlərimizin restavrasiyasına başlanıb.

İndiyə qədər minlərlə abidəyə nəfəs verən Heydər Əliyev Fondunun budəfəki layihəsi Qarabağdakı dini irsmizin, məscidlərimizin bərpasına həsr olunub.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, mütəxəssis qrupu işğaldan azad olunan ərazilərimizdə ermənilər tərəfindən dağıdılan dini abidələr, məscidlərin bərpasına dair layihəsi üzrə işlərə başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcək. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanıb.

Avstriyanın "Atelier Erich Pummer GesmbH" şirkətinin rəhbəri, memar Erix Pummer Ağdam məscidində olub və məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə aparılıb[6].

[6] Heydər Əliyev Fondunun işğaldan qurtulmuş Qarabağ mədəni-dini irsimizi xalqa yenidən qaytarmaq missiyasi..., https://mehribanaliyeva.preslib.az/media-kZ7sACjd8h.html

Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu həm də bu bölgədəki mədəni tədbirlərin keçirilməsi ənənələrini də bərpa edir. 32 ildən sonra - 12-13 may 2021-ci ildə Şuşanın Cıdır düzündə Heydər Əliyev Fondu tərəfindən "Xarıbülbül" Musiqi Festivalı təşkil olundu, görkəmli Azərbaycan şairi, ictimai xadim Molla Pənah Vaqifin büstünün açılışı oldu, muzey-məqbərə kompleksi yenidən quruldu, "Vaqif Poeziya Günləri" keçirildi, Azərbaycanın görkəmli bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli və ev-muzeyində aparılan işlər sona çatdı. Şuşada keçirilən "Xarıbülbül" Musiqi Festivalı çərçivəsində Heydər Əliyev Fondu tərəfindən beynəlxalq incəsənət festivalının təşkil olunması, fondun təşəbbüsü ilə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar", "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hazırlanması "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiya Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunmasına Mehriban xanım Əliyevanın hədiyyəsi olub. Bu, Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin qorunmasına, təbliğinə, həmçinin dünyada tanıdılmasına xidmət edir. Bununla yanaşı, icra edilən layihələr adət-ənənlərimizin, mədəniyyətimizin bir parçası olan milli dəyərlərimizin gələcək nəsillərə ötürülməsinə ən qiymətli töhfələrdir.

Heydər Əliyev Fondu tərəfindən çap edilən "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusuna ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılığı əks etdirən 5 nəşr daxildir.

Fond dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə dəstək məqsədilə "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri", "Muğam ensiklopediyası", "Azərbaycan muğamı", "Muğam aləmi" adlı nəşrləri reallaşdırıb[7].

Heydər Əliyev Fondu uzun illərdir Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin ifşası, ermənilər tərəfindən yurdlarından didərgin salınan yüz minlərlə məcburi köçkünün pozulmuş hüquqlarının beynəlxalq müstəvidə qorunması istiqamətində geniş-miqyaslı fəaliyyət göstərir. Fond Vətən müharibəsində və ondan sonrakı mərhələdə də Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün var qüvvəsi ilə çalışır. Bu gün də Qarabağın dirçəldilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına tez bir zamanda qayıdışı üçün görülən işlərə böyük dəstək verir.

[7]"Heydər Əliyev Fondu Qarabağa solmaz naxışlar vurur https://xalqqazeti.com/mobile/az/news/101811

Görülən bütün işlər, layihələr, yeniliklər ondan xəbər verir ki, fond hər zaman Azərbaycan xalqı, dövləti və hətta bütövlükdə bəşəriyyət üçün çalışmağa davam edəcək. Heydər Əliyev Fondu yalnız Azərbaycanın deyil, qlobal mahiyyətli humanizm və bəşəri dəyərlər akademiyasıdır.

Beləliklə, Heydər Əliyev Fondunun adıçəkilən və qeyd edilməyən çox sayda layihələri xalqımızın milli mədəni irsinin yeniliklərilə birləşərək dünyaya çatdırılmasında rupordur. Qeyd edilən layihələrdən, fəaliyyət istiqamətlərindən də göründüyü kimi, fond sadəcə sosial zəminli fəaliyyət göstərmir, bütövlükdə xalq, dövlət və hətta dövlət miqyasını aşan qlobal kontekstdə işlər icra edir. Görülən bütün işlər isə Azərbaycanın adını beynəlxalq arenada ən yüksək məqama çatdırmağa fokuslanıb.

Quluzadə Nasir
Milli Azərbaycan Tarixi Muzeyinin
Arxeologiya elmi fond şöbəsinin müdiri t.ü.f.d., dosent.

Qarabağın maddi mədəniyyətinin öyrənilməsində Dolanlar nekropolu kolleksiyasının əhəmiyyəti

Qarabağın maddi mədəniyyətinin öyrənilməsi üçün çoxsaylı əşyavi mənbələr mövcuddur. Həmin mənbələrin bir qismi hazırda Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji kolleksiyasında yer alıb. Bu kolleksiyada Dolanlar nekropolunun tapıntıları mövzunun öyrənilməsi üçün daha çox diqqət cəlb edir. Belə ki, Dolanlar nekropolunun tapıntılarından ibarət kolleksiya nümunələri əsasən tunc tərkibli olsa da, amma həm bədii tərtibatına, həm də çeşidinə görə digər həmdövr kolleksiya nümunələrindən seçilir. Hesab edirik ki, bu kolleksiyanın Qarabağın maddi mədəniyyəti müstəvisində öyrənilməsinə çox ciddi ehtiyac var. Çünki 27 il işğal həyatı yaşamış Qarabağın maddi mədəniyyəti çox böyük zərər görmüşdür. Hazırda Qarabağ bölgəsində dağıdılan infrastrukturun bərpasına yönələn kompleks işlər aparılır, müxtəlif sahələrin dirçəldilməsi üçün tədbirlər planları təsdiq edilir. Tədbirlər planına maddi mədəni irsimizin tərkib hissəsi olan tarixi-arxeoloji abidələrin bərpası da daxildir. Əsirlikdən azad olunmuş abidələr Azərbaycanın, xüsusilə də Qarabağın maddi mədəniyyətinin bir parçasıdır. Söz yox ki, gələcəkdə bu bölgədə aparılacaq arxeoloji axtarışlar yeni-yeni abidələrin üzə çıxmasına şərait yaradacaq. Amma

indi əlimizdə olan kolleksiya nümunələrini araşdırmaqla Qarabağın maddi mədəniyyətinin öyrənilməsi işinə öz töhfəmizi verməliyik.

Dolanlar kolleksiyasının mənşəyinə gəldikdə, burada təmsil olunan maddi nümunələr keçən əsrin 30-cu illərində Xocavənd rayonu Dolanlar kəndinin şimal-qərbində, təxminən kənddən 3 km məsafədə yerləşəm 5,5 hektar ərazisi olan və "Ağ Düzü" adlanan yayladan təsadüfən tapılıb. Bir qədər də dəqiq desək, yerli əhali xəzinə tapmaq məqsədilə yayla ərazisindəki qədim qəbirlərdə axtarışlar apararaq haqqında bəhs etdiyimiz kolleksiyanı təşkil edən tunc və dəmir əşyaları tapmışlar. Kəndlilər tapıntıları toplayaraq ilk dəfə 1930-cu, daha sonra isə 1933-cü ildə daimi mühafizə üçün Milli Azərbaycan Tarixi Muzeyinə göndərmişlər. SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan bölməsi tapıntıların əhəmiyyətini və çoxluğunu nəzərə alaraq 1933-cü ildə bölgədəki abidələri tədqiq etmək, eləcə də Ağ Düzü yaylasına baxış keçirmək üçün ora ekspedisiya göndərdi. Ekspedisiya payızın sonlarında ərazidə kəşfiyyat xarakterli qazıntılara başlasa da, amma sonradan erkən qarın yağması ilə əlaqədar axtarışlarını dayandırmağa məcbur olmuşdu. Tapıntılar isə az sayda tunc məmulatından və muncuqlardan ibarət olmuşdur[1].

Kolleksiyanın öyrənilməsinə gəldikdə, burada ilk təşəbbüs Nina Minkeviç-Mustafayevaya məxsusdur. Onun 1949-cu ildə rus dilində işıq üzü görmüş "Dolanlar kəndində tapılmış arxeoloji tapıntılar haqda" məqaləsi Dolanlar tapıntılarına həsr olunub[2]. Məqalədə Dolanlar tapıntılarının tarixi, təsviri, ölçüləri, təyinatı, təsnifatı, dövrü və digər xüsusiyyətləri verilib. Uzun zaman keçməsinə baxmayaraq məqalə bu gün də öz sanballılığı və əhəmiyyəti ilə seçilir. Onun 1962-ci ildə rus dilində işıq üzü görmüş "Azərbaycanın son tunc və ilk dəmir dövrlərinə aid bəzi abidələrinin dövrü və xronoloji mərhələləri haqqında" adlı məqaləsində isə Dolanlar tapıntılarının dövrünə aydınlıq gətirməyə çalışmışdır[3].

Dolanlar tapıntıları haqda məlumatlara biz muzeyin sabiq əməkdaşı Şərqiyyə Sadıqzadənin 1971-ci ildə üç dildə işıq üzü görmüş "Qədim Azərbaycan bəzəkləri" adlı kitab-albomda görə bilərik[4]. Adından da göründüyü kimi bu

---

[1]Минкевич-Мустафаева Н.В. Об археологических находках из сел. Доланлар // Материальная Культура Азербайджана, том I, Баку: Изд. АН АзССР, 1949, с. 50-51

[2] Минкевич-Мустафаева Н.В. Об археологических находках из сел. Доланлар // Материальная Культура Азербайджана, том I, Баку: Изд. АН АзССР, 1949, с. 50-70.

[3]Минкевич-Мустафаева Н.В. О датировке и хронологических этапах некоторых памятников Азербайджана эпохи поздней бронзы и раннего железа // Материальная Культура Азербайджана, том IV, Баку: Изд. АН АзССР, 1962, с. 109-139

[4] Sadıqzadə Ş.H. Qədim Azərbaycan bəzəkləri. Bakı: İşıq, 1971, 15 s., 30 tablo.

kitabda yalnız Dolanlar kolleksiyasının seçmə bəzək nümunələri yer almışdır. Kitabda Dolanlar bəzəklərinin rəngli təsvirləri də verilmişdir.

Dolanlar tapıntıları t.ü.f.d. Fariz Xəlillinin də elmi araşdırmasının tədqiqat obyekti olub. Bu tədqiqatçının 2005-ci ildə çapdan çıxmış məqaləsində isə Dolanların metal məmulatı şərh edilmişdir[5]. Lakin onun 2017-ci ildə işıq üzü görmüş "Arxeoloji materiallar Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi" adlı monoqrafiyasında Dolanlar tapıntıları müvafiq bölmələr üzrə təsnif edilmiş, onların dövrü və bəzi nümunələrin təyinatı ilə bağlı öz mülahizələrini irəli sürmüşdür. Bu tədqiqat işində Dolanlar tapınılarının sərgilənməsi ilə bağlı da maraqlı məlumatlar yer alıb[6].

Daha sonra, Dolanlar kolleksiyasına tədqiqatçı Nuridə Qədirova-Atəşi müraciət etmişdir. Onun 2019-cu ildə nəşr olunmuş "Xocalı-Gədəbəy mədəniyyətinin maddi irsi: ilk kompleks nəşri və təhlil (Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji kolleksiyası əsasında)" adlı monoqrafiyasında Dolanlar tapıntıları şərh edilmişdir[7].

Dolanlar kolleksiyasını təşkil edən maddi nümunələrin kəmiyyətcə böyük hissəsini bilərziklər və qolbaqlar təşkil edir. Qolbaq və bilərziklərin hamısı tökmə üsulu ilə hazırlanıb. Onlar formalarına görə ucları açıq və qapalı olmaqla iki qrupa ayrılır.

Birinci qrupa iki maraqlı nümunə daxildir, görünüşünə görə daha çox boyunbağılara bənzəyir. Hər iki qolbaq massiv olub, orta hissəsində qalınlaşma və ilgəklər meydana gətirən burulmuş uclar var. Onlardan birinin səthi hamardır. Onun ən böyük daxili diametri 11,6 sm, qalınlığı 1,4 sm və 0,5 sm, ucları çəkisi isə 278,88 q-dır. İkinci qolbaq formasına görə əvvəlkinə bənzəyir, lakin xarici səthi dişciklərlə və qabırğalarla bəzədilib. Kəsik səthin bitdiyi yerlərə düymə lehimlənib. Bu qolbağın diametri 10,5 sm, qalınlığı 1 sm və 0,7 sm, çəkisi isə 153,13 q-dır.

Ucları açıq qolbaqlar arasında bir nümunə əvvəlkilərinə nisbətən nazik olub, kəndirvari səthə və ilgəkli sonluqlara malikdir. Onun diametri 12,3 sm, qalınlığı 0,5 sm, çəkisi isə 48,25 q-dır. Sonluqlardakı ilgəklərin olması qayış üçün nəzərdə tutulub. Məhz qayış vasitəsilə qolbaq qolun dirsəkdən yuxarı hissəsinə

---

[5]Xəlilov F. Azərbaycan Tarixi Muzeyinə arxeoloji materialların cəlb edilməsi yolları (təsadüfi tapıntılar əsasında) // Azərbaycan Tarixi Muzeyi-2005. Bakı: Elm, 2005, s. 143-144.

[6]Xəlilli F.S. Arxeoloji materiallar Azərbaycan Tarixinin öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında), Bakı: Elm və təhsil, 2017, 178 s.

[7] Qədirova-Atəşi N. Xocalı-Gədəbəy mədəniyyətinin maddi irsi: ilk kompleks nəşri və təhlil (Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji kolleksiyası əsasında). Bakı: Aspoliqraf 2019, s. 165-170

bərkidilirdi. Diametrinin ölçüsünə və kütləsinə görə bu qolbaqlardan kişilər istifadə ediblər.

Sonluqları açıq olan bəzəklər arasında bilərziklər də var. Onlar arasında ən çox diqqəti cəlb edəni sonluqları stilizə edilmiş qoç başları ilə tamamlanan və iki yarımhalqanın üç mil vasitəsilə birləşməsindən əmələ gəlmiş bilərzikdir. Bilərziyin xarici səthi dişciklidir. Onun diametri 6,9 sm, qalınlığı 1,5 sm, sonluqları arasındakı məsafə 2,3 sm-dir.

Eyni qrupa səthləri saya, sonluqları zolaqlar və çarpaz cızma xətlərlə bəzədilmiş, en kəsikləri dairəvi və dördbucaq olan bilərziklər daxildir. Onların diametri 5,5-10,2 sm, qalınlığı 0,3-0,8 sm, sonluqları arasındakı məsafə 0,2-4,8 sm, çəkisi 23,27-97,64 qr arasında dəyişir.

Sonluqları açıq olan eyni bilərziklər qrupuna iki eyni, lentşəkilli nümunə də daxildir. Onların eni 0,8 sm, qalınlığı 0,2 və 0,3 sm, diametri 6,8-7,1 sm və ucları arasındakı məsafə 1,7-2,2 sm, çəkisi isə 22,87-24,1 q-dır. Bu bilərziklərdən birinin sonluğunda düz bucaq altında yönəldilmiş iki zolaq şəklində oymanın izləri var.

Yuxarıda deyildiyi kimi qolbaq və bilərziklərin ikinci qrupunu halqaşəkilli nümunələr təşkil edir. Onların özləri də formalarına və ya bədii tərtibatlarına görə iki qrupa ayrılır. Birinci qrupa xarici səthləri dişcikli və lehimlənmiş düyməciklərlə bəzədilmiş qolbaq və bilərziklər aiddir. Düymələrin gövdəboyu yerləşməsi səthi dörd, bəzilərində isə üç bərabər hissəyə bölür. Bilərziklərdə onlar çox zəif hiss olunur. Qolbaqların sayı dörd olub, diametri 9,8-10,6 sm, qalınlığı 1,1-1,2 sm, çəkisi 193,98-314,83 q arasında dəyişir. Bilərziklərin diametri 6,2-6,3 sm, qalınlığı 0,9-1,2 sm, çəkisi isə 116,74-203,29 q. aralığındadır.

Bilərziklərdən biri massivliyi ilə seçilsə də, amma daxili səthinin novlu olması digərlərindən fərqlənir. Bu metala qənaət etmək və çəkini azaltmaq məqsədilə edilib. Onun diametri 6,4 sm, qalınlığı 1,2 sm, çəkisi 203,29 q-dır.

Halqaşəkilli qolbaqların digər qrupunu səthləri düyməciklərlə və oyma naxışlarla bəzədilmiş nümunələr təşkil edir. Bu qolbağın diametri 9,4 sm, qalınlığı 0,9 sm, çəkisi isə 161,95 q-dır. Digər bir oxşar nümunənin diametri 9,5 sm, qalınlığı 2 sm, çəkisi 1052 qr. Uzun müddətli istifadə bilərziyin qalınlığının iki yerdə 1,5 sm-ə qədər azalmasına səbəb olmuşdur.

Lövhəvari bəzəklər. Dolanlar kolleksiyasında say baxımdan çoxluq təşkil edən maddi nümunələrin bir hissəsini lövhəvari bəzəklər təşkil edir. Tuncdan tökmə üsulu ilə hazırlanıb. Onların kənarlarında olan kiçik dəliklər isə, bu lövhələrin bəzək və zireh məqsədilə dəri və ya qalın parçalara tikildiyi göstərir. Bu lövhələr əsasən dairəvi və düzbucaqlı şəklində olub, kənarları ya tamamilə, ya

da bir-iki tərəfi dişcikli olur. Dairəvi lövhələrin diametri 9 və 9,1 sm-dir. Dişlərin uzunluğu 7 mm, eni 5-6 mm, çəkisi 63,82-dən 70,60 q-a qədərdir. Dairəvi lövhəciklərdən biri ortasının yarımkürə şəklində çıxıntı olması ilə fərqlənir. Natamam vəziyyətdə olan bu zireh lövhəsinin diametri 8,7 sm, çəkisi isə 43,29 q-dır.

Lövhələrin digər qrupunu qalınlığı 1 ilə 2 mm arasında olan dörd böyük və dörd kiçik düzbucaqlı nümunə təşkil edir. Onların ortaları kənarına nisbətən dardır. Uzununa olan tərəfləri dişciklidir. Kiçik lövhələrin uzunluğu 9,6 sm, kənarı boyunca eni 4,9 sm, ortada qalınlığı 2 mm, çəkisi 28,38 q-dır. Böyük lövhələr əvvəlkilərlə eyni formalı olsa da, uzun tərəflərdən yalnız birinin dişcikli olması ilə fərqlənirlər. Bundan əlavə onların səthləri bir tərəfdən nöqtələrlə doldurulmuş və tamamlanan üçbucaqlarla bəzədilib. Yalnız dişləri olmayan lövhə bəzək də mövcuddur. Bütün lövhələrin ön tərəfi azacıq qabarıqdır. Böyük lövhələrin dəriyə tikilməklə at ləvazimatları üçün bəzək vəzifəsini yerinə yetirdiyi də ehtimal edilir. Kolleksiyada qarmaqlı, silindrik çıxıntılı və gül təsviri həkk olunmuş lövhə fraqmentləri də var.

Dingələr. Dolanlar kolleksiyasının tuncdan bəzək məmulatı arasında baş bəzəyi olan nisbətən bütöv bir dingə də var. Dingə nazik lövhədən ibarət olub, yarımhalqa formasındadır. Sonluqlarda isə bir dairəvi dəlik açılıb. Bu dəliklər dingənin dəriyə bərkidilməsi üçün açılıb. Dingənin uzunluğu 42,5 sm, ortada eni 7,3 sm, uclarında 4 sm, çəkisi 249,80 q-dır. Oxşar nümunələr Çovdar nekropolunun qazıntıları zamanı da tapılıb. Tapıntılar arasında həmçinin enli dairəvi ucları yanlara əyilmiş xaç formalı lövhədən bəzək də var. Ucların hər biri diametri 1 və 3 mm olan iki konsentrik dairə ilə bəzədilib. Düz bir səthin uclarında daxili dairələr keçir, əyilmiş olanlarda isə kardır. Əyilmiş uclarda zərb edilmiş konsentrik dairələrin ortasında isə bəzəyi dəriyə və ya parçaya bağlamaq üçün dəliklər açılıb. Ehtimal olunur ki, bu bəzək əşyası dirsəkdə və ya biləkdə qol üçün bəzək kimi xidmət edib. Bükülmüş səthin qövsünə görə, bu qolun diametri təxminən 10 sm olmalıdır. Çəkisi 27,36 q olan bu bəzəyin ucları arasında əyri səth boyunca məsafə 10,3 sm və düz xətt boyunca təxminən 9,5 sm-dir.

Asmalar. Haqqında bəhs etdiyimiz kolleksiyada asmalar da çoxluq təşkil edir. Bu asmaları formalarına görə beş qrupa bölmək olar. Birinci qrupa zınqırov formalı asmalar aiddir. Bu tip asmalar da bir neçə formanı təmsil edir. Onlardan ikisinin gövdələri üçbucaq şəklində bir və ya iki cərgə şəbəkəli olan zınqırovlardır. Bir nümunədə isə şəbəkə ovalvaridir. Amma səthləri şəbəkəsiz olan nümunələr də var. Zınqırovların bəzi nümunələrində gövdə konusvari,

bəzilərində isə piramida şəkillidir. Bütün zınqırovlar ilgəkli olsa da, bəzilərində sonradan sınıb.

Asmaların digər qrupunu tuncdan tökülmüş, diskvari və şəbəkəli gövdəyə malik bəzəklər təşkil edir. Onlardan birinin diametri 26 mm, çəkisi isə 3,23 q olub, qulaqcığı sınıb. Redkin Lager nekropolundan da oxşar nümunə tapılıb[8]. Digərinin isə kənarları dişciklidir. Sonuncunun diametri 26 mm, ümumi uzunluğu 22 mm, qalınlığı 2 mm, çəkisi 26,68 q-dır.

Asmaların üçüncü qrupuna nazik tunc məftildən hörülmüş ilgəkli asmalar aiddir. Bu tip asmaların sayı üç ədəddir. Hər üç asma təxminən 2 mm qalınlığında nazik tunc məftildən hazırlanıb. Onlardan birində məftil spiralvari şəkildə düz və dalğavari xətlər əmələ gətirilməklə hörülmüşdür. Amma sonradan ilgəyi sınıb. Onun diametri 4,2 sm, çəkisi isə 10,85 qr. Digər iki nümunədə də hörmə işi demək olar ki, eyni üsul ilə aparılmışdır. Onlardan birinin diametri 5,7 sm, çəkisi 18,46 q, digərinin diametri 6,2 sm, çəkisi isə 27,50 q-dır.

Dolanlar tapıntıları arasında dairəvi formalı və sonluğu qarmaq şəkilli iki çıxıntı ilə bitən tutacaqlı miniatür tunc güzgüvari asma da var. Həmin çıxıntılardan biri sınıb. Tutacağın kənarlarına hər tərəfində dörd ədəd olmaqla düyməcik lehimlənib. Bundan əlavə tutacağın sonluğunda dəlikdən keçirilmiş halqa da var. Tutacağın uzunluğu 19 mm, eni isə 10 mm-dir. Asmanın həm ön, həm də arxa səthi tamamilə hamar olub, diametri 46 mm, qalınlığı 1,5 mm, çəkisi isə 16,63 q-dır.

Zoomorf asma. Kolleksiyada maraqlı maddi nümunələrdən biri zoomorf asmadır. Asma arxa-arxaya dayanmış iki maralın birləşmiş formasındadır. Maralların buynuzları hər birində beş qövsvari çıxıntısı olan bir cüt mildən ibarətdir. Maralların gözləri oyuq, qulaqları isə kiçik çıxıntı şəklindədir. Gövdənin üst hissəsinə üç ədəd halqavari, altına isə altı ədəd ilgək lehimlənib. Altdakı igəklərdən üçündən zəncirlər sallanır. Zəncirlərdən dörd ədədi maralların başlarından, iki ədədi boyunlardakı ilgəklərdən, qalan iki ədədi isə ayaqlardan sallanır. Zəncirlərin aşağı uclarına isə mərkəzdəki kürəşəkilli bəzək istisna olmaqla qalanlarından zınqırov formalı bəzəklər bağlanıb. Həm kürəşəkilli, həm də zınqırov şəkilli bəzəklər üçbucaq şəbəkəlidir. Onun ümumi uzunluğu 31,5 sm, heykəlciklərin buynuzlarının ucundan ayaqlarının ucuna qədər hündürlüyü 15 sm, başların kənar nöqtələri arasındakı eni 14 sm, çəkisi isə 648,96 q-dır. Asma tökmə, döymə, yonma, əymə, lehimləmə və kəsmə üsulları ilə hazırlanıb.

---

[8]Qədirova-Atəşi N. Xocalı-Gədəbəy mədəniyyətinin maddi irsi: ilk kompleks nəşri və təhlili. Bakı: Aspoliqraf, 2019, s. 527

Üzüklər. Kolleksiyanın kiçik bir hissəsini tunc üzüklər təşkil edir. Sayları üç ədəd olan həmin üzüklər spiralvari formadadır. Tökmə və əymə üsulu ilə hazırlanıblar. Onlardan ikisi nisbətən massivdir. Onların qalınlığı 2-5 mm, diametri 17-18 mm, çəkisi 1,95-15,57 qr arasında dəyişir.

Sırğalar. Dolanlar kolleksiyasına ucları açıq olan yeddi ədəd sırğa da daxildir. Hamısı halqavari formadadır. Onlardan əksəriyyətinin diametri 36-54 mm, çəkisi isə 5,75-12,85 q arasında dəyişir. Sırğalardan biri digərlərindən massivliyi ilə fərqlənir, Onun qalınlığı 5-6,5 mm, çəkisi 27,58 q-dır.

Muncuqlar. Kolleksiyada muncuqlar da yer alıb. Sayları 110 ədəd olan bu muncuqlar eyni formada olub, tökmə və əymə üsulu ilə tuncdan hazırlanıblar. Belə ki, onlar en kəsiyi üçbucaqvari olan, eni 7-10 mm, uzunluğu isə 3 sm zolaqlardan qatlanaraq muncuq halına salınıblar. Muncuqların çəkisi 3,65-5,18 q olub, çoxunun sonluqları bağlanmır.

Sancaqlar. Dolanlar nekropolundan tapılan əşyalar arasında tökmə üsulu ilə hazırlanmış bir neçə əşya da var ki, onlar açıq-aydın sancaq kimi istifadə olunub. Onlardan biri iki hissədən ibarət olub, 17 mm diametrli halqa ilə bir-birinə bağlanıblar. Sancağın həm sol, həm də sağ hissəsi bir-birinə birləşmiş iki halqadan ibarətdir. Onların birləşdiyi hissəyə eynəkvari asmanı və ya qoçun stilizə olunmuş başını xatırladan bəzək elementi, yuxarısına isə ilgək lehimlənib. Forma baxımdan hər iki hissə eyni olsa da, amma sağ tərəf soldan kənarlarının hörükvari şəkildə bəzədilməsi ilə seçilir. Sol hissənin ümumi uzunluğu 6,7 sm, eni 3,4 sm, sağ tərəfin ümumi uzunluğu isə 6,7 sm, eni 3,6 sm-dir. Sancağın ümumi çəkisi 60,41 q-dır.

Sancaqlar qrupuna aid digər nümunə isə geyim üçün nəzərdə tutulub. Tökmə üsulu ilə hazırlanmış bu nümunə qövsvari formadadır. Üzəri üç sıra lehimlənmiş düyməciklərlərlə bəzədilib. Bir tərəfinə ilgək lehimlənib. Aşağıdan isə milin keçməsi üçün dəliklər açılıb. Amma milin özü tapılmayıb. Sancağın eni 1,3 sm, uzunluğu 4,5 sm, qalınlığı 3 mm, çəkisi isə 19,37 q-dır.

Daha bir maraqlı nümunə isə kənarlarına yeddi stilizə edilmiş qoç başı lehimlənmiş yastı halqadan ibarətdir. Halqanın üst səthi daxili cərgədə 16, xarici cərgədə isə 20 düyməcik olmaqla bəzədilib. Bütün halqanın diametri 4,2 sm, halqanın eni 1 sm, qalınlığı 5 mm, çəkisi 48,54 q-dır.

Boyunbağılar. Dolanlar tapıntıları arasında iki ədəd çox yaxşı qorunub saxlanmış bir tunc boyunbağı var. Hər iki nümunə tökmə üsulu ilə hazırlanıb. Onlardan biri kəndirvari quruluşa malik olub, ovalvari halqa şəklindədir. Sonluqları döyülərək lövhə şəklinə salınmış və bir-birinə bitişik vəziyyətdədir.

Onun qalınlığı 1 sm, çəkisi 337,83 q-dır. Diametrinə gəldikdə isə 16-20 sm arasında dəyişir.

Gəm. Kolleksiyada Azərbaycanda yeganə tapıntı olan dolanlar tipli tunc gəm xüsusilə seçilir. İki hissədən ibarət olan bu tunc gəm bir-birinə birləşdirilərək orta hissədə halqa forması yaradır. Onun qaytarğan keçən yan hissələri isə bütöv olub, bir qədər qövsvaridir və üzərində qayış keçirmək üçün dörd ədəd deşik açılmışdır. Bu gəmin üzəri tor şəkilli naxışlarla bəzədilmişdir. Gəmin uzunluğu və eni 21 sm, halqaların daxili diametri 2,5 sm, deşiklər arasındakı məsafə isə 6,4 sm-dir. Gəmin çəkisinə gəldikdə isə, 384,13 q-dır.

Ön Asiya tipli tunc gəmləri bu tip gəmlərin əvəz etməsinin xronoloji ardıcıllığı bir çox Assuriya relyeflərindən də görünür. Oxşar gəmlərə Gürcüstan, Ermənistan və Ukrayna abidələrində də rast gəlinsə də onların dövrünü bu tip gəmlərin daha çox yayıldığı və yaxşı öyrənildiyi Ön Asiya abidələrinə əsasən vermək mümkün olmuşdur. Gəmin eni onun Qafqaz cinsindən daha dar ağızlı cənub cinsli atlara taxıldığını göstərir.

Ucluq (başlıq) və bıçaqlar. Dolanların kolleksiyasında silah nümunələri də yer alıb. Onlardan biri yaxşı vəziyyətdə qalmış tunc toppuz başlığıdır. Toppuzu əmud formasında olub, üzərində eninə 3 cərgə olmaqla 9 ədəd şişvari çıxıntı vardır. Baş tərəfi nisbətən yumrudur. Ağac sapın keçməsi sulğunca malikdir. Sulğuncun aşağısında ağacı bərkitmək üçün mıx yeri – iki dairəvi dəlik də vardır. Toppuz başının ümumi uzunluğu 9,2 sm, çəkisi 242,08 q-dır. Bu toppuz başı hərbi məqsədlər üçün yüngül olduğundan, onun hərbi fərqlənmə nişanı və ya hakimiyyət əsasının başlığı kimi istifadə olunduğu güman edilir[9].

Daha bir kolleksiya nümunəsi isə xəncər başlığıdır. Onun içi boş olub, aşağı hissəsi silindrik formadadır. Bir qədər yuxarıya doğru genişlənir və yuvarlaq bir baş ilə tamamlanan kəsilmiş konusa çevrilir. Dörd şaquli cərgədə düzülmüş dairəvi deşiklərlə bəzədilib. Onun hündürlüyü 5,5 sm, ən geniş hissəsinin diametri 2,4 sm, çəkisi 34,95 q-dır. Hazırlanma texnikasına görə Xocalı-Gədəbəy mədəniyyətinin sonrakı inkişaf mərhələsi üçün səciyyəvidir[10].

Kolleksiyaya yarpaqşəkilli dəmir cida və nizə ucluqları da daxildir. Sonuncular 2 ədəd olub, qabarıq onurğaya malikdir. Birinin qanadları sınaraq çox tökülüb. Digəri isə nisbətə bütöv vəziyyətddəir. Onların ümumi uzunluğu müvafiq olaraq 19,2 və 22,3 sm, sulğunclarının uzunluğu 7 və 9 sm, qanadların eni təxminən 3 və 2,5 sm, çəkisi isə 54,97 və 91,85 q-dır. Kolleksiyada yer almış

---

[9]Минкевич-Мустафаева Н.В. Об археологических находках из сел. Доланлар // Материальная Культура Азербайджана, том 1, Баку: Изд. АН АзССР, 1949, с. 66.
[10] Yenə orada. s. 67.

bir ədəd cida ucluğu da yarpaq formalıdır. Ümumi uzunluğu 11 sm, eni 1,7 sm, sulğuncunun salamat qalmış hissəsinin uzunluğu təxminən 6 sm, çəkisi isə 23,62 q-dır.

Kolleksiyadakı bıçaqlar isə yenə də dəmirdən olub, tiyələrdən ibarətdir. Tiyələrin bir tərəfi kəsər olub, nisbətən sivri formadadırlar. Təəssüf ki, tam formaları saxlanmadığından, onların ölçülərini müəyyən etmək çətindir. Çəkiləri müvafiq olaraq 21,9 q və 51,42 q-dır.

Qab. Kolleksiyada bir ədəd tunc piyalə tipli qab da yer alıb. Kasanın daxili səthi 14 ləçəkdən ibarət xonça ilə bəzədilib. Oksidləşmədən qabın gövdəsində dəliklər yaranıb. Kasanın ağzının diametri 15 sm-dir. Bu kasa həm materialına, həm də hazırlanma texnikasına görə digər tunc əşyalardan fərqlənir və təsvir edilən bütün tunc tapıntılardan daha gec mənşəlidir. Ehtimal edilir ki, yalnız bu ərazidə aparılacaq arxeoloji qazıntılardan sonra arxeoloji materialın xüsusiyyəti haqqında hərtərəfli məlumat əldə etmək mümkündür.

Yuxarıda təsvir edilən kolleksiyanın dövrünə gəldikdə burada problem hələ də açıq qalıb. Belə ki, N.V.Minkeviç-Mustafayeva 1949-cu ildə nəşr olunmuş məqaləsində Dolanlar tapıntılarının xronoloji çərçivəsini e.ə. VI-I əsrlər[11], lakin 1962-ci il məqaləsində e.ə. IX-VII əsrlər[12] kimi göstərmişdir. Tədqiqatçı F.S.Xəlilli Dolanlar kolleksiyasının dövrünü e.ə. V-IV əsrlərlə çərçivələyərək, erkən antikə aid etmişdir[13]. Hesab edirik ki, sonuncu çərçivə xeyli dardır. Belə ki, kolleksiyadakı nümunələrin bir qismi Xocalı-Gədəbəy mədəniyyətinin, digər qismi isə antik dövrün metal məmulatı ilə oxşarlıq təşkil edir. Xocalı-Gədəbəy mədəniyyəti ilə oxşarlığı biz Çovdar nekrolundan tapılmış baş bəzəkləri[14] ilə eyni olan dingənin, eləcə də sonluqları ilgək şəklində olan boyunbağının və xəncər başlığının kolleksiyada yer almasında, bəzi zınqırovların üçbucaq şəbəkə ilə bəzədilməsində, bəzi nümunələrdə sonluqların stilizə edilmiş qoç başları ilə tamamlanmasında, dualizmi əks etdirən asma zoomorf fiqurlarda[15], Qızılburun eynəkvari asmasına[16] bənzər bəzək elementin olmasında və digər amillərdı görürük. Kolleksiyada yer almış bəzi qolbaq bə bilərziklərin dişcikli xarici səthə

---

[11] Yenə orada. s. 68.

[12]Минкевич-Мустафаева Н.В. О датировке и хронологических этапах некоторых памятников Азербайджана эпохи поздней бронзы и раннего железа // Материальная Культура Азербайджана, том IV, Баку: Изд. АН АзССР, 1962, с. 119

[13] Xəlilli F. Arxeoloji materiallar Azərbaycan Tarixinin öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında), Bakı: “Elm və təhsil” 2017, s. 45.

[14] Шарифов Д. Раскопки близ села Човдар Гянджинского уезда (лето 1926 г.). Изв. Азкомстарис. Вып. IV, тетр. 2, Баку, 1928, с. 239-260.

[15] Ивановский А.А. Материалы по археологии Кавказа. вып. VI, Москва, 1911, табло VI.

[16] İsmayılzadə Q.S., İbrahimli B.İ. Qızılburun nekropolu. Bakı: Elm və Təhsil, 2013, s. 115.

malik olması, tərtibatda lehimlənmiş düyməciklərdən və oyma naxışlardan istifadəni antik dövrə aid Nərgizava və Mollaisaqlının bədii tunc məmulatında[17] rast gəlirik. Dişcikli xarici səthə malik tunc bilərzik Redkin Lager kolleksiyasında da mövcuddur (AF 1342). Kolleksiyada yer almış piyalə isə Əhəməni dövrünün qablarını xatırladır. Ona görə də hesab edirik ki, kolleksiyanın dövrünü e.ə. XI-I əsrlərlə çərçivələmək olar.

Yuxarıda haqqında danışdığımız kolleksiya nümunələri özündə Qarabağın qədim və zəngin maddi mədəniyyətini əks etdirir. Belə ki, bu nümunələrin əksəriyyəti bəzək əşyası olub, məişətdə istifadə olunub. Silah nümunələri isə Qarabağ tayfalarında hərb işinin inkişaf səviyyəsi haqqında təsəvvür formalaşdırır. Massiv tunc qolbaqlardan hərb sənətinin daşıyıcılarının da istifadə etdiyini ehtimal etmək olar. Kolleksiyadakı yeganə tunc gəm isə bölgədə atçılığın varlığından xəbər verir. Dolanlardan tapılmış at dişləri də dediklərimizi bir daha təsdiq edir.

Kolleksiya nümunələri təmsil etdikləri dövdə Qarabağda sənətkarlarının peşə bacarıqlarının səviyyəsini əyani şəkildə göstərir. Heç kimə sirr deyil ki, bu bölgədə metallurgiya və metalişləmə sənəti özünəməxsus inkişaf yolu keçib. Son tunc və ilk dəmir dövründə Qarabağda metallurgiya və metalişləmə sahəsində əsl inqilabi çevriliş baş verir. Metalişləmənin müxtəlif sahələri arasında ixtisaslaşma gedir, tuncun tərkibinə mərgümüş, qurğuşun, sürmə və sairə ilə yanaşı daha tez-tez qalay qatışığı əlavə edilməsi ilə səciyyələnir, zərgərlik sahəsində nailiyyətlər qazanılır, dəmirdən istifadə başlanır. Zəngin metal filizləri yatağına malik olan Azərbaycan tayfaları metala və metal alətlərə olan öz daxili tələbatını ödəməklə yanaşı izafi məhsulu və xammalı başqa ərazilərə ixrac edə bilir[18]. Metalişləmənin inkişafı sonrakı dövrlərdə də davam etmişdir. Biz buna həmin dövrlərə aid tapıntıların əsasında əmin oluruq.

Dolanlar kolleksiyası Qarabağın maddi mədəniyyəti ilə yanaşı mənəvi mədəniyyəti haqda da müəyyən təsəvvürlər formalaşdırır. Biz bunu daha çox maral formalı asmada və sonluqları stilizə edilmiş qoç başı ilə tamamlanmış bəzək əyalarında görürük. Ümumiyyətlə, istər Xocalı-Gədəbəy mədəniyyətinə, istərsə də antik dövr abidələrində kifayət qədər zoomorf təsvirli və formalı maddi nümunələr tapılıb və tapılmaqdadır. Elə muzeyin arxeoloji kolleksiyası da bu qəbildən olan tapıntılarla zəngindir.

---

[17] Quluzadə N., Ağayev G. Şirvanın bədii metalı (Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunun Nərgizava və Mollaisaqlı materialları əsasında). Bakı, 2012, 104 s.

[18] Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində. Bakı: Elm, 2000, s. 146-151

Beləliklə, Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji kolleksiyasında yer almış Dolanlar nekropolunun tapıntıları əsasən metal tərkibli əşyalardan ibarət olub, e.ə. I minilliyə aid olduğunu ehtimal edirik. Bu əşyalar aid olduqları dövrün quruluşu, məişəti, sənətkarlığı, hərb sənəti, əlaqələri, ideologiyası və digər sahələri barədə müəyyən məlumatları daşıyırlar. Ümumi sayı 92 ədəd olan həmin kolleksiya nümunələri hələ keçən əsrdən bu günə kimi bəzi tədqiqat əsərlərinin əşyavi mənbəyi rolunda çıxış edir. Məhz əşyavi mənbə kimi əhəmiyyətinə görə Dolanlar tapıntılarının bir qismi muzeyin elmi ekspozisiyasının və müddətli sərgilərin daimi eksponatlarındandır.

Kolleksiyanın tərkibi	**Cəmi**	**Bütöv**	**O cümlədən, zoomorf**	**fraqment**
Asmalar	6	6	1	--
Bəzəklər	4	4	1	--
Bilərziklər	24	19	1	5
Boyunbağılar	2	2	--	--
Dingələr	5	2	--	3
Lövhəvari bəzəklər	17	8	--	9
Muncuqlar	2	2	--	--
Qolbaqlar	6	6	--	--
Silah	8	7	--	1
Üzük	3	3	--	--
zınqırov	9	8	--	1
Qab	1	1	--	--
Gəm	1	1	--	--
Saxsı, sümük, şüşə	4	--	--	4
Yekun	92	69	3	23

Səfiyeva İnarə
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi işçisi

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyində Qarabağ mədəniyyətinin təbliği

Qarabağ Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Qurulduğu dövrdən bəri Şuşa şəhəri təhsil, elm və mədəniyyət mərkəzi kimi

məhşurlaşmışdı. Qarabağda milli mədəniyyətimizin dahiləri olan böyük şəxsiyyətlər yetişmişdir. Bu mədəniyyətin təbliğində muzeylərin çox böyük rolu var. Belə muzeylərdən biri də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyidir. Muzey bir əsrə yaxındır ki, Azərbaycan mədəniyyətini, incəsənətini, ədəbiyyatını təbliğ edir. Azərbaycan tarixində, mədəniyyətində və ədəbiyyatında silinməz iz buraxan, təhsilə ziyalılığa böyük qiymət verən Şuşa ədəbi mühitinin yetirdiyi dahi şəxsiyyətlərin həyat və yaradıcılığı Azərbaycan Ədəbiyyatı Muzeyinin zallarında işıqlandırılır. Nizami muzeyində Şuşada dünyaya göz açmış bir çox şair və yazıçıların yaradıcılığı ilə yanaşı şəxsi əşyaları da təqdim edilmişdir. Muzeydə Q.Zakirin, X.Natəvanın, M.M.Nəvvabın, F.Kəminənin, F.Köçərlinin, N.Vəzirovun, Ə.Haqverdiyevin, H.Məmmədquluzadənin və Ə.Cavanşirin xatirə əşyaları qorunur.

XVIII əsrdə Azərbaycanda müstəqil xanlıqların təşəkkül tapdığı bir zamanda Cavanşirlər nəslinin nümayəndəsi olan Pənahəli xan Cavanşir (1693-1763) Qarabağ xanlığının əsasını qoymuşdur. Pənahəli xan qısa bir vaxtda Qarabağ tayfalarını öz ətrafında birləşdirib və xanlığını qorumaq üçün mübarizələr aparmalı olmuşdur. Müharibələrə gedərkən düşməndən qorunmaq üçün üzərində "Qurani-Kərim"dən ayələr yazılmış "gülləkeçirməz köynək" geyinərdi. Nizami muzeyinin ekspozisiyasında Pənahəli xan Cavanşirə (1693-1763) məxsus olan "gülləkeçirməz köynək" nümayiş olunur. Köynək kətan parçadan tikilmişdir. Bu köynək tamaşaçıların, xüsusən də ərəb əlifbasını və dilini bilənlərin hədsiz marağına səbəb olur. Köynəyin üzərindəki müxtəlif formalı həndəsi fiqurların içində, haşiyələr arasında və digər hissələrdə zərli hərflərlə "Qurani Kərim"dən surələr, ayələr yazılmışdır. Köynəyin aşağıya doğru yarıya qədər yaxası və ətrafı sumağı rəngdə zərif çiçək və yaşıl yarpaq şəkilləri ilə bəzədilmişdir. "Bismillah Rəhmani Rəhim" haşiyə boyu ornament kimi təkrarlanır. Köynəklə eyni zamanda Panahəli xana aid dövlət fərmanları da zalda təqdim edilmişdir[1]. Fərmanlar fars dilindədir, üzərində möhürü də var. Fərman Qarabağda sakin olan ərəb ailələrinin vergidən azad olunması haqındadır.

Ekspozisiyada Şuşa ədəbi-mədəni mühitin nümayəndəsi ictimai satiranın əsasını qoymuş şair Qasım bəy Zakir haqqında geniş məlumat almaq olar. O, 1784-cü ildə Şuşa şəhərində dünyaya göz açmış, əsilli nəcabətli ailədə doğulmuşdur, Cavanşirlər nəslindən olan, Qarabağ xanı Pənahəli xanın doğma qardaşı Kazım bəyin nəticəsidir. O, həm lirik, həm də epik növdə əsərlər yazmış,

[1]Rəhimova G. Nadir xatirə əşyası. AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi. Risalə.№2. B.2005. s.325.

satira ustası kimi tanınmışdır. Şairin təqdim olunduğu zalda heykəltəraş Südabə Əliverdiyevanın yaratdığı Zakirin büstü, rəssam Əmir Hacızadənin çəkdiyi Şuşa mənzərəsinin fonunda şairin portreti və şeirlərinə, satiralarına çəkdiyi səkkiz illüstrasiyalarla yaxından tanış olub XIX əsrin abu-havasını duymaq olar.

XIX əsrdə Qarabağda yaşamış görkəmli şəxsiyyətlərdən biri Mir Möhsün Nəvvabdır (1833-1918) Qeyri-adi istetadı ilə adını Azərbaycan tarixinin səhifələrinə yazmış Mir Möhsün Nəvvab görkəmli alim, pedaqoq, istedadlı şair, rəssam, xəttat, astronom və musiqi nəzəriyyəçisi olmuş, Qarabağ mədəniyyəti tarixinə öz imzasını yazmışdır. O, bir sıra əsərlərinin əlyazmalarına verdiyi tərtibatları və çəkdiyi illüstrasiyalar onun rəssam kimi istedadını qabarıq şəkildə nümayış etdirmiş. Nəvvab Azərbaycan klassik musiqisi ilə yanaşı Şərq musiqisini də dərindən mənimsəmişdir. Bir musiqişünas kimi qələmə aldığı "Vüzühil ərqəm" ərəbcədən "Rəqəmlərin izahı" traktatı Muğam öyrənən və ifa edənlər üçün əvəzolunmaz vəsait idi. Nəvvab ilk dəfə olaraq dəsgah terminindən istifadə etməklə, o vaxtlar Qarabağda məlum olan altı dəsgahın adını çəkmiş. Nəvvabın əsərləri içərsində Qarabağın bir çox orta əsr şairlərinin həyatı və yaradıcılığından bəhs edən "Təzkireyi-Nəvvab" toplusu ədəbiyyat tarixi üçün gözəl nümunədir. Ekspozisiyada rəssam Mürsəl Nəcəfovun yağlı boya ilə çəkdiyi şairin əksi və vitrinlərdə onun əlyazmaları təqdim edilmişdir. Eyni zalda onunla bir dövrdə yaşamış və "Məclisi Fəramuşanda" M.M.Nəvvabla deyişmiş Fatma xanım Kəminənin portretini görmək olar. Rəssam Güllü Mustafayeva tərəfində çəkilmiş portretdə onun xoş siması, mülayim baxışları tamaşaçıları sanki poeziya dünyasına dəvət edir. O, Fəna təxəllüsü ilə şeirlər yazan, Şuşa şairlərinin seçmə əsərlərinin əlyazma toplusunu tərtib edən, mahir xəttat, Qarabağ xanının yanında katıb işləmiş, Mirzə Beybabanın istəkli qızı olmuş. Fatma xanım Kəminə atası kimi poeziya vurğunu olub, klassik Şərq poeziyasının ənənəvi mövzularında azərbaycan və fars dillərində qəzəllər qələmə alıb və bir çox aşıq şeirlərinə nəzirələr yazmışdır.

190 il öncə gözəl mənzərəli Şuşa şəhərində dünyaya göz açan Azərbacan poezyasının parlaq nümayəndəsi Xurşidbanu Natəvanın istedadının üzə çıxmasında Şuşa ədəbi mühitinin əvəzsiz rolu olmuşdur. Qarabağ xanlığının sonuncu hakimi Mehdiqulu xanın qızı Xurşidbanu öz səadətini, xoşbəxtliyini qəlbinin səsində axtarmış, zəmanəsinin, mühitinin mənasız yasaqlarına qarşı üsyan qaldırmış, sevən, duyan könlünü, çırpınan, alışan ürəyini şeirə, nəğməyə, rəsmə çevirmişdir. O, gənc yaşlarından şairliklə yanaşı rəssam kimi də özünü sübut edir, daha çox real rəssamlıq nümunələri yaratmağa meyillilik göstərirdi. Şairənin şeirləri kimi, incə rəsm əsərləri, eləcədə əlvan naxışlı, zərif butalı

tikmələri nəinki Qarabağda, Azərbaycanda, bütün Şərq ölkələrində böyük şöhrət qazanmışdır. Natəvanın istedadının böyüklüyündən xəbər verən əvəzsiz sənət nümunələri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində məhəbbətlə qorunub saxlanılır və nümayiş edilir. Muzeyə təşrif buyuran saysız hesabsız qonaqlar şairənin şəxsi əşyalarını seyr edib, sanki Xan qızının ocağına isinirlər. Ekspozisiyanın mərkəzində heykəltaraş Ömər Eldarovun yaratdığı, başında kəlağayı, əynində çəpkən və uzun tuman olan Natəvanın heykəli zala xüsusi gözəllik verir. Xalq rəssamı Oktay Sadıqzadə tərəfindən çəkilmiş şairənin daxili və xarici gözəlliyini tərənnüm edən portreti heç bir tamaşaçının diqqətindən yayınmır. Onun əşyaları muzeyə 1957-ci ildə qohumları tərəfindən hədiyyə edilmişdir. X.Natəvan poeziya tariximizdə lirik şairə kimi məşhurdur. Ekspozisiyada zərif bir qrafinqabı təqdim edilmişdir. Bu şairənin özü tərəfindən hazırlanmışdır. Qrafinqabı əlvan muncuqlarla hörülmüş qızılgül və çiçəklərlə bəzədilmişdir. Ekspozisiyada diqqəti cəlb edən digər əşyalardan biri də Natəvan xanıma məxsus Quran qabıdır. Quran qabı məxmər parçadan, üz hissəsində iki cərgə kənarları metal düymələr və mərkəzində isə şərid ilə səkkizuclu ulduz tikilmişdir. Tamaşaçılarda böyük maraq doğuran eksponatlardan biri də XIX əsrə aid dörd şahmat fiqurudur. Bu fiqurlar qədim çin işi sayılır, fil sümüyündən hazırlanmışdır[2]. Bir zamanlar Qafqazda səyahət zamanı Bakıda olarkən fransız yazıçısı A.Dümanın hədiyyəsidir.

Nizami muzeyinin bir neçə məkanında Xan qızının heykəllərini görmək olar. Hələ 1943-cü ildə Nizami Muzeyinin binasının fasadı üçün heykəltətaş Yelizaveta Tripolskaya Natəvanın heykəlini böyük məharətlə yaratmış və digər beş heykələr ilə bir yerdə Muzeyin binasının xarici görnüşünə xüsusi gözəllik bəxş etmişdir.

Xurşidbanu Natəvanla eyni zalda Şuşa ədəbi-mühitində tərbiyə almış ədəbiyyatımızın xəlqi, realist istiqamətində inkişafında milli azadlıq, maarifçilik ideyalarını təbliğ edən dramaturq, publisist Nəcəfbəy Vəzirov haqqında da məlumat almaq olar. O, M.F.Axundzadənin yaradıcılıq ənənələrini davam və inkişaf etdirərək silsilə komediyalar yazmış, “Müsibəti-Fəxrəddin” əsəri ilə ədəbiyyatımızda faciənin əsasını qoymuşdur. Dramaturq dram əsərlərində yaşadığı dövrün insanlarının mürəkkəb, psixoloji həyat tərzini təsvir etməyin bariz nümunələrini yaratmışdır. Ekspozisiyada ədibin rəssam B.Mirzəzadənin çəkdiyi portreti və şəxsi əşyaları təqdim olunmuşdur. Vəzirovun əşyaları arasında məişətdə istifadə olunan Qarabağ tikmələridir ki, bunlardan heybə,

[2] Xurşidbanu Natəvan. Xatirə fondları.Kataloq. B. 1997. s.10

kanva tikmə, üzəri naxışlı torbalar, yun cecim, ipəkdən məxmər örtüyü, həmçini dramaturqun mərmərdən stolüstü saatını, büründən hazırlanmış büllur vazını, gümüş qəndqabını və şüşə suqabını görmək olar.

Qarabağın Cavanşirlər nəslinin tanınmış şəxsiyyətlərindən biri də tarixçi, şair Əhməd bəy Cavanşırdir. O, Qarabağ xanlığının qurucusu Pənahəli xan Cavanşirin nəticəsi, həmçinin Həmidə xanım Məmmədquluzadənin atasıdır. Əhməd bəy Peterburqda Pavlov kadet korpusunda təhsil almış və rus dilini mükəmməl öyrənmişdir. Vətənə qayıtdıqdan sonra Kəhrizli kəndində yeni qaydalar yaratmaq istəyir. Elə buna görə də, xalq arasında "Urus Əhməd bəy" ləqəbini almışdır. 1866-cı ildə Əhməd bəy Zərgər, Dilağarda, Yağləvənd və Şahsevən camaatının köməyi ilə Arazdan çıxarılan suyu məşhur Gavur arxı ilə birləşdirmək kimi çətin bir məsələni həll etmiş. Əhməd bəy tarix və ədəbiyyata aid kitabları mütaliə etməyi xoşlayır, müxtəlif əsərlər yazır və tərcümə edirdi. O, "Əsari-Əhməd bəy Cavanşır" adlı şeirlərin, "Türk zərb məcmuəsi" adlı folklor toplusunun və "1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığının siyasi vəziyyətinə dair" adlı tarix kitabının müəllifidir. 1884-cü ildə Tiflisdə rus dilində qələmə aldığı "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair" əsərində Qarabağın siyasi tarixini ardıcıllıqla izah etmiş, maraq kəsb edən hadisələrin şərh və izahını vermişdir. Vitrində onun şəxsi əşyalarından xanalı naxışlarla bəzədilmiş tütün qutusu, qara rəngli dəridən pul kisəsi, ebonitdən təsbehi, dəri qabda sümükdən darağı, əl çantası,tiyəsi poladdan dəstəsi əyri gümüş qılıncı,qılıncın tiyəsinin bir tərəfində qızıl suyu ilə "Allah Məhəmməd Əli və Həsən ,Hüseyn" digər tərəfdə "Vəqf Hüseyn İbn Əli və Həzrət Abbas 162" sözləri yazılmış və adı həkk olunmuş möhür nümayiş edilir. Eyni vitrində Cəlil Məmmədquluzadənin həyat yoldaşı, Əhməd bəyin qızı Həmidə xanımın da şəxsi əşyalarını görmək olar. Həmidə xanımın gözlüyü, üzüyü, mis qazanı, mis camı, ipık kalağayısı, tirmə örtüyü,əl çantası, C.Məmmədquluzadə və Həmidə xanımın nigah kağızı (1907) ekspozisiyada təqdim edilmişdir. Bu eksponatlar muzeyə Həmidə xanımın nəvəsi A.P.Davatdarova tərəfindən hədiyyə olunmuşdur[3].

Şuşanın dıgər görkəmli şəxsiyyəti, Qori müəllimlər seminariyasında təhsil alan Firudin bəy Köçərli çoxcəhətli zəngin fəaliyyəti ilə Azərbaycan ədəbiyyatının tarixinə dəyərli töhfələr vermişdir. Azərbaycanda təhsil sisteminin milli əsaslar üzərində qurulması onun maarifçi ziyalı kimi gördüyü ən mühüm işlərdən biri idi. Firudin bəy Köçərli "Azərbaycan ədəbiyyatı" əsəri ilə müasir azərbaycan ədəbiyyat tarixinin əsasını qoymuş və gələcək tədqiqatçılar üçün

[3] Məmmədquluzadə C. Xatirə fondu. Kataloq. B. 1996. s. 32.

geniş imkanlar yaratmışdır. Eyni zamanda"Balalara hədiyyə" adlı əsəri ilə Azərbaycan uşaq ədəbiyyatnın bünövrəsini qoymuşdur. Onun böyük zəhməti nəticəsində 1918-ci ilin sentyabrında Qori müəllimlər seminariyasının Azərbaycan bölməsinin tədris ləvazimatı və avadanlığı Qazaxa köçürülmüş. Alimin bütün işlərində ona nəcib həyat yoldaşı, dövrünün ziyalı və vətənpərvər qadınlarından olan Badisəba xanım yaxından kömək etmişdir. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyində alimin zəngin arxivi movcuddur. Muzeyin ekspozisiyasında ədəbin və həyat yoldaşı Badisəba xanımın şəxsi əşyaları ilə yaxından tanış olmaq olar. Ona və həyat yoldaşına məxsus olan əşyalar 1959-cu ildə Badisəba xanımın bacısı qızı Müqəddinisə Vəkilova tərəfindən muzeyə təqdim edilmişdir. Bunların içərisində üstü sədəfləörtülü, üzərində kibrit qutusu, kağız, qələm, mürəkkəb şüşəsi saxlamaq üçün bənd olunmuş yazı dəsti,üzəri ornamentli sarı metaldan zərif naxışlarla bayraq, şir, pələng,ilan, yarpaq və başqa fiqurlar, orta hissədə isə fiqurlu kiçik lövhə içərisində bəzəkli "F.K." hərifləri həkk edilmiş, üzərinə qara meşan uzlük çəkilmiş Firudin bəy Köçərliyə məxsus albomdur. Albomun içərisində 64 orijinal foto şəkil olmuş. Bu albom ona 1895-ci ildə İrəvan gimnaziyasının tələbələri tərəfindəm hədiyyə edilmişdir. Foto şəkilllər muzeyin fondunda qorunur. F.Köçərliyə həsr olunmuş guşədə həmçini şamdan, gümüş çəngəl, eynək, yun şal, boz rəngdə, astarı bez, qara satindən yaxalıq altı tikilmiş vəznəli çuxa, parça qalstuk, pambıq parçadan tikilmiş arxalıq, əl yaylığı, bir cüt toxunma əlcək, yan-yana tikilmiş üç parçadan ibarət, üzərində qırmızı, yaşıl və mavi zolaqlı cecim, taxtadan mücrü, pul qabı, əl çantası, qara rəngdə məxmər parça , üstünə təkəlduz üslubunda çiçək şəkilləri toxunmuş boxça və s. nümayiş edilir[4].

Qarabağda dünyaya gəlmiş görkəmli realist və demokratik yazıçı Əbdürrəhmbəy Haqverdiyevdir. O, öz məşhur sələflərinin ədəbi ənənələrinin layiqli davamçısı və geniş erudisiyaya malik müasir dünyagörüşlü maarifpərvər ziyalı kimi çoxşaxəli fəaliyyət göstərmişdir. Ustad sənətkarın dramaturji irsi ölkəmizdə teatr mədəniyyətinin yüksəlişinə yol açmışdır. Ədibin canlı həyat lövhələri ilə son dərəcə zəngin hekayələri nəsr tariximizin ən qiymətli nümunələri sırasında xüsusi yer tutur. Onun da muzeydə şəxsi əşyaları, orijinal fotoları sərgilənir. Ona məxsus xatirə əşyaları 1954-1961-ci illərdə həyat yoldaşı Yevgeniya Osipovna və qızlığı Fatma xanım Məlikabbasova tərəfindən muzeyə verilmişdir. Zalın mərkəzində ədibin mebel dəsti nümayiş olunur. Bu oturacaq

[4] Köçərli F. Xatirə fondu. Kataloq. B. 2003. s. 14-20

dəsti qeyri-adi, Avropa üslubunda hazırlandığı üçün tamaşaçıları daha çox cəlb edir. Onun qarşısında dayanıb bir müddət ona tamaşa edirlər. Şüşə vitrində isə yazıçının məişət əşyaları stolüstü elektrik lampası, boz mərmərdən mürrəkəb dəsti, şamdan, sədəflə bəzədilmiş teatr durbini, əzgil ağacından olan üzərində xırda mıxlarla "1910 Ə.Haqverdiyev" yazılmış, bürünc tellər ilə naxışlanmış əsası, fincanı, kömür ütüsü, tütün kisəsi qoyulmuşdur. Tütün kisəsinin üzərini ədibin anası əlvan muncuqlarla gül rəsmi ilə bəzəmişdir. Ə.Haqverdiyev istedadlı yazıçı olmaqla yanaşı çox gözəl musiqi duyumu da var idi. Vitrində onun qoz ağacından düzəldilmiş fleytası da nümayiş etdirilir[5]. Ədib Azərbaycanın ilk dirijoru olmuşdur. Bu şəxsi əşyaların hər biri canlı tarixdir. Cansız əşyalar olmasına baxmayaraq sahibləri haqqında dolğun məlumat verirlər.

Qarabağda dünyaya göz açan bu sənət xadimləri Azərbaycan mədəniyyətinin və ədəbiyyatının ədəbi fikir korifeylərinə çevrilmişlər. Onların ədəbi irsi və xatirə əşyaları Nizami muzeyində qorunur, təbliğ edilir və nəsillərdən-nəsillərə çatdırılır.

Şəmsi Fəridə
Milli Azərbaycan Tarixi Muzeyinin
İnnovasiyalar və təhsil proqramları şöbəsinin müdiri

Xilas olunmuş xəzinə

XX əsrin sonu – XXI əsrin əvvələri dünya tarixinə hərbi münaqişələrlə müşayiət olunan böyük dəyişikliklər dövrü kimi düşdü. Təəssüf ki, bu siyasi proseslər Azərbaycandan da yan keçməyib.

Son iki yüz ildə Azərbaycan ərazilərinə göz dikmiş Ermənistan sərvətimizin bir hissəsini ələ keçirib saxtalaşdıraraq milli varlığımıza qənim kəsildi. Qarabağ bölgəsi nəinki Azərbaycanın, həmçinin dünya ölkələrinin bir çox bölgələrindən fərqli olaraq daha qədim tarixə malik olan bir ərazidir. Məhz Qarabağ bölgəsi özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə zəngindir. Dünyanın ən böyük muzeylərində Qarabağ xalq sənətkarlığının timsalında Azərbaycan xalq sənətkarlığının bir çox gözəl nümunələri ilə rastlaşmaq olur. Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyananın, Romanın, Berlinin, İstanbulun, Tehranın

[5] Haqverdiyev Ə. Azərbaycan Elm və Mədəniyyət xadimləri. Kataloq. B. 2000. s. 58-61

zəngin muzey kolleksiyalarına baxarkən orada Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görmək olar. Müharibə insanların ölümü, insan yaradıcılığının çoxəsrlik nəticələrinin məhv edilməsidir. Qarabağ müharibəsi eyni zamanda tarixə, yaddaşa, mədəniyyətə qarşı müharibə idi. Dağlıq Qarabağ münaqişəsi Respublikamızda muzeylərin inkişafına ağır zərbə vurmuşdur.

Qarət edilmiş muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünyaşöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər eksponatlar toplanıb. Belə ki, qədim sikkələr, qızıl və gümüş məmulatları, nadir və bahalı daşlar, xalçalar və digər əl işləri ilə zəngin olan Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspozisiyasına daxil olan əşyalar Ermənistana daşınıb. Bununla da Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozub.

Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə 22 muzey talan edilərək dağıdılmışdır. Bu istiqamətdə fəaliyyətinin məqsədyönlü qurulmasında ümummilli lider Heydər Əliyev YUNESKO və onun ixtisaslaşdırılmış təşkilatı olan IKOM-dan bütün zəruri tədbirlərin görülməsinə tələbkarlıqla yanaşırdı. Qarabağ muzeylərinə qarşı erməni vandalizminin dünya ictimaiyyətinə çatdırılmasında İKOM-un Milli Komitəsinin 1995-ci ildə beynəlxalq təşkilatlara ünvanladığı məktubda belə deyilirdi: "Cəbrayıl və Füzuli tarixşünaslıq muzeylərinin, Ü.Hacıbəyovun ev muzeyinin, Azərbaycan Xalçası Dövlət Muzeyi Şuşa filialının ən qiymətli əşyaları xilas edilsə də keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi yerlə-yeksan edilmiş, dünya şöhrətli Kəlbəcər və Laçın tarix-diyarşünaslıq muzeylərinin qiymətli və nadir əşyaları Ermənistana daşınmışdır. Şuşa şəhərinin tarixi muzeyinin, Dövlət Qarabağ tarixi muzeyinin, Azərbaycan vokal sənətinin əsasını qoymuş böyük müğənni Bülbülün, görkəmli musiqiçi və rəssam Mir Mövsun Nəvvabın xatirə muzeylərinin, Ağdam, Qubadlı, Zəngilan tarix-diyarşünaslıq muzeylərinin fondları da qarət edilmişdir. Qurban Pirimovun xatirə muzeyi, Rahib Məmmədov adına döyüş şöhrəti muzeyi də dağıdılmışdır"

İşğal olunmuş ərazinin yalnız iki muzeyi – Cəbrayıl və Füzuli tarix-diyarşünaslıq muzeyləri öz eksponatları çıxara biliblər.

İkinci Dünya müharibəsindən sonraki illərdə Cəbrayıl rayonunda Tarix-Diyarşünaslıq Muzeyi yaradılmışdı. "Stalin muzeyi" adı ilə fəaliyyət göstərən muzey 1953-cü ildə ləğv edildi və muzeyin eksponatları demək olar ki, məhv

olundu. Bir müddət sonra tarix-diyarşünalıq muzeyi yaradıldı. Amma fəaliyyət ictimai əsasında davam edirdi[1].

Cəbrayıl rayon tarix-diyarşünaslıq muzeyi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin 1980-ci ilin yanvar ayında imzaladığı "Azərbaycanın rayonlarında tarix – diyarşünaslıq muzeylərinin yaradılması haqqında" xüsusi qərarından sonra – 1980-ci il dekabrın 8-də fəaliyyətə başladı. Muzeydə rayonun tarixinə dair arxeoloji və etnoqrafik materiallar, toxuculuq məmulatları, dekorativ sənət nümunələri, qədim və orta əsrlərə aid məişət əşyaları, fotolar, sənədlər, rayonun flora və faunasını əks etdirən eksponatlar yer alırdı Yarandığı dövrdən bəri muzey xalqımızın maddi və mənəvi mədəniyyət nümunələrinin toplanmasında, təbliğində, onların sonrakı nəsillərə çatdırılmasında əvəzsiz rol oynamışdır. Bu müddət ərzində muzeyə Cəbrayıl rayonu ilə bağlı 19 minə yaxın eksponat toplanmışdır. Ekspozisiya üç bölmədən ibarət idi – təbiət bölməsi, qədim dövr, sovet dövrü. Təbiət bölməsi rayonun florası, faunası haqqında geniş və hərtərəfli məlumat verirdi. Qədim dövr bölməsində müxtəlif qazıntılar nəticəsində tapılmış qədim əmək və döyüş ələtləri, qab nümunələri, qab qalıqları, taxta və mis qablar nümayiş olunurdu. Qarabağ xalça məktəbinin Cəbrayıl qrupuna aid olan xovlu və xovsuz xalça nümunələri, dekorativ tətbiqi sənətin digər bir qolu olan gümüş qadın və kişi kəmərləri, qadın döş və baş bəzəkləri, müxtəlif etnoqrafik alətlər – araba, vəl, qədim qadın milli geyimləri və s. muzeyin dəyərli eksponatları sırasında idi. Sovet dövrü muzeyim ən geniş bölməsi idi. Burada Azərbaycanda Sovet hakimiyyətinin qurulması illərinə aid ayrı-ayrı stendlər, fotolar, sənədlər və digər əşyalar nümayiş etdirilirdi. 23 avqust 1993-cü il Cəbrayıl rayonu erməni qəsbkarları tərəfindən işğal olunana qədər muzey işlərini davam etdirir, müxtəlif tədbirlər keçirilirdi.

Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeyi yaradılarkən onun ilk direktoru Fazil Quliyev olmuşdur. Muzeyin araya-ərsəyə gəlib ilk illərdə formalaşmasında böyük – ziyalı bir insanın – Şəhriyar Quliyevin əvəzsiz xidməti olmuşdur. O, demək olar ki, Fazil Quliyevlə, sonralar isə muzeyin direktoru Tariyel Abbaslı ilə birlikdə Cəbrayılı qarış-qarış gəzmiş, muzeyin zənginləşməsini təmin etmişdir.

Ermənilərin Cəbrayılı işğal etmələrinə baxmayaraq muzeyin direktoru Tariyel Abbaslının böyük səyləri nəticəsində on yeddi min (17000) muzey eksponatından 15.659-u müharibədən xilas edilib. İki minə (2000) qədər eksponatın ölçülərinin (məzar daşları, ornamental naxışlı daş abidələr, kənd

[1] Eyvazova Y. "Muzey işi – mədəni quruculuğun mühüm amili", "Xalq" qəz.17 iyul 2011– ci il

təsərrüfatı alətləri) böyük olması onların çıxarılmasına imkan verməyib. Muzey əşyalarıda Cəbrayıldan məcburi köçkün olmuş insanlar kimi bir neçə şəhər və rayonu gəzib. İlk olaraq muzeyin eksponatları Beyləqana, oradan isə Cəlilabad rayonuna gətirilmişdir.

Bir müddət keçdikdən sonra xilas edilmiş muzey əşyaları Azərbaycan Respublikası Mədəniyyət naziri Polad Bülbüloğlunun imzaladığı 06 oktyabr 1996-ci il taixli 231 N–li əmrə əsasən Cəlilabad rayonundan Bakı şəhərinə gətirilmişdir. Həmin əmrə əsasən isə Cəbrayıl Tarix–Diyarşünaslıq Muzeyi üçün Muzey Mərkəzində Azərbaycan İstiqlal muzeyində yer ayrılmışdır. Hal–hazırda muzeyin eksponatları İstiqlal muzeyinin fondlarında 18 mindən artıq eksponat mühafizə edilir. Muzeyin nadir xalça nümunələri, qadın bəzəkləri və.s İstiqlal muzeyinin "Qarabağ" zalında "Xilas olunmuş xəzinəmiz" adı ilə yerli və xarici qonaqlara nümayiş etdirilir[2].

Cəbrayıl rayon Tarix – Diyarşünaslıq Muzeyinin eksponatları sırasında eyni zamanda Qarabağ xalçalarının toxunması zamanı istifadə olunan "atıcı yaya" və "toxmağ"ı göstərmək olar. Azərbaycan Xalça muzeyinin yeni binasının açılışı zamanı həmin eksponatlar Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin əmri ilə nümayiş etdirilməsi məqsədi ilə müvəqqəti olaraq Xalça muzeyinə verilmişdir.

Müxtəlif dövlət əhəmiyyətli tədbirlər zamanı isə Cəbrayıl rayon Tarix – Diyarşünaslıq Muzeyinin eksponatlarından ibarət sərgilər nümayiş etdirilmişdir. 2008-ci il Biləsuvar rayonunda Cəbrayıl rayonunun sakinləri üçün inşa edilmiş qaçqın şəhərciyinin açılışı zamanı sərgi təşkil edilmişdir. Həmin sərgidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak etmişdir.

Azərbaycan xalqının çoxəsrlik tarixinin, məişətinin, zəngin adət-ənənələrinin sübutu olan maddi-mədəni mirasının zaman keçdikcə, saxlanma şəraitindən asılı olmayaraq, təmirə, bərpaya ehtiyacı yaranır. 2020-ci ildə Cəbrayıl Rayon Tarix-Diyarşünaslıq Muzeyindən Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə daxil olan 25 ədəd eksponat qısa müddətdə bərpa olunaraq muzeyə təhvil

Bakı-2022, s.394

verilib. Bərpa olunan muzey sərvətləri əsasən çeşidli məqsədlər üçün istifadə edilən saxsı və metal qablar, musiqi alətləri, geyim nümunələri və müxtəlif toxuculuq məmulatlarından ibarətdir[3].

Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyi 1981-ci ildə yaradılmışdır. Muzeyi yaradan və ilk direktoru Bəhram Məmmədli olmuşdur. İşğaldan əvvəl muzeydə Füzuli rayonunun arxeoloji, etnoqrafik, təbiətini və tarixini əks etdirən foto-materiallar və sənədləri (cəmi 9 mindən çox eksponat) toplanılmışdı.

1993-cü ildə rayonun işğalı zamanı muzeyin eksponatlarının 6000-ə qədəri xilas edildi. Azərbaycanın o dövrkü mədəniyyət naziri Polad Bülbüloğlunun eksponatların müharibə bölgəsindən təxliyyə edilməsi haqqında məlum əmrinə əsasən muzeyin direktoru Bəhram Məmmədlinin göstərdiyi fədakarlıq nəticəsində Füzuli rayon Tarix–Diyarşünaslıq Muzeyinin eksponatları Azərbaycan İstiqlal muzeyinə müvəqqəti saxlanılması məqsədi ilə təhvil verilmişdir. Beləliklə, 1994-cü ildə muzeyin fəaliyyəti Bakıda Azərbaycan İstiqlal muzeyində bərpa edilmişdir. 2014-cü ilin iyun ayına qədər Azərbaycan İstiqlal muzeyində Füzuli rayon Tarix – Diyarşünaslıq Muzeyinin 6200 – dən artıq eksponatı mühafizə edilirdi. Mühafizə edildiyi müddətdə muzeyin eksponatları müxtəlif dövlət əhəmiyyətli tədbirlər zamanı sərgilənirdi. Muzeyin xilas edilmiş eksponatlarının kiçik bir qismi İstiqlal muzeyinin ekspozisiyasında yerli və xarici qonaqlar üçün nümayiş etdirilirdi. 2006-cı ildə Füzuli Tarix Diyarşünaslıq Muzeyinin Bala Bəhmənli kəndində filialı yaradılmışdı, orada 500-dən artıq eksponat, əsasən mis və saxsı qablar nümayiş olunurdu.

2014-cü il Füzuli rayonunun ermənilərdən azad edilmiş Horadiz şəhərində

yeni muzey binası inşa edildiyi üçün Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin 18 iyun 2014-cü il 362 №-li əmrinə əsasən Füzuli rayonu Tarix – Diyarşünaslıq muzeyinin eksponatları Horadiz şəhərindəki fəaliyyət göstərən muzeyə təhvil verilmişdir. Muzeyin eksponatları sırasına saxsı qablar, müxtəlif fotolar, sənədlər, məcburi köçkünlük zamanı verilmiş qidaların qabları və.s daxildir. 28 avqust 2014-cü ildə Azərbaycan

[3] muzey-servetleri-emb.az/ru/content/1778

Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Horadiz şəhərində muzeyin yeni binasının açılışı oldu.

Cəbrayıl və Füzuli Tarix-Diyarşünaslıq Muzeyləri Bakıda öz fəaliyyətlərini davam etdirirdilər. Muzey fondunun zənginləşdirilməsi üçün yerli əhali tərəfindən etnoqrafik, numizmatik əşyalar, xalça və tikmələr, əmək müharibəsi qəhrəmanları haqqında sənədli materiallar muzeyə hədiyyə edilmişdi. Cəbrayıl muzeyi əməkdaşları 2016-cı il aprel döyüşləri zamanı işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində tez-tez tədbirlər, sərgilər keçirir. Muzey işçiləri mütamadi olaraq rayon sakinləri ilə görüşlər keçirir, sərgilər təşkil edirlər, respublikada keçirilən müxtəlif konfranslarda və seminarlarda iştirak edirlər.

Beləliklə, 2006-cı ildə Azərbaycan İstiqlal Muzeyində 18 may – Muzeylər Gününə həsr olunmuş "Xilas olunmuş xəzinə" adlı sərgi açılmışdır. Sərgidə ermənilər tərəfindən işğal olunmuş Cəbrayıl və Füzuli rayonlarından çıxarılan eksponatlar – qadın bəzəkləri, kişi geyiminin atributları, qab-qacaq və məişət əşyaları nümayiş etdirilmişdir. Sərgi şəhər ictimaiyyətində, əhalinin bütün təbəqələrində böyük maraq doğurmuşdur, belə ki, bu eksponatlar ilk dəfə nümayiş olunurdu.

2018-ci il noyabrın 27-də Muzey Mərkəzinin sərgi qalereyasında "Bizi yurdumuza qaytarın" adlı sərgi-konfrans keçirildi. Sərgidə ilk dəfə olaraq Kəlbəcər, Xocalı, Ağdam, Laçın, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan və Şuşa tarix-diyarşünaslıq muzeylərinin fondlarına məxsus ekponatlar nümayış olundu. 2019-cü il fevralın 9-da Azərbaycan İstiqlal Muzeyində jurnalist Elxan Salahovun "Qanlı Kaha" kitabının tədimatı və imza günü keçirilib.

2021-ci il dekabrın 11-də Azərbaycan Milli İncəsənət Muzeyində Cəbrayıl rayon tarix-diyarşünaslıq muzeyinin yaranmasının 40 illik yubileyinə həsr olunan tədbir keçirilib və muzeyin eksponatlardan ibarət sərgi təşkil olunmuşdur.

Bu illər ərzində Qarabağın mədəni irsinin qorunub saxlanması məsələləri ölkə rəhbərliyinin diqqət mərkəzində olub. Ümummilli lider Heydər Əliyev tərəfindən bu sahə üzrə müəyyənləşdirilmiş prioritlər Heydər Əliyev Fondunun həyata keçirdiyi müxtəlif layihələrdə öz təzahürünü tapır. Qarabağ muzeyləri və onlara məxsus eksponatlar haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılması istiqamətində hazırlanan hesabat və arayışların, çap olunan kitab-kataloqların, audio-video yazıların çox böyük əhəmiyyəti vardır.

Qarabağın işğal altında olmuş muzeylərinin aqibəti ilə bağlı məsələlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də daim diqqət mərkəzindədir. Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı səmərəli və uzaqgörən siyasət nəticəsində Qarabağı azad etmək üçün 27 sentyabr 2020-ci ildə başlanmış Vətən müharibəsi nəticəsində işğal olunmuş ərazilər erməni terrorçulardan azad olunmuş və bu gün Azərbaycan bayrağı həmin ərazilərdə dalğalanır. Bu gün Qarabağ ərazisində bərpa işləri uğurla həyata keçirilir və hazırda bütün mədəni dəyərlərin öz tarixi vətənlərinə qaytarılması istiqamətində işlər aparılır.

Şiriyev Tural
Milli Azərbaycan Tarixi Muzeyinin Azərbaycan tarixinin tədqiqi və təqdimi şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d., dosent.

XIX əsrdə Azərbaycan qadınının ictimai və mədəni həyatda rolu: Xurşidbanu Natəvan nümunəsi

Azərbaycan xalqı müsəlman Şərqində qadınların ictimai-siyasi və mədəni həyatda mövqeyi baxımından özünəməxsus ənənələrə malik olmuşdur. Tariximizə nəzər saldıqda, patriarxalizmin nisbətən güclü olduğu orta əsrlərdə, bir çox hallarda, qadınların da ictimai və mədəni sahələrdə mühüm rol oynadıqları aydın görünür.

Əvvəlki dövrlərdə olduğu kimi, XIX əsrdə də Azərbaycanda qadınların ictimai vəziyyəti, əsasən, hüquqsuzluq səciyyəsi daşıyırdı. Lakin Azərbaycan qadını ailədaxili münasibətlərdə, ailənin idarə olunmasında və hətta el-obada özünün "ağbirçək" obrazını həmişə qoruyub-saxlaya bilmişdir. Etnoqrafik materiallar da təsdiq edir ki, keçmişdə ailə icmasında (böyük ailədə) qadınlar arasında hüquq və vəzifələri, əmək bölgüsünü müəyyən edib, onların yerinə yetirilməsinə nəzarət etmək, qarşılıqlı münasibətləri tənzimləmək ağbirçək ananın üzərinə düşən əsas vəzifələrdən olmuşdur.

Tarixi ədəbiyyatda iddia edilir ki, bu dövrdə qadının ailə və ictimai vəziyyəti daha çox islam ehkamlarının çoxəsrlik təsirinə əsaslanmış[1], bu da, nəticə etibarilə, qadının sosial-iqtisadi cəhətdən, eləcə də ailə-nikah, əmlak münasibətləri və digər məsələlərdə kişilərlə bərabər olmasına mane olmuşdur. Bizə görə isə, islamın qadına münasibəti, ictimai münasibətlərdə onun yeri tarix boyu hətta müsəlman cəmiyyətlərində belə yanlış anlaşılmış və əslində, iqtisadi münasibətlərdən irəli gələrək ənənəyə çevrilən patriarxallığın təsiri altında qadına münasibət islam hüququnun tələbi kimi qəbul edilmişdir. Aparılan tədqiqatlar da göstərir ki, XIX əsrdə ailədə qadının vəziyyəti, əsasən, onun istehsal təsərrüfatında iştirakından asılı idi[2]. Təsadüfi deyildi ki, şəhər qadınlarından fərqli olaraq[3], təsərrüfatda çalışan kənd qadınları "daha sərbəst hərəkət edirdilər"[4]. Qeyd edək ki, şəhərdə belə vəziyyət, əsasən, sosial baxımdan aşağı təbəqələrə mənsub olan qadınlara aid edilə bilər ki, şübhəsiz, təhsilsizliyin də buna ciddi təsiri olmuşdur: kasıb zümrəyə mənsub qadınların işgüzar, bacarıqlı və bir çox hallarda, yaradıcı qabiliyyətə sahib olmalarına baxmayaraq, təhsilsizlik, şəxsiyyət azadlığına mane olan köhnəlmiş adət və ənənələrə aludəçilik onların mübariz ruhda yetişmələrinə imkan verməmişdir[5]. Görünür, xanədanlığa mənsub olan ailələrdə isə qadınların geniş ictimai, mədəni, hətta siyasi dünyagörüşünə malik olmalarının başlıca səbəbi onların, ilk növbədə, yüksək təhsil almaları və saray mühitində yaşamaları ilə bağlı olmuşdur.

Keçmişdə olduğu kimi, XIX əsrdə də Azərbaycan qadını öz ictimai-siyasi və mədəniyyət sahəsindəki fəaliyyətinə görə şöhrət qazanırdı. Bu dövrdə öz aparıcı mövqeyinə görə seçilən Həcər xanım, Xurşidbanu Natəvan, Aşıq Pəri, Gülgəz xanım, Həmidə xanım və başqaları Azərbaycan tarixində fəxrlə yad edilir.

Qeyd edək ki, XIX əsrdə Azərbaycanda tanınmış qadın şəxsiyyətlərin rolu araşdırıldıqda ictimai və mədəni sahələrdə onların daha çox önə çıxdığı müşahidə olunur. Bu dövrün qabaqcıl qadınları arasında siyasi xadimlərlə yanaşı, şairlər və incəsənət adamları da çoxluq təşkil edirlər. Onların sırasında dövrünün tanınmış

---

[1] П.Н.Ягодынский П.Н. Экономический быт государственных крестьян Западной части Бакинского уезда Бакинской губернии. МИЭБГКЗК, т.I, Тифлис, 1886, s. 165.

[2] Q.Ə.Qeybullayev. Azərbaycanlılarda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri). Tarixi etnoqrafik tədqiqat. I hissə, B., 1994, s. 113.

[3] Н.Ф.Дубровин. История войны и владычества русских на Кавказе, Том I, кн.2, СПб, 1871, s.366.

[4] А.К.Алекперов. Исследования по археологии и этнографии Азербайджана. Баку, Изд. АН Азербайджана, 1960, s.125.

[5] G.İ.İbrahimova. XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti. Siyasi elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2010, s.71-72.

ictimai və mədəniyyət xadimi, şair və xeyriyyəçi kimi böyük şöhrət qazanmış Xurşidbanu Natəvanın xüsusi yeri vardır.

Xurşidbanu Natəvan 1832-ci ildə Şuşada, Qarabağ xanı Mehdiqulu xanın ailəsində anadan olmuşdur. Saray mühitində böyüyən və xalq arasında "Xan qızı" adı ilə şöhrət qazanan Natəvan dövrünün bir sıra alim və ustad sənətkarlarından dərs almış, yüksək elmi bilik əldə etməklə yanaşı, təsviri incəsənət və bədii tikmə sənətinin sirlərinə də yiyələnmişdir. Qeyd edək ki, Natəvanın əl işlərindən ibarət olan kolleksiya (tikmə və paltar nümunələri) hazırda MATM-ın Etnoqrafiya fondunda qorunur[6].

Natəvanın ustadları arasında bibisi Gövhərnisə (Gövhər Ağa) xanımın adı xüsusi qeyd olunur[7]. Atasının ölümündən sonra Qafqaz canişininin təzyiqi ilə[8] dağıstanlı Xasay xan Usmiyevlə uğursuz ailə həyatı qursa da, bu evliliyə görə bir müddət Tiflisdə yaşamalı olan Natəvan şəhərin qabaqcıl mədəni mühitinin təsiri altında incəsənətin bir çox sahələrindəki bacarığını inkişaf etdirmək imkanı əldə edir[9]. Bunu da qeyd edək ki, yaşadığı mühitin yaratdığı imkanlardan faydalanmağı bacaran Natəvan rus və gürcü mədəni birliklərinə qoşularaq, bu xalqların dillərini də öyrənir[10].

Həyat yoldaşı Xasay Usmiyevin fəaliyyəti ilə əlaqədar onunla birgə bir çox şəhərlərdə yüksək vəzifəli dövlət adamları, mədəniyyət xadimləri və alimlərlə görüşlərdə iştirak edən Natəvan 1858-ci ildə Bakıda fransalı Aleksandr Düma ilə tanış olur və onların arasında səmimi dostluq münasibəti yaranır. Həmin görüş zamanı Natəvan A.Düma ilə şahmat oynamış və ona qalib gəlmişdir. Dümanın şairəyə bağışladığı şahmat fiqurlarından bir neçəsi hazırda N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində, bir neçəsi isə R.Mustafayev adına Dövlət İncəsənət Muzeyində qorunur. A.Düma "Qafqaz səfəri" yol qeydlərində Natəvanın da ona hədiyyə etdiyi əl işləri haqda söhbət açır və bunu yüksək qiymətləndirir[11].

---

[6] "Xurşid Banu Natəvan – 180". Kataloq. Bakı, 2012.
[7] G.İ.İbrahimova, s.81.
[8] M.T.Nuriyeva. "Nigarinin ideya-məslək ortağı Xasay xan Usmiyevin XIX əsr Qafqaz-Azərbaycan ədəbi-mədəni mühitində yeri", III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumu materialları (Red. F.Xəlilli və M.Haqverdioğlu), Şamaxı, 2017, s.65-66.
[9] Xurşidbanu Natəvan. Əsərləri. Tərtib edən və ön sözün müəllifi: Bəylər Məmmədov. Bakı, 2004, s.7-10.
[10] R.Məmmədli. Tariximizin fəxri: Qadın hökmdarımız Natəvan / Xurşidbanu Natəvanın anadan olmasının 180 illiyi münasibəti ilə, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsi, Bakı, 2012, s.6.
[11] A.Düma. Qafqaz səfəri. Bakı, 2014, s.72.

Xurşidbanu Natəvan ədəbi fəaliyyətlə də məşğul olmuş, XIX əsrdə Qarabağda yeni ədəbi ənənələrin meydana gəlməsinə öz töhfəsini vermişdir. XIX əsrin ikinci yarısında yazılı ədəbiyyatda aşıq poeziyası ilə yanaşı, qəzəl şeiri də geniş yayılır və qəzəl şairlərinin sayı getdikcə çoxalırdı. Bununla əlaqədar olaraq həmin dövrdə Qarabağda təşkil edilən "Məclisi-üns" ədəbi məclisi 1872-ci ildən etibarən Natəvanın hamiliyinə keçdikdən qısa müddət sonra məclisin şöhrəti təkcə Qarabağa deyil, başqa şəhərlərə də yayılmağa başladı və üzvlərinin sayı 30-a çatdı. Məclis çox vaxt Natəvanın evində təşkil edilir və bəzən ziyafət şəklində keçirdi[12]. Natəvan öz şeirlərində bəzən fərdi duyğulardan məhəbbət tərənnümünə, şəxsi şikayətdən ictimai şikayətə keçir. Onun lirikasında yalnız özünün fərdi duyğuları deyil, Azərbaycan qadınının hüquqsuzluğu və talesizliyi ifadə olunurdu.

Dövrün incəsənət sahəsində də Natəvanın müəyyən xidmətləri olmuşdur. Natəvan həm də öz dövrünün realist rəssamlarından idi. Natəvanın indiyə qədər mühafizə edilən albomda[13] yer alan rəsm və nəqşləri onun istedadlı rəssam olduğunu göstərir[14]. Bu rəsm və nəqşlər lalə, qərənfil kimi müxtəlif güllərin, qovaq ağaclarının, Şuşaya aid ümumi bir mənzərənin, Şeyx Şamil sarayının şəkillərindən ibarətdir. Bu şəkillər mücərrəd məzmunlu əsərlərdən fərqli olaraq, canlı təbiət və konkret əşyanı əks etdirən realist incəsənət nümunələridir.

Natəvan nəcib, səxavətli bir şəxs kimi yoxsullara əl tutmağı da öz ictimai vəzifəsinin əsas hissəsi hesab edirdi. O, 1872-ci ildə İsa bulağından Şuşa qalasına su kəməri çəkdirmiş və şəhərin əhalisini su ilə təmin etmişdir. Aleksandr Düma Bakıdan Şıx kəndində yerləşən və sonralar Bibiheybət adlandırılan məscidə çəkilən daş yol haqda məlumat verərək, onu Xasay xanın adına bağlasa da[15], tədqiqatçılar yolun məhz Natəvanın təşəbbüsü ilə çəkildiyini yazırlar.

Həm siyasi, həm də mədəni sahədə yüksək bacarığa malik olan Xurşidbanu Natəvan Qarabağ xanlığının son varisi kimi başladığı ömür yolunda müxtəlif çətinliklərlə üzləşməsinə baxmayaraq, təhsili, geniş dünyagörüşü və yaradıcı istedadı sayəsində Azərbaycan tarixində "güclü qadın" obrazını yarada bilmiş, sonrakı dövrlərdə Azərbaycan qadınlarının ictimai və mədəni həyatda fəal iştirakı üçün bir örnək olmuşdur.

Beləliklə, araşdırma nəticəsində məlum olur ki, XIX əsrdə Azərbaycanda qadının cəmiyyətdəki statusu, bir qayda olaraq, onun ictimai-mədəni

---

[12] F.Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 2017, s. 436-437.
[13] Albom AMEA Əlyazmaları fondunda saxlanılır (inv. №3269).
[14] F.Qasımzadə, s. 442.
[15] A.Düma, s.80.

münasibətlərdə, sosial həyatda rolundan asılı idi. Odur ki, cəmiyyətin müxtəlif təbəqələri arasında qadının patriarxal adətlərdən asılılığı bu baxımdan fərqlənirdi.

Yusifova Nardanə
Milli Azərbaycan Tarixi Muzeyi.
Təsviri materiallar fondunun müdiri, m.ü.f.d., dosent

Qarabağ abidələri tanınmış rəssamların fırça yaddaşında (fond materialları əsasında)

Hər bir xalqın tarixini təsdiqləyən mənbələrin sırasında müxtəlif materiallardan inşa edilmiş memarlıq tikililərinin xüsusi yeri vardır. Çoxəsrlik tarixə və özünəməxsus maddi mədəniyyətə, bədii ənənələrə malik olan Azərbaycanın memarlıq abidələri ilə zəngin olması danılmazdır. Bənzərsiz memar təxəyyülünün sayəsində ərsəyə gətirilmiş belə tikililərin zamanın müxtəlif sınaqlarına davam gətirənləri də var, bu çətin sınaqlardan çıxa bilməyənləri də. Azərbaycanlıların qürur qaynağına çevrilmiş belə abidələrin görkəmini zamanında rəng və cizgilərdə bədiiləşdirə bilən sənətkarlar olmasaydı, bu gün onlar haqqında yalnız dillərdə dolaşan xatirələri yada salmaqla kifayətlənərdik.

Azərbaycanda sovet hakimiyyəti illərinin başa çatmasından sonra abidələrin bərpası və qoruması xüsusi olaraq dövlət qayğısı ilə əhatələndi və bu prosesdə iştirak edən memar- rəssamlar müxtəlif memarlıq tikililərinə həm də bədii münasibət göstərməyə başladılar. Zaman-zaman görülən və sonda zəngin bədii irsə çevrilən həmin nümunələrin çoxu bu gün muzeylərdə mühafizə olunmaqdadır. Bu məqalədə isə bilavasitə Milli Azərbaycan Tarixi Muzeyinin "Təsviri materiallar" fondunda toplanmış sənət nümunələrinin reproduksiyaları və onların elmi-bədii şərhi yer almaqdadır.

Milli qürur saxlancımız kimi dəyərləndirilən memarlıq abidələrimizə əhatəli maraq göstərənlər arasında ilk əvvəl rus rəssamı İvan Şeblıkinin (1884-1947) fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Məlumat üçün bildirək ki, Qafqazşünas kimi də tanınan İvan Şeblıkin Azərbaycana 1928-ci ildə gəlmişdi. Onu Bakıya, respublikada tarixi və mədəniyyət abidələrinin geniş tədqiqinə və bərpa işlərinə başlanması ilə əlaqədar dəvət etmişlər. Kazan incəsənət məktəbinin bədii-memarlıq şöbəsini bitirən İ.Şeblıkin, Şimali Qafqazda zəngin təcrübə

topladıqdan sonra Bakıya göndərilmiş və burada bir neçə il fəaliyyət göstərmişdir.

İ.Şeblıkin yaradıcılığını əks etdirən yüzlərlə əsərləri içərisində Qarabağ ünvanlı əsərləri də az deyil. Rəssamın Qarabağın müxtəlif bölgələrindəki məşhur tikililərin tarixi-bədii tutumunu yüksək dəyərləndirməsi bir-neçə maraqlı qrafika əsərinin yaranmasına gətirib çıxarmışdır. Bu mənada onun kağız üzərində sulu boya ilə işlədiyi və tarixə köçürə bildiyi Horadizdə türbə (TM 226); Əskəran galası (TM 234); Laçında daş abidə (TM 386) və s. kimi dəyərli abidələrinə göstərdiyi bədii münasibəti xüsusilə vurğulamaq lazımdır.

TM 226. Horadizdə türbə. 30x42. Rəssam İ.P.Şeblıkin. Kağız. Sulu boya.

TM 234. Əskəran galası.32x43.5. Rəssam İ.P.Şeblıkin. Kağız. Sulu boya.

TM 386. Laçın. Daş abidə. 32x44. Rəssam İ.P.Şeblıkin. Kağız. Sulu boya.

Qarabağın memarlıq abidələri nəinki xarici rəssamları, hətta Azərbaycan rəssamlarının da daima diqqət mərkəzində olmuşdur. Tanınmış memar-rəssam

Qəzənfər Əlizadənin (1910-1994) də sulu boya ilə görüntüyə gətirdiyi dini obyektin təsvirində sənətkarın daşlarda ifadə etdiyi gözəllik qaynaqlarını bədiiləşdirmək istəyi duyulandır. Etiraf edək ki, abidəyə özünəməxsus rəssam yanaşmasını ilk növbədə onun seçdiyi durma və görmə nöqtəsinin qanunauyğun, tam şəkildə seçilməsi əsas şərtlərdən sayıla bilər.

TM 463. Şuşa. İbrahimin galası. Ölçüləri:14.5x20. Rəssam Q.Əlizadə. Kağız. Sulu boya.

TM 467. Şuşa. Ölçüləri:16.5x22.5. Rəssam Q.Əlizadə. Kağız. Sulu boya.

Digər bir azərbaycanlı sənətkar, çoxşaxəli yaradıcılığa malik tanınmış memar, rəssam, əməkdar incəsənət xadimi Elturan Avalovun da təbiətin rəngləri ilə memarlıq abidələrinin forma- məzmun vəhdətini ümumiləşdirən əsərləri böyük maraq doğurur. Xalqımızın milli dəyərlərini rənglərin dili ilə dünyaya çatdıran memar- rəssam (1940-cı ildə Bakıda anadan olmuşdur) əsərlərini müxtəlif janrlarda yaratmaqla, Azərbaycanın qədim şəhərlərininin bir çoxunun memarlıq abidələrini əks etdirən qrafika əsərlərini dəqiq texnika ilə işləyə bilmişdir.

Sayı yüzlərlə olan və tuş-pero texnikasında ərsəyə gətirilən qrafik lövhələrdən bir neçəsi də Təsviri materiallar fondunda mühafizə olunmaqdadır. Onlar tam

olaraq memarlıq abidələrinin rəsmləşmiş formalarıdır. Öz xüsusi dəst-xətti və ifadə üslubu ilə fərqlənən E. Avalovun əsərlərindəki hər bir motiv qeyri-adiliyi ilə seçiləndir. Əsərlərini cizgi improvizələri ilə gerçəkləşdirən rəssam, həm də müxtəlif formalı cizgilərlə milli memarlıq tikililərinə duyğulandırıcı estetik tutum verə bilmişdir. Onun Şuşa "Yuxarı Gövhər ağa məscidi, yenə də Şuşa "Qara Böyük xanım qəsri." və s. əsərləri bunun əyani nümunəsidir. Burada günəşin şüalarının qarşısını almağa çalışan buludların, minarələri səmaya ucalan məscidin, meydanın mərkəzinə yaraşıq verən daş bulağın və bütün bu gözəlliyə rəng qatan yaşıllığın bədii şərhində müəllifin nümayiş etdirdiyi sənətkarlıq, qrafik ustalıq əvəzolunmazdır.

E.Avalov milli memarlıq ənənələrimiz əsasında ucaldılan orijinal biçimli tikililəri, rəng və cizgilərlə ifadə edərək əsərlərində bədiiliyi tarixi həqiqətlər əsasında göstərə bilmişdir. Odur ki, tamaşaçı onların hər biri ilə üz-üzə, göz-gözə qalanda təkcə rəssamın yaradıcı təxəyyülünə heyranlığını ifadə etmir. Həm də daşlarda hifz olunan bənzərsiz gözəlliyi dərindən duymaqla, yaddaqalan biçimdə bədiiləşdirməyə nail olan rəssamın sənətini yüksək dəyərləndirə bilir. Rəssamın Təsviri materiallar fondunda mühafizə olunan əsərləri, həm də inşa edildiyi məkanın unikallığı və çoxəsrlik tariximizin son bir neçə yüzilliyini rənglərin dili ilə catdıra bilir. Onun əsərləri içərisində hətta dünyada "Şərqin konservatoriyası" və "Azərbaycanın musiqi beşiyi" kimi tanınan və qala-şəhər statusunu almış Şuşanın özünəməxsus landşaftı qrafik olaraq silsilə şəklində yer almaqdadır. Bu günün aktual mövzusu ilə səsləşən tarixi əsərləri ilə də memar-rəssam, Qarabağ həqiqətlərini yaradıcı təxəyyülü və geniş təfəkkürü vasitəsilə təbii gözəlliyə əlavə rəng qata biləcək maraqlı tikililər kimi ərsəyə gətirə bilmişdir.

TM 666. Şuşa. Qara Böyük xanım qəsri. Ölçüləri: 45x37,5. Tuş. Rəssam E.Avalov.

Eyni estetik təəssüratı onun böyük şövqlə yaratdığı "Şuşa. Qara Böyük xanım qəsri.", "Şəki. Məhəllə məscidi.", "Ordubad. Cümə məscidi", "İsmayıllı rayonu. Baskal kənd məscidi.", "Bakı.Şirvanşahlar sarayının ponoram görüntüsü", və b. əsərlərindən də almaq mümkündür.

Ağ-qara cizgilərlə memarlıq abidələrinin və onların ayrı-ayrı elementlərinin, təbiət motivlərinin daşıdığı estetik qaynağını üzə çıxarmaq, onun cəlbediciliyinə nail olmaq nə qədər çətin olsa da, Elturan Avalov bunu yüksək sənətkarlıqla həyata keçirmişdir. Rəssam, hər bir əsərində tətbiq etdiyi çoxsaylı cizgi improvizələrinin və incəliklərinin bədii bütövlüyünə məhz cizgilərin ritminin və axıcılığının bir araya gətirilməsi sayəsində nail olmuşdur. Tanınmış alim, memar, rəssam Q.Əlizadənin "Şuşa" və "Şuşa.İbrahimin qalası" əsərləri xalq arasında necə gözəl qarşılanmışdırsa, memar. Rəssam E. Avalovun da "Şuşa silsilələri" lövhələri də "Musiqi beşiyi" kimi tanınan Şuşa abidələrinə sənətkarın özünəməxsus münasibətləri kimi dəyərləndirilə bilər. E.Avalovun sulu boya ilə çəkilmiş bütün əsərlərdə şəhərin panoram xarakterli təqdimatı tamaşaçı gözü qarşısında qədim yurdun həm də müxtəlif görüntülərini canlandıra bilir. Hər bir tikililərin ətrafında təbiətlə səma arasında olan möhtəşəmlik, həmin obyektlərin nə qədər əhəmiyyətli olduğunu duymağa imkan verir**.** Nəinki, yerli, eləcə də xarici rəssamların Qarabağa, xüsusilə də Şuşaya həsr olunmuş əsərlərinin bədii həllində yığcam rəng çalarlarını göstərməyi və yaranan koloritlə təbiətin ruhunu əyaniləşdirə bilmişlər**.**

Rəssamların yaradıcılığında yuxarıda haqqında söz açdığımız memarlıq abidələri ilə yanaşı, zamanında ölkəmizin müxtlif bölgələrində inşa olunmuş digər bədii-tarixi əhəmiyyətli tikililərin də təsvirləri də yer almaqdadır. Bu təsvirlərdə də müxtəlif funksiyalı tikililərinin unikal memarlıq həlli ilə yanaşı, daşıdıqları bədii-estetik dəyərlərinin üzə çıxarılması istəyi duyulmaqdadır.

Beləliklə, Təsviri materiallar fondunda, eləcə də Azərbaycanın digər muzeylərində və şəxsi kolleksiyalarında qorunan unikal memarlıq əsərlərinə həsr olunmuş rəsm əsərləri günümüzün problemi ilə səsləşir. Belə ki, mənfur erməni qəsbkarları tərəfindən bilərəkdən tamamilə məhv olunan və ya qismən dağıdılan memarlıq tikililərinin yenidən inşa edilməsində və ya bərpasında belə əsərlərin ölkəmizin keçmişini gələcəyə aparmaqda kömək olacağı danilmazdır. Yüksək dəyərə sahib belə əsərlər həm tarixi, həm də bədii əhəmiyyət daşımaqla bərabər, bütövlüyünü itirmədiyi vaxtlarda çəkilməsələr də, malik olduqları görkəmlərinin yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından çox qiymətlidir.

Агакишиева Тахмина
Доцент. Доктор философии по философии.
Ведущий научный сотрудник Национальная Академия
Наук Азербайджана Институт Философии

Карабах - Азербайджан: Эстетическая значимость материально-культурного наследия на освобожденных территориях Азербайджана

«Уничтоженный памятник, библиотека или произведение искусства – невозместимая потеря, поскольку в каждой из этих ценностей воплотились дух и история того или иного народа»
Витторио Маинетти
(профессор Женевского Университета)

Материально - Культурное Наследие…! Какие ассоциации возникают в нашем сознании, когда мы думаем или же сталкиваемся со словом материально – культурное наследие? Что подразумевается под этим названием? Почему важно помнить памятники культуры? Почему нас должны волновать нападения на культурные ценности во время вооруженных конфликтов? Вот видите, сколько вопросов зарождается при произношение этого слова.

Автор данной темы, призывает читателей на минуту представить себе Нью-Йорк без статуи Свободы; Индию без Тадж–Махала; Париж без собора Парижской Богоматери; Пекин без Запретного города Гугун; Афины без Парфенона; Гизу без пирамид; Москву без Покровского Собора и т. д..

Актуальность работы заключается в том, что любые потери материально-культурного наследия повлияют на все области жизни как сегодняшнего, так и будущих поколений, могут привести к духовному обнищанию, разрыву исторической памяти, деградации общества в целом. Вопрос сохранения материально - культурных и исторических памятников является одной из важнейших задач для любого развитого государства. Их сохранение необходимо для поддержания идентичности различных наций и человеческой цивилизации в целом. Однако, на сегодняшний день вопрос сохранения культурных объектов становится одной из жгучих глобальных проблем, несмотря на достаточно развитое нормативное пространство, их целостность и доступности не может гарантировать никто. В ходе человеческой истории материальные культурные ценности являлись уязвимыми по ряду причин, не утративших сегодня своей актуальности, но

изменивших масштабы: Вооруженные конфликты, как и в предыдущие эпохи, ставят под угрозу существование памятников. Однако на сегодняшний день она приобрела совершенно иное измерение; Стихийные бедствия. Страшным бедствием для архитектурных памятников во все эпохи являлись пожары и землетрясения. Сегодня природные аномалии и катаклизмы; Революции, смена политических режимов и т.д.

Важно подчеркнуть, что современное общество осознает широкие возможности материально - культурного наследия, необходимость его сохранения и эффективного применения, как один из важных ресурсов мировой цивилизации. Необходимо подчеркнуть, что сохранять культурное наследие - обязанность воюющих сторон. Но, увы….! Слишком часто мы видим, как в ходе войн уничтожается историческое наследие, произведения искусства и т.д.. Возникает вопрос: каким образом можно добиться защиты для культурных памятников? Возможно ли, восстановить то, что разрушено?

Автор в работе предпочитает делать акцент на эстетические параметры МКН на освобожденных территориях Азербайджана, на сегодняшний статус памятников культуры и на защиту МКН во время войны. Конечно, Карабахской войны! Говоря о Карабахской войне очень важно жирным шрифтом подчеркнуть состояние материально – культурного наследия во всех смыслах слова. В условиях оккупации Арменией 20 процентов территории Азербайджана были разрушены вандалами в рамках преднамеренного разрушения объектов культурного наследия, составляющие эстетическую ценность. Можно сказать, что оккупанты на освобожденных территориях Азербайджана вели колоссальную войну с культурным наследием. Естественно, больно отметить в каком состоянии находиться наше материально - культурное наследие на освобожденных территориях Азербайджана. Уничтожение такого достояния приводит к более серьезным последствиям: под удар попадают наша история, наше достоинство — все то, что делает нас людьми. Одним словом уничтожение МКН — посягательство на нашу человечность. Теперь перейдем к самому главному, к самому больному нам месту.

КАРАБАХ…!!! Автор статьи вот таким *образом* проявляет свое чувство к содеянным: *«Я видела много разрушенных домов в моем родном городе Шуша, но самую сильную боль испытывала на руинах наших древних памятников. Мне казалось, что погибла часть меня самого и, что я уже*

никогда не буду прежним, так – как каждый камень пропитан историей, воспоминанием людей. Нападения на культурные ценности — это не просто разрушение чего – либо. На освобожденных территориях Азербайджана, вооруженными формированиями Армении, на каждом шагу можно встретить следы вандализма. Наряду с морально-психологическим ударом нанесенным населению, э*то удар в самое сердце Карабах. Но вместе с тем* я безмерно счастлива, что в моем Отечестве высокая мораль и завораживающая духовность пока еще не совсем стерты из социальной памяти нации. Так – как Азербайджан, как мультикультуральная и толерантная страна, обеспечивает защиту всех находящихся на его территории культурных и религиозных памятников - как мусульманских, так и еврейских, и христианских*».*

Следует отметить, что Азербайджан, как страна, пострадавшая от оккупации, чутко подходил к вопросу разрушения культурных памятников не только на наших освобожденных территориях, но и во всем мире, и всегда придавал значение сотрудничеству с ЮНЕСКО в этой области. “Неслучайно, в 2004 году Мехрибан ханым Алиева была удостоена звания посла доброй воли ЮНЕСКО за заслуги в деле сохранения и развития азербайджанской устной народной литературы и национального музыкального наследия. Именно благодаря ее инициативе и поддержке, как в Азербайджане, так и в зарубежных странах были реализованы важные проекты в области охраны культурного наследия, построены школы, реставрированы мечети, церкви, исторические памятники”[1].

Необходимо подчеркнуть, что разрушение МКН на освобожденных территориях Азербайджана и нанесенный им преднамеренный ущерб со стороны армянских вандалов во время оккупации глубоко потрясли не только Азербайджанское правительство, не только граждан Азербайджана, но и иностранцев прибывших в Карабах. Российский журналист и военный эксперт Игорь Коротченко напомнил о разрушениях и преступлениях самой Армении в Карабахе во время 30-летней оккупации: "На территории, которую Армения оккупировала у Азербайджана, она вела себя точно так же, как гитлеровская Германия на оккупированных территориях Советского Союза. Тотальное чудовищное уничтожение городов, поселков, деревень, всей инфраструктуры. По масштабу разрушений Армения даже превзошла

[1]Гаджиев Хикмет. Охрана культурного наследия является общечеловеческим обязательством, которое не может быть использовано ЮНЕСКО в политических целях. http://www.anl.az/down/meqale/vyshka/2021/yanvar/735032.htm

гитлеровскую Германию. Если после германцев оставались остовы зданий, где-то целые здания, то после Армении оказалось разрушено все. Это зафиксировано международными наблюдателями, многочисленными иностранными делегациями, я сам лично посещал Физули, Агдам. Физулинский и Агдамский районы - то, что я там увидел, не поддается никаким описаниям - пейзаж как после атомной бомбардировки"[2].

Специалист по сохранению культурного наследия Корин Вегенер, справедливо отмечает, что ‘’Военные могут сыграть существенную роль в сохранении ценностей во время конфликта, но для этого уже в мирное время необходимо обучать военных специалистов, которые будут непосредственно ответственны за объекты культурного наследия. Нужно, чтобы военные были знакомы с требованиями Гаагской и Женевской конвенций по части охраны и защиты культурных объектов’’[3]. Например, на юге Португалии, около которого находится призывной пункт, призывникам предоставляют специальный день, который они могут провести в музее, чтобы они поняли важность объектов культурного наследия. И тогда, приезжая в другую страну, где происходят военные действия, они перенесут это понимание. Можно привести множество таких примеров. Доводится до внимания, что есть неопровержимые факты и доказательства того, что, несмотря на то, что Армения является государством-членом Гаагской конвенции ЮНЕСКО 1954 года «О защите культурных ценностей в случае вооружённого конфликта» и Парижской конвенции 1970 года «О мерах, направленных на запрещение и предупреждение незаконного ввоза, вывоза и передачи права собственности на культурные ценности», Армения уничтожила, сфальсифицировала и разграбила культурное наследие Азербайджана на некогда оккупированных ею территориях. Хотелось бы, особо выделить, что более половины исторических памятников на переданных Азербайджану территориях во время оккупации разрушены. Конечно, все невозможно перечислить, но автор работы старается информировать о некоторых. Шуша - сердце Карабаха и колыбель азербайджанской культуры. В городе Шуша, армянские оккупанты разрушили множество объектов материально -

---

